Azərbaycan Respublikası
Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi
Azərbaycan İlahiyyat İnstitutu

№ 5, noyabr, 2021-ci il

# İLAHİYYAT

## elmi-publisistik jurnal

Təsisçi:
Azərbaycan İlahiyyat İnstitutu

BAKI - 2021

**Baş redaktor**
i.f.d., dos.
Aqil Şirinov

**Redaktor müavini**
Rəhilə Misirxanova

**Ədəbi redaktor**
Rəna Həsrətova

**Texniki redaktor**
Hilal Ağamoğlanov

**Korrektor**
Elnarə Ağaoğlu

**Redaksiya heyəti**

i.f.d., dos.
Mübariz Camalov

f.f.d.
Mirniyaz Mürsəlov

i.f.d., dos.
Elnurə Əzizova

f.f.d., dos.
Anar Qafarov

f.f.d.
Kövsər Tağıyev

f.f.d.
Əhməd Niyazov

f.f.d., dos.
İlkin Əlimuradov

f.f.d., dos.
Elvüsal Məmmədov

f.f.d., dos.
Əläddin Məlikov

i.f.d., dos.
Namiq Abuzərov

s.f.d.
Asəf Qənbərov

# BU SAYIMIZDA


**Rəsmi guşə**

*Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Şuşada hərbçilər qarşısında çıxışı*...............................4

*Birinci vitse-prezident Mehriban Əliyevanın Zəfər Günü münasibətilə xalqa təbriki*............7

**Təhsil**

**Aqil Şirinov,** *Dünyəvi dövlətdə din təhsili*.........8

**Cəmiyyət və din**

**Əhməd Niyazov,** *Məhəmməd peyğəmbərin əxlaqı: bugündən baxış*...................................12

**Məmmədəli Babaşlı,** *Qlobal mənəvi böhran və İslamın dözümlülük anlayışı*.........................15

**Vüqar Səmədov,** *Kərbəla*..............................18

**Faiq Əhmədzadə,** *Azad təfəkkürün hekayəsi: İbrahim peyğəmbər*..........................................20

**Psixologiya**

**Asəf Qənbərov,** *Uşaqların dini təlim-tərbiyəsinin psixoloji aspektləri*................26

**Vətənpərvərlik**

**Əsədulla Qurbanov,** *Erməni faşizmi*..............30

**Rəhilə Misirxanlı,** *O payız nur yaydı aləmə*......35

**Nərgizxatun Həsənova,** *Keçdi xəyalımdan öz gözəl yurdum*.....................................................37

**Həmidə Həsənova,** *Poladqəlbli, Mübarizbaxışlı Vüqar*............................................42

**Dəyərlərimiz**

**Anar Qafarov,** *Din - mənəvi dəyər kimi*...........44

**Fəlsəfə**

**Ələddin Məlikov,** *İslam fəlsəfəsinin müasir dövrdəki problemləri*..........................................48

**Elvüsal Məmmədov,** *İnsana üç fərqli baxış, yaxud ruh, zəka və bədənmərkəzlilik*................52

**Ədəbiyyat və tərcümə**

**İlkin Əlimuradov,** *Azərbaycan və ərəb dilləri üzrə tərcümə: nəzəriyyə, təcrübə və problemlər*........................................................53

**Şahin Ələsgərov:** *"İslam nasist Almaniyasının siyasətində (1939-1945)" kitabının müəllifi ilə müsahibə*.........................................................57

**Rima Hacıyeva,** *Nizami Gəncəvi yaradıcılığı: Azərbaycandan dünyaya doğan Günəş*...........64

**Baxış bucağı**

**Mirzeynülabdin Əbülfətov,** *Allahın varlığına dair əxlaq dəlili*...................................................67

**Hüseyn Əlizadə,** *Quranda oruc ibadəti*..........71

**Cəlalə Məcidova,** *Təvəkkül*.............................73

**Aytac Əhmədzadə,** *Qədr gecəsi*...................75

**Səkinə Əzizli,** *İslam asanlıq dinidir*.................78

**Elnur Əzizli,** *Quranda təkəbbür haqqında*.........80

**Zümrüd Bağırova,** *Mömin kimə deyilir*...........82

**Şəbnəm Edilova,** *Qurani-Kərimdə Qurban*.....84

**Ramin Novruzzadə,** *İnfaq*................................86

**Fərhad Hadizadə:** *Təqva* ................................88

**Nərgiz Təhməzova,** *İslam qanunlarına görə evlilik*........................................................89

**Dostluq**

*Pakistan-Azərbaycan dostluğunun tarixi*..........91

**Düşüncələr**

**R.İsmayılqızı,** *Mənim Ana dilim, mənim can dilim*... ..............................................................93

# Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Şuşada hərbçilər qarşısında çıxışı

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev noyabrın 8-də Şuşada hərbçilər qarşısında çıxış edib.

***AZƏRTAC*** xəbər verir ki, dövlətimizin başçısı hərbçiləri salamladı və Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev hərbçilər qarşısında çıxış etdi.

### Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin çıxışı

- Əziz hərbçilər, sizi, Azərbaycan Silahlı Qüvvələrinin bütün şəxsi heyətini və bütün Azərbaycan xalqını Zəfər Günü münasibətilə təbrik edirəm. İlk növbədə, xahiş edirəm ki, Vətən uğrunda qəhrəmancasına həlak olmuş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilsin.

Allah bütün şəhidlərimizə rəhmət eləsin.

Bu gün biz Zəfər Gününü Şuşada, Cıdır düzündə qeyd edirik. Bütün Azərbaycan bu şanlı bayramı qeyd edir. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi, tarixi ədaləti bərpa etdi. Biz düşməni doğma torpaqlarımızdan qovaraq tarixi missiyamızı yerinə yetirdik. 44 gün ərzində Azərbaycan Ermənistanın 30 il ərzində qurduğu bütün istehkamlarını, bütün döyüş mövqelərini məhv edərək, Ermənistan ordusunu məhv edərək tarixi Zəfər çaldı. Bu şanlı bayramı xalqımıza siz və sizin kimi on minlərlə hərbçimiz bəxş etmişdir.

İkinci Qarabağ müharibəsi şanlı tariximizin parlaq səhifəsidir. Azərbaycan xalqı bütün gücünü səfərbər edib bu şanlı missiyanı yerinə yetirmişdir. Mən işğal dövründə dəfələrlə deyirdim ki, hər bir Azərbaycan vətəndaşı bu müqəddəs günü öz işi ilə, öz əməli ilə yaxınlaşdırmalıdır. Mən demişdim ki, heç vaxt Azərbaycan xalqı işğalla barışmayacaq və biz işğala son qoymaq üçün bütün gücümüzü səfərbər edib bir nöqtəyə vuraraq düşməni tarixi torpaqlarımızdan qovduq.

2003-cü ildə ilk dəfə Prezident vəzifəsinə seçilən zaman Azərbaycan xalqına müraciət edərək demişdim ki, nəyin bahasına olursa-olsun, biz öz tarixi torpaqlarımızı düşmənin əlindən alacağıq. İstər sülh yolu ilə, istər müharibə yolu ilə və belə də oldu. Uzun illər aparılan sülh danışıqları heç bir nəticə vermədi. Nəticə sıfra bərabər oldu. Əksinə, düşmən daha da azğınlaşmış, qudurmuşdu. Əgər işğalın ilk illərində hələ danışıqlarla bağlı Azərbaycan xalqında və məndə hər hansı bir ümidlər var idisə, son vaxtlar bu ümidlər tamamilə aradan qaldırıldı. Ermənistan və onun havadarları bu işğalı əbədi etmək istəyirdilər. Onlar hesab edirdilər ki, əgər bizim torpağımızı 30 ilə yaxın işğal altında saxlaya biliblərsə, bundan sonra da torpaqları əbədi olaraq işğal altında saxlayacaqlar. Amma səhv etdilər. Onlar bilməli idilər ki, biz heç vaxt bu vəziyyətlə barışmayacağıq. Bilməli idilər ki, biz düşməni torpağımızdan nəyin bahasına olursa-olsun qovacağıq. Buna hazır olmalı idik, xalq olaraq, dövlət olaraq, bütün hazırlıq işləri vaxtlı-vaxtında aparılmalı idi və aparılmışdır.

Bildiyiniz kimi, ordu quruculuğu, hərbi potensialımızın möhkəmləndirilməsi mənim Prezident kimi başlıca vəzifəm idi və təsadüfi deyil ki, mənim Prezidentlik dövrümdə dövlət büdcəmizin əsas xərcləri hərbi məqsədlər üçün nəzərdə tutulurdu. Bu illər ərzində biz güclü hərbi-texniki potensial yaratmışıq. Ən müasir silahlar, sursatlar, texnikalar ölkəmizə gətirilmişdi və hərbçilər tərəfindən bu texnika layiqincə istifadə olundu. İkinci Qarabağ müharibəsi bunun əyani sübutudur. Ordumuzun döyüş qabiliyyəti böyük dərəcədə artdı. Müntəzəm olaraq hərbi təlimlər keçirildi, məşqlər keçirildi və beləliklə, ordumuzun həm texniki təchizatı, həm mənəvi-psixoloji ruhu, həm də döyüş qabiliyyəti böyük dərəcədə artdı.

Biz iqtisadiyyatı gücləndirməli idik və yaxşı başa düşürdük ki, buna nail olmasaq biz düşməni torpaqlarımızdan qova bilməyəcəyik. İlk növbədə, iqtisadi müstəqillik təmin edilməli idi. Çünki əgər biz asılı vəziyyətdə olsaydıq, hansısa başqa böyük dövlətlərdən asılı olsaydıq, heç vaxt bizə imkan verməzdilər ki, biz bu şərəfli missiyanı yerinə yetirək. Ona görə Prezident kimi ilk günlərdən iqtisadi müstəqilliyə hesablanmış bütün lazımi addımlar atıldı və qısa müddət ərzində biz buna nail olduq. Bu gün dünya miqyasında iqtisadi potensial baxımından və iqtisadi sabitlik baxımından Azərbaycan birinci sıralardadır. İqtisadi müstəqillik əldə edilməsəydi, siyasi müstəqillikdən söhbət gedə bilməzdi. Biz asılı vəziyyətdə ola bilərdik. Necə ki, bu gün bir çox ölkələr asılı vəziyyətdədir və məhz



buna görə öz iradəsini ortaya qoya bilmirlər. Siyasi müstəqillik imkan verdi ki, biz bütün tərəfdaşlarla bərabərhüquqlu, qarşılıqlı hörmət, bir-birinin işinə qarışmamaq prinsipləri əsasında münasibətlər qura bildik. Beləliklə torpaqlarımızın azad edilməsi üçün əsas şərtlərdən biri təmin edilmişdi.

Biz Qarabağ həqiqətlərini, işğalla bağlı erməni vəhşiliyini dünya ictimaiyyətinə çatdıra bildik. Birinci Qarabağ müharibəsindən sonrakı ilk dövrdə biz buna nail ola bilməmişdik. Ona görə dünyada müharibə ilə bağlı, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı təhrif edilmiş təsəvvür var idi. Biz bunu aradan qaldırdıq. Gecə-gündüz çalışaraq dünya ictimaiyyətini məlumatlandırdıq, aparıcı beynəlxalq təşkilatlarda uğurlu iş apararaq bizə əl verən və həqiqəti əks etdirən qərar və qətnamələri qəbul etdirdik. Bütün bu işlər bugünkü reallıq üçün hüquqi bazadır. Çünki bu gün biz düşməni torpağımızdan qovandan sonra heç kim bizə irad tuta bilməz. Çünki biz öz torpağımızda uğurlu əməliyyat aparmışıq, biz beynəlxalq hüququ pozmamışıq, müharibə qanunlarını pozmamışıq. Ədalətli müharibə aparmışıq və döyüş meydanında düşməni məğlub etmişik.

Digər önəmli amil gənc nəslin tərbiyəsi ilə bağlı idi. Çox yaxşı başa düşürdük ki, əgər bizim silahımız da, sursatımız da olsa, iqtisadiyyatımız da güclü olsa, beynəlxalq müstəvidə də uğur qazansaq, əgər bizim vətəndaşlar torpaq uğrunda, Vətən uğrunda öz gücünü göstərməsələr, qalan amillərin heç bir əhəmiyyəti olmayacaq. Tərbiyə işlərinə çox böyük fikir verərək gəncləri vətənpərvərlik ruhunda tərbiyə etdik. İmkan vermədik ki, işğalla bağlı olan tarix unudulsun. Qarabağı unutmadıq, əksinə, hər bir kürsüdən bu məsələ ilə bağlı istər ölkə daxilindəki tədbirlərdə, istər beynəlxalq tədbirlərdə daim bu mövzu birinci nömrəli mövzu idi. Gənclər vətənpərvərlik ruhunda yetişərək öz canlarını fəda edib öz qanı bahasına düşmənin əlindən bizim müqəddəs torpaqlarımızı ala bildilər. Bütün bu faktorların vəhdəti bizim Qələbəmizi şərtləndirdi.

Bir daha demək istəyirəm, açıq-aydın görünürdü ki, düşmən öz xoşu ilə torpağımızdan çıxmaq istəmir, daha da azğınlaşır və Azərbaycan xalqının heysiyyətinə toxunmaq üçün qəbuledilməz addımlar atır və bəyanatlar verir. “Qarabağ Ermənistandır” deməklə Ermənistan təkcə danışıqlar prosesinə son qoymadı, eyni zamanda, bu, bizim üçün təhqir idi. Bizim üçün müqəddəs olan, Qarabağın tacı olan Şuşada saxta andiçmə mərasimi keçirmək bizim üçün təhqir idi. O şeytan yuvası, - harada ki, o tədbir keçirilmişdi- qəhrəman Azərbaycan Ordusu tərəfindən müharibə dövründə darmadağın edildi. Şuşaya qondarma qurumun qondarma “parlamentinin” köçürülməsi bizə növbəti dəfə sataşmaq idi. Ermənistan bizi təkəbbürlə, yekəxanalıq göstərərək yeni işğalla hədələyirdi. Biz nə qədər dözməli idik? Kimsə onların dərsini verməli idi, ya yox? Bax, sizin simanızda minlərlə, on minlərlə Azərbaycan gənci, əsgəri, zabiti sinəsini qabağa verərək düşmənə öz yerini göstərdi, düşməni elə vəziyyətə saldı ki, o vəziyyət-



dən o, əbədi çıxa bilməyəcək. Artıq o, məğlubedilmiş xalq və dövlət damğası ilə əbədi yaşayacaq.

Hər il işğal dövründə düşmən bizim üçün müqəddəs olan Şuşada may ayında Şuşanın işğalını bayram edirdi. May ayında bu il bax, burada, Cıdır düzündə “Xarıbülbül” festivalı keçirildi, muğam səsləndi. Avqust ayında Vaqif Poeziya Günləri keçirildi, Vaqifin və digər dahi şairlərimizin şeirləri səsləndi. Artıq bu torpaqlarda, bu səmada bu torpaq üçün, bu səma üçün yad dildə nə mahnı eşidiləcək, nə başqa bir yersiz bəyanat səslənəcək. Bundan sonra bu diyara Azərbaycan dili hakim olacaq, necə ki, tarixdə belə olub. Şuşa məscidində azan səsi, Cıdır düzündə muğam səsi, Vaqifin məqbərəsi önündə şeirlər səslənir. Bax, budur reallıq. Bunu biz əldə etmişik. Bütün beynəlxalq təzyiqlərə rəğmən, bütün hədə-qorxulara rəğmən, xalqımız yumruq kimi birləşdi, Ordunun arxasında dayandı və biz bu tarixi, şərəfli missiyanı yerinə yetirdik. 44 gün ərzində hər gün biz irəli gedirdik, bir gün belə geri addım atmamışıq. Ermənistan ordusunda 10 min fərari ola-ola, Azərbaycan Ordusunda bir nəfər də döyüş meydanından qaçmırdı. Bax, budur bizim milli ruhumuz, budur Azərbaycan ruhu.

Ermənistan işğal dövründə öz ordusu haqqında, guya döyüşkən əsgərləri haqqında mifologiya uydururdu: “yenilməz Ermənistan ordusu”. Bəs hanı bu yenilməz ordu, Ermənistan ordusu? Pərən-pərən oldu, biz bunları cəmi 44 gün ərzində pərən-pərən saldıq. İmdad diləmişdilər, diz çökmüşdülər. Bizim şərtlərimizi qəbul edərək, noyabrın 9-dan 10-na keçən gecə kapitulyasiya aktını imzalayaraq bizim qabağımızda ağ bayraq qaldırdılar.

Biz bütün dünyaya göstərdik ki, kim kimdir. Bütün dünyaya göstərdik ki, biz böyük xalqıq. Xalqımızın böyüklüyünü müharibə dövründə və müharibədən sonrakı bir il ərzində göstərdik. Ermənilər bütün şəhərlərimizi yerlə-yeksan etdilər. Bu yerlərə səfər edən Azərbaycan vətəndaşları, xarici vətəndaşlar gedirlər, məəttəl qalırlar, dəhşətə gəlirlər ki, bu dərəcədə vandallıq ola bilərmi? Bu dərəcədə nifrət ola bilərmi? Bu dərəcədə barbarlıq ola bilərmi? Bunu işğal dövründə ermənilər törədiblər. Bütün binaları sökərək, talayaraq, hətta qəbir daşlarını Ermənistana apararaq bu vəhşiliyi törətdilər. Biz isə müharibə dövründə müharibə qanunlarına riayət etdik, müharibə qanunlarını pozmadıq, özümüzü ləyaqətlə apardıq, necə ki, həyatda və siyasətdə özümüzü ləyaqətlə aparırıq.

Zəfər Günü bizim bayramımızdır. Bu, Zəfər bayramıdır, bu, rəşadət bayramıdır, bu, ədalət bayramıdır, bu, milli qürur, milli ləyaqət bayramıdır. Biz öz ləyaqətimizi bərpa etdik. Bundan sonra müzəffər ölkə və qalib xalq kimi əbədi yaşayacağıq. Bundan sonra Qarabağda və Zəngəzurda əbədi yaşayacağıq. Əgər Ermənistanda hər hansı bir qüvvə bizə xor baxsa, hansısa revanşist meyillərə əl atsa, bizim yumruğumuzu görəcəkdir. Bizim yumruğumuz yerindədir.

Əziz dostlar, əziz Azərbaycan xalqı. Mən sizi bu şanlı bayram münasibətilə bir daha ürəkdən təbrik etmək istəyirəm. Azərbaycan Ordusuna yeni qələbələr, Azərbaycan xalqına yeni uğurlar arzulayıram.

Eşq olsun Azərbaycan Ordusuna, eşq olsun Azərbaycan xalqına. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

* * *

Sonda xatirə şəkilləri çəkdirildi.

# Birinci vitse-prezident Mehriban Əliyevanın Zəfər Günü münasibətilə xalqa təbriki

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində 8 Noyabr – Zəfər Günü münasibətilə paylaşım edib.

***AZƏRTAC*** xəbər verir ki, paylaşımda deyilir:

– Əziz həmvətənlər!

Vətən müharibəsində əldə edilən şanlı Qələbənin birinci ildönümü münasibətilə hər birinizi səmimi-qəlbdən təbrik edirəm!

Sözlə ifadə edə bilmədiyim, daxilimizdə, qəlbimizdə yaşayan hissləri bizə bəxş edən Uca Tanrıya şükürlər olsun. Hər bir azərbaycanlı bu Qələbəni gözləyirdi, hər bir azərbaycanlı haqlı olaraq bu Qələbə ilə fəxr edir!

Müzəffər Ordumuza, qəhrəman əsgər və zabitlərimizə, mərd və qorxmaz, hər zaman sözünün sahibi olan Prezidentimizə "çox sağ olun" deyirəm!

Unudulmaz şəhidlərimizə Allah qəni-qəni rəhmət eləsin. Əyilməz iradəli, torpaq və ləyaqət uğrunda ölümə gedən övladlar böyütmüş ana və atalar qarşısında baş əyirəm.

Azərbaycan xalqı, Azərbaycan vətəndaşı, gözün aydın, başın daim uca olsun!

Biz əl-ələ verib, çətin və şərəfli yolu birlikdə addımlayaraq Qələbə zirvəsinə ucalmışıq! Qalib xalq kimi birliyimizi və müstəqil Azərbaycanımızı qorumaq bizim müqəddəs borcumuzdur! Uca Tanrı Azərbaycan xalqını və Azərbaycanı qorusun!

***Dərin hörmət və sevgilərlə,***
***Sizin MEHRİBAN.***



# Dünyəvi dövlətdə din təhsili

## Dünyəvilik: dinlər və məzhəblərarası münasibətlərdəki çoxəsrlik acı təcrübələrdən çıxarılmış nəticə



**Aqil Şirinov,**
i.f.d.,dos.,
Aİi-nin rektoru

Dinlərin tarixinə nəzər yetirdikdə, dünyada mövcud olan bütün böyük inanc sistemləri daxilində bölünmələri müşahidə edirik. Əslində, insanın bilik əldə etmə prosesi baxımından bu, normal bir haldır. Bilik obyektlə subyekt arasında xüsusi əlaqədir. Deməli, biliyin kəsb edilməsi prosesində obyektlə, yəni bilinənlə yanaşı, subyekt, yəni bilən (insan) də rol oynayır. İnsan hansısa bir obyekt haqqında məlumat əldə etdikdə bu prosesdə zehnində olan əvvəlki biliklər, ümumiyyətlə, onun dünyagörüşü və bu dünyagörüşün formalaşmasını şərtləndirən mənsub olduğu mədəniyyət də iştirak edir.

Bir sözlə, eyni dinə müxtəlif yanaşmaların mövcud olması, yəni dinin tərkibində məzhəblərin və təriqətlərin yaranması təbii hal hesab olunmalıdır. Təəssüf ki, dinlərin tarixi boyunca bu bölünmələrə çox vaxt fikir müxtəlifliyi və zənginliyi prizmasından deyil, ədavət müstəvisindən yanaşılmış, bu isə bəzən, hətta uzunsürən din və məzhəb müharibələri ilə nəticələnmişdir.

Ümumilikdə, Orta əsrlərdə istər Qərbdə, istərsə də Şərqdə dövlətlərin müəyyən bir din və ya məzhəbi rəsmi ideologiya kimi qəbul etdiyini görürük. Bunun nəticəsində isə rəsmi dini ideologiyaya uyğun olmayan dini və ya qeyri-dini qruplar təqiblərə məruz qalmışdır. Bu təqiblər isə çox vaxt acı nəticələrə gətirib çıxarmışdır. Dinlər tarixində bunun nümunələri çoxdur. Bunların ən məşhurlarından biri 24 avqust 1572-ci ildə Parisdə baş vermiş və “Varfolomey gecəsi” adı ilə tarixə düşmüş hadisədir. Həmin gecə və ondansonrakı həftələrdə Fransada minlərlə, hətta bəzi mənbələrə əsasən, onminlərlə protestant öldürülmüşdür (bax: H. H. Leonard. “The Huguenots and the St Bartholomew’s Massacre”. The Huguenots: History and Memory in Transnational Context. ed. Robert J. Bast, Leiden-Boston, 2011, səh. 43-68).

1618-1648-ci illər arasında ilk dəfə katoliklərlə protestantların münaqişəsi kimi başlayan, əksər Avropa ölkələrinin qoşulması ilə böyük müharibəyə çevrilən və tarixdə “Otuzillik müharibə” kimi yadda qalan hadisədə milyonlarla insan ölmüşdür. Bəzi tədqiqatçılar bu müharibə nəticəsində “Müqəddəs Roma İmperiyası”nın əhalisinin 15-20% azalaraq, 20 milyondan 17 milyona endiyini qeyd edirlər (The Thirty Years` War. ed. Geoffrey Parker. London, 2006, səh. 178).

Orta əsrlərdə İslam dünyasında Avropada olduğu kimi, yüzminlərlə insanın ölümü ilə nəticələnən məzhəb mübarizələri olmamış, lakin lokal xarakterli münaqişələr baş vermişdir. Məsələn, tarixi mənbələrdə Bağdadın müəyyən ərazilərində, xüsusən Kərx və Qəlayin bölgələrində şiələrlə-sünnilər arasında insan itkisi və evlərin yandırılması ilə nəticələnən münaqişələrin olduğu qeyd edilir. 349/960, 408/1017, 432/1040, 441/1049, 443/1051, 478/1085, 482/1089, 483/1090, 655/1257-ci illərdə Bağdadda belə hadisələr baş vermişdir (Zəhəbi. Tarix əl-İslam. Thq. Ömər Əbdüssəlam Tədmüri, Beyrut: Darul-kitabil-ərəb, 1407/1987, XXV/232, XXVIII/27; XXIX/231; XXX/5,10; XXXII/27; XXXIII/8, 12; XXXXVIII, 29; İbn Kəsir. əl-Bidayə vən-nihayə. Thq. Əli Şiri, Beyrut: Daru ihyait-turasil-ərəbi, 1408/1988, cild 11, səh. 389; İbn Xəldun. Tarixu İbn Xəldun. Beyrut: Müəssəsətul-ələmi lil-mətbuat, 1391/1971, III/425, 436-37, 477IV/447-449). Bənzər hadisələr hicri 502/1108-ci ildə İsfahanda hənəfilərlə şafeilər, Reydə şiələrlə sünnilər arasında baş vermişdir (İbn Xəldun. Tarixu İbn Xəldun. V/84).

Qeyd etmək lazımdır ki, Kərx kimi mənfi nümunələrdə belə, münaqişələrin genişlənməsinə imkan verilməmişdir. Abbasi-Fatimi və Səfəvi-Osmanlı münaqişələrində məzhəb amilindən istifadə olunsa da, müəyyən lokal hadisələri istisna etsək, şiə və sünnilər arasında bütün İslam dünyasını əhatə edən və Avropada olduğu kimi, ictimai zəmində kütləvi qırğınlarla nəticələnən hadisələr baş verməmişdir. Bu münaqişələr isə istər-istəməz məzhəblərarası qütbləşmələrlə nəticələnmişdir. Müəyyən din xadimlərinin eks-



klüzivist fətvalarının bu qütbləşmələrdə rolu olmuşdur.

Bütün bu acı təcrübələr nəticəsində Qərbdə dövlət və din işlərinin hüquqi müstəvidə bir-birindən ayrılmasına əsaslanan dünyəvilik prinsipi önə çəkilmişdir. Deyə bilərik ki, dünyəvilik istər dinlər və məzhəblər arasında, istərsə də dövlətlə-din arasında çoxəsrlik problemli əlaqəyə bəşərin düşünən zehinlərinin tapdığı ən optimal həll varinatı idi. Məhz bu prinsipin qəbulu nəticəsində bir çox Qərb və Şərq ölkələrində dövlətlə-din, eləcə də müxtəlif dinlər və məzhəblər arasında siyasi və ictimai nüfuz mübarizəsi aradan qaldırıldı. Bu da öz növbəsində, dini zəmində ictimai sabitliyin bərqərar olunmasına və beləcə, ölkələrin inkişafına təkan verdi.

Azərbaycanda da dövlət-din münasibətləri dünyəvilik prinsipi ilə tənzimlənir. Hüquqi dünyəvilik prinsipi ölkəmizdə 1918-ci ildə qurulan və İslam Şərqinin ilk demokratik dövləti olan Azərbaycan Xalq Cümhuriyyəti dövründən qəbul olunmuşdur. 1991-ci ildə müstəqilliyini yenidən qazanan Azərbaycan Respublikası da bu prinsipi qəbul etmiş və dövlətin idarəsində heç bir dini dünyagörüşü əsas almamış, eyni zamanda, insanların öz dinlərini sərbəst yaşamalarını təmin etmişdir.

Şübhəsiz, din, demək olar ki, bütün cəmiyyətlərdə mövcud olan köklü ictimai institutlardan biridir. Bu baxımdan, dünyəvi ölkələrdə də bu institutun mahiyyəti haqqında məlumatların insanlara çatdırılması labüddür. Bu məlumatların çatdırılmasının ən münasib yolu isə kütləvi təhsildir.

## Dünyəvi dövlətdə din təhsili necə olmalıdır

Qeyd etmək lazımdır ki, din təhsili istər dinin əsas prinsiplərinin doğru şəkildə cəmiyyətə çatdırılması, istərsə də dövlət təhlükəsizliyi baxımından böyük əhəmiyyət kəsb edir. Belə ki, din mənəvi dəyərlər sistemi olaraq cəmiyyətin mənəvi inkişafında və ictimai birliyin, sosial inteqrasiyanın təminində əvəzsiz rola malikdir. Bununla yanaşı, dinin bəzi xarici güc mərkəzlərinin subyektiv maraqları çərçivəsində interpretasiya edilməsinin milli-mənəvi birliyə deyil, cəmiyyətin bölünməsinə (dezinteqrasiya) səbəb olduğu da sirr deyil. Bu baxımdan, dini biliklərin səhih mənbələrə əsaslanaraq, həmçinin dövrümüzün reallıqlarını nəzərə alaraq cəmiyyətə çatdırılması labüddür. Doğru dini təhsil dini özünütəhriflərdən qorumaqla yanaşı, həmçinin milli-mənəvi birliyin təmin edilməsində onun rolunu artırar, cəmiyyəti radikal dini tendensiyalardan sığortalayar.

"Dünyəvilik prinsipinə xələl gətirmədən din təhsilini necə vermək lazımdır?" sualı ətrafında bir çox mülahizə yürüdülmüş və yürüdülməkdə davam edir. Qısaca qeyd edə bilərik ki, dünyada dini təhsilin müxtəlif formaları mövcuddur. Bunlardan biri konfessional tədrisdir, yəni tədrisdə bir din və ya məzhəb əsas götürülür, dərslər həmin dindən və ya məzhəbdən çıxış edərək keçilir. Bu tədris metodu daha çox müəyyən bir dini və ya məzhəbi öz rəsmi ideologiyası kimi qəbul edən dövlətlərdə tətbiq olunur. Digər təcrübələr isə "din haqqında" və "dindən öyrənmə"-dir. Dünyəvi dövlətlərdə din tədrisi daha çox bu son iki metod üzərində qurulub. "Din haqqında



öyrənmə” modeli müəyyən bir dini dünyagörüşün digərlərindən üstünlüyünü önə çəkmədən cəmiyyətdə mövcud olan dinlərin əsas mahiyyəti və tarixi haqqında deskriptiv (təsviri) bilikləri əhatə edir. “Dindən öyrənmə” modeli isə tədris prosesində dinlərin insanlığa təlqin etdiyi universal mənəvi dəyərlərin mənimsənilməsinə xidmət edir. Bu iki model dünyəvilik prinsipinə xələl gətirmədən cəmiyyətin köklü institutlarından biri olan din haqqında şagird və tələbələrə biliyin verilməsinə xidmət edir.

Fikrimcə, son dövrlərdə ictimai müzakirələrə səbəb olan “xaricdə din təhsili” mövzusuna yuxarıda sözügedən din təhsili modelləri çərçivəsində yanaşmaq daha düzgün olardı. İslam dünyasındakı din təhsilinə nəzər saldıqda görürük ki, əksər müsəlman ölkələrində bu təhsil konfessional modelə əsaslanır və normativ xarakter daşıyır. Sözügedən təhsildə konkret bir məzhəbin, yaxud dini qrupun baxışı əsas götürülür və hətta çox vaxt digər məzhəblərin fikirləri “doğru yoldan uzaqlaşma” kimi qələmə verilir. Həmçinin bir çox müsəlman ölkəsindəki din təhsilində klassik dini elmlərə baxış bir-birindən köklü şəkildə fərqlənir. Xalqları, hətta eyni məzhəbə mənsub olan ölkələrdəki dini təhsilə diqqət yetirdikdə, bu köklü fərqliliyin şahidi oluruq. Bunun əsas mənbəyi isə ilk növbədə, həmin ölkələrin dinə baxışındakı ideoloji fərqliliklərdir. Dünyəviliyi dövlət-din münasibətlərində əsas model kimi qəbul edən ölkələrdəki din təhsili ilə müəyyən bir dini dünyagörüşünü siyasi sisteminin əsası kimi qəbul edən ölkələrdəki din təhsili bir-birindən fərqlidir. Dinin və ya məzhəbin mənbələri eyni olsa da, mənbələrə baxış və onların interpretasiyası bir-birindən köklü şəkildə fərqlənir. Məhz buna görə də dini təhsilə təkcə elmi prizmadan baxmaq kifayət deyil, burada ideoloji amillər də mütləq nəzərə alınmalıdır. Təsəvvür edək ki, dünyəvilik prinsipini qəbul etmiş bir ölkənin vətəndaşı öz baza təhsilini bu prinsipi qəbul etməyən və hətta “qeyri-islami” adlandıran başqa bir dövlətin dini təhsil ocağında alır. Şübhəsiz ki, o, təhsil almaq üçün getdiyi ölkədə dünyəviliyin nəzərə alınmadığı bir tədris prosesindən keçəcək. Yenə təsəvvür edək ki, çoxməzhəbli bir ölkənin vətəndaşı tək məzhəbin “haqq”, digərlərinin “batil” kimi təqdim edildiyi bir dini tədris prosesindən keçir. Bütün bunların ictimai vəhdətə vuracağı zərbəni, yəqin ki, təsəvvür etmək çətin deyildir.

Məlumdur ki, 70 illik sovet dövründə dini fəaliyyətlər, o cümlədən dini təhsil çox məhdud çərçivədə həyata keçirilirdi. Azərbaycanda cəmi 17 məscid və bir ziyarətgah fəaliyyət göstərirdi. İslami təhsil, ancaq çox məhdud şəkildə mövcud idi. Bütövlükdə Sovet İttifaqı ərazisində İslam dininin tədrisi üzrə yalnız Özbəkistanda “Mir-ərəb” mədrəsəsi və daha sonra Daşkənd İslam İnstitutu fəaliyyət göstərirdi. Azərbaycandan bu tədris ocaqlarında çox məhdud sayda insan oxumaq imkanı əldə edirdi. Azərbaycanın daxilində isə dini tədrislə məşğul olan mədrəsələr və ali məktəblər mövcud deyildi. Yalnız 1989-cu ildə Qafqaz Müsəlmanları Ruhani İdarəsinin nəzdində mədrəsənin açılmasına icazə verilmişdi. Bu səbəbdən, dövlət müstəqilliyimizi əldə etdiyimiz ilk illərdə ölkədə din sahəsində ciddi mütəxəssis qıtlığı mövcud idi və həmin illərdə xaricdə dini təhsil almaq bir ehtiyaca çevrilmişdi. Ölkəmizdə get-gedə bu sahədə mütəxəssislər çoxaldı və əminliklə deyə bilərik ki, hazırda xaricdə dini təhsil almaq ehtiyac və zərurət olmaqdan çıxmışdır. Ölkəmiz, artıq öz milli kadrlarını hazırlamaq üçün kifayət qədər bazaya malikdir. Əlbəttə ki, bakalavriat səviyyəsində tələbələrin dini dünyagörüşü formalaşdıqdan sonra, magistratura və doktorantura istiqamətlərində müxtəlif ölkələrin elmi təcrübəsini öyrənmək üçün xarici universitetlərlə tələbə mübadiləsi mümkün və yararlıdır. Baza təhsilinin ölkə daxilində alın-

ması isə cəmiyyətin yad dini təsirlərdən sığortalanması üçün labüddür.

Bildiyimiz kimi, Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 2018-ci il 9 fevral tarixli Sərəncamına əsasən, Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan İlahiyyat İnstitutu yaradılmışdır. Sərəncamda da qeyd olunduğu kimi, İnstitutun yaradılmasının əsas məqsədi Azərbaycan xalqının tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan yüksək dini-mənəvi mühitin qorunub saxlanılmasını və inkişaf etdirilməsini, dini fəaliyyətin təşkili sahəsində yüksək ixtisaslı kadrların hazırlanmasını təmin etməkdir. Bu Sərəncamla ölkəmizdəki ali din təhsili yeni mərhələyə qədəm qoymuş, Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsi İnstitutun tərkibinə daxil edilmiş və beləcə, güclü bazaya malik olan bir ali təhsil müəssisəsinin əsası qoyulmuşdur.

Ödənişsiz təhsil verən Azərbaycan İlahiyyat İnstitutu yüksək elmi təfəkkürə malik olan kadrların rəhbərliyində milli-mədəni irsi anlayıb dəyərləndirə bilən, mövcud problemlərə dair həll yolları irəli sürən, ilahiyyat sahəsində əsas biliklərə yiyələnən kadrlar hazırlamağı qarşısına məqsəd qoymuşdur. Doğru və zamanın reallıqları ilə çulğalaşan dini biliklərə sahib olan, əldə etdiyi biliklərlə özünə və cəmiyyətə faydalı olan, tədqiqatları ilə elmə töhfə verən, din sahəsində ictimai şüurun formalaşmasında aktiv rol oynayan ilahiyyatçıların hazırlanması İnstitut qarşısında duran ən ümdə məqsədlərdəndir.

Azərbaycan İlahiyyat İnstitutunda 1 fakültə (İlahiyyat), 3 kafedra (Dinşünaslıq, İslamşünaslıq, Dillər və ictimai elmlər) mövcuddur. Ali təhsil müəssisəsində tədris Azərbaycan dilində həyata keçirilir. Gələcəkdə rus, ingilis və ərəbdilli bölmələrin açılması və dünyanın müxtəlif dövlətlərindən tələbələrin İnstitutda təhsilə cəlb olunmaları da nəzərdə tutulur.

Azərbaycan İlahiyyat İnstitutunda təhsil iki – islamşünaslıq və dinşünaslıq istiqamətləri üzrə həyata keçirilir. İslamşünaslıq ixtisası üzrə standartlara İslam dininin teoloji, tarixi, sosioloji, psixoloji və fəlsəfi aspektlərdən öyrənilməsini təmin edən fənlər daxil edilmişdir. Bu ixtisasın standartlarında ənənəvi İslam elmləri ilə yanaşı, təkcə bu dini deyil, ümumilikdə, dinləri müxtəlif yönlərdən tədqiq edən Din sosiologiyası, Din psixologiyası, Din fəlsəfəsi, Məzhəblər tarixi, Dinlər tarixi və s. fənlər öz əksini tapmışdır. "İslamşünaslıq" ixtisasına yiyələnənlərin həm din xadimi, həm də İslam dini üzrə mütəxəssis kimi fəaliyyət göstərməsi nəzərdə tutulmuşdur. "Dinşünaslıq" ixtisası üzrə standartların hazırlanmasında Azərbaycan reallıqlarını nəzərə almaqla dünyanın digər aparıcı universitetlərində mövcud olan Dini tədqiqatlar (Religious Studies) bölmələrinin standartlarından faydalanılmışdır. Bu standartlara İslam, Yəhudilik, Xristianlıq, Hind və Çin dinləri kimi dünyada mövcud olan böyük dinlərin öyrənilməsini nəzərdə tutan fənlər daxil edilmişdir. Həm "İslamşünaslıq", həm də "Dinşünaslıq" ixtisaslarının standartlarına multikulturalizm, Azərbaycan tarixi, fəlsəfə, məntiq, eləcə də ərəb və ingilis dillərinin öyrənilməsini nəzərdə tutan fənlər də daxil edilmişdir.

Azərbaycan İlahiyyat İnstitutunda magistratura səviyyəsində kadr hazırlığı "Dinşünaslıq" ixtisasının "İslamşünaslıq", "Dinin sosiologiyası", "Dinin psixologiyası", "Dinlərin tarixi", "Dinin fəlsəfəsi" ixtisaslaşmaları üzrə aparılır. İnstitutda, həmçinin "Dinşünaslıq" və "Dinin tarixi və fəlsəfəsi" ixtisasları üzrə doktorantura təhsili mövcuddur.

İnstitutun ən başlıca hədəflərindən biri cəmiyyətin dini doğru anlamasını və öyrənməsini təmin etmək məqsədilə dini səhih mənbələrdən araşdırmaq, cəmiyyətin din sahəsindəki ehtiyac və təmayüllərini yaxından izləyərək yaranan problemlərə dair həll yolları təklif etməkdir.

İlahiyyat İnstitutunda dini təhsil ölkəmizin reallıqları nəzərə alınaraq həyata keçirilir. İnstitut yarandığı gündən tədris prosesində yuxarıda adlarını qeyd etdiyimiz "din haqqında öyrənmə" və "dindən öyrənmə" metodlarına əsaslanır. Ali tədris müəssisəsində müəyyən bir məzhəb əsas götürülmür, bütün İslam məzhəblərinin görüşləri haqqında təsviri biliklər verilir. Həmçinin böyük dünya dinləri haqqında da deskriptiv metodla bəhs edilir. Azərbaycan İlahiyyat İnstitutu, demək olar ki, məzhəblərüstü təhsili önə çəkməsi baxımından Müsəlman dünyasında unikal modellərdən biridir.

Qeyd etmək lazımdır ki, din sahəsində mütəxəssis yetişdirərkən bir məqama xüsusi diqqət yetirilməlidir. Bu məqam ondan ibarətdir ki, cəmiyyətə təkcə savadlı din mütəxəssisləri və xadimləri deyil, savadla yanaşı, Azərbaycanın milli dəyərlərini və ictimai strukturunu mənimsəmiş kadrlar lazımdır. Unutmamaq lazımdır ki, din müasir dünyada, təəssüf ki, təkcə mənəviyyat deyil, eyni zamanda, təhlükəsizlik məsələsidir.

# Məhəmməd peyğəmbərin əxlaqı: bugündən baxış



Əhməd Niyazov,
f.f.d., Aİİ-nin
kafedra müdiri

İslam dininin iki ana qaynağından biri olan "Sünnə" Həzrət Məhəmməd əleyhissalamın həyatı boyu yaşadığı və müsəlmanların da onu izlədikləri yoldur. Bu yolun böyük bir hissəsi Həzrət Peyğəmbərin əxlaq sistemini əks etdirir. Bilavasitə Həzrət Məhəmmədin həyatında təzahür etmiş bu dəyərlərin normativlik deyil, bir əxlaq şüuru və mənəviyyat fəlsəfəsi baxımından tədqiq edilməsi vacibdir. Elm və texnologiyanın gəldiyi müasir inkişaf mərhələsində ehtiyaclarını maksimum təmin edən insanın sosial münasibətlərini tənzimləyən bəşəri dəyərlərə olan ehtiyacının təmin edildiyini iddia etmək çətindir. Demək olar ki, postmodernizm şəraitində insan faktoru onun sahib olduğu təkcə maddi imkanlarla yox, həm də mənəvi imkanlar və referans aldığı əxlaqi dəyərlərlə, bir sözlə, onun mənəvi düşüncəsi və mənəviyyat fəlsəfəsi ilə ölçülməlidir. Bu baxımdan, Həzrət Məhəmməd əleyhissalamın gətirdiyi dəyərlərin hərtərəfli tədqiq edilməsi və onun müasir insanın idrakına təqdim edilməsi zamanın tələbidir. Məqaləmiz bu mövzuları əhatə edir.

Əxlaq dəyərləri bəşər övladının gündəlik həyat tərzini müəyyənləşdirən ən mühüm komponentdir. Bu kodekslər fərdi və ictimai davranış qaydaları kimi, bəzən insanın sosial həyatına hakim olub, bəzən də cəmiyyətdə ictimai şüuru formalaşdırır. Hərçənd, insan həmişə əxlaq dəyərlərinə üstünlük verilən sosial mühiti özünə məskən seçir. Əxlaqi dəyərlər ictimai nizamı tənzimləyən qaydalar mənzuməsinin böyük hissəsini təşkil edən bir amil olmaqla, istər fərdlərin bir-birləri arasında və istərsə də ictimai qruplararası münasibətlərdə davranış qaydalarının tənzimlənməsini bilavasitə təmin edən ünsürdür. Bu səbəbdəndir ki, sosial varlıq kimi insan, yaşadığı cəmiyyət quruculuğunda həmişə əxlaq qaydalarının dirçəlişinə xüsusi əhəmiyyət verir. Dövlətin olmadığı zamanlarda cəmiyyətin özü ümumi ələqələri, intizam və əmək qaydaları kimi əxlaq dəyərlərinə əsaslanıb. Əxlaq qaydaları insanlar arasında məhz istiqamətləndirici rol oynadığı üçün adətən, əksər dövrlərdə qanun gücünə malik olub, nizam-intizamın əsasını təşkil edib.

Məhz bu səpkidə, demək olar ki, bütün dinlərdə əxlaq qaydaları həm yazılı, həm də şifahi olaraq nəsildən-nəsilə keçib, bəzən inkişaf edərək, bəzən də aşınmaqla zamana paralel davam edib. İslam dini başda olmaqla, Allah tərəfindən göndərilən səmavi dinlərin ən əhəmiyyətli hesab etdikləri sahə əxlaq əsaslarıdır. Hər şeydən əvvəl müqəddəs Qurani-Kərim iman, ibadət və əxlaq kontekstində nazil olmuş kitabdır, çünki İslam düşüncəsində əxlaq insan həyatının ən zəruri iki ehtiyacından biri sayılıb. Hz. Peyğəmbərin bununla bağlı hədisi belədir: "Allah ruzini sizə necə paylaşdırıbsa, əxlaqı da elə paylaşdırmışdır" (Müsnəd, 6/189).

İslam alimləri IX əsrdən etibarən İslam dininin bu sahəsinə üstünlük verib, İslam əxlaqı fəlsəfəsini dərindən tədqiq edərək bu sahədə "Məkarimül-əxlaq", "Kitabul-əxlaq", "Təhzibül-əxlaq" kimi müstəqil əsərlər ərsəyə gətiriblər.

Qeyd edək ki, İslamın iki ana qaynağından biri olan "Sünnə" Həzrət Məhəmməd əleyhissalamın həyatı boyu yaşayaraq tətbiq etdiyi və bütün müsəlmanların da onu izlədikləri yoldur. Hədislərlə ifadə edilən sünnə müsəlmanlara ibadətlər, hüquq nizamı və digər ehkamları təqdim etdiyi kimi, İslam əxlaqını da özünəməxsus üslubda açıqlayan Qurandan sonra ən böyük qaynaqdır. Bilavasitə Həzrət Məhəmmədin həyatında təzahür edən bu dəyərlər sistemi keçib-gəldiyi dövrlərdə olduğu kimi, müasir dövrün də idrakında həm əks olunur, həm də tədqiqat obyekti kimi elmi dövriyyədə həmişə müasir insan modeli üçün referans dəyəri aktuallığını qoruyan bir məsələyə çevrilib.

### Həzrət Məhəmmədin əxlaqı

Həzrət Məhəmməd əleyhissalam bir peyğəmbər kimi, əxlaqi cəhətdən də insanların ən üstünü olub. Onun təqdim etdiyi dəyərlər normativlikdən uzaq olub, mənəviyyat fəlsəfəsi zəminində və əxlaq şüuru formasında təzahür edib. Onun bəşəriyyətə elçi kimi

göndərilməsi də məhz ilahi vəhyə tabe olması, eləcə də vəhyin tərbiyəsində yetişmiş və kamilləşmiş olmasıdır. "Nun" surəsində onun əxlaqı belə təsvir edilir: "Şübhəsiz ki, sən böyük bir əxlaq üzərindəsən!" ("Qələm" surəsi, 68/4).

Qurani-Kərimin göstərdiyi gözəl xislətlərin hamısı Həzrət Peyğəmbərdə cəmləşib. O, öz əshabələrinə öyüd və nəsihət verərkən, təbliğ etdiyi dəyərləri bilavasitə bir həyat tərzi kimi özü yaşayaraq, başqalarına da tövsiyə edirdi. Qeyd etmək yerinə düşər ki, o, Quranın əxlaq sistemini cəmiyyətə aşılamağa səy göstərərkən, əslində, Quranın sülh təklifinin ictimaiyyətdə bərqərar olmasını təmin edən bir qayəni gerçəkləşdirirdi. Məhz bu səpkidə bir hədisi-şərifi qeyd etmək yerinə düşər ki, Həzrət Aişə (r.a.) "Rəsulullah sallallahu aleyhi və səlləmin əxlaqı necə idi?" – sualına belə cavab verib: "Məgər siz Quran oxumursunuz? Onun əxlaqı Quran idi" (İbn Macə, Ehkam 14).

Həzrət Peyğəmbərin həyat və fəaliyyətinə nəzər salsaq, belə bir nəticəyə gəlmək mümkündür ki, o, ictimai həyatda ümumi olaraq intensivliyin qorunmasına daha çox üstünlük vermişdir. Buna görə də onun iki yol izlədiyini müşahidə etmək mümkündür. Onlardan biri belədir: Allah rəsulu həmişə bir fərd kimi insanların mənəvi həyatını diri tutacaq atributları onlara öyrədərək, mənəvi həyatın dinamizmini təmin edib. Digər tərəfdən, insanları bir-birlərinə bağlayan ünsürləri canlı tutaraq buna nail olub. Hərçənd ictimai həyatı saran, sosial münasibətləri pozan, yaxud zəiflədib zədələyən hadisələrə dərhal müdaxilə edib.

Həzrət Məhəmməd əleyhissalamın gətirdiyi əxlaq sistemi 14 əsrdir təcrübədə olan təlim və tərbiyə metodlarını əhatə edir. Bir peyğəmbərin həyat tərzi kimi təzahür etmiş bu sistemi digərlərindən ayıran iki əsas xüsusiyyət mövcuddur:

1) Həzrət Peyğəmbərin əxlaqı ilahi bir qaynaqdan doğmaqla meydana gəlib. Bunu ifadə edən Allah elçisi belə deyib: "Məni Rəbbim tərbiyə etdi; nə gözəl tərbiyə etdi". Həzrət Aişənin "Onun əxlaqı Quran idi", – deməsi də eyni mənanı ifadə edən rəvayətdir. Tam əminliklə söyləmək olar ki, vəhyin nəzarətində formalaşmış bir əxlaq sistemi bəşəri məxəzlərlə müqayisə edilməyəcək qədər qüsursuz və bəşər tələbatına tam uyğundur.

2) İstər Allah elçisi, istər onun səhabələri və səmimi möminlər bu dəyərlərlə yaşayıblar. Digər sistemlər nəzəriyyə kimi qalmağa məhkum olub. Müəyyən bir hakim quruluş tərəfindən dəstəklənsə də, uzun müddət yaşama imkanı olmayıb.

## İslam əxlaqına müasir baxış

Müasir dövrdə elm və texnologiyanın çatdığı inkişaf mərhələsi insan ehtiyaclarını maksimum təmin edəcək səviyyədədir. İnsan yeraltı və yerüstü qaynaqlardan var gücü ilə istifadə edərək öz həyat şəraitinin yaxşılaşdırılmasını sürətlə inkişaf etdirir. Sənaye sahəsindəki güclü inkişaf sayəsində demək olar ki, müasir insan ehtiyaclarının təmini baxımından alternativlər bolluğu yaşayır. Halbuki postmodernizm şəraitində insan faktoru onun sahib olduğu təkcə maddi imkanlarla yox, həm də mənəvi imkanlar və referans aldığı əxlaqi dəyərlərlə, bir sözlə, onun mənəvi düşüncəsi və mənəviyyat fəlsəfəsi ilə ölçülməlidir.

Belə bir nəticəyə gəlmək olar ki, insan həm maddi və həm də mənəvi dünya arasında münasibət qurmalı və bu ikisi arasında vəhdəti təmin edərək yaşamalıdır. Bu baxımdan insanın hər iki cəhətdən ideal normaları əldə etmək məqsədi əxlaqi dəyərlərin mənimsənilməsi baxımından əhəmiyyət kəsb edir. Keçmişdə olduğu kimi müasir dövr insanı üçün də bu meyarda bir mənəviyyat fəlsəfəsi zəmini labüddür. Fəlsəfi düşüncə tariximiz bu baxımdan zəngindir və dövrün tələbatı üçün hər cür ehtiyaca cavab verən bir qaynaqdır ki, müasir imkanlar çərçivəsində bunun əldə edilməsi və həyata keçirilməsi arzuolunandır. Müasir mütəfəkkir alimlərimizdən akademik R. Mehdiyev deyib:

"Mənəviyyatın ənənəvi qaynaqlarını müasir dövrün imkanları ilə nəzərdən keçirmək üçün insanlarımızın fəlsəfi düşüncə tarixinə müraciət etməsi zəruridir".

Müasir mənada əxlaq, fərddən ictimaiyyətə, dövlətdən tarixə, iqtisadi nizamdan sənətə və dinə qədər uznan fikir və düşüncələrin üstündə onların bir tacı, bir fanusu kimidir. Bu mənada sosial münasibətlərin tənzimlənməsində insanların izləmə məcburiyyətində olduğu əxlaqi yol, etika və ictimai normalar onun mənəviyyat fəlsəfəsini təşkil edir. Müasir insan modeli üçün bu ehtiyacın təmin edildiyi yer yuxarıda da qeyd edildiyi kimi, bizim tarixi resurslarımızdır, milli-mədəni irsimiz və eyni zamanda, ənənəvi İslam dəyərlərimizdir. Azərbaycan xalqı başda olmaqla, Müsəlman dünyasının fəlsəfi düşüncəsinin bəsləndiyi ana qaynaq və əsas mənbə İslam dini və onun gətirdiyi ümumbəşəri dəyərləridir. Əxlaqı dövlətin ünsürlərindən sayan məşhur fəlsəfə alimi Nurəddin Topçu bu barədə belə deyib:

"Əxlaq qaynağını dindən alır. Buna görə də əxlaq İslam dininin əsası və bilavasitə özüdür. Əxlaqı dindən və ya dini əxlaqdan ayrı görmək istəyənlər, insanın iç dünyasını onun özündən ayrı görmək istəyənlərdir".

İslam son və kamil bir düşüncə sistemi kimi, həm inanc dünyasını dizayn edən bir din, həm də bəşər övladına Hz. Məhəmməd timsalında kamil bir insan təqdim etdi. Allah-Taala o mübarək varlığı "Üsveyi-həsənə/ən gözəl nümunə" olaraq bəşəriyyətə göndərməklə insan məfhumunun sədaqət, gözəllik, sevgi və həqiqət kimi mənəviyyat sütununun bir şəxsiyyət abidəsi kimi necə formalaşması lazım olduğunu da göstərmiş oldu. Müqəddəs Qurani-Kərimdə bu haqda belə deyilir:

***"Həqiqətən, Allahın Rəsulu Allaha, qiyamət gününə ümid bəsləyənlər və Allahı çox zikr edənlər üçün gözəl örnəkdir!"*** ("Əhzab", 33/21)

İslam dininin bir xüsusiyyəti də odur ki, istər səmavi dinlərin, istər digər dinlərin izləri bugünə kimi sürüb gəlmiş rituallarını ən kamil formada təqdiim edir. Qurban, oruc, namaz, nikah kimi digər dinlərdə olan ritualların ən kamil və son forması İslam dini ilə gəlib. Necə ki, İmam Maturidi bütün peyğəmbərlərin tabe olduğu dinin özəyinin bir olduğunu qeyd edib. Bu baxımdan demək olar ki, Hz. Məhəmmədin bəşəriyyətə təqdim etdiyi əxlaq dəyərləri də ümumbəşəri dəyərlər kimi İslamın kamil formada insanlara təqdim etdiyi ən gözəl töhfədir. İslam əxlaq prinsiplərinin; 1) Tarix boyu hər millətə əmr və tövsiyə edilmiş olması; 2) Hüquq və azadlıqların əsasını ehtiva etməsi; 3) Ontolojik və epistomolojik baxımdan eyni xüsusiyyət daşıması müasir tədqiatçıların nəzərində ümumbəşəri dəyərlərdən olduğunu göstərən amillərdir.

Bu mənada qeyd etmək olar ki, məfhum olaraq iman, ibadət və əxlaq son peyğəmbərin gətirdiyi dində olduğu kimi, əvvəlki peyğəmbərlərin də dinlərinin ana əsasını təşkil edir. Hz. Peyğəmbərlə gələn əxlaqi dəyərlər məhz digər peyğəmbərlər tərəfindən insanlığa aşılanan və bir həyat düsturu kimi təbliğ edilib gələn rəsullar irsi olub. Rəvayətlər arasında sıx-sıx təkrarlanan "Bu on şey keçmiş peyğəmbərlərin də sünnəsidir; Bığları qısaltmaq, su ilə təmizlənmək, dırnaqları tutmaq, misvaq istifadə etmək və sair" (Müslüm, Təharət 56), "Dörd şey vardır ki, bunlar keçmiş peyğəmbərlərin də sünnəsidir: həya, ətir sürtmək, evlənmək və misvaq istifadə etmək" (Tirmizi, Nikah 1) və sair bu kimi hədisi-şəriflər məhz sadalanan səpkidə rəvayətlərdir.

Qeyd etmək lazımdır ki, dəyişməyən əsaslara malik əxlaqi dəyərlər insan cəmiyyətlərini istiqamətləndirən və onu köklü əsaslar zəminində inkişaf etdirən dəyərlərdir. Dünya həyatının xoşbəxtliyi və əbədi həyatın qazanılması belə bir zəmində qurulmuş sosial münasibətlərlə mümkündür ki, əxlaqın qayəsi də bundan ibarətdir. Son Peyğəmbər Hz. Məhəmməd əleyhissalam insanlıq üçün ən döğru və heç əskilməyən təlimlərər gətirməklə, məhz belə bir qayəyə xidmət edən dəyərlər mənzuməsi təqdim edib.

Nəticə olaraq qeyd edək ki, mənəvi dəyərləri müəyyənləşdirən və qüsursuz dizayn edən yeganə müəssisə dindir. Əxlaq isə bu dini bir həyat tərzinə çevirən ən mühüm ictimai nizam qaydalarındandır. Bu sayədə ictimaiyyət öz mədəniyyətini inşa edir. Belə bir mühitin ən mühüm atributlarından biri sössüz ki, əxlaq qaydalarıdır. Ən ideal qanunlarla dizayn edilmiş bir cəmiyyəti də ayaqda tutan ən mühüm ünsür yenə əxlaq qaydalarıdır. Bu, həmçinin hüququn vicdaniləşmiş mərhələsidir. Qanun bolluğu heç də hər şeyi həll etmir. Əxlaqın olmadığı bir cəmiyyətdə və eyni zamanda, hüququn vicdaniləşmədiyi yerdə qanunlar yazılmış olsa da, dövlət tərəfindən dəstəklənmiş olsa da tapdalanmasının qarşısının alınması çətindir.

İnsan sosial varlıqdır. Cəmiyyət içində yaşamaq, qabiliyyətlərini paylaşmaq, ehtiyaclarını təmin etmək məcburiyyətindədir. Cəmiyyəti ayaqda tutan mənəvi dəyərlərdir. Bu dəyərlərin aşınması, yaxud sıradan çıxması hər şeydən əvvəl cəmiyyət fərdlərinə təsir edib onların həyatını alt-üst edəcəkdir. Elmin və texnologiyanın gəldiyi son mərhələdə insan problemi əfsuslar olsun ki, hələ də davam edir. Belə bir məqamda mənəviyyat fəlsəfəsi insan üçün labüddür. "İnsan mərkəzli həyat" anlayışı və "İnsanı yaşat ki, insanlıq yaşasın" prinsiplərinin həyata hakim olduğu tarixi keçmişə sahib bir coğrafiyada yaşayırıq. Tarixi resuslarımız mənəvi dəyərlərimizin dirçəlməsi üçün kifayət qədər töhfə verəcək zənginlikdədir.

İslam Hz. Məhəmmədlə dini cəmiyyət nizamı baxımından ən ideal əxlaqi dəyərləri göndərib. Allah-Taala o mübarək varlığı "Üsveyi-həsənə/ən gözəl nümunə" olaraq bəşəriyyətə göndərməklə insan məfhumunun sədaqət, gözəllik, sevgi və həqiqət kimi mənəviyyat sütununun bir şəxsiyyət abidəsi kimi necə formalaşması lazım olduğunu da göstərmiş oldu.



**Məmmədəli Babaşlı,**
**i.f.d., dos.,**
**AİI-nin müəllimi**

# Qlobal mənəvi böhran və İslamın dözümlülük anlayışı

Savaşların, terrorun, maddi və mənəvi anarxiya selinin girdabına yuvarlanmış bəşəriyyət çarəsizlik içində çırpınmağa davam edir. Özündən başqa güc tanımayan ağılın və “dəyərsiz” mənfəətin rəvacda olduğu müasir dünyada fərdiyyətçiliyin və şəxsi mənafelərin ön plana çıxarılması bəşəri münasibətlərdəki ədalətin ortadan qalxması ilə nəticələnib. Başqa sözlə, şahidi olduğumuz eqoizm, “biz” və “onlar”, eyni məsələdə ikili standart, saysız-hesabsız ədalətsizliklər, özbaşınalıqlar ilahi təcəllinin təkzibolunmaz dəlili olaraq yaradılan Yer kürəsini yaşanmaz hala salıb.

Təəssüf ki, dünyadakı hakim zehniyyətin ictimai həyatdakı yeganə istinadgahı güc, başlıca qayəsi isə mənfəətdir. O, sadəcə, gücə inanır və gücü yetdiyi zaman başqalarını əzməkdən çəkinmir. Yaşamağı gücün təbii haqqı olaraq qəbul edir və cəmiyyət üzvlərini bir-birinə bağlayan ünsürün isə irqçilik, mənfi milliyyətçilik olduğuna inanır. Həyatın yardımlaşma və paylaşma yeri deyil, mübarizə meydanı olduğunu zənn edir. Nəticə etibarilə, insanlığa göstərdiyi yeganə “xidmət” nəfsin sonsuz arzularına boyun əymədən, gücünün həmişə “haqlı” çıxmasından başqa bir şey olmur. Beləliklə, tarix boyunca ortaya atılmış və nəzəri baxımdan cəlbedici görünən müxtəlif cərəyan və ideologiyaların, müxtəlif “izm”lərin insanlara, sadəcə, aldanmışlıq duyğusu, məyusluq verdiyi artıq şübhə doğurmur.

Unudulmamalıdır ki, gücün iş prinsipi hücum etməyin, mənfəətin və mübarizənin qaydası da çarpışmaqdır. İrqçilik isə ancaq başqalarını əzmək və yox etməklə özünə münbit şərait tapır. Şəxsi mənfəətlərinə yalnız mənsub olduğu soyun, təbəqənin, sinfin və millətin mənafeyi prizmasından baxan bu zehniyyətin daşıyıcıları sözdə ümumbəşəri ideallardan, insan haqlarından bəhs etsələr də, həyatda buna təsadüf etmək bir qayda olaraq mümkün deyildir. Özünü insan haqlarının yeganə təminatçısı və demokratik dəyərlərin əvəzolunmaz təmsilçisi sayan qoluzorlular mənafelərinə zərrə qədər təhlükə olduqda dünyanı qan gölünə çevirməkdən əsla çəkinmirlər. Məhv edilən, sadəcə, “ən gözəl biçimdə yaradılmış”, yer üzünün xəlifəsi kimi şərəfli missiyaya layiq görülmüş insanlar deyil, həm də gün keçdikcə bərpası mümkün olmayan pozulmuş ekosistem və onun mühüm tərkib hissələri olan digər canlılardır.

Təsvir etdiyimiz mənzərədən də göründüyü kimi, irqindən, dilindən, dinindən, dərisinin rəngindən asılı olmayaraq, “bir kişi və qadından yaradılmış” insanların, hətta dünyanın digər canlı varlıqlarının əmin-amanlığa ehtiyacı həyati əhəmiyyət kəsb edir. Bəşər tarixində bu istiqamətdə kifayət qədər axtarışlar aparılsa da, insanlığın nicata qovuşmasının ən qısa yolu mənsub olduğumuz dindən keçir. Uca dinimizin Müqəddəs Kitabının bəşəriyyətə bəxş etdiyi hikmətin istinad nöqtəsi güc deyil, haqdır. Burada başqalarının iztirabları hesabına xoşbəxtlik əldə etmək praktikasına birdəfəlik son qoyulub. Müsəlmanlar Yer üzündə hakim qüvvəyə çevrildikləri zaman qətiyyən insanların əllərindəki maddi nemətləri mənimsəmək, mümkün olduğu qədər çoxunu özünə götürmək, başqalarına azını saxlamaq fikrində olmayıblar. Əksinə, imkan daxilində dünya miqyasında hüququn üstünlüyünü və azadlığı, bütün insanların mövcud maddi nemətlərdən istifadə etmələrini təmin edərək zülmü kökündən qazıblar.

Hal-hazırda dünyadakı hakim zehniyyətin mənfəət üzərində qurulmuş qayəsinin yerinə İslam fəzilət və Allah rizası, “Həyat mübarizədir!” devizinin əvəzinə isə yardımlaşma düsturunu təklif edir. Əgər dünya miqyasında ədalət və əmin-amanlıq bərqərar olacaqsa, bunu yüzillər boyu hər dindən və irqdən olan insanları bağrına basmış, sevgi və şəfqət iqliminə daxil etmiş İslamın dözümlülük anlayışı içində axtarmaq lazımdır. Bunun ən inandırıcı örnəklərinin əsrlər öncə yaşandığını nəzərə alsaq, deyilənlərin qətiyyən xəyal olmadığı anlaşılar. Əvvəla, İslam dininin davakar, mütəmadi olaraq mübarizə aparan bir cəmiyyətdə, hər zaman öz qəbiləsinin, soyunun üstünlüyü ilə fəxr edən insanlar arasında yayıl-

dığını xatırlatmaq kifayətdir. Bütün bunlara baxmayaraq, İslam dininin təbliği ilk gündən etibarən cahanşümul və sülhpərvər dəvət üzərində qurulub. Dünya tarixində gerçək və təmənnasız qardaşlığın toxumları yenə ilk dəfə Həzrət Peyğəmbərin (s.ə.s.) risalət vəzifəsini yerinə yetirdiyi zaman kəsiyində Məkkə vadisində atılmış, Mədinə İslam Dövlətinin timsalında yayılmış, nəhayət qısa müddət ərzində böyük bir coğrafiyada çoxlu sayda tərəfdar toplamışdır. İlk nazil olan ayələrdən etibarən bütpərəstliyin, zülmün, təfriqənin, qan tökmənin, ictimai sülhün və əmin-amanlığın pozulmasının əleyhinə çıxan İslam dini ardıcıl şəkildə məzlumları və yoxsulları himayə altına alıb, bərabərlik və qardaşlığı təlqin edib. İnsanların sadəcə, dünya deyil, həm də axirət həyatında səadətə çatmalarını qarşıya məqsəd qoymuş İslamın əsas mənbələrindən sayılan Quran və Sünnədə onları ayrı-seçkiliyə, təfriqəyə, zülmə, nifaqa, qan tökməyə deyil, birliyə, qardaşlığa, həmrəyliyə, sülhə dəvət edən kifayət qədər ümumbəşəri çağırışlar mövcuddur.

Haqlı olaraq günümüzdə tez-tez "dini dözümlülük" anlayışından bəhs olunur. Lakin "Kimə və nəyə qarşı dözümlülük nümayiş etdirilməlidir?", "Dözümlülüyün çərçivəsi necə olmalıdır?", "Dözümlülüklə laqeydlik arasındakı fərqlər nələrdən ibarətdir?" qəbilindən olan suallara verilən cavablar hər kəs tərəfindən birmənalı qəbul edilmir. Bunun əsas səbəblərindən biri öz məqsədlərinə çatmaq üçün müsəlmanların dini dözümlülük anlayışından sui-istifadə etmək istəyənlərin mövcud olmasıdır. Qeyd etdiyimiz suallara cavab vermək üçün hökmən mənsub olduğumuz dinin bu mövzuya dair təməl prinsiplərini bilmək lazımdır. Bu səbəbdən, bilavasitə istiqamət, ədalət, haqq və hüquq, orta yol dini olan İslamın kitab əhli olan və ya olmayan dinlərlə, hətta bütpərəst və kafirlərlə bağlı prinsiplərinə, onlara qarşı nümayiş etdirdiyi bəzi dözümlülük örnəklərini xatırlatmaq yerinə düşərdi.

Burada öncə Qurani-Kərimdə bilavasitə kitab əhlinə müraciət edən 12 ayənin mövcud olduğunu ifadə etmək lazımdır. Bir ayədə "əhli-İncil", digər ayələrin əksəriyyətində isə "yəhudi və xaçpərəstlər" şəklində müraciət olunduğunu görmək mümkündür. Həmin müraciətlərdə Allahı (c.c.) tamamilə inkar edən ateistlərlə, Allaha inanıb, lakin Onun (c.c.) sifətlərində səhvə yol verən kitab əhli arasında fərq qoyulduğu da nəzərə çarpır. Əslində, bəzi məqamlarda inkarçılarla eyni mövqedə dayanan əhli-kitaba Quranda ayrıca müraciət edilməsini onların haqqı bilib gizləmələri və nə zamansa haqqı qəbul etmələri ehtimalı ilə izah etmək olar. Məhz bu baxımdan onlarla bağlı ayələrdə "xəbərdarlıq" tonu üstünlük təşkil edir. "Ey kitab əhli, Allahın ayələrinə şahid olduğunuz halda nə üçün (onları) inkar edirsiniz?" (3:70) və ya "Ey kitab əhli, nə üçün bilə-bilə haqqa yalan donu geyindirir və doğrunu gizlədirsiniz? (3:71) kimi ayələr məhz onlara xəbərdarlıq mahiyyətindədir. Sonuncu ayədəki "bilə-bilə" ifadəsi bilavasitə Tövrat və İncildə Rəsuli-Əkrəmin (s.ə.s.) gələcəyinə dair müjdələrdən xəbərdar olmalarına rəğmən onun gəlişindən sonra müxtəlif səbəblərdən inkar yolunu tutaraq yəhudi və xaçpərəstlərə ünvanlanıb. Bunun da hikməti onların öncədən sahib olduqları məlumatlarla və "Əgər kitab əhli də (sizin kimi) iman gətirsəydi, əlbəttə, onlar üçün yaxşı olardı." (3:110) dəvəti ilə izah oluna bilər.

Tövhid dini olan və birliyi əsas alan İslam kitab əhlinə münasibətini "Allahdan başqasına ibadət etməyək. Ona şərik qoşmayaq və Allahı qoyub bir-birimizi (özümüzə) Rəbb qəbul etməyək!"(3:64) prinsipləri çərçivəsində tənzimlədiyini bəyan edir. Təbii ki, İslamın anlayışına görə, birlik deyincə, sadəcə, Allahın (c.c.) birliyi deyil, insanların da birliyi, qardaşlığı nəzərdə tutulur. Məhz buna görə insan kafir də olsa, İslam müharibə şəraiti istisna olmaqla onun qanını, malını, irzini (heysiyyatını, mənliyini, şəxsiyyətini və şərəfini) özünün etibarlı himayəsi altına alıb. Yaxud "Kim bir cana qıymamış, yaxud yer üzündə fitnə-fəsad törətməmiş bir kimsəni öldürərsə, bütün insanları öldürmüş kimi olar." (5:32) deyiminin sadəcə, möminlərə deyil, ümumən kafirlər də daxil olmaqla bütün insanlara şamil edilməsi İslamın dözümlülük anlayışının hüdudlarının sonsuzluğa qədər uzandığına dəlalət edir. Haqsız yerə kafir də olsa, öldürülə bilməz-hökmünü verən İslamın burada insana verdiyi dəyəri dünyanın heç bir hüquq sistemində tapmaq mümkün deyil.

İslamın əngin dözümlülük anlayışı, sadəcə, yuxarıda qeyd edilənlərlə də bitmir. Aləmlərə rəhmət olaraq göndərilmiş İslam Peyğəmbərinin (s.ə.s.) "Kim bir zimmiyə əzab verərsə, mən onun düşməniyəm, mən də kimə düşmən olarsam, qiyamət günü onunla hesablaşaram" mənasına gələn hədisi-şərifində kafirə belə zülm rəva görülməyib. Məhz bu dini dözümlülüyün nəticəsidir ki, İslamın hakim olduğu geniş coğrafiyada, əsrlər boyu xristian, yəhudi

və digər dini azlıqlar sülh şəraitində yaşayıblar. Bunun ən səciyyəvi örnəkləri Abbasilər dönəmində Bağdadda, Əndəlüsdə, Osmanlı hakimiyyətinin yayıldlğı bölgələrdə yaşayan qeyri-müsəlmanlara münasibətdə görmək mümkündür. "Dində məcburiyyət (zorakılıq) yoxdur" (2:256) prinsipinə uyğun olaraq hərəkət edilən həmin dövrlərdə həqiqətən insanlığa dərs verilib.

Həzrət Peyğəmbərin (s.ə.s.) ona qarşı hər cür əzab-əziyyəti, zülmü rəva görmüş müşriklərə bəd dua etməyərək onlara duaçı olması, İslamın əsas məqsədinin müşrikləri öldürmək deyil, onları hidayətə qovuşdurmaq olduğunu, dözümlülüyün də bu məqsədə xidmət etdiyini göstərir. Bu qəbildən münasibətin səmərəsi özünü müşriklərlə Xüdeybiyyədə bağlanmış sülh müqaviləsindən sonra İslamı qəbul edənlərin sayının iki dəfə artmasında göstərib. Yenə Həzrət Peyğəmbərin (s.ə.s.) Mədinəyə təşrifindən sonra həm xristianlar, həm də yəhudilərlə saziş imzalaması, həmin anlaşmalara sonuna qədər sadiq qalması dözümlülüyün bariz örnəkləridir. Məhz bu dinin əngin rəhmətinin nəticəsidir ki, Həzrət Peyğəmbər (s.ə.s.) yəhudinin xəstələnmiş oğlunu ziyarət edərək onun səhhəti ilə maraqlanıb və yəhudilərdən birinin cənazəsi aparılarkən insana olan hörmətinə görə ayağa qalxıb. Nəcrandan gələn xristianlardan ibarət heyəti qəbul edərkən müsəlmanlardan bəzilərinin etirazlarına baxmayaraq, onların məscidə daxil olmalarına, hətta orada ibadət etmələrinə imkan verib. İslamın ilk uğuru olan Bədr savaşında əsir alınmış müşriklərə, Məkkənin fəthindən sonra İslamın azğın düşmənlərinə qarşı müsəlmanların rəftarı da son dərəcə ibrətamizdir. Xəlifə əl-Vəlid bin Əbdülməlik zamanında Dəməşq məscidini genişləndirmək məqsədilə uçurulmuş İohanna kilsəsi ilə bağlı yanlışlığı düzəltmək üçün xristianlar etiraz etsələr də, xəlifə Ömər bin Əbdüləzizin məscidin yıxılmasına dair qərar almasına səbəb yenə dözümlülük anlayışı olub. 1071-ci ildə Malazgird savaşında Bizans ordusunu məğlub edən Alparslanın düşmənin sərkərdə və əskərləri ilə rəftarı da təqdirəlayiq sayılmalıdır. Təbii ki, bu qəbildən olan misalların sayını artırmaq üçün İslam tarixində kifayət qədər örnəklər mövcuddur. Məhz Qurani-Kərimin kitab əhlinə dözümlülük və şəfqətlə yanaşmasının nəticəsidir ki, keçmişdə və günümüzdə, xüsusilə, xristianlardan minlərcə insanın İslamla şərəflənməsi faktlarına təsadüf olunur.

Qeyri-müsəlmanlara münasibətdə dözümlülük nümayiş etdirilməsi qətiyyən təmsil etdiyimiz dini dəyərlərin unudulması və ya nəzərə alınmaması mənasına gəlməməlidir. Burada bəhs olunan dostluq din dostluğu deyil, "dürüstlük","nizam-intizamlı olmaq" kimi insani keyfiyyətlər və ya onların malik olduqları texnologiyalardan istifadə etmək səviyyəsində olmalıdır. Digər tərəfdən, dinsizliyin və zındıq düşüncənin yayıldığı bir zamanda kitab əhlinin səmimi dindarları ilə həmin bəlalara qarşı birgə fəaliyyət göstərilməsi də vacibdir.

BMT və digər beynəlxalq, regional təşkilatların səylərinə baxmayaraq, müasir dünyadakı xaosun ortadan qaldırılması hələlik mümkün olmur. Axirət inancının zəifləməsi nəticəsində dünya miqyasında ateizmin, deizmin getdikcə vüsət alması, namus kimi əxlaq məfhumunun aşınması səbəbindən ailə institutunun ciddi böhran yaşaması günümüzün acı reallığıdır. Qəlbin və ruhun mənəvi qidadan məhrum edilməsi nəticəsində anarxiya, insan alveri kimi nə üçün öldürdüyünü bilməyən robotlaşmış insanların tökdükləri qan, bəşəriyyətin əmin-amanlığı və rifahı hesabına milyardlar əldə edən silah mafiyalarının qazandıqları çirkli pullar həyatı daha da dözülməz edir.

Belə olan təqdirdə, çarəsizlik içində qalan dunya pozulmuş ədalətin bərpa olunması naminə İslamın bəşəriyyətə təqdim etdiyi ilahi mesajlara qarşı daha diqqətli davranmalı, obyektiv şəkildə araşdırmalı və həyata keçirilməsində maraqlı olmalıdır. Müsəlmanların üzərinə düşən başlıca vəzifə isə İslam əxlaqının və iman həqiqətlərinin mükəmməlliyini öz əməllərində əks etdirmək, mənsub olduğu uca dəyərləri layiqincə təmsil etməkdir. Nəhayət, gerçəyi axtaran, lakin ideal inanc sistemini və onu nümayiş etdirən örnək insanları tapa bilmədiyi üçün içinə qapanaraq inancsızlıq burulğanına düşən cəmiyyətlərə yardım etmək inanan insanların ümdə vəzifəsidir. Ancaq bu halda, özümüzü batil yola düşənlərin ölümündə günahkar bilən bir ölüm komandosu olaraq deyil, onları doğru yola istiqamətləndirən mərhəmətli və şəfqətli insanlar kimi hiss edə bilərik. Son olaraq, unudulmamalıdır ki, həkimin xəstəyə deyil, xəstəliyə düşmən olduğu kimi, İslam Peyğəmbəri (s.ə.s.) də məhz şirkə düşmən münasibət bəsləyib, hətta müşriklərin halına acıyaraq onların da qurtuluşa çatmaları üçün yardım əlini uzadıb.



**Vüqar Səmədov,**
**f.f.d., Aii-nin müəllimi**

# Kərbala

Hər il məhərrəm ayının 10-da İslam aləminə bir hüzn, bir kədər hakim olur. Bu tarix Həzrət Peyğəmbərin "Dünyadakı çiçəyim, reyhanım, cənnət gənclərinin əfəndisi", – deyə vəsf etdiyi, Həzrət Əli əl-Mürtəzanın, Fatimətüz-Zəhranın ciyərparası olan Həzrət Hüseynin və çoxu Əhli-Beytdən olan 72 nəfərin Kərbəlada şəhid edildiyi gündür. Ürəkləri dağlayan bu hadisə məzhəbi, milləti, irqi, mədəniyyəti nə olursa-olsun, qəlbində Həzrət Peyğəmbər, əshab, Əhli-Beyt sevgisi daşıyan hər kəsin ortaq acısıdır.

Məlum olduğu kimi, Müaviyə bin Əbu Süfyan vəfatı yaxınlaşdığı zaman yerinə vəliəhd kimi o günə qədər görünməmiş bir adət olaraq oğlu Yezidi təyin etdi və qəbilələrdən beyət aldı. Mədinədə yaşayan Abdulla ibn Ömər, Əbdürrəhman ibn Əbubəkr, Abdullah ibn Zübeyr, Hüseyn ibn Əli kimi nüfuzlu səhabələr buna qarşı çıxdılar. Nə Müaviyənin sağlığında, nə də ki, Yezidin xilafəti dövründə onlar beyət etmədilər.

Qeyd edək ki, kufəlilər dəvət məktubu yazaraq, Həzrət Hüseyni Kufəyə çağırdılar və rəhbər olmasını tələb etdilər. Həzrət Hüseyn 300 nəfərlik bir dəstə ilə Kufəyə doğru yola çıxdı. Vali İbn Ziyad Hürr ibn Yezidin rəhbərliyi ilə 1000 nəfərlik ordunu Həzrət Hüseynin yolunu kəsmək, onu Kərbəlaya sıxışdırmaq üçün, Ömər ibn Sədin başçılığı altında 4000 nəfərlik ordunu isə ona dəstək olaraq göndərir. Əslində, Ömər başqa bir tərəfə gedəcəkdi. İbn Ziyad Ömərə bu işi həll edəcəyi təqdirdə, ona Rey valiliyini vəd edir. Bacısıoğlunun Ömərə "Dayı, nəbadə, Qiyamət günü əlin Həzrət Hüseynin qanı ilə gələsən", – deməsinə baxmayaraq, Ömər ibn Sədə vəzifə sevgisi qalib gəldi, o, İbn Ziyadın təklifini qəbul etdi. İbn Sədin Həzrət Hüseynlə danışıqları zamanı Həzrət Hüseyn ona iraqlıların dəvəti ilə Kufəyə getdiyini söyləyir. Bura gəldikdən sonra kufəlilərin sözlərindən vaz keçdiklərini deyir və geri dönməsi üçün icazə istəyir. İbn Səd bu təklifə sevinir.

Başçılarının gözündə ucalmaq istəyən Şimr Zülgövşən Həzrət Hüseyn əllərinə keçmişkən ya beyətinin alınmasını, ya da öldürülməsini təklif edir. Həzrət Hüseyn isə "Beyət edəcəkdimsə, Mədinədə edərdim, niyə buralara qədər gəldim?" – deyərək bu zillətə razı olmayacağını bildirir.

İbn Səd Kərbəlada su quyularını tutmaq üçün 500-ə yaxın adam göndərir ki, Həzrət Hüseyn və yanındakılar günlərlə susuz qalırlar. Məhərrəm ayının 10-u İbn Sədin ordusu hərəkətə keçir. Həzrət Hüseyn onların qarşısına çıxaraq belə deyir: "Mən iman etdiyinizi iddia etdiyiniz Həzrət Peyğəmbərin nəvəsiyəm. Mən Həzrət Əlinin oğluyam, Həzrət Fatimənin oğluyam. Uhudda şəhid olan Həzrət Həmzənin qardaşı nəvəsiyəm. Üstümə bu qədər ordu ilə gəlməyinizin məqsədi nədir? Buraya qədər siz dəvət etdiniz, indi də qarşıma çıxmısınız. Kufəlilər Həzrət Hüseyni dəvət etdiklərini inkar etdilər. Hürr ibn Yezid Həzrət Hüseynə qarşı oynanılan oyunu ayırd edir və "Sizin niyyətiniz pisdir, and olsun bu gün cənnətə də bir addım var, cəhənnəmə də", - söyləyərək Həzrət Hüseynin tərəfinə keçir. O, kufəlilərə də bu işdən vaz keçmələrini təklif edir. Otuz nəfər Həzrət Hüseynin tərəfinə keçir. Ordunun azalmasından qorxan İbn Səd Şimrin təlqini ilə döyüşü başladır. Nəticədə faciə baş verir. Əhli-Beyt mənsubları amansızlıqla qətl olunur, başları kəsilir.

Həzrət Hüseynin yolu haqq yoludur. Haqq yolda sabitqədəm olmaq insana bədəl ödədir. Həzrət Peyğəmbərin vəfatının üzərindən 50 il keçmədən belə bir hadisənin baş verməsi nə qədər kədərlidir. Bizə düşən vəzifə isə Həzrət Hüseynin uğrunda şəhid olduğu dəyərləri yaşatmaqdır. Bu dəyərlər haqq, ədalət, zülmə qarşı mübarizə, haqsızlıqla mücadilə, səbir, dua, təvəkkül, Allah rizası üçün cəhd etməkdir. Bir sözlə desək, bütün islami dəyərlər bütün fəzilətlərdir. Həzrət Hüseyn Allahın babası Həzrət Məhəmməd vasitəsilə göndərdiyi dəyərlərə iliklərinə qədər bağlı bahadır idi. Həzrət Hüseyn iman və şükür insanı idi. O, belə belə deyirdi: "Allahım, babamızı Peyğəmbər olaraq göndərdiyin üçün Sənə şükür edirəm. Allahım, bizə Quranı endirdiyin və dərinliyini öyrətdiyin



üçün Sənə şükür edirəm. Bizlərə haqqı görən göz, haqqı duyan qulaq və haqqı düşünən qəlb verdiyin üçün Sənə şükür edirəm. Bizləri Sənə şükür edən qullarından et, ya Rəbb. Biz gecəboyu namaz qılar, Rəbbimizdən bağışlanma diləik. Allahım bilir ki, mən namaz qılmağı, Quran oxumağı və Ona dua etməyi çox sevirəm". Həmçinin Həzrət Hüseyn insanlara belə xitab edirdi: "Ey insanlar, təqva sahibi olun! Əmanətə diqqət edin! Allah rizasını qazanmağa çalışın! Çunki onun rizası hər şeydən üstündür".

Həzrət Hüseyn imanda zirvə idi. O, Allahı görürmüş kimi ibadət etməyi söyləyən babasının yanında, qeyb pərdəsi açılsa, zərrə qədər imanım dəyişməz", – deyən atası Həzrət Əlinin yanında yetişmişdi.

Hüseyn ibn Əli 20 dəfə həcc etmişdi. O, "Yalan söyləməyin, Uca Allah yalanı sevməz. Kibrlənməyin, Uca Allah kibrli olanları sevməz", – buyurmuşdur.

Həzrət Hüseynə bu qanlı hadisəni rəva görənlərin vəsfləri isə zülm, kibr, mənfəət, vəhşətdir. Zülmün olduğu yerdə ədalət olmaz, mənfəətin olduğu yerdə haqq olmaz. Vəhşətin olduğu yerdə mərhəmət olmaz.

Ömər ibn Səd Yezid ordusunun başçısıdır. Vicdanı ona Həzrət Hüseynin haqlı olduğunu söyləyirdi, ancaq o, mənfəəti üstün tutaraq özünü məhv etdi.

## Həzrət Hüseynin yolu

Həzrət Hüseyn zülmə, haqsızlığa, ədalətsizliyə qarşı çıxmış və şəhidliyi ilə zalımlara qalib gəlmişdir. Bu hadisə bizə iqtidarda olanların imandan, əxlaqdan, yaxşılıqdan uzaqlaşdıqları zaman mövqe və məqam naminə necə zalımlaşdıqlarını göstərir. Məşhur ərəb alimi əl-Cabiri ərəb ağlının 3 şeylə hərəkətə keçdiyini qeyd edir. Bunlar qənimət, əsəbiyyət və imandır. Bu hadisədə hər 3 qrupun mənsublarını görmək olar. Burada İbn Ziyad, Səd ibn Əbi Vəqqas mənfəət, qənimət, məqam-mövqe, şöhrət üçün; Həzrət Hüseyn, Hürr və tərəfdarları iman, səmimiyyət, doğruluq, haqsızlığa qarşı çıxmaq üçün; Əməvi tərəfdarları isə əsəbiyyət, qəbilə üçün döyüşdülər. Maraqlı məqamlardan biri də budur ki, Həzrət Hüseyni dəvət edənlər verdikləri sözlərində durmadılar, ona qarşı döyüşdülər. Sonradan da etdiklərinə peşman olaraq, Süleyman ibn Suradın başçılığı ilə Təvvabun hərəkatına başladılar.

Həzrət Hüseynin bütün qayğısının Allahın rizasını qazanmaq, qəbiləçilik, əsəbiyyət qarşısında qardaşlıq sistemi qurmaq, Rəsulullahdan nümunə götürməklə haqq və ədaləti təsis etmək olduğu görünür. Həyatında zərrə qədər riya, kibr, mənfəət, hərislik, dünya və səltənət ələ keçirmək arzusu olmayan Həzrət Hüseyn batilə və zülmə qarşı göstərdiyi mövqe ilə İslam dünyasında bir nümunə olmuşdur.

# Azad təfəkkürün hekayəsi: İBRAHİM PEYĞƏMBƏR



**Faiq Əhmədzadə,**
**f.f.d., AİI-nin müəllimi**

Hər dövrdə cəmiyyəti yeni üfüqlərə aparan, dəyişdirməyə çalışan, ucaldan və yeni həyat verən şəxslər olub. Həmin şəxslər fərqli düşünərək cəmiyyətin, qəlibləşmiş adət-ənənələrin tozlu səhifələrini silkələyib yeni bir səhifə açmağa cəsarət göstərir və bununla da özünə xeyli düşmən qazanırlar. Bəzən cəmiyyət onları qəbul etmir, çünki özünü dəyişdirmək istəməyən, həyatını doğrular deyil, paslı, çürük yanlışlar üzərində qurmağın daha rahat olduğunu düşünənləri dəyişdirmək təhlükəli və ağırdır. Seçilmiş insanlar isə bu yanlışların içərisində yaşamağı zindanda ömür sürmək kimi qiymətləndirir və əsla buna razı ola bilmirlər.

Bəs ağılla düşündükdə bəzi adətlərinin onları məhvə sürüklədiyini başa düşərkən cəmiyyət üzvləri bundan niyə çəkinmək istəmirlər? Cavablardan biri Quranın bu ayəsində buyurulub:

"Onlara "Allahın göndərdiyinə tabe olun!" – deyildiyi zaman, onlar "Biz ancaq atalarımızın getdiyi yolla gedəcəyik!" – deyirlər. Bəs ataları bir şey anlamayıb doğru yolda deyildirlərsə, necə?".

Ulu babalarının yolu ilə getmək, onların dediklərini doğru qəbul etmək, sanki dəyişməz qanunlar kimi həmin ənənəni izləmək durğun cəmiyyətin xüsusiyyətidir. Dəyişmək, dəyişdirmək hər zaman böyük cəsarət tələb edir ki, bu da narahatlıq və komfort sahəsindən çıxmaq deməkdir. Buna öyrəşmək özü də çox zaman tələb edir. Dəyişməz qalmaq isə üzülmək, uduzmaq, geri qalmaq və nəticədə yox olmaqdır. Ən qüdrətli dövlətlərin, cəmiyyətlərin yox olmasına, tarixə qarışmasına səbəb olan faktorlardır.

Bunu anlayan seçilmiş, həqiqəti dərk edən insanlar cəmiyyəti istiqamətləndirərək, dünyanı yaşana biləcək bir yerə çevirməyə çalışıblar. Həmin insanlar azadlığın dadını hiss edənlərdir. Onlar azad düşünə və yaşaya bilirlər. Bu zövqü hiss edənlər başqalarına da həmin zövqü daddırmağa çalışırlar. Bəs azad düşünmək, azad yaşamaq nə deməkdir? Zehnin əsarətdə olması, yaxud nəyinsə kiminsə təsirində olması necə baş verir? Bunun qarşısını almanın hansı yolları mövcuddur? Kimlər, hansı insanlar daha çox bu missiyanı öz üzərlərinə götürə bilirlər?

Çox insan azad yaşamağı istədiyi hər şeyi edə bilmək düşüncəsi ilə ölçür. İnsanın istəkləri daha çox maddi duyğulara xitab edir ki, bu da onu həmin hisslərin mütəmadi istifadəçisinə, yəni əsirinə çevirmiş olur. İnsanı azadlığa aparan yol öncə mənəvi duyğulardan başlayır. Məsələn, insanın öz iradəsinə gücü çatırsa, uyğun yerdə "Dur!" – deyə bilirsə, duyğularının əsiri olmursa, azadlığın qapısındadır deməkdir. Digər tərəfdən, insan azadlığını hər kəs kimi düşünərək, yaxud sırf hər kəsin düşüncəsinə tərs reaksiya verərək deyil, doğru olanı görərək və həqiqətə bağlanaraq əldə edə bilər. Bu isə çox vaxt məntiqi nəticə və yaxud əldə edilən biliklə, əqli düşüncə ilə mümkündür.

Azaddüşüncəli insanlar sırf cəmiyyətə qarşı çıxmaq üçün deyil, əksinə, cəmiyyətin məhvə uğramasına mane olmaqdan ötrü çalışarlar. Bəlkə təkbaşına gücləri çatmaz, amma fikirləri uzun müddət insanların daxilində yer alar. Bunlardan ən məşhurları Budda (Sidharta Qautama) hesab edilir. O, bütün var-dövlətindən, təminatlı həyatından, maddi duyğuların hökm sürdüyü şahzadəliyindən üz döndərərək, bütün bunlardan uzaqlaşmağı düşünüb. Nəticədə, Buddizmin əsas fəlsəfəsi olan iztirab anlayışını meydana çıxarıb. Hər şey iztirabdan, acıdan ibarətdir. Ətrafımızdakı hər şeyin nəticəsi – yaşamağımız, həyatımız acıdır, iztirabdır. Bəs bundan xilas olmağın yolu nədədir? Arzulardan uzaqlaşmaqmı? Maddiyyat arzusu əzab-əziyyətlərə səbəb olur. Buddizm fəlsəfəsinə əsasən həmin arzuları dəf edərkən insan azadlığa çatmış olur. Təbii ki, bu fəlsəfənin bəzi müddəaları mübahisə mövzusu ola bilər. Əsas bədbəxtliklərin özəyi olaraq nəfsin istəkləri hesab edilir. Nəfsin istəkləri isə maddi duyğulardan və zövqlərdən ibarətdir. Gözəl yemək, gözəl geyinmək, yüksək vəzifəyə hərislik, daha çox maddi gücə bağlılıq və s. bu kimi düşüncələr nəfsin istəklərinə insanı əsir edər. Həmin əsarətə düşməyin ən mühüm səbəbkarla-

rından biri də cəmiyyət və ya mühitdir ki, o da insanı qəlibləşmiş, durağan bir həyat, yaxud çərçivə içərisində qalmağa məcbur edir. Cəmiyyət bəzən məntiqi əsası olmayan bir dinə inanmağa çağırar və bununla da insan içindəki mənəvi rahatlığı itirmiş olar. Sağlam dəyərlərə malik olan inanclı insanların daha möhkəm, daha inadkar və çalışqan olduqları məlumdur. Lakin cəmiyyət həmin mübarizə ruhunu boğmağa çalışar. İnsan qabığından çıxmağa çalışarkən, yeni, azad düşüncə yolları axtararkən cəmiyyət bəzən onun qarşısına divar çəkər. Bəs mücadilə ruhunu haradan və necə əldə etməli?

### Yetkinlik yaşlarında sorğu-sual etmək

Əsas məqam buradan başlayır. İslam dinində cəmiyyəti düzəltməyə çalışan, onu dəyişdirən insanların daha çox peyğəmbərlər olduqları qeyd edilir. Qurani-Kərimdə həmin peyğəmbərlərdən bir neçəsinin hekayəsi haqqında bəhs edilir. Bu hekayələrin doğruluq payının nə dərəcədə olması mübahisə mövzusu olub. Əsas məsələ həmin hekayələrin bizə verdiyi dəyərlər və içərisində bizi görmək istədiyi yerdir. Həmin hekayələrin içərisində İbrahim peyğəmbərin həyat yolu həm cəmiyyət, həm də fərdi olaraq azad düşüncənin tarixi seyrini göstərir. İbrahim peyğəmbərin hekayələri Quranın və ya Tövratın fərqli yerlərində qeyd edilib. Həmin hekayələrdən 3-ü nə olursa-olsun, azad təfəkkürün əsla zəncirlənə bilmədiyinin nümunəsi kimi özünü büruzə verir.

İbrahim peyğəmbər uşaq ikən inanc mövzusunu sorğuya çəkir:

“Beləcə, İbrahimə göylərin və yerin mülkünü göstərdik ki, tam qənaətlə inananlardan olsun! Gecə qaranlığı (onu) bürüdükdə o, bir ulduz görüb: “Bu mənim Rəbbimdir!” dedi. (Ulduz) batdıqda isə: “Mən batanları sevmirəm”, söylədi. (Sonra) doğan ayı görüb: “Bu mənim Rəbbimdir!” – dedi. (Ay) batdıqda isə “Doğrudan da, əgər Rəbbim məni doğru yola yönəltməsəydi, mən zəlalətə düşənlərdən olardım”, - söylədi. (Daha sonra) doğan günəşi görüb: “Bu mənim Rəbbimdir, bu, daha böyükdür!” – dedi. (Günəş) batdıqda isə dedi: “Ey camaatım, mən, həqiqətən, sizin Allaha şərik qoşduqlarınızdan (bütlərdən, səma cisimlərindən) uzağam! Mən, həqiqətən, batildən haqqa tapınaraq (dönərək) üzümü göyləri və yeri yaradana çevirdim. Mən (Allaha) şərik qoşanlardan deyiləm!”.

Ayələrdən belə məlum olur ki, İbrahim peyğəmbərin vaxtında səma cisimlərinə etiqad mövcud olub. Təbii ki, yeniyetmə dövrlərində bir gənc özünü və mühitini, xüsusilə cəmiyyət üzvünü özünəməxsus şəkildə sorğuya çəkməyə başlayır. Hekayədə inandığımız şeyin hər kəs tərəfindən qəbul edilməsinə baxmayaraq, onu mütləq araşdırmalı olduğumuz vurğulanır.

İslama görə iki şəkildə inanc var: təqlidi və təhqiqi iman. Təqlidi iman hər kəsin inandığına ümid olub heç bir şey araşdırmamaq və kor-koranə tabe olmaqdır. Təhqiqi iman isə inandığı şeyi öyrənmək, onun haqqında məlumat toplamaq, ehtiyac varsa, doğruluğunu təsdiq edəcək dəlillərə yönəlmək lazım olduğunu irəli sürür. Düşüncə azadlığı burada özünü büruzə verir. İbrahim peyğəmbər hər kəsin inandığı və hər hansı məntiqi nəticəsi olmayan bir şeyə inanmaqdan boyun qaçırır. Onun düşüncəsi ağıla, məntiqə dayanaraq formalaşır. Çox vaxt yeniyetmə dövründə insanlar ətrafını dərk etmək üçün suallar verməyə başlasa da, bunun nəticəsinin olmayacağını düşünərək fikirlərindən daşınırlar. Beləcə, azad düşüncənin dadına baxmadan gedərək, ruhlarını və zehinlərini əsarətə yönəltmiş olurlar. Ətrafındakilərin dediyi boş, mövhumatçı, fanatik, ya da onları yoxluğa, heçliyə sürükləyən inanca, yaxud inancsızlığa daha çox meyil etməyə yönəlirlər. Nəticədə cəmiyyət özünə yeni kölələr, yaxud əsirlər qazanmış olur, azad düşüncəni isə beşiyindəcə boğmuş olur.

İbrahim peyğəmbər kimi davranan, onun timsalında inandığı dini, ənənəni, fikirləri əqli düşüncə ilə araşdıranlar yeni azad düşüncəyə baş vururlar. Məgər hər şey inancla başlamazmı? Biz inandığımızla və ya inancsızlığımızla həyatımızı qurar, onunla ömrümüzü sürərik. Bu, bir həyat tərzidir və insanın uğuruna birbaşa təsir edir.

İbrahim peyğəmbər bu əsarətdən ilk düşündüyü anlardan uzaqlaşmağa başlayır. Tanıdığı Tanrı heç bir şəkildə nəyəsə, kiməsə və ya tarixin hansısa dövrünə tabe olmayan, yanıb-sönməyən əbədi, əzəli varlıqdır. O zaman həmin Tanrı onunla hər zaman var olacaq, onu daim qoruyacaq və sığınacağı bir şəxs olacaqdır. İbrahim peyğəmbər bunun fərqinə varır və cəmiyyətin ona diktə etdiyi, əl-qolunu bağlayan, azad təfəkkürdən onu uzaqlaşdıran mövhumatdan çəkinir.

Sonrakı illərdə axirət inancı haqqında düşünür və onu da dərindən hiss etməyə çalışır. Axirət anlayışına inansa belə, onu da gözü ilə görüb dərk etmək istəyir. Bu da onu göstərir ki, inancın hüdudları nə qədər olur-olsun, inanmaq nə qədər mühümdürsə, onu araşdıraraq hiss etmək bir o qədər vacibdir. Quru

torpağa can verməyi nümunə gətirən Quran, əslində, insanı görmədən inanılan axirətlə bağlı kor-koranə inanmamağa, əksinə, bu barədə az da olsa, düşünməyə sövq edir.

**Həqiqəti tapdıqdan sonra israrla bölüşmək**

İbrahim peyğəmbər öz inancını azad təfəkkürlə tapdıqdan sonra, hər kəs kimi susqun qalıb cəmiyyəti olduğu kimi qəbul etmək istəmir. Azad təfəkkür bir çərçivəyə sığacaq qədər sərhədə malik deyil, əksinə, aşıb-daşmaq, çulğamaq və cosmaq istəyər. İbrahim peyğəmbər tapdığı həqiqətlər sayəsində fanatik düşüncələrə qarşı mübarizəyə başlayır. Öz qövmünə həmin həqiqətləri çatdırmağa çalışır. İnsanlar deyilən nəzəriyyə, yəni təktanrılı inancla razılaşmaqda çətinlik çəkir, bunun nəticəsində onlara cavab verəcək bir davranışla o, bu anlayışı isbat etməyə məcbur qalır:

"Biz daha öncə İbrahimə də doğru yolu nəsib etmişdik. Biz onu tanıyırdıq. (İbrahim) atasına və tayfasına: "Sizin tapınıb durduğunuz bu heykəllər nədir?" – dediyi zaman Onlar "Biz atalarımızı onlara ibadət edən gördük!" – deyə cavab vermişdilər. (İbrahim onlara) "And olsun ki, siz də, atalarınız da (haqq yoldan) açıq-aşkar azmısınız!" – demişdi. Onlar "Sən bizə ciddi deyirsən, yoxsa zarafat edirsən?" – deyə soruşduqda o, belə cavab vermişdi: "Xeyr, Rəbbiniz göylərin və yerin Rəbbidir ki, onları yaratmışdır. Mən də buna şahidlik edənlərdənəm! Allaha and olsun ki, siz çıxıb getdikdən sonra bütlərinizə bir hiylə quracağam!".

İbrahim peyğəmbər özünün azad düşüncəsi ilə əldə etdiyi bilikləri insanlara çatdırmağa ehtiyac duyur. Onları xəbərdar edərək inandıqlarının hər hansı fayda verəcəyinin ağılsızlıq olduğunu başa salmağa çalışır. Dini və qeyri-dini mövzularda cəmiyyətin sahibləndiyi inanc və ənənələrin bəzilərinin onları məhvə sürüklədiyini insanlar qəbul etməkdə çətinlik çəkirlər. Əsas səbəb kimi də əvvəlkilərdən gördüklərini irəli sürürlər. Məsələn, israfın, xəsisliyin, cəhalətin, özünü var-dövlətə həsr etməyin insanları mənən məhv etdiyini, onlara fayda vermədiyini, əksinə, özlərinə zülm etdiklərini deyib onları xəbərdar edərkən, əvəzində, sərt reaksiya ilə qarşılaşmaq mümkündür. "Biz ata-babalarımızdan bu cür gördük", – deyərək, sanki yaş və ya məqam etibarilə daha böyük olan insanların hər zaman doğru qərar qəbul edəcəklərini bildirirlər. Həm xeyir, həm də yas mərasimlərində israfa yer verərək, öz şan-şöhrətlərini daha da ucaldacaqlarını düşünürlər. Halbuki fərqində olmadan özlərinə əziyyət etmiş olurlar. Bir toy məclisində edilən israfın yerinə ölkədə ağır vəziyyətdə həyat sürən insanlara köməyin nə dərəcədə onları həm Allah, həm də digərləri nəzdində ucaldacağının fərqində olmurlar. İbrahim və ya digər peyğəmbərlərin mübarizəsi, sadəcə, bütlərlə deyildi, əslində, daha geniş bir çərçivəni əhatə edirdi. İnsanların bir-birlərinə etdikləri haqsızlıqları, hətta özlərinə etdikləri zülmü üzlərinə hayqırırdılar. Onları xəbərdar edərkən, qeyri-ciddi qəbul edib istehzalı şəkildə ələ salmağa çalışırlar. "Sən zarafat edirsənmi?" – cümləsi ilə həqiqətləri nəinki qəbul etməkdə, həm də onun haqqında düşünməkdə belə çətinlik çəkirlər. İbrahim peyğəmbər, sadəcə, danışmaqla kifayətlənmir, eyni zamanda, danışdığını məntiqi olaraq öz cəmiyyətinə göstərməyə də çalışır:

(Onlar gedən kimi İbrahim bütləri) parça-parça edib yalnız onların böyüyünü saxladı ki, bəlkə qayıdıb ona baş çəkdilər. (Onlar qayıdan kimi işin nə yerdə olduğunu görüb) dedilər: "Bunu tanrılarımıza kim edibsə, o, şübhəsiz ki, zalımlardandır!".

İbrahim peyğəmbər onların silahlarını özlərinə çevirir. Bütlərini parçalayaraq heykəllərin heç kəsə fayda verməyəcəyini izah etməyə çalışır. Lakin cəmiyyət özünə o qədər arxayındır ki, əqli mühakimədən belə uzaq qalıb, bunu edəni özünə zərər verən insan kimi düşünür. Böyük ehtimalla qırılan tanrıların - bütlərin İbrahimi cəzalandıracağını, onu bədbəxt edəcəyini düşünüblər ki, günümüzdə də həmin mövzular davam etməkdədir. "İnsanlar nə deyər, özünü düşünmürsənsə, ətrafını düşün, həyatını korlama, boş, quru xülyalara dalaraq özünə əziyyət etmə", - kimi sözlərlə ağılla davranan insanı özləri kimi ağılsızlığa sövq etmək istəyərlər. Bu məqamda İbrahim peyğəmbər yenə anlamayan insanlara öz dillərində cavab verməyə başlayır:

(Müşriklərin bəziləri) "İbrahim deyilən bir gəncin onları pislədiyini eşitmişik!" – dedilər. (Qalanları) "Bunların şahidlik edə bilmələri üçün onu (tapıb) camaatın gözü qabağına gətirin!" – dedilər. (Onlar) "Ya İbrahim! Tanrılarımızı sənmi bu günə saldın?" - deyə soruşdular. (İbrahim sındırmadığı iri bütü göstərib) "Bəlkə, onların bu böyüyü bunu etmişdir. Əgər danışa bilirlərsə, özlərindən soruşun!" – deyə cavab verdi. Bunun nəticəsində onlar öz-özlərinə müraciətlə "Siz, doğrudan da zalımlarsınız", - dedilər.

Bu qisimdə çox maraqlı bir dialoq keçir. Cəmiyyət ilk dəfə qırılan bütləri görüncə özünü itirmiş

olur və həmin bütləri qoruya bilmədikləri üçün başlarına böyük bəla gələ biləcəyini düşünür, yubanmadan müqəssiri tapıb cəzalandırmağa çalışır. İnsanların inandıqları və qəbul etdikləri yersiz, heç bir mənası olmayan adət və ya anlayışı onlara çatdıranda əvvəlcə ehtiyat edirlər. Bu barədə danışınca başlarına nəsə gələcəyini düşünərlər. Xüsusilə, öz günahları üzündən hansısa bədbəxt hadisə ilə qarşılaşanda onları xəbərdar edən adamı günahlandırar və onun üzündən başlarına belə bir hadisə gəldiyini düşünərlər. Necə ki, bir ayədə belə buyurulur:

“Onlar dedilər: “Biz sizdə bir uğursuzluq gördük. (Sizin ucbatınızdan yurdumuzun bərəkəti çəkildi). Həqiqətən, əgər (Allahın elçiləri olmaq iddianızdan) əl çəkməsəniz, sizi mütləq daşqalaq edəcəyik və bizdən sizə mütləq bir şiddətli əzab toxunacaqdır”. (Elçilər) dedilər: “Sizin nəhsliyiniz (uğursuzluğunuz) öz ucbatınızdandır. Məgər sizə öyüd-nəsihət verildikdə (onu uğursuzluğa, nəhsliyəmi yozursunuz)! Xeyr, siz (günah etməkdə) həddi aşan bir camaatsınız!”.



Günahkarın İbrahim olduğu təxmin edilincə, ondan bu davranışın səbəbindən daha çox onu cəzalandırmaq üçün etiraf etməsini istəyirlər. İbrahim peyğəmbər etiraf etmir, əksinə, onların ağlına xitab edir. Bütün bütləri sındırarkən ən böyük bütü saxlayıb baltanı onun çiyninə qoyur, onun haqqında digər bütləri sındıran həmin büt imiş kimi təəssürat yaratmaq istəyir, bütə işarə edərək ondan soruşmalarını istəyir. Əsl məqam burada başlayır. Hər kəs məsələnin iç üzünü başa düşür və nə qədər gülünc bir vəziyyətdə olduqlarını görür. Ətrafdakı bütpərəstlər özlərini aldatdıqlarını İbrahim peyğəmbərin sayəsində bilmiş olurlar. Buna görə də özlərinə zalım, özünü aldadan, axmaq yerinə qoyan bir insan kimi baxırlar. Başa düşürlər ki, dilsiz-ağılsız, heç özlərini belə qorumağa qadir olmayan bütlərə tapınmaqla nə qədər mənasız bir inanca sahib olublar. Təbii ki, inancı dəyişdirmək, həqiqəti qəbul etmək böyük cəsarət istəyir. Dəyişiklik gərək ictimai, siyasi, sosial, adət-ənənə, həyat tərzi və bunun kimi hər sahədə olsun. Məhəmməd peyğəmbərin “Allahdan başqa tanrı yoxdur deyib xilas olun” cümləsini qəbul etməməkdə hansı məqsəd var idisə, burada da eyni mahiyyət görünür. “La ilahə illəllah” deyərək, kölələrlə insan kimi davranmaq, onları azad buraxmaq, hakimiyyəti əldən vermək, qadınlara, kasıblara zülm etmək əvəzinə onları qorumaq, qız uşaqlarını basdırmaq yerinə cəmiyyətə qazandırmaq, güclünü haqsız olduğu halda haqlı görmək yerinə onu cəzalandırmaq kimi düşüncələrin tədricən cəmiyyətdə hakim olacağını bilərək onu qəbul edə bilməz, dəyişə bilməzdilər. Çünki öz rahatlıqlarından əl çəkmiş olurlar. İbrahim peyğəmbəri də eyni məntiqlə qəbul etmir, öz ağılsız, köləşdirilmiş düşüncələrində israr etməyə davam edirlər:

Sonra (mübahisədə aciz qaldıqlarını görüb) yenə də öz küfrlərinə qayıdaraq: “Axı sən bilirsən ki, bunlar danışmırlar!” – dedilər. O,

dedi: "Elə isə Allahı qoyub sizə heç bir xeyir və zərər verə bilməyən bütlərəmi ibadət edirsiniz? Tfu sizə də, Allahdan başqa ibadət etdiyiniz bütlərə də! Görəsən başa düşmürsünüz?".

Beləcə, İbrahim peyğəmbər onları öz dialoqu ilə hərtərəfli susdurur. O, özlərinə də yararsız heykəllərin canlı, təfəkkür sahibi insanlara nə kimi fayda verəcəyini soruşur.

Cəmiyyətimizdə özünə belə faydası olmayan, heç vaxt uğur qazanmayan, hətta buna cəhd belə etməyən bir çox insanın dəyişiklik istəyən, cəmiyyətə inkişaf və işıq bəxş etmək istəyən insanlara mane olması bu hekayəyə bənzəyir. Zəncirlənmiş və qəlibləşmiş düşüncəsi ilə hər şeyin onun bildiyi kimi olmasını hər kəsə qəbul etdirmək istəyir. Halbuki, heç bir məntiqə sığmayan düşüncəsiz zehni ilə bütləşdirdiyi insanların dediklərini doğru qəbul edir. Onların həyat tərzini, ekranlarda gördüyü əyləncələrini, yaşatdıqları zülmü ideallaşdırır. Məntiqlə düşünməyən kölədüşüncəli insanlar elə zənn edirlər ki, ideallaşdırdıqları ataları, yaxud rəhbərləri haqlıdır. Onlar həmin insanların hakimidir və ən gözəl həyatın onlara məxsus olduğunu düşünərlər. Halbuki "Onların əksəriyyəti dərindən düşünməz!"; "Allah yanında (yer üzündə) gəzən canlıların ən pisi (haqqı) dərk etməyən (qulağı olan) karlar və (dili olan) lallardır".

**Həqiqətə sədaqət**

Həqiqəti dərindən dərk və hiss etdikdən sonra illərlə bunu çatdırmaq üçün yaşayan və mübarizə aparan İbrahim peyğəmbərin özünün böyük sınağı başlayır. Görəsən, həmin azad düşüncəni insanlara çatdıran, onları xəbərdar edən adam özü-öz iradəsinə sahib çıxaraq duyğularına yeniləcəkmi? Yoxsa azadlığını nəyəsə, kiməsə qurban verəcəkmi? Cəmiyyətin bizi məcbur etdiyi düşüncələrdən uzaqlaşınca azad təfəkkürə çatmış olarıq, lakin bəzən özümüzün düşdüyümüz şərait və yaşadığımız duyğuların da əsirinə çevrildiyimizin fərqinə varmarıq. Bizim üçün vacib olan və heç vaxt əl çəkməyi düşünmədiyimiz dəyərlər var ki, daim ona bağlı qalar və həyatımızı ona bağlayarıq. Bu duyğular bizi bəzən o qədər əsir edər ki, daha ülvi, daha uca dəyərləri görməzdən gəlmiş olarıq.

İbrahim peyğəmbər bu duyğuların ən ağırı ilə imtahan olundu. Həmin duyğu ilə özünün əsir olub-olmadığını anlayır. Duyğuların ən ucası Allaha, dininə, inancına, vətəninə sədaqət duyğusudur. Bütün həyatını bu düşüncələr üzərində quran insanlar ən böyük işlərin öhdəsindən gələ bilən ən üstün insanlar olublar. İbrahim peyğəmbər ən uca duyğunun, Allaha sədaqətin, bağlılığın qarşısına hər hansı ikinci sevgini qoymağa cürət etməyib.

Çox yaşlı bir zamanında, övladının olmasına ümidini kəsdiyi bir vaxtda oğlan övladına sahib olub. İsmayıl onu yaşamağa olan ümidlərinin işığı kimi həyata bağlayıb. Hər bir valideyn kimi uzun zaman gözlədiyi an - övladının əlindən tutub, onun dəstəyini görə biləcəyi bir vaxtda böyük və çox çətin bir əmrlə qarşılaşır. Bu, elə bir an idi ki, uzun müddət gözlədiyi övladı ilə bağlı idi. Onun üçün canını verəcək qədər sevdiyi, bütün həyatını onun xoşbəxtliyinə həsr etdiyi övladı. Həmin yaşdan sonra İbrahim peyğəmbərin həyatdan gözlədiyi başqa bir şey yox idi və olmayacaqdı da. Ataliq duyğusunun zirvədə olduğu bir vaxtda yerinə yetirməyin imkansız olduğu bir əmr gəlir: oğlunu qurban et! Bu qədər illər böyüdüb, boya-başa çatdırıb, saxlayıb, tərbiyələndirdiyin, ümidlərini bağladığın oğlunu qurban et! Elə bir övlad ki, bir an belə sözündən çıxmaz, ləyaqətli varis, nəslinin layiqli davamçısıdır. Gözləmədiyin bir anda, atalıq duyğusunun zirvədə olduğu anda ondan əl çəkmək və üstəlik, öz əlləri ilə qurban etmək insanın heç vaxt qəbul etməyəcəyi bir andır. Öz duyğularından, bağlılığından azad olmaq:

"(İbrahim dua edib) dedi: "Ey Rəbbim! Mənə salehlərdən olan (bir övlad) bəxş et!" Biz də ona həlim xasiyyətli bir oğlan uşağı (İsmail) ilə müjdə verdik. O, yüyürüb qaçmaq (atasına kömək edə bilmək) çağına çatdıqda (İbrahim) dedi: "Oğlum! Yuxuda gördüm ki, səni qurban kəsirəm. Bax gör nə fikirləşirsən!" O dedi: "Atacan! Sənə nə əmr olunursa, onu da et. İnşallah, mənim səbrlilərdən olduğumu görəcəksən!" Onların hər ikisi (Allahın əmrinə) təslim olduğu və (İbrahim İsmaili qurban kəsmək üçün) üzüstə yerə yıxdığı zaman Biz ona belə xitab etdik: "Ya İbrahim! Artıq sən röyanın düzgünlüyünü təsdiq etdin!" (Allah sənə lütf edərək oğlunun yerinə bir qoç kəsməyi buyurur). Biz yaxşı iş görənləri belə mükafatlandırırıq. Şübhəsiz ki, bu, açıq-aydın bir imtahan idi. Biz ona böyük bir qurbanlıq əvəz verdik. Sonradan gələnlər arasında onun üçün (yaxşı ad, gözəl xatirə) qoyduq. "İbrahimə salam olsun!".

Hər kəs üçün övladı çox dəyərlidir. O qədər dəyərlidir ki, necə olur-olsun, onun uğrunda hər cür əziyyətə belə qatlaşar, canından keçər. İbrahim peyğəmbər kimi gec bir zamanda övlada sahib olanlar üçün bu dəyərin qiyməti



ölçülməz. Təbii ki, peyğəmbər yuxusu ilə sadə insanların yuxusu eyni ölçülməz və Allah insanlara bu şəkildə ağır məsuliyyət yükləməz. Peyğəmbərlərin imtahanı hər kəsdən daha ağır olmalıdır. Burada imtahan İbrahim peyğəmbərin Allaha bağlılığını ölçmək məqsədi daşımır. Bu imtahanın İbrahim peyğəmbərin nəfsinə nə qədər dəyərli olur-olsun, qalib gələ bilməsidir. Onun üçün Allaha bağlılıq hər şeydən, hər kəsdən daha üstündür. Əslində, bəzən çox bağlandığımız və əhəmiyyət verdiyimiz bəzi şəxslər və ya üstünlüklər imtahanımızdır, özümüzü sınağa tabe tutmaqdır:

"Əlbəttə, Biz sizi bir az qorxu, bir az aclıq, bir az da mal, can (övlad) və məhsul qıtlığı ilə imtahan edərik. Səbr edən şəxslərə müjdə ver! O kəslər ki, başlarına bir müsibət gəldiyi zaman: "Biz Allaha aidik və Onun dərgahına qayıdacağıq!" deyirlər".

Bu imtahanda vacib olan bizi özünə həbs edən və azadlığımızı bizdən alan, bizi Allahdan və ya uca dəyərlərdən uzaqlaşdıran şeyləri qurbanvermə cəsarətinə sahibikmi? İbrahim peyğəmbər üçün ən vacib dəyər onun oğlu İsmayıl idi. Bəs bizim qurban etməli olduğumuz İsmayılımız kimdir və ya nədir? Vəzifəmiz, cəmiyyətdəki mövqeyimiz, qürurumuz, statusumuz, məsləkimiz, maddi vəziyyətimiz, evimiz, maşınımız, paltarımız, sevdiyimiz, ailəmiz, elmimiz, rütbəmiz, məharətimiz, şanşöhrətimiz, gəncliyimiz, gözəlliyimiz, yoxsa?.. Bunun hansı olduğunu biz özümüz təyin edə bilərik.

Qurban kəsərkən, sadəcə, qan axıtmaq, yaxud ət parçası yemək düşüncəsi deyil, o qanın axdığı anda günahlarımızı xatırlamaq, onlardan tövbə etməyi düşünmək Allaha yaxınlıqdır. "Qurban" sözünün mənası da yaxınlıq deməkdir. Bizim uzaqlaşmalı olduğumuz məqamlarda susmağımız, etinasız qalmağımız həqiqətə əngəl törədirsə, onları qurban verməyə ehtiyacımız var. Hər birimiz İbrahim peyğəmbər ola bilər və hər birimizin İsmayılı olan həssas nöqtəmiz, zəifliyimiz bizi İblis, yaxud onun kimi insanların oyuncağına çevirə bilər. İsmayıl bizim üçün, sadəcə, bir şəxs deyil, başqa bir ünsür də ola bilər. Bir hadisə bir vəzifə, bir zəif nöqtəmiz olar. Bəzən İsmayılımızı qorumaq, yaxud onu əldə etmək üçün şərəfimiz, şöhrətimiz, təmiz adımız kimi bilinən zirvədən enməyə məcbur qalarıq. Azadlığını qazanmaq, həqiqəti görüb ondan zövq almaq istəyən şəxs bu zəifliklərdən qurtulmalıdır. Bu, bizim məsuliyyətimizdir, varlığımızın səbəbidir. Bu məqamda İsmayılımızı öldürüb öz əlimizlə qurban edə bilərikmi?

İbrahim peyğəmbərin bu 3 hekayəsi bizi özümüzə güzgü kimi göstərir. Varlığımızın mənasını, həyatımızdakı ali məqsədləri, məsuliyyətimizin sərhədlərini gözlərimiz önünə sərir. Burada sadəcə dini inanca sadiqlik, yaxud dini dəyişdirməkdən söhbət getmir. Bu, məsələnin üzdə görünən qismidir. Əslində, bizim ruhumuzun həbs olmasının həyatdan zövq almamağımızın, məqsədimizin fərqinə varmamağımızın səbəbini açıqlayır: özünü dəyişdir uca varlıq! Özünü dəyişdir ki, ali mərtəbələrə ucala biləsən. Kimlərinsə həyatını yaşamaqdan, sənə biçilən rolları oynamaqdansa, həyatına sahib çıx - azad düşün, azad yaşa. Əgər azad düşünməyinə mane olanlar varsa, onları dəyişdir, yaxud onlardan uzaqlaş. Bəli, bu çox çətin prosesdir. Lakin nəticədə nail ola biləcəyin yoldur. Sən ətrafına azadlıq işığı ilə bərq vursan, o zaman həqiqətən özün də köləlikdən, əsarətdən xilas olar, əsalətə çatarsan. Həyatın sənə diktə etdiyi prinsiplərlə boğuşub ömrünü bir heçlik içərisində başa vurmazsan. Ömrünboyu mübarizə apardığın şeylər uğrunda bircə dəfə yaşadığın həyatını külə çevirməzsən. Düşün! Düşün ki, özünü və ətrafını dəyişəsən.

***"Hər hansı bir cəmiyyət özünü (nəfsində olanları) dəyişdirmədikcə, Allah da onu dəyişməz".***



Asəf Qənbərov,
s.f.d., AİI-nin
dekan müavini

# Uşaqların dini təlim-tərbiyəsinin psixoloji aspektləri

Mədəniyyətin əsas daşıyıcılarından biri olan dini dəyərlər və ənənələr məcmuəsinin gənc nəsillərə aşılanması uşaqların sosiallaşdırılması və tərbiyəsinin əsasını təşkil edir. Bu proses, eyni zamanda, uşaqların şəxsiyyət kimi formalaşmasında vacib rol oynayır. Sosioloji və psixoloji ədəbiyyatda bu, uşaqların sosializasiya prosesi adlanır ki, mədəniyyətin reproduksiyası və yenidənistehsalı məhz bu proses sayəsində həyata keçir. Tərbiyə təhsildən fərqli olaraq, daha geniş anlayış olub, əsasən ailədə, sosial mühitdə və eyni zamanda, məktəbdə baş tutur. Tərbiyə daha çox sivil xarakter daşıyır və əsasən, icbari təhsil sisteminin kənarında cərəyan edir. Uşaqların şəxsiyyət kimi formalaşmasında vacib rol oynayan ikinci amil isə təhsildir. Təhsil həm icbari, həm də formal xarakter daşıması baxımından tərbiyədən daha məhdud proses kimi nəzərdən keçirilə bilər. Uşaqların şəxsiyyət kimi formalaşmasında mühüm rol oynayan dini tərbiyə və təhsil problemini müzakirə edərkən, həm bu proseslərin sosial reallığı, məqsədi, məzmunu, həm də uşağın psixoloji inkişafı və ailədaxili münasibətlərinə mümkün təsirləri nəzərə alınmalıdır. Uşaqların dini tərbiyəsi ilə əlaqədar qanun tənzimləmələri və ümumilikdə uşaqların din təhsili ilə bağlı gedən müzakirələr uşaqların dini tərbiyəsinin psixologiyası, eyni zamanda, dini tərbiyədin təhsili fərqləri baxımından qiymətləndirilməlidir. Belə ki, uşaqların dini təlim-tərbiyəsinin əsasları, prinsipləri, dini tərbiyənin yaşı və s. məsələlərlə bağlı Din psixologiyası elmində çox sayda araşdırmalar və tədqiqatlar həyata keçirilib. Həmin araşdırmalardan faydalanmaqla bu sahədə gedən müzakirələrə önəmli töhfələr verilə bilər.

İlk növbədə, uşaqların din təhsilinə hansı yaşlardan hazır olduqlarını müəyyənləşdirmək üçün, uşaqların koqnitiv (əqli) inkişafı ilə əlaqədar bəzi psixoloji konsepsiyaları nəzərdən keçirmək məqsədəuyğun olardı. Bu mövzuda tanınmış isveçrəli psixoloq Jan Piaje (1896-1980) uzun illər uşaqların koqnitiv inkişafını müşahidə edərək dərin analizlər apararaq önəmli nəticələr əldə edib. J.Piaje hesab edir ki, uşaqlar ətraf mühiti öyrənmək baxımından dörd idrak mərhələsindən keçir: sensor-motor mərhələ, əməliyyatqabağı mərhələ, konkret əməliyyatlar mərhələsi, formal əməliyyatlar mərhələsi. Qeyd edək ki, J.Piaje əməliyyat dedikdə, əqli mühakimə; uşağın fiziki olaraq gördüyü işləri zehnində tutmaq qabiliyyətini nəzərdə tutur.

Sensor-motor mərhələdə (2 yaşa qədər) uşaq ətraf aləmi sadəcə, duyğular və hisslərlə dərk edir. Onun üçün reallıq gördüyü, eşitdiyi, toxunduğu şeylərdən ibarətdir. Bu dövrdə dini tərbiyədən danışmaq mümkün deyil, lakin bəzi psixoloqlar hesab edirlər ki, uşaq ilə valideyn arasında sıx asılılıq əlaqəsi onun gələcəkdə güclü və qoruyucu bir varlığa bağlanma ehtiyacının əsasını təşkil edir. Əməliyyatqabağı mərhələdə (2-7 yaş) uşaq ətraf mühiti simvollar və ya rəmzlərlə ifadə etməyi öyrənir. Məsələn, dilin öyrənilməsi buna misal çəkilə bilər. Lakin bu dövrdə uşaq zehni üçün eqosentrizm–hər şeyə öz perspektivindən baxma və animizm–canlı və cansız olan hər şeyi iradə sahibi, canlı hesab etmə xarakterikdir. Əqli mühakimə isə bu dövrdə, demək olar ki, heç inkişaf etmir, əsas öyrənmə vasitəsi təqlid və oyun oynamaq olur. Dini tərbiyə baxımından, qeyd edilməlidir ki, bu dövr böyük əhəmiyyətə malikdir. Belə ki, uşaq müşahidə etdiyi bütün hərəkətləri, o cümlədən, dini davranışları sorğu-sual etmədən təqlid edir. Konkret əməliyyatlar mərhələsində (7-11 yaş) uşağın konkret və ya əyani müstəvidə məntiqi düşüncəsi inkişaf edir. Eqosentrizm azalır, əyani məntiqi problemləri həll edə bilir. Konkret əməliyyatlar mərhələsində olan uşaqların əksəriyyəti həyatın və ölümün mənbəyi haq-



qında suallar verməyə, dini hadisələr haqqında düşünməyə başlayırlar. Lakin düşüncə formal və mücərrəd deyil, konkret-əyani xarakter daşıyır. Misal üçün, Allahın harada olduğu, nəyə oxşadığı və buna bənzər konkretlik ehtiva edən suallar verilir. Formal əməliyyatlar mərhələsində (11 yaş və yuxarı) fərd formal və mücərrəd mühakimə, ümumi məntiq qaydalarından istifadə etmə qabiliyyəti qazanır. Simvolik dil, analogiya və məcazi ifadələri, başqalarının nöqteyi-nəzəri dərk edilə bilir; hətta Allahın varlığı, həyatın məqsədi və ölümdən sonra həyat kimi mücərrəd mövzularda müəyyən fikirlərə malik ola bilir.

J.Piajedən ilham alaraq öz nəzəriyyəsini işləyib hazırlayan J.Bruner isə uşağın zehni inkişaf mərhələlərini belə təsnif edib: əməli (enactive-fəaliyyət vasitəsilə idrak) 0-1 yaş, ikonik (iconic– zehni rəsm və şəkillər vasitəsilə idrak) 1-6 yaş, simvolik (symbolic – simvol və rəmzlərlə ifadə olunan idrak) 6 yaş və yuxarı. Simvolik idrakın 6 yaşdan başlanmasına baxmayaraq, formal idrakın daha yuxarı yaşlarda inkişaf etdiyi qeyd olunur.

Yuxarıda şərh edilən zehni idrak mərhələlərinin dini tərbiyəyə təsirləri nədən ibarətdir? Bu suala ətraflı cavab vermək üçün, gəlin, "A.Qənbərov və B.Həsənovun müəllifi olduqları "Din psixologiyası" kitabından müvafiq fəslin xülasəsini nəzərdən keçirək.

"Jan Piaje koqnitiv inkişafın dördmərhələli modelini dini həyat baxımından dəyərləndirməmişdir. Lakin bu model dini həyat nöqteyi-nəzərindən bəzi önəmli məsələləri aydınlaşdırmağa geniş imkanlar yaradır. Belə ki, dinin ifadə tərzləri son dərəcə mücərrəd, simvolik, analogiya və metaforalardan istifadə edən bir üsluba malikdir. Uşaqlar transsendental həqiqəti konkret və gündəlik təcrübənin xaricində təsəvvür edə bilmədikləri üçün bunu kifayət qədər dərk edə bilməzlər. Bu üslubu başa düşə bilməsi üçün fərdin mücərrəd əməliyyatlar mərhələsində olması lazımdır ki, bu da Piajeyə görə, 11 yaşından əvvəl mümkün deyildir. Ona görə də Allahın əbədi, əzəli, hər şeyə qadir, hər şeyi bilən bir varlıq kimi təsvir edilməsi çox vaxt uşağın Allahı göydən, buludların üzərindən bizə baxan ağsaqqal baba obrazında təsəvvür etməsinə səbəb olur.

Din təhsili üzrə məşhur pedaqoq Ronald Qoldman "Uşaqlıqdan yeniyetməliyə dini düşüncə" adlı kitabında 11 yaşından kiçik uşaqlarda mücərrəd düşüncə inkişaf etmədiyi üçün onlara din haqqında nə isə öyrətməyin arzuedilməz olduğunu qeyd edir. Çünki bu zaman uşaq başa düşə bilmədiyi ekzistensial problemlər haqqında mücərrəd və simvolik din dili ilə ifadə edilmiş baxışlarla qarşılaşır. Şübhəsiz, uşaqlar bu baxışları özlərinin mövcud koqnitiv inkişaf mərhələsinin düşüncə xüsusiyyətlərinə, yəni əməliyyatqabağı və yaxud konkret əməliyyatlar mərhələsinə xas olan literal anlama xüsusiyyətinə uyğun olaraq başa düşməyə çalışacaqlar. Nəticə etibarilə, dini məfhumların doğru mənası və məqsədi səhv başa düşüləcəkdir.

R. Qoldman tərəfindən formal əməliyyatlar mərhələsinə çatmamış uşaqlar arasında aparılan bir araşdırmada uşaqların 80%-nin İncildəki dini hekayələrə literal (hərfi) məna verdiklərini aşkar edib. Erik Marşal və Stüart Hempl "Uşaqlardan Tanrıya məktublar" adlı tədqiqatında uşaqlardan Tanrıya məktub yazmalarını istəyiblər və kitablarında bu məktublara yer veriblər. Uşaqların yazdığı məktublardan bəziləri aşağıdakı kimidir:

Əziz Tanrı, keçən həftə Nyu-Yorka gedərkən Saint Patrik kilsəsini gördüm. Çox gözəl bir evdə yaşayırsan (Frankl).

Əziz Tanrı, niyə heç televiziyaya çıxmırsan? (Kim).

Əziz Tanrı, yeni hekayələr yaza bilərsən? Yazdıqlarının hamısını oxuyub bitirdik və yenidən əvvələ qayıtdıq (Terri).



Məlum olduğu kimi, bu məktublarda yer alan cümlələr konkret (əyani) əməliyyatlar mərhələsinin özünəməxsus ifadələridir.

Formal əməliyyatlar mərhələsinə çatanda mücərrəd, simvolik düşüncə qabiliyyətinin formalaşması ilə bağlı J.Piajenin tezisi R.Qoldmanın 13 yaşındakı və daha böyük yeniyetmələr arasında apardığı tədqiqatda da təsdiqləndi. Belə ki, Qoldmanın araşdırmasında bu mərhələdəki fərdlər diqqətini müqəddəs kitablardakı hekayələrin literal mənasından çox, onun dərin ehtiram və hörmət təlqin edən xüsusiyyətlərinə cəmləşdirdilər. Robert Kolz "Uşaqların mənəvi həyatı" adlı tədqiqat əsərində 12 yaşındakı bir qız uşağının mücərrəd səviyyədəki suallarını nəql edir: "Tanrının necə olduğunu bilmək istəyirəm. O kimdir? İnsanlardan çox-çox əvvəl mövcud olmuş biridirmi? O, realdırsa, bizim necə olmalı olduğumuzla bağlı nə düşünür?".

R.Qoldmanın tədqiqatları nəticəsində məlum olur ki, uşaqların əməliyyatqabağı mərhələyə aid koqnitiv inkişaf səviyyəsinə uyğun olaraq, dini məfhumları səhv başa düşmələri başqa problemlərə də gətirib çıxara bilər. Qoldman, hətta uşaqların dinə literal bir məna verdikdən sonra, növbəti illərdə də dini məfhumların mücərrəd, simvolik strukturuna uyğun hərəkət etmələrinin çətin olduğunu düşünür. Uşaqlar, adətən, inanc sisteminin formalaşdığı dövr sayılan konkret əməliyyatlar mərhələsini arxada qoyaraq, böyüdükcə üç seçimlə qarşılaşırlar: 1) din təsəvvürünü dinin mücərrəd, simvolik və ekzistensial xüsusiyyətlərinə uyğun olaraq dəyişdirməsi; 2) dinin literal mənasına bağlı qalmaq və bunun doğru olduğuna inanmaq; 3) dinin literal mənasının sadəlövh bir anlayış olduğunu düşünərək inkar etmək.

Bu ehtimalları yaxından nəzərdən keçirdikdə, qeyd edilməlidir ki, düzgün təlim-tərbiyə nəticəsində birinci seçimin reallaşması, yəni dinin mənasına və əsas məqsədlərinə yönəlmək imkan daxilindədir. Lakin sosial mühit tərəfindən literal mənada başa düşülən dini etiqada bağlı qalmaq üçün ictimai cəhətdən dəstək mövcud olarsa, ikinci seçimin reallaşma ehtimalı vardır. Nəhayət, literal mənada öyrənilən dini inanclar üçün ictimai dəstəyin olmadığı vaxt isə üçüncü seçimin, yəni bütövlükdə dini düşüncənin inkarının reallaşma ehtimalı daha çoxdur. Məktəblilər arasında aparılan bir çox tədqiqatlar R.Qoldmanın bu mülahizələrini haqlı çıxarmış və təsdiqləmişdir."

Beləliklə, deyilənlərdən aydın olur ki, uşaqların dini təlim-tərbiyəsi və dini təhsilində onların psixoloji inkişaf mərhələlərini nəzərə almaq olduqca vacibdir. Dini tərbiyə, qeyd olunduğu kimi, əsasən, ailədə baş verdiyi üçün bu prosesi hər hansı bir şəkildə qanunla tənzimləmək mümkün deyildir, buna ehtiyac da yoxdur. Uşaqlar, təbii olaraq ailənin dinə münasibətinə uyğun şəkildə dini tərbiyə alır və bu onun şəxsiyyətinin formalaşmasına mühüm təsir göstərir. Dini tərbiyə ailə fərdlərinin dini-mənəvi dəyərlər baxımından fikirbirliyinə varmalarına, ailənin tam mənəvi birlik olmasına xidmət edir. Deməli, uşağın ilk yaşlarından etibarən dini tərbiyəsi üçün münbit şərait olmalıdır. Valideynlər uşaqlara dini tərbiyə verərkən, nümunəvi davranışları həyata keçirərək, bir sözlə, daha çox əməli baxımdan onlara nümunə olmalıdırlar. Allahın insanları bəd əməllərinə görə cəzalandırması, günahkarlıq, əzab və s. kimi mövzulardan ümumiyyətlə, bəhs edilməməlidir. Çünki bu, uşaqlarda cəzalandırıcı tanrı anlayışının yaranmasına gətirib çıxara bilər.

Məktəbdə din təhsili məsələsinə gəlincə, uşaqların koqnitiv inkişaf dövrləri nəzərə alınaraq, bunun orta məktəb səviyyəsindən etibarən (11-12 yaşlardan) başlamasının daha məqsədəuyğun olduğunu söyləmək mümkündür. Qeyd olunduğu kimi, J.Piajenin və digər pedaqoqların nəzəriyyəsinə əsasən, yalnız zehni inkişafı formal əməliyyatlar mərhələsinə çatmış uşaqlar din təhsili almağa hazır vəziyyətə gəlir. Fikrimizcə,

daha erkən yaşlarda fenomenoloji, müqayisəli din təhsili bir çox problemlərə səbəb ola bilər. İlk növbədə, qeyd olunmalıdır ki, məktəbəqədərki və ibtidai məktəbli yaş dövründə uşaqlar formal din təhsilinin fəlsəfi mülahizələrinə hazır deyil, məsələn, "bütün dinlər xeyirxahlığı əmr edir" kimi mücərrəd anlayışlar uşaqlar üçün çox şey ifadə etmir. Lakin Ramazan və ya Qurban bayramlarında uşaqların da iştirakı ilə ehtiyac sahiblərinə müəyyən köməkliyin göstərilməsi (əməli, konkret əməliyyat) onlarda yardımlaşma və xeyirxahlıq duyğularının yaranmasına daha çox töhfə verəcəkdir. Digər tərəfdən formal din təhsili ilə evdə yaşanan din tərbiyəsi və dini praktikalar arasında hər hansı təzadın olması (təbii ki, bu din təhsilinin forması, məqsədi, məzmunundan asılıdır) ailədaxili fikri münaqişəyə, nəhayət, uşağın zehnində dini baxımdan böhranlı vəziyyətin yaranmasına səbəb ola bilər. Koqnitiv inkişafı formal əməliyyatlar mərhələsinə çatmamış uşaqlarda bunun daha da problemli olmasını söyləmək mümkündür. Məsələn, "İslam dinində namaz və oruc ibadətini yerinə yetirmək vacib hesab olunur" mülahizəsini öyrənən uşaq valideynlərinin dini praktikasında bunları müşahidə etməyəndə, onların müsəlman olmadıqları qənaətinə vara bilər. Bəzi pedaqoqlar, dinlər haqqında müqayisəli və fenomenoloji (təsviri) təhsilin verilməsinin uşaqlarda konkret bir dini inancın və ona uyğun dünyagörüşünün yerləşməsinə mane olduğunu qeyd edirlər. Yəni, uşaqlar din ilə əlaqədar çoxlu məlumat alır, lakin həyatın mənası, məqsədi ilə bağlı onların dünyagörüşünü zənginləşdirən hər hansı bir inanc sistemini mənimsəmir. Müqayisəli və fenomenoloji din təhsili uşaqlar arasında dinə münasibət baxımından, sanki qərarsız fərdlərin, başqa sözlə, "balaca skeptiklər"in formalaşmasına xidmət edir. Buna görə də uşaqların dini tərbiyəsini həyata keçirərkən, daha çox onların dünyagörüşünün zənginləşməsini və mənəviyyatının inkişafını təmin edən konkret və əməli metodlar əsas götürülməlidir.

Uşaqların dini tərbiyəsi və din təhsili ilə əlaqədar deyilənləri nəzərə alaraq, aşağıdakı nəticələri çıxarmaq mümkündür. Uşaqların dini tərbiyəsi və din təhsili onların zehni inkişaf mərhələləri nəzərə alınaraq həyata keçirilməlidir. Bu, onların şəxsiyyət kimi formalaşmasında önəmli rol oynadığı kimi, ailədaxili dünyagörüşü həmrəyliyi, nəhayət ailənin mənəvi birlik olması baxımından da böyük əhəmiyyət kəsb edir. Məktəblərdə həyata keçirilən formal din təhsili məntiqi mühakimə dövrünə qədəm qoymuş və dinə münasibətdə müəyyən inancın yerləşdiyi uşaqlarda daha faydalı nəticələr doğuracaqdır. Nəhayət, qeyd olunmalıdır ki, uşaqların dinə münasibəti, dini şəxsiyyəti və həyatın mənası və məqsədi ilə bağlı dünyagörüşünün formalaşmasında məhz ailədəki dini tərbiyə həlledici rol oynayır.



# ERMƏNİ FAŞİZMİ

## Elmi-nəzəri, fəlsəfi, sosial, siyasi təhlil



**Əsədulla Qurbanov,**

**Bakı Dövlət Universiteti İslamşünaslıq Elmi Tədqiqat Mərkəzinin rəhbəri, fəlsəfə elmləri doktoru, professor**

*"Ermənistan faşist vandalları təkcə insanlığa deyil, bütün canlı aləmə, təbiətə də qənim kəsiliblər".*

**İlham Əliyev**

"Faşizm" italyanca "faşi-de kembatı" sözündən olub, hərfi, lüğəti mənası "döyüş dəstəsi" deməkdir. Həmin söz erməni dilçiliyi baxımından "işğalçı, talançı", "dağıdıcı", "qırıcı", "terrorçu", "vandal" kimi məkrli, xəbis, mürtəce məna, məzmun kəsb edir.

Erməni faşizminin mürtəce mahiyyətini aşağıdakı mülahizələr, fikirlər, konkret və inandırıcı faktlar, misallar bir daha sübut və təsdiq edir. Bu münasibətlə müqayisəli fikir söyləmək istərdik.

Əgər alman-Hitler faşizminin 1941-1945-ci illərdə İkinci Dünya müharibəsində keçmiş SSRİ-də törətdiyi vəhşiliklərlə erməni faşist vandallarının son 30 ildə müstəqil Azərbaycanda həyata keçirdikləri çoxsaylı amansız, ağlasığmaz qırğınları, talançılığı müqayisə etsək, belə bir məntiqi qənaətə gəlmək olar ki, alman faşistləri erməni faşist vandallarının yanında toya-bayrama getməlidir. Başqa sözlə desək, alman faşistlərinin məqsədi, əsasən, keçmiş SSRİ-ni məhv etmək idisə, erməni faşist vandalları daha məkrli, xəbis, iyrənc... niyyətlər güdüblər. Digər mülahizə ilə söyləsək, erməni faşist vandalları təkcə müstəqil Azərbaycanı deyil, bölgəni, bütövlükdə mütərəqqi bəşəriyyəti məhv etməyi qarşılarına məqsəd qoymuşlar. Buraya aşağıdakı bir əlavəni də etmək istərdik. Erməni faşist vandallarının digər məkrli niyyəti türk-müsəlman – İslam aləminə ağır, sarsıdıcı zərbə vurmaqdır. Yaxın günlərdə Qafqaz Müsəlmanları İdarəsi Ermənistan – Azərbaycan, Dağlıq Qarabaq münaqişəsi ilə bilavasitə bağlı konfessiyalararası birgə bəyanət qəbul edib. Həmin bəyanatda deyilir: "Digər xalqlara qarşı dözümsüzlüklə səciyyələnən cəmiyyət yaratmış Ermənistan çoxmillətli və çoxkonfessiyalı Azərbaycanın işğal altında olan ərazilərində tarixən mövcud olmuş qədim Alban, pravoslav müsəlman dini və mədəni irsni tamamilə silməyə çalışıb. Mənəvi-mədəni irs nümunələrimizi ya tamamilə dağıdıb, ya da tarixini və mənşəyini saxtalaşdıraraq özününküləşdirib – erməniləşdirib, qriqorianlaşdırıb".

Göründüyü kimi, burada belə bir doğru, düzgün məntiqi nəticəyə gəlmək olar ki, erməni faşist vandallarının bundan sonra insanlıqda payı yoxdur, onların dünyada yaşamağa haqqı çatmır.

Yeri gəlmişkən, bir haşiyə çıxmaq istərdik. İctimai, humanitaryönlü elmlərə aid lüğətdə Allah, əsasən, dini təsəvvürlərin məcmusu kimi qeyd olunur. Müasir dinlərdə, o cümlədən dünya dini olan İslamda bu, bir qayda olaraq, Ali Zəkanın, mütləq və kamilliyin, qadirliyin aid edildiyi, dünyanı yaradan və onu idarə edən ali mahiyyətdir. Belə olan halda sual olunur: "Ey Qadir, Qabil, Adil, mərhəmətli... Allah, nə üçün və nədən ötrü yaratdığın canlı və cansız aləmə qarşı ermənini düşmən yaratmısan?! Ondan ötrümü ki, yaratdığın bu erməni Gəncədə, Bərdədə, Tərtərdə gecə şirin yuxuda olan körpə, məsum uşağı, hamilə qadını, ahıl kişini ölümsaçan mərmilərlə qətlə yetirsin?! Ondan ötrümü ki, erməni faşist vandalları 1992-ci ilin fevralında Xocalıda, 2020-ci ildə Gəncədə, Bərdədə, Tərtərdə... dini mənsubiyyətindən asılı olmayaraq, Azərbaycan vətəndaşlarını qanına qəltan etsin?!

Erməni faşist vandalları, cəlladları tarixin heç bir mərhələsində sərhəd tanımamışlar. Erməni faşistləri təkcə insanlığa deyil, dünyadakı bütün canlı aləmə qarşı kütləvi qırğınlar, soyqırımları, terror aktları törətməkdən zaman-zaman zövq almışlar. Onlar, yəni

erməni faşist vandalları kainatdakı heç bir canlıya xas, mənsub, aid olmayan vəhşiliklər etdikcə daha da azğınlaşmışlar.

Müəllifi, sahibkarı olduqları ağlasığmaz terrorların cəzasız qalması isə onların daha da quduzlaşmasına şərait yaratmışdır. Ölkəmizdə müstəqillik illərinin əvvəllərində erməni faşist vandallarının törətdikləri 30-dan çox terror aktı, bunun nəticəsində 2 mindən artıq dinc Azərbaycan vətəndaşının öldürülməsinə görə erməni faşist terrorçuları, heç olmasa, aidiyyəti beynəlxalq məhkəmələr, hüquq-mühafizə orqanları tərəfindən layiqli cəzalarını almalı idilər. Çox təəssüflər olsun ki, bu baş vermədi. Yenə də kədərləndirici faktdır ki, bu cür qaniçən, qudurğan, azğın düşmənlə qonşuluqda yaşamaq və zaman-zaman bu vəhşilərin olmazın zülmünə sinə gərmək kimi taleyüklü məsələ qədirbilən xalqımızın bəxtinə qismət olmuşdur. Azərbaycan xalqı illərboyu erməni quldur dəstələrinin törətdikləri bəşəri faciələrin qurbanına çevrilmişdir. Tarixi, əzəli dədə-baba yurdlarımızdan qovularaq məcburi köçkünə, qaçqına, didərginə çevrilmişdik. Dünyaya nahaq qan tökmək kimi sərsəm missiya ilə gələn, qatı, məkrli, faşist ideologiyalı ermənilərin Azərbaycanda törətdikləri 1918-ci il Mart soyqırımı; 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı faciəsinin törədilməsi; 2020-ci ildə Gəncə, Bərdə, Tərtər, Ağdam qətliamları; əsir, girov götürülmüş soydaşlarımızın başına gətirilən müsibətləri heç kəs yaddaşlardan silə bilməz. Sözügedən məsələ ilə əlaqədar olaraq dəfələrlə vurğulandığı kimi, erməni faşistləri, vandalları Azərbaycanda törətdikləri dəhşətli müsibətlər zamanı təkcə insanları hədəf almamış, bütün canlı və cansız aləmə qənim kəsilmişlər. Yaşıl, əsrarəngiz meşələrimizi, bolsulu dağ çaylarımızı, büllur bulaqlarımızı qurudub, bərəkətli münbit torpaqlarımızı səhralaşdırmış, zəngin yeraltı sərvətlərimizi talan etmiş, yerüstü bəşəri dəyərlərimizi məhv etmiş, minillərin formalaşdırdığı füsunkar ekologiyamıza çox ağır zərbələr vurmuşlar. Məzarlarımıza, tarixi, dini, mədəni abidələrimizə də düşmən kəsilmişlər. Bu münasibətlə, nə qədər acınacaqlı da olsa, bir misal çəkmək istərdik.

Dünyanın musiqi beşiyi olan Şuşadakı muzeydə şair, rəssam Xanqızı Xurşidbanu Natəvanın, dahi sənətkar, SSRİ Xalq Artisti Bülbülün, Şərqdə ilk operanın banisi, dünya şöhrətli bəstəkar Üzeyir Hacıbəylinin büstlərini yararsız hala salmışlar.

Yaxud başqa bir misal. Dünya dini olan İslama və onun əsasını təşkil edən Müqəddəs Qurana görə Şuşada, Ağdamda, Qubadlıda, Zəngilanda yerləşən Allahın evi sayılan məscidləri donuz töv-



lələrinə çevirmişlər. Əlbəttə, bu qəbildən olan misalların sayını artırmaq da olar.

...Şanlı, Müzəffər, Xilaskar Ordumuzun şücaəti, Ali Baş Komandan, möhtərəm Prezidentimiz İlham Əliyevin yenilməz sərkərdəliyi ilə işğal altında olan torpaqlarımız yağı düşməndən, erməni işğalçılarından çox az itki ilə azad edildi. Bu tarixi zəfər qədirbilən xalqımızın yaddaşına əbədi olaraq həkk olundu. Mənfur ünsürlərin – ermənilərin doğma dədə-baba yurdlarımızı vəhşicəsinə necə viranəliyə çevirdiklərinin bir daha canlı şahidi olduq.

...Kəlbəcərdə ona aid olmayan evin ayaqyolundakı "unitaza", süpürgəyə tamah salıb apardıqdan sonra, mənzilin quru divarlarına od vuran, meşələr bir yana qalsın, kol-kosu da yandıran, işıq dirəklərini sökən və başqa ağlasığmaz vəhşiliklər törədən erməni faşistləri bununla da öz çirkin, xəbis, məkrli... xislətlərini bir daha büruzə verdilər. Belə barbarlıq, vandallıq, vəhşilik, talançılıq, terrorçuluq aktları fəal hərbi əməliyyatların gedişində baş vermir. Gərgin hərbi əməliyyatlar başlayana qədər adi, sıravi şəxslər öz gündəmini, həyatlarını yaşayıblar. Onlar sadə zəhmət adamı kimi, təsərrüfatla, əkinçiliklə, heyvandarlıqla, müəllimliklə, həkimliklə və s. peşələrlə, işlərlə məşğul olublar. Gözlənilən məqam yetişən kimi, erməni faşist vandallarının daxillərindəki bilavasitə özlərinə məxsus xarakteri – yırtıcılıq xisləti üzə çıxır.

Erməni faşist vandalları ilə xalqımızın 44 günlük haqq savaşı 200 illik erməni-Azərbaycan münaqişəsinə son qoydu.

Bu işdə qardaş Türkiyənin, onun rəhbəri Rəcəb Tayyib Ərdoğanın rolu danılmazdır, böyükdür, misilsizdir. Məhz buna görə də yeri gəlmişkən, bir təklif vermək istərdik. Yaxşı olardı ki, Beynəlxalq İslam Əməkdaşlıq Təşkilatının fəal üzvləri olan Azərbaycan və Türkiyənin dövlət başçıları – İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan Birləşmiş İslam Əməkdaşlıq Təşkilatının fəxri sədrləri seçilsinlər.

Məktəbi, uşaq bağçasını, kitabxananı yandıran, müəllimi, körpə, məsum uşağı, hamilə qadını, ixtiyar qocanı qətlə yetirən, məscidi donuz tövləsinə çevirən... bütün bunları təsəvvür etmək belə ağlasığmazdır, təsəvvürəgəlməzdir. Əlbəttə, bu qəbildən olan digər qeyri-insani hərəkətləri yalnız və yalnız erməni faşist-vandalları törədə bilər.

Erməni faşist vandalları üçün yüksək mənəviyyat və əxlaq tələb edən suallara cavab tapmaq çətin məsələdir. Azərbaycanın işğal altında saxladıqları məscidlərində donuz bəsləyən, otaran erməni faşistləri İslam dinini, Müqəddəs Quranı, dünyanın inanclı insanlarını, o cümlədən müsəlmanların peyğəmbəri ulu Məhəmmədi təhqir edir, sonsuz nifrət bəsləyir. Bunu yalnız erməni faşistləri edə bilər.

...Müstəqil Azərbaycanın milli suverenlik dövründə, demək olar ki, bütün sahələrdə əldə etdiyi misilsiz nailiyyətlər qısa zaman kəsiyində cənnət Qarabağda erməni faşistləri tərəfindən, təxminən, 30 il müddətində yerlə-yeksan edildi. Başqa sözlə desək, erməni faşistləri yuxarıda qeyd olunan müddətdə işğal altında olan ərazilərimizi viranəyə çevirərək daşı-daş üstündə qoymayıblar. Mənfur erməni faşist vandalları işğal etdikləri ərazilərimizdə maddi-mənəvi sərvətlərimizi dağıdıb, tarixi, mədəni, dini abidələri, evləri, inzibati binaları, bütün tikintiləri terrora məruz qoyub, yararsız hala salıblar. Mebel istehsalına yararlı olan bütün ağacları qırıb- kəsib, başqa xarici ölkələrə satıblar. Bir sözlə, zəngin fauna və və floramıza olmazın divan tutublar. Məzarlıqlarımızı, qəbiristanlıqlarımızı belə dağıdıb-talamaqdan çəkinməyən erməni faşist vandalları, hətta qəbirlərdən ölülərimizin sümüklərini çıxarıb yandıraraq, sonra isə bu səhnələrin görüntülərini nümayiş etdirməklə hər bir azərbaycanlıya böyük kədər yaşatdı. İnsanlıqda payı olmayan erməni faşistlərinə nə ad vermək olar?!

Ümumiyyətlə, erməni faşist vandallarının məzarlıqlarımıza qarşı vəhşilikləri başqa mövzunun söhbətidir. Nə diriyə, nə də ölüyə hörmət qoyan bu əcaib ünsürlərin 2020-ci ilin sentyabrında Tərtər rayonunda yerləşən qəbiristanlığa dəfn mərasimi zamanı top mərmisi yağdırmaları və mülki şəxsləri öldürmələri erməni faşist quldurlarının imza atdıqları növbəti terrorçuluq aktları idi.

Haqq və ədalət vaxtı, zamanı, günü, nəhayət, gəlib yetişdi. Ali Baş Komandan, adını qızıl hərflərlə qədirbilən, qəhrəman Azərbaycan xalqının silinməz yaddaşına həkk etdirən, möhtərəm Prezidentimiz İlham Əliyevin möhtəşəm rəhbərliyi sayəsində Müzəffər, Rəşadətli Ordumuzun qəhrəmanlığı sayəsində, başda qardaş Türkiyənin prezidenti Rəcəb Tayyib Ərdoğanın, ümumiyyətlə, türk xalqının təmənnasız dəstəyi nəticəsində işğal edilmiş torpaqlarımızın azad olunmasını gerçəkləşdirdik.

2020-ci il noyabr ayının 8-i, 9-u və 10-u ölkəmizdə bayram-bayrama qovuşdu.

2020-ci ilin 8 noyabrında Qara-



beynəlxalq aləm çoxdan bələddir. Bütün dünya erməni faşistlərinin 30 ilə yaxın bir müddət ərzində qeyri-qanuni məskunlaşdıqları işğal altındakı torpaqlarımızdan, o cümlədən gözəl Kəlbəcər rayonundan son gedişlərində qəsdən yaşıl ormanlara - meşələrə, evlərə, məktəblərə, tibb müəssisələrinə və başqa təyinatlı obyektlərə od vurmalarına, çoxəsrlik məbədlərimizi vəhşicəsinə talan etmələrinə, ev heyvanlarını kəsərək içalatlarını çölə tökmələrinə dəhşətlə tamaşa etdi. İnsanlıq ermənilərin məxsusi ev əşyalarından sayılan "unitaz"lara qarşı saygı, diqqət və məhəbbətlərinə mat-məəttəl qaldı.

bağın tacı olan Şuşanın erməni işğalından azad olunmasını bütün xalqımız bayram etdi.

2020-ci ilin 9 noyabrında ümumxalq bayramı – Bayraq Bayramı kimi yüksək səviyyədə qeyd olundu.

2020-ci ilin 10 noyabrında Qarabağın erməni işğalından azad olunması haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin və Ermənistanın Baş naziri Nikol Paşinyanın imzaları ilə Bəyanat imzalandı.

Bu, Azərbaycan tarixində ilk böyük qələbə idi.

Yeri gəlmişkən, bu münasibətlə təbii və haqlı olaraq çox zəruri, qanuni təklif vermək istərdik. Yaxşı olardı ki, müstəqil Azərbaycan Respublikasının paytaxtı, İslam Mədəniyyəti paytaxtı Bakı şəhərində və qardaş Türkiyənin paytaxtı Ankara şəhərində Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın qoşa, yanaşı möhtəşəm heykəlləri ucaldılsın. Həmin Bəyannamənin müddəalarına görə, Ermənistanın faşist ordusu noyabrın 15-nə qədər (sonradan bu müddət 25 noyabra kimi uzaldıldı) Ağdam rayonunu, noyabrın 25-nə qədər Kəlbəcər rayonunu, dekabrın 1-dək Laçın rayonunu tərk etməlidir. Bununla belə, mənfur ermənilər biabırcasına məğlub olmalarını həzm edə bilməyərək, bu dəfə də hiylələrini yenidən daşa, divara, qayaya, ağaca, yaşıl ormanlarımıza, malqaraya, qoyun-quzuya yönəltdilər. Elə bu çox iyrənc, bəd, məkrli, xəbis əməlləri ilə ört-basdır etməyə çalışdıqları murdar, yüzüzlü sifətlərini bütün dünyaya, beynəlxalq aləmə nümayiş etdirdilər. Burada, yeri gəlmişkən, qədim Çin mütəfəkkiri Konfutsinin belə bir məşhur kəlamını xatırlamaq, zənnimizcə, çox yerinə düşərdi. O demişdir ki, qaranlıq otaqda qara pişiyi axtarmağa dəyməz. Bir halda ki, həmin qara pişik həmin otaqda yoxdur. Bax, bu qara pişik erməni faşistləri, otaq isə Ermənistandır.

Qloballaşan hazırkı dünyanı dəhşətə salan erməni faşistlərinə

...Dünya, təkrar da olsa (əslində, bunu təkrar kimi deyil, təkrir kimi başa düşmək lazımdır), erməni faşistlərinin 2020-ci il noyabr ayının 20-də tərk etməli olduqları Ağdam rayonunda daşıdaş üstündə qoymayaraq, Kəlbəcərdə bəd əməllərini Ağdam rayonunda da təkrarlamalarının bir daha canlı şahidi oldu. Həqiqət, ədalət naminə qeyd etmək istərdik ki, hazırda dünyanın hədsiz dərəcədə təəccübləndiyi xəbis, məkrli erməni faşistlərinin vəhşi, bəd əməllərinə biz çoxdan bələdik. Cilddən-cildə, dondan-dona bürünən, min-min yalanla, saxtakarlıqlarla həyat tərzi keçirən erməni faşistlərinin vəhşiliyi, qəddarlığı, həyasızlıqları, onların qeyri-insani əməllərinin təzahürüdür. Əsli-kökü bilinməyən bu vandal zümrənin, məxluqatın davranışlarında insan anlayışı, məf-

humu yoxdur. Tarixboyu onların nə adamları olub, nə də daimi vətənləri. Gördükləri, köçdükləri bütün əraziləri çox asanlıqla özlərinin məskunlaşdıqları, yaşadıqları məkan hesab etmişlər...

Bəli, həqiqi vətən deyil, müvəqqəti məkan hesab etmişlər. Erməni faşistləri dəfələrlə etiraf etsələr də, yaxşı bilirlər ki, "Özgə atına minən tez də düşər".

Burada qarşıya çox haqlı və təbii sual çıxır: 1993-cü ildə Kəlbəcəri, Ağdamı... məcburiyyət qarşısında tərk edən sakinlərimiz belə idimi?!

Cavab: əsla yox. Axı insan öz doğma ata-baba yurdunu necə bağışlaya bilər?! Misal var, deyərlər: "Torpaqdan pay olmaz", "Şəhidlər ölməz", "Vətən bölünməz".

Bütün məcburi köçkünlərimiz, qaçqınlarımız, didərginlərimiz kimi kəlbəcərlilər də, laçınlılar da, ağdamlılar da, qubadlılar da, zəngilanlılar da düz, 27 il əvvəl içidolu, sağ-salamat qoyduqları ev-eşiklərini tərk edərkən, sadəcə, açarlarını özləri ilə götürmüşdülər. Onlar yaxşı bilirdilər ki, bu ayrılıq, həsrət müvəqqətidir, daimi deyildir. Bu nigaran, narahat ayrılığın qayıdışı mütləq olacaqdır.

Bəli, erməni faşistləri, mənfur düşmənlər yaxşı bilirdilər ki, bəd əməllərinin cavabını verəcəklər.

...2020-ci ilin 16 noyabrında Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı, tarixi şəxsiyyət, yenilməz sərkərdə, möhtərəm Prezidentimiz İlham Əliyev işğaldan azad Füzuli, Cəbrayıl, noyabrın 23-də Ağdamda ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ilə olarkən, yuxarıda qeyd edilən cinayətlərə bir daha diqqət çəkdilər. Onlar dedilər ki, "Biz düşməni məcbur etdik ki, kapitulyasiya aktına imza atsın və beləliklə, bizim bu günə qədər işğal altında olan torpaqlarımız Azərbaycana qayıdır. Amma baxın görün, erməni faşistləri hansı vəhşilikləri törədir – evləri yandırırlar, məktəbləri oda-alova bürüyürlər, elektrik xətlərini qırır, söküb aparırlar. Bütün dünya bunu görür, əksər beynəlxalq kanallar bunun şahidi olurlar. Onlarda nə vicdan var, nə utanmaq, xəcalət çəkmək, nə əxlaq, nə mənəviyyat, nə də peşmançılıq hissi keçirmək...".

Qarabağda hünər, zəfər, qalibiyyət əldə edən dahi müzəffər sərkərdəmiz, Ali Baş Komandan, möhtərəm Prezidentimiz İlham Əliyev erməni faşistlərinin törətdikləri bu iyrənc əməllərin heç zaman unudulmayacağına, biganə qalınmayacağına, onların törətdikləri vəhşiliklərə, qeyri-insani hərəkətlərə görə mütləq cavab verəcəklərinə diqqət çəkərək bəyan etmişdir: "Mən demişəm, bir daha demək istəyirəm, nüfuzlu beynəlxalq təşkilatlar, məşhur tanınmış ekspertlər, mütəxəssislər gələcək, bütün ziyan, zərərlər hesablanacaq, otuz il ərzində Azərbaycana vurulmuş, dəymiş itkilər hesablanacaq, onlara, yəni erməni faşistlərinə qarşı təminat iddiası mütləq qaldırılacaqdır. Çox yaxın zamanlarda gözəl Kəlbəcəri yerləyeksan edən, yaşıl meşələri qıran, onlara od vuran, binaları, məktəbləri, mədəniyyət ocaqlarını, tarixi-dini abidələri məhv edən yağı düşmənin cavabın veriləcəkdir".

Bəli, erməni faşistləri, quldurları, işğalçıları, terrorçuları, qatilləri Kəlbəcərdə, Agdamda, Laçında, Tərtərdə... əl atdıqları ən çirkin, murdar, bəd, xəbis əməllərə görə 2 onillikdən bir qədər artıq müddət ərzində zorla işğal altında saxladıqları Azərbaycan torpaqlarını talayıb viran qoyduqlarına görə haqq-ədalət, habelə beynəlxalq məhkəmələrdə mütləq cavab verməli olacaqlar. Buna heç bir şübhə ola bilməz. Erməni faşistləri, qatilləri, qaniçənləri, terrorçuları yüzminlərlə Azərbaycan vətəndaşının haqqını tapdalayaraq, öz əzəli, tarixi torpaqlarından qovduğu, məcburi köçkünə çevirdiyi, əsir götürdüyü vətəndaşlarımızı olmazın zülmlərə, işgəncələrə məruz qoyduğu xalqımıza qarşı çoxsaylı soyqırımları törətdikləri üçün mütləq haqq divanına çəkiləcəklər.

Əlbəttə, sözügedən problemlə əlaqədar olaraq söhbəti uzatmaq da olardı. Burada fikrimizi dövlətimizin başçısı, Ali Baş Komandan, möhtərəm Prezidentimizin aşağıdakı kəlamlarını xatırlamaqla yekunlaşdırmaq istərdik. O, təxminən, 30 illik erməni faşistləri ilə haqlı savaşda tarixi qələbəmiz münasibətilə xalqımıza təbrikində demişdir: "Ermənistanın 30 illik işğalına son qoyaraq, son 200 illik tarixinin ən şərəfli səhifəsini yazmışdır. Biz təkcə Azərbaycanı, bölgəni deyil, bütövlükdə dünyanı erməni faşizmindən azad etdik".

Biz isə bu çox dərin məna, məzmun kəsb edən fikrə əsasən deyə bilərik ki, işğal altında olan torpaqlarımızla təkcə Qarabağ deyil, bütövlükdə mütərəqqi bəşəriyyəti erməni faşizmindən xilas etmişik.

Doğrudan da Şuşanın, Füzulinin, Cəbrayılın, Ağdamın, Kəlbəcərin, Laçının... erməni faşizmindən azad olunması dünyanın, o cümlədən türk-İslam dünyasının erməni faşizmindən azad edilməsi deməkdir.

# O payız nur yaydı aləmə…

## Qələbəmizdən 1 il ötür



**Rəhilə Misirxanlı,**
**AİI-nin əməkdaşı**

*Sənin sorağına gələn dostlara*
*Sevinclə açılır qolların, Vətən!*

Yağı düşmən üzərində tarixi qələbəmizdən bir il keçir. Əvvəllər müharibə və onun dəhşətləri haqqında kitablarda oxumuş, kinofilmlərdə görmüşdük. Onun od vurub külünü göyə sovurduğu evlər, odsuz qalmış ocaqlar, yiyəsinə nisgili qalmış yurd yerləri, körpə qığıltısına həsrət nənnilər, qapıları döyən "qara məktub"lar, oğullarına, qardaşlarına, ərlərinə matəm saxlayan anaların, bacıların, xanımların –

*Mən aşiqəm bu dağa,*
*Quşlar qonar budağa.*
*Cavan yarım ölübdü,*
*Necə dözüm bu dağa? –*

deyib ah-zar dolu naləsidir müharibə. Qaçqınlıq, köçkünlük, didərginlik və acı məhrumiyyətlər onun insan oğluna vurduğu ən ağır zərbə və gətirdiyi dəhşətlərdir. Bəşəriyyəti qana boyayan, insanları qiyamət pərdəsinə bürüyən, heç zaman bitməyən fəryadlar, göylərə ucalan amanlar-ahlar, aydınlıqlara qara pərdə çəkən ölüm-olumlar, son payız yarpağıtək solan arzulardır müharibə. Gözünü qan örtən cəlladların yolunu Tanriya dualar da saxlamadı, amma cəzasız da qalmadılar. Allah onların dərsini verdi, ər oğulların, ixtiyar qocaların, ufacıq körpələrin qanına susayan, qara qəlblərdə kolgələnən erməni iblisləri layiqli cəzalarını aldılar.

Payız… Bu dəfə də "ağır-ağır açıldı səhər və gəldi payız qədər qəmli bir xəbər"…Qarabağın səmasını yenə od-alov, toz-duman bürüdü. Güllələr qəfil, elan olunmamış açıldı. İgidlərimiz qanlı köynəklərini al bayrağa çevirib irəlilədilər, vuruşaraq şəhid oldular. İnsan, millət və məmləkət yolunda… Ruhları narahat-nigaran çəkildi od-alov püskürən səmanın ənginliklərinə. İgid sərkərdəmiz general Polad Həşimovun, bir neçə zabit və əsgərimizin şəhid olması Azərbaycan xalqını titrətdi, ordumuz əks-hücuma keçdi. Analar:

*Əzizim belin bükər,*
*Kamantək belin bükər.*
*Cavan oğul ölümü,*
*Ananın belin bükər, -*

deyə şəhid balalarına laylay çaldılar.

Göz yaşlarımız ürəyimizə axdı. Şuşada minarəsi yıxılmış, içində donuzlar saxlanan Allah evlərinin divarlarına hopmuş dualarımızı eşitdi Tanrı. Azərbaycan xalqı Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşdi. Xalq Prezidentin arxasında möhkəm duracağını bəyan etdi. 2020-ci il sentyabr ayının 27-də Qarabağ uğrunda müqəddəs müharibə başlandı. O divarlara hörülmüş daşları sökənləri Tanrı və o daşlara yazılan, hopan dualar bağışlamadı. Ordumuzun ilk zərbələri düşməni pərən-pərən saldı. Erməni başkəsənləri öz qanlarına qəltan oldular. Otuz il ərzində yerin dərin qatlarına qədər dörd metr dərinlikdə hörülüb gedən istehkamlardan, canavar yuvasına oxşayan betonlaşdırılmış sığınacaqlardan edilən hücumları, açılan atəşləri artilleriyamız və dronlarımız sərrast atəşlə darmadağın edib həmişəlik susdurdu. Başlarına alov yağdırılan yağı qaçmaqla da canını qurtara bilmədi, qan tökmək xislətində olanlar öz qanlarına qəltan edildilər.

Azərbaycan Ordusu sürətlə irəlilədi, düşmənə öz şücaətini göstərdi. Türkiyə, Pakistan, İsrail və s. olkələr bizə mənəvi dayaq oldular, haqq, ədalət uğrunda apardığımız müharibədə dost mövqeyi nümayiş etdirdilər. Əsgər və zabitlərimizin düşmənə nifrəti, nahaq tökülən qanlara və torpaqlarımızın düşmən tapdağı altında qalmasına görə kükrəyən qəzəbi və qisas hissi tarixi qələbəmizin rəhni oldu. Son 200 ildə Azərbaycan ilk dəfə olaraq Ermənistanı havadarları ilə bərabər darmadağın etdi. İşğal olunmuş torpaqlarımızı azad etdik. Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi, Ordumuzun şücaəti, əsgər və zabitlərimizin qəhrəmanlığı sayəsində tarixə öz qanımızla imza atdıq. Qarabağın statusu müzakirə mövzusu olmaqdan qurtardı. Bu problemin gündəmdə qalmasına maraqlı olan qüvvələrin cidd-cəhdlərinə baxmayaraq, bu mövzu bitib. Cənab İlham Əliyevin "Yoxdur status, cəhənnəmə getdi status" kəlmələri bədxahlarımızın qulaqlarında bomba kimi partladı. Ətrafdakı tör-töküntülər güclü seldən sonra ilişib-qalan çör-çöplərdir ki, yaxın

zamanlarda onlar da torpaqlarımızdan təmizlənəcəklər.

Qan və göz yaşı ilə suvardıq torpaqlarımızı, şəhid olduq, birimizin əvəzinə yüz ermənini yuvasında məhv etdik. Bəli, şəhid Polad Həşimovun anası Səmayə ana Şuşada əsgərlər qarşısında çıxış edəndə gözəl dedi: "Qartal yuvasından qartal çıxar! Mərd oğullarımız düşmən qarşısında əyilmədi. Müasir silahlarla silahlanmış Ordumuzun dronları girən yuvalardan qanına boyanmış erməni siçovulları çıxdı".

Yaddan çıxmaz 2020-ci ilin sentyabr ayı... Səfərbərlik elan olunanda bütün əli silah tutanlarımız səfərbərlik və hərbi xidmətə çağırış şöbələrinin qarşısına toplaşırdılar. Vətən çağırırdı. Elə bir sarsılmaz monolit birlik yaranmışdı ki, onun qarşısında hansısa ordunun duruş gətirməsi mümkün deyildi. Erməni analar hökumətlərinin əleyhinə aksiyalar keçirəndə, erməni gəncləri döyüş meydanlarından qaçanda bizim igid oğullarımız düşməni yerində otuzdurmaq üçün könüllü cəbhəyə yollandılar. Mən öz doğmalarımın – bacım, qardaşım oğullarının timsalında gördüm ki, hərbi səfərbərlik şöbələrindən zorla geri qaytarıldılar. Qafura "Sənin yaşın çoxdur"; Misirxana "Tələbəsən"; Ramidə "İşlədiyin yer məxfi hissədir, olmaz", – deyib geri qaytardılar.

Qafurun oğlu – respublika üzrə keçirilən dzüdo yarışlarında 3 dəfə qızıl medala layiq görülən, əlbəyaxa döyüş üzrə üç dəfə çempion titulu qazanan 7 yaşlı Firudin Şərifzadə deyir ki, "Ata, bəs sən niyə getmədin? Bax, ölkəmiz qələbə qazandı. Getsəydin, bu gün mən də idmançı dostlarıma deyərdim ki, atamın da bu qələbədə payı var".

Bəli, körpələrimiz də vətənpərvər ruhda böyüyürlər. Bilirlər ki, şəhidlər ölməz, Vətən bölünməz.

Azərbaycan İlahiyyat İnstitutunun kollektivindən də 44 günlük müharibədə iştirak edənlər olub. Şəhid Vüqar Məmmədovun, qazilər Davud Qəriblinin, Hənif Abdullazadənin timsalında biz bu qürur hissini keçiririk. Onlar da "Qarabağa azadlıq!" - deyib silaha sarıldılar. Torpaqlarımızı azad etmək naminə döyüşlərə atıldılar. Hər qarış torpağı, hər daşı dünyalar qədər qiymətli olan Vətən torpağını yağı düşməndən xilas etmək üçün son damla qanlarına qədər vuruşdular. Vüqar qəhrəman şəhid kimi çiyinlərdə gəldi, Davud, Hənif və tanımadığım onlarca ilahiyyatçı da qazi kimi qayıtdılar evlərinə..

### *Vətən ona oğul dedi...*

Vüqar İlqar oğlu Məmmədov 9 yanvar 1994-cü ildə Sumqayıt şəhərində anadan olub. 2000-ci ildə Sumqayıt şəhər 22 nömrəli tam orta məktəbin birinci sinfinə daxil olub. 2011-ci ildə orta təhsilini başa vuraraq Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsinə daxil olub. 2015-ci ildə ali məktəbi bitirib, Azərbaycan Ordusunda hərbi xidmətə yollanıb. Topçu manqa komandiri kimi ixtisaslaşan Vüqar Məmmədov 2016-cı ilin Aprel döyüşlərinə qatılıb və xüsusi fədakarlıq göstərib. 2017-ci ildə ordudan tərxis olunub. Müxtəlif yerlərdə işləyib.

2020-ci ilin 21 sentyabrında səfərbərlik zamanı Vüqar Məmmədov heç bir çağırış gözləmədən könüllü olaraq Vətənin müdafiəsinə yollanmaq üçün çağırış məntəqəsinə gəlib.

Füzulinin düşmən tapdağından azad olunması istiqamətində gedən döyüşlərdə iştirak edib, igidlik göstərib. Vüqar Məmmədov 9 oktyabr 2020-ci ildə ağır döyüşlərin birində şəhid olub.

Ali Baş Komandan cənab İlham Əliyev cəsur döyüşçümüz Vüqar Məmmədovu ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunması uğrunda" medalları ilə təltif edib.

Budur vətənpərvərlik, budur qəhrəmanlıq. Bizim övladlarımızın qeyrəti, təəssübkeşliyi, Vətənə ana sevgisi elə ana südü ilə hopub qanlarına, canlarına. Analarımız övladlarına beşikbaşı layla çalanda deyib:

*Əzizim Vətən yaxşı,*
*Geyməyə kətan yaxşı.*
*Gəzməyə qərib ölkə.*
*Ölməyə Vətən yaxşı.*

Vətəni sevməyi uşaqlarımız evdə valideynlərindən, məktəbdə müəllimlərindən öyrənib, öyrənir və öyrənəcəklər. Əsrlərlə torpaqlarımıza göz dikilib, Vətənin müqəddəsliyini təlqin etmək, yeni nəsillərə aşılamaq həyat tərzimizə çevrilib. Odur ki, düşmənin başını əzdik, onu yerində oturda bildik. Biz qalib gəldik, ancaq mübarizəmiz davam edir. Vaxtilə sovet hökumətinin bizdən zorla alıb ermənilərə "bağışladığı" ərazilərimizi hissə-hissə azad edirik. Torpağımızda qalan erməni törtöküntülərini də torpaqlarımızdan təmizləyənə qədər rahat olmayacağıq. Azərbaycan bütövləşməli, bir olmalıdır. İndi hamımız qürurla deyirik:

**QARABAĞ AZƏRBAYCANDIR!**

# Keçdi xəyalımdan öz gözəl yurdum...



**Nərgizxatun Həsənova,**

**AİI-nin "Dinşünaslıq" ixtisası üzrə doktorantı**

Hər bir millətin və ya xalqın mövcudluğunu təmin edən müəyyən dəyərlər vardır. Bu dəyərlər sırasında sevgi, mərhəmət, fədakarlıq, empatiya, ədalət, yardımsevərlik, vətənpərvərlik, o cümlədən, şəhidliyi qeyd etmək mümkündür. Azərbaycan cəmiyyəti də məhz bu dəyərlər üzərində inşa edilib və öz mövcudluğunu keçmişdən bu günə qədər qoruyub saxlayıb. Bu mənada şəhidliyin bir dəyər olaraq tədqiq edilməsi, araşdırılması, cəmiyyətə çatdırılması, insanların bu dəyər haqqındakı şüurunun yenilənməsi diqqətəlayiqdir. Sözsüz ki, hər bir fərd şəhidlik anlayışı haqqında müəyyən bir düşüncə və informasiyaya malikdir. Lakin insanoğlu, demək olar ki, hər gün gündəlik məişət problemləri və dünya qayğıları ilə əhatə olunduğu üçün mənəvi dəyərlərin zaman keçdikcə unudulması, başqa sözlə desək, cəmiyyətin bu kimi anlayışlara yadlaşması mümkündür. Elə bu səbəbdən də belə əhəmiyyətli məfhumlar haqqındakı fərqindəliyin yenilənməsi təqdirəlayiq hal hesab olunur. İstər Birinci, istərsə də İkinci Qarabağ müharibəsində canından keçən şəhidlərin keçmişimizdə, bu günümüzdə və gələcəyimizdəki əvəzsiz rolu danılmazdır. Xalqımızın mövcudluğunun təminatçısı olan şəhidlər, sadəcə, özünü deyil, başqalarını da düşünmək və ya öz həyatında başqalarının həyatına yer vermək kimi bir dəyəri yenidən aktuallaşdırdı. Madam ki, şəhidlik məfhumu bir millət və xalq olaraq mövcudluğumuzun əsas qarantıdır, bəs şəhidlik anlayışı nədən ibarətdir? Şəhidlik bir mədəniyyətə nə qazandırır? Bəs necə olur ki, şəhidlər həqiqətə şahidlik edir?

Şəhidlik məfhumunun mahiyyəti nədən ibarətdir? Həqiqətə şahidlik etmək dedikdə nə nəzərdə tutulur? Əslində, İslam dini insanın sahib olduğu dəyərlərini qorumaqdan yola çıxaraq şəhidlik məqamına diqqət çəkir. Dinimiz "Allahın sənin üçün qoyduğu dəyərlərə sahib çıx", – deyə buyurur. Dəyərlərə sahib çıxmağın zirvə nöqtəsi isə öz canını həmin dəyərlər uğrunda fəda edə bilməkdir. Bu fədakarlığın mükafatı "ölməzlik"dir. Ölməzlik məqamı yalnız şəhidliklə qazanılır. Bir insan şəhid olursa, Haqqın qoyduğu dəyərlərə sahib çıxır. Beləliklə, şəhid həqiqətə şahidlik edir. Kimdir şəhidlər? Şəhidlər – şahidlik vəzifələrini canları bahasına ödəyən şəxslərdir. Onlar zülmə şahidlik edərək zülmü ortadan qaldırmaq üçün canından keçir, o cümlədən, ədaləti bərpa edərək onu yenidən təmin etməyə çalışır. Azərbaycan torpaqlarının 30 ilə yaxın bir müddət ərzində işğal altında olması özü-özlüyündə böyük bir zülm idi. Qəhrəman oğul-qızlarımız bu zülmə şahidlik edərək, didərgin düşdükləri torpaqlara tank belində qayıtdılar. Budur, haqqa şahidlik etmək! Onlar öz ölümləri ilə bu şahidliyi bir dəyərə çevirdilər. Qarabağımızın işğaldan azad edilməsi və o ərazilərdəki milli-mənəvi dəyərlərimizin yenidən millətimizə, xalqımıza qaytarılması isə ədalətin bərpa olunmasıdır. Bu mənada şəhidlər ədaləti bərpa edərək həqiqətə şahid olan ölümsüz, əbədiyaşar şəxslərdir.

Bir millət o zaman şəhidinə sahib çıxır ki, onun miras olaraq qoyub-getdiyi, uğrunda canından keçdiyi dəyərləri uca tutur, qoruyur, canlı və yaşayan bir dəyər halına gətirir. Bax, şəhidlər o zaman ölümsüzləşir. Vətənpərvərlik ruhunu özündənsonrakı nəsillərə transfromasiya edən xalq heç bir zaman məğlub edilə bilməz. Onların vəfatı bizim üçün bir tələb amilidir. Şəhidlər danışmadan, heç bir sözlü tələb bildirmədən şəhid olmaları ilə bizim hər birimizin boynuna böyük bir öhdəçilik və məsuliyyət qoydular.

Vətənin müdafiəsini və onun hər qarış torpağını canından əziz tutan mərd oğullarımızdan biri də şəhid Vüqar Məmmədovdur. 2016-cı ilin aprel ayında baş verən dördgünlük müharibədə iştirak edən Vüqar ötən ilin sentyarbr ayının 27-dən başlayan İkinci Qarabağ müharibəsində də iştirak etmiş, Vətənin dar günündə onu müdafiəsiz qoymamışdır. Könüllü olaraq döyüşə yollanan xalqın qəhrəman oğlu Füzuli rayonunun azad edilməsi uğrunda aparılan əməliyyatın həyata keçirilməsi za-

manı qəhrəmancasına şəhid olmuşdur. Məhz Vüqar kimi igid oğullarımızın, müqəddəs şəhidlərimizin və qazilərimizin sayəsində qədim tarixə malik torpağımızın mövcudluğu və ərazi bütövlüyü qorunub saxlanmışdır.

Sadəcə, beş hərfdən ibarət olan "Şəhid" kəlməsi özündə 5 min mənəvi qatı ehtiva edən məna yükünə sahibdir. Əlbəttə, bizim bütün bu mənaları məhdud bir məqalədə açıqlamağımız mümkün deyildir. Lakin həm bir məfhum olaraq, həm də şəhidlik məqamının nə qədər əhəmiyyətli olması baxımından bu kəlmənin etimologiyasına və terminoloji mənasına müəyyən qədər toxunmağımız yerinə düşərdi.

"Şəhid" kəlməsinin etimologiyasına gəldikdə, onun lüğəvi və terminoloji mənalarına baxmaq məqsədəuyğundur. Bu söz dilimizə ərəb dilindən keçmişdir. Üç əsas – "ş-h-d" kök hərflərindən ibarət olub, mənası "hər hansı bir hadisəyə şahid olmaq", "hazır olmaq", "şahidlik etmək", "təsdiqləmək" və "doğru məlumat vermək" deməkdir. Ərəb dilində "şəhid" sözünün məsdər formaları "şuhud" və "şəhadət"dir. "Şuhud" sözü mücərrəd mənada "hazır olmaq" mənasını ifadə edərkən, "şəhadət" kəlməsi isə daha çox fiziki mənada, göz və ya dərrakə vasitəsilə "hər hansı bir hadisəni müşahidə etmək" mənalarında istifadə olunur. Bəs terminoloji baxımdan "şəhidlik" anlayışı nə deməkdir?

Allah, Vətən, torpaq, haqq, ədalət uğrunda ölən və öldürülən insanlar şəhid adlanır. Dini mətnlərdə bu barədə bir sıra fikirlər mövcuddur. Onlardan bir qisminə nəzər salaq. Cənnətə daxil olacağına dair Allah və mələklərinin ona şahid olacağı, Qiyamət günündə Peyğəmbər (s) ilə birlikdə keçmiş ümmətlər haqqında şahidlik etməsi istəniləcəyi, canını qurban verdiyi torpağın şəhidin lehinə şahidlik edəcəyi, şəhid olması qarşılığında Allahdan gələn mükafatları görüb onlara şahidlik etdiyi və fiziki baxımdan dünyada olmamasına baxmayaraq, Allahın hüzurunda diri olub yaşadığı üçün onlara "şəhid" deyilmişdir. Bütün bunlar Müqəddəs Kitabımız Qurani-Kərimdə və bir sıra mötəbər hədislərdə öz əksini tapmışdır. Məqaləmizin növbəti bölməsində bu mövzuya toxunacağıq.

Sizin olan dəyərləri qoruya bilməniz üçün fədakar olmağınız lazımdır. Sadəcə, özünüzü düşünərək, fərdi müstəvidə yaşayaraq ətrafınızı, içində yaşadığınız cəmiyyəti qoruya bilməzsiniz. İnsan mədəni bir varlıqdır. Mədəni varlıq olmaq isə içində yaşadığın cəmiyyət tərəfindən sənə verilən bütün maddi-mənəvi haqq və imkanları başqaları üçün sərf edən, xərcləyə bilən insan olmaq deməkdir. Bu mənada, Azərbaycan şəhidləri bir xalqın mövcudluq savaşında, sözün əsl mənasında, ən yüksək mənəvi zirvələri fəth edən şəxsiyyətlərdir.

Şəhidlik məfhumu öz daxilində vətəndaşlıq şüurunu ehtiva edir. Şəhidlərimiz vətəndaşlıq anlayışının nə demək olduğunu, bir ölkənin vətəndaşı olmağın insana hansı vəzifələri, öhdəlikləri və məsuliyyəti qazandırdığını əyani şəkildə ifadə edən vətənpərvərlərdir. Bununla onlar vətənpərvərlik duyğusunun və Vətən sevgisinin nə olduğunu sübut etdilər. Bəs haradır Vətən?

Tarixə nəzər saldıqda görərik ki, ta qədim zamanlardan başlayaraq, insanlar yaşadıqları tayfanı, qəbiləni, müəyyən bir ərazini toxunulmaz hesab etmiş, onu düşmənin təhdid və hücumlarından daim qorumağa çalışmışdır. Həmin ərazi orada yaşayan insanlar tərəfindən müqəddəs qəbul olunmuş, hər daşı, hər qarışı doğma yurd yeri hesab edilmişdir. Məhz bu doğma torpaq "Vətən" adlandırılmışdır. Vətənini göz bəbəyi kimi qoruyan, ona dəyər verən, sahib çıxan xalqlar varlıqlarını əsrlərboyu davam etdirmiş, adlarını tarixə yazdırmışdır. Bunun əksini yaşayan millətlər isə tarix səhnəsindən həmişəlik silinmişdir. "Vətən" kəlməsi ərəb sözü olub موطن (cəmi: مواطن) dilimizə "yaşanılan yer", "insanın doğulduğu, yaşadığı və qorunduğu yer" kimi tərcümə olunur. Bu mənada ərəb dilində ölkə بلد (cəmi: بلاد) və ev دار (cəmi: ديار) sözləri də oxşar məqsəd üçün istifadə olunur. Ümumilikdə isə doğulub boya-başa çatdığın, suyundan içdiyin, çörəyindən yediyin, havasından udduğun, torpağına ayaq basdığın və uğrunda minlərlə canın fəda olduğu müqəddəs torpaq – Vətəndir. Vətən, sadəcə, müəyyən bir ərazi deyil. Vətən bir millətin tarixi, milli-mənəvi dəyərləri, ədəbiyyatı, incəsənəti, keçmişi, bugünü və gələcəyidir.

Bəs vətənpərvərlik nədir? Vətənpərvər olmağın mahiyyəti nədən ibarətdir? Əlbəttə ki, vətənpərvərlik, sadəcə, bir əsgərtək səngərdə qarşı tərəfdəki düşmənlə mübarizə aparmaq deyil, vəzifə və statusundan asılı olmadan istənilən işdə çörəyini yeyib suyunu içdiyi Vətənin maddi-mənəvi maraqlarını qorumaq və ona xidmət etməkdir. Əslində, şəhidlərimizin də bütün ali məqsədləri sadəcə fiziki savaş deyildi. Onlar mənəvi olaraq da mübarizə apardılar. Şübhəsiz, onları səngərə qədər aparan qüvvə də məhz bu mənəvi duyğu idi. Onlar vətənpərvərlik



tərbiyəsində, bu ruhda böyüyən Vətən oğulları idi. "Dağlıq Qarabağ bizim torpağımızdır, tarixi Azərbaycan torpağıdır və biz onu istənilən yolla, istənilən vasitə ilə işğaldan azad etməliyik. Ona görə də iqtisadiyyat daha da inkişaf etməli, güclü ordu yaranmalı, gənclərimiz hərbi-vətənpərvərlik ruhunda daha yüksək dərəcədə tərbiyə olunmalıdırlar". Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə məxsus olan bu sətirlərdən də başa düşüldüyü kimi, vətənpərvərlik hissləri hər kəsə hələ uşaqlıq dövründən başlayaraq aşılanmalı, hər bir valideyn öz övladını milli ruhda böyütməlidir. Bu məqsədlə onlar Vətən eşqindən, torpaq sevgisindən bəhs edən ədəbiyyat nümunələrinə müraciət edə bilərlər. Bunlara misal olaraq Əhməd Cəmilin "Can nənə, bir nağıl de", Ə.Məmmədxanlının "Buz heykəl", Ə.Hacızadənin "İki əsgər" və digər bu səpkili Vətən və müharibə mövzularına həsr olunmuş əsərləri göstərə bilərik. Daha kiçikyaşlı uşaqlar üçün Abbas Səhhətin "Vətən", Mirvari Dilbazinin "Öz vətənimdir", Səməd Vurğunun "Azərbaycan" və s. bu mövzuda olan ədəbiyyat nümunələrinin uşaqlara əzbərlədilməsi yolu ilə mənimsədilməsi də məqsədəuyğundur.

İctimai varlıq olan insan daim ailə, müəyyən bir ictimai təşkilat, kollektiv və ya daha böyük insan sayına malik olan qrup tərəfindən əhatə olunur. Cəmiyyət daxilində hər bir fərdin özünəməxsus statusu, məsuliyyəti və vəzifələri mövcuddur. Bunlardan ən əhəmiyyətlisi isə vətəndaşlıq borcu və şüurdur. Burada fərdin özü və digər insanlar qarşısındakı məsuliyyəti və mənəvi vəzifələri nəzərdə tutulur. İnsan məhz vətənpərvərlik duyğusu sayəsində vətəndaşlıq borcunu, cəmiyyət qarşısındakı vəzifələrini şüurlu şəkildə dərk edir. Bu baxımdan, düzgün vətənpərvərlik duyğusuna malik olan insan müvafiq olaraq doğru vətəndaşlıq məsuliyyətinə və vəzifəsinə yönələrək öz milləti üçün layiqli vətəndaşa çevrilir. Xülasə, əgər vətənpərvər insan anlayışına tərif vermək istəsək, onu bu cür təsvir edə bilərik: "Qəlbində Vətən sevgisi olan və bir vətəndaş olaraq cəmiyyət qarşısındakı vəzifə və məsuliyyətini şüurlu şəkildə dərk edən insan vətənpərvər insandır".

Vətənpərvərlik şüurunun mühün əxlaqi keyfiyyətlərlə birbaşa əlaqəsi vardır. Fəaliyyət göstərdiyi sahəsindən asılı olmayaraq, hər bir vətəndaş xalqının və dövlətinin rifahı naminə əlindən gələni edə bilər. Bu baxımdan, Vətəni qorumaq, onu sevmək, onun rifahı və inkişafı uğrunda yaşayıb mübarizə aparmaq üçün xüsusi bir sahəyə və ya peşəyə yiyələnmək vacib deyildir. Hər bir insan, hər bir vətəndaş öz mövqeyinə uyğun olaraq Vətəni üçün çalışmalıdır. Vətənpərvərlik hissi elə bir ali duyğudur ki, insan onun müqəddəs hesab etdiyi dəyərlərə toxunulduğu təqdirdə, öz canını göz qırpmadan qurban verərək dəyərlisini – Vətənini, torpağını, xalqını qoruyur. Budur, vətənpərvərlik və Vətən sevgisi. O, öz canından keçir, təki vətən sağ olsun və qorunub saxlanılaraq gələcək nəsillərə olduğu kimi ötürülsün. Ümummilli lider Heydər Əliyev belə qeyd edir: "İndi Azərbaycan müstəqil dövlətdir, öz taleyini özü həll edir. Bundan sonra biz heç vaxt imkan verməyəcəyik ki, yadellilər, dinimizə, imanımıza, mənəviyyatımıza zidd olan hansısa qüvvələr gəlib bizə hakim olsunlar və mənəvi dəyərlərimizə yeni-



dən xəsarət gətirsinlər". Məhz bu fikirləri özlərinə qayə seçən vətən oğullarının yalnız bir amalı vardır:

*Vətən mənə oğul desə,*
*nə dərdim,*
*Mamır olub qayasında*
*bitərdim.*
Məmməd Araz.

Azərbaycan əsgərlərinin müharibə əxlaqından irəli gəlir ki, bizim Müzəffər Ordumuz yalnız əlisilahlı düşmənə qarşı mübarizə apardı. Uşaqlara, qadınlara, yaşlılara və ya mülki şəxslərə zərər yetirmək kimi düşmənə xas mənfur əməllərdən qəti şəkildə uzaq durdu. İkinci Qarabağ Müharibəsi dövründə düşmənin Gəncə, Bərdə, Ağdam, Tərtər kimi bölgələrimizi ballistik raketlərdən atəşə tutması, mülki əhaliyə qarşı amansızlıq etməsi onun necə üzdəniraq bir məxluq olduğunu bir daha sübut etdi. İsti evində, rahat yatağında düşmənin qəfil və xain hücumu nəticəsində dünyasını dəyişən, şəhid olan hər bir vətəndaşımızın xatirəsi bizim üçün əziz və unudulmazdır. Ordumuz bütün bunların intiqamını isə müharibə meydanında yüzqat misli ilə aldı. O zaman mənfur düşmən gücümüzü anladı ki, döyüş əsnasında layiqli cavabını almış, qorxu içərisində bütün silah-sursatını ataraq geri çəkilməyə, daha doğrusu, qaçmağa məcbur olmuşdur. Bax, budur vətənpərvərlik ruhu, döyüş əzmi, müharibə əxlaqı. Bütün bunlardan xəbərsiz olan düşmən insan olmaq lütfündən belə məhrumdur.

Şəhid və qazilərimizin qəhrəmanlıq ruhu Azərbaycan mədəniyyətinin əsaslarından biri olan İslam dinindən süzülüb-gəlir. Bu baxımdan, Müqəddəs Kitabımız Qurani-Kərimdə "şəhidlik" məfhumunun 50 yerdə zikr edilməsi heç də təsadüfi deyildir. Qurani-Kərimdə şəhidlikdən bəhs edən elə ilk ayədə onların ölmədikləri və diri olduqları bildirilir: "Allah yolunda öldürülənlərə ölü deməyin, əksinə (onların ruhları Bərzəx aləmində müstəqil şəkildə, yaxud «misal» qəlibinə daxil olmaqla) diridirlər və lakin (bunu) siz dərk etmirsiniz" ("Bəqərə" surəsi, 154-cü ayə). Qeyd olunan ayədən başa düşülür ki, hər hansı bir canlının var olması üçün onun vücuda sahib olması şərt deyildir. Allah şəhidlərin Onun hüzurunda canlı olduqlarını, onlara ruzi və mükafat əta etdiyini bildirir. Dünyasını dəyişən, başqa sözlə, ölən insan Allahın nemətlərindən dada bilməz, lakin şəhidlər diri olduqları üçün hələ Bərzəx aləmində ikən bu mükafat və nemətlərə qovuşur, cənnətdən onlara ruzi əta olunur. Şəhidləri digər şəxslərdən fərqləndirən də elə budur. Halbuki digər insanlar bunu yalnız cənnətdə görə biləcəklər. Necə ki, "Ali-İmran" surəsinin 169-cu ayəsində belə buyurulur: "Allah yolunda öldürülənləri əsla ölü zənn etmə, əksinə, diridirlər və onlara Rəbbi yanında ruzi verilir". Mahiyyət etibarilə bu ayədə də şəhidlərin diri olduqları, xüsusi bir aləmdə dünyadakı insanların əldə edə bilmədikləri böyük mükafatlarla sevindirildiklərindən xəbər verilir. Onlara verilən bu mükafatlar barədə isə bu cür bəhs edilir: "Əgər Allah yolunda öldürülsəniz, yaxud ölsəniz, şübhəsiz ki, Allah tərəfindən olan bağışlanmaq və rəhmət onların yığdıqlarından (dünya sərvətindən) daha yaxşıdır" ("Ali-İmran" surəsi, 157-ci ayə). Bu ayədə Allah yolunda vuruşmağın və şəhid olmağın müqabilində qazanılan mükafat və nemətlərin dünya malından, onun gözqamaşdırıcı zənginliyindən daha üstün olduğu bildirilir. Eynilə "Nisa" surəsinin 74-cü ayəsində belə qeyd olunur: "Odur ki, gərək dünya həyatını axirətə satan kəslər Allah yolunda vuruşsunlar. Kim Allah yolunda vuruşaraq öldürülsə, yaxud qalib gəlsə, tezliklə ona böyük bir mükafat əta edəcəyik".

Allah, torpaq, Vətən uğrunda vuruşan, bu yolda şəhid olan və ya qələbə ilə qayıdıb, qazi adlandırılan şəxslərin də Allah qatında böyük mükafatları vardır: "***De: «Yoxsa bizim üçün iki gözəl xislətdən (döyüşdə qələbə çalmaq, yaxud haqq yolunda şəhid olmaqdan) başqa bir şey gözləyirsiniz?...***" ("Tövbə" surəsi, 52-ci ayə).

Şəhidlər insanların dünyada qazandıqları məfhumların heç biri ilə müqayisə edilə bilməyən ne-

mətlərə nail olurlar: Yaradanın razılığı, rəhməti və bağışlaması. Digər bir möcüzəvi ayələr isə "Ali-İmran" surəsinin 170-171-ci ayələridir: "(Onlar) Allahın Öz mərhəmətindən onlara əta etdiyinə şaddırlar və arxalarınca (hələ gəlib) onlara qoşulmamış (hələ şəhid olmamış) kəslərə görə sevinirlər ki, onlar üçün nə bir qorxu var və nə də qəmgin olacaqlar. Onlar Allah tərəfindən olan nemət və bəxşişə görə və həmçinin Allahın möminlərin mükafatını zay etməməsindən şaddırlar". Şəhidlər bütün bunlara şahiddirlər və şaddırlar ki, onların ardınca şəhid olanlara da həmin nemətlər nəsib olacaqdır.

"Ali-İmran" surəsinin şəhidlərdən bəhs edən sonuncu, 195-ci ayəsində belə buyurulur: "Beləliklə, Rəbbi onların dualarını qəbul etdi ki: «Həqiqətən, Mən sizlərdən heç bir əməl sahibinin – istər kişi olsun ya qadın ki, hamınız bir-birinizdənsiniz və bir-birinizlə bağlısınız – əməlini zay etməyəcəyəm. Odur ki, hicrət edən, öz evlərindən qovulan, Mənim yolumda əzab-əziyyət görən, döyüşən və öldürülən kəslərin pisliklərini mütləq təmizləyəcək və onları (evlərinin və ağaclarının) altından çaylar axan cənnətlərə daxil edəcəyəm. (Bu,) Allah tərəfindən bir mükafatdır. Gözəl mükafat yalnız Allahın yanındadır". Doğma torpaqlarından, isti ocaqlarından, əziyyət və zəhmətlə qurduqları ev-eşiklərindən didərgin salınaraq qovulan, yurd yuvalarından zor gücünə çıxarılan Xocalı şəhidlərinin, dinc əhalinin və Birinci Vətən müharibəsində Azərbaycan torpaqlarının müdafiəsi uğrunda canından keçən vətən oğullarının ruhları da Allah tərəfindən müjdələnir, onlara böyük və əzəvolunmaz nemətlər veriləcəyi bildirilir.

Qurani-Kərimin "Tövbə" surəsinin 111-ci ayəsində şəhidlər ilə Yaradan arasında baş verən karlı bir alış-verişdən bəhs edilir: "Həqiqətən, Allah möminlərin canlarını və mallarını onlardan Cənnətin onların olması bahasına alıb. (Bu malın verilmək tərzi belədir ki, onlar) Allah yolunda vuruşurlar, beləliklə, öldürürlər və öldürülürlər (və öz mallarından Allah yolunda xərcləyirlər). (Bu alver) Onun öhdəsində olan – (Onun əzəli elmindən başqa, həm də Lövhi-Məhfuzda qeyd olunmuş və alver sənədi kimi) Tövrat, İncil və Quranda (yazılmış) haqq bir vəddir. Allahdan başqa kim öz əhdinə daha vəfalıdır?! Buna görə də etdiyiniz bu alverə şad olun. Budur, böyük uğur və qurtuluş!".

Hədislərdə də həmçinin şəhidlərin ölüm acısını hiss etməmələri, qəbir əzabı görmədikləri, mələklərin qanadları ilə onlara kölgə saldıqları, mübarək vücudlarının qəbir evində heç bir zərər görmədiyi, mübarək qanlarının müşk ətri verdiyi və şəhidin qiyamət günü 70 nəfərə şəfaət edəcəyi yer almışdır. Aləmlərin nuru, sonuncu peyğəmbər Həzrət Məhəmməd (s) şəhidlərin axirətdə qazandıqları mükafatlar barəsində belə buyurur: "Cənnətə daxil olub oradakı nemətləri gördükdən sonra dünyaya geri dönməyi şəhidlərdən başqa heç kim arzulamaz. Yalnız şəhidlər qiyamət günündə gördükləri lütflərin çoxluğuna görə (şəhid olmaq üçün) yenidən dünyaya qayıtmağı arzularlar". Budur, şəhidlərə verilən dəyər və onların Allah hüzurundakı ali məqamı.

Əziz dost, sənin gəzdiyin bu torpaq, ayaq basdığın hər qarış sadə, bəsit bir torpaq parçası deyil. Sadəcə, kimyəvi elementlərdən təşkil olunduğunu düşünürsənsə, yanılırsan! Bu torpaq çox dəyərli həyat, ömür, arzu, niyyət elementlərinin qarışığından meydana gəlib!

Tarix boyu onu Vətən övladları öz qanları, canları ilə yoğurdu, qorudu, son nəfəslərinə qədər göz qırpmadan yağı düşmənə macal vermədən vuruşdu və şəhid oldu. Onlar ölmədi, onlar şəhid oldular. Şəhidlər ölməzdir. Onlar Allah tərəfindən seçilmiş şəxslər olduqları üçün diridirlər, sadəcə, biz bunu dərk etmirik. Şəhidlik həm dünyada, həm də axirətdə ali məqamdır, yüksək rütbədir, qanının hər bir damlası alimin qələmindən üstündür, müqəddəsdir, hörmət və ehtirama layiqdir. Belə fədakarlıq nəticəsində qorunan torpağın vətəndaşı olmaq necə də şərəflidir. Unutma, dostum! Bura Şanlı Vətəndir!

***Dumanlı dağların başında durdum,***
***Dumandan özümə bir xeymə qurdum,***
***Keçdi xəyalımdan öz gözəl yurdum,***
***Dumanlar içində duman göründü...***

Şanlı tariximizin mübarizə səhnələrinə nəzər salsaq, adlarını həmişə fəxarətlə qeyd edəcəyimiz igid sərkərdələrimizi və qəhrəmanlarımızı görərik. Yaxın keçmişdə isə bizim qorxusuz, mərd, düşmənə qan udduran oğullarımız, Mübarizlərimiz, Xudayarlarımız və Vüqarlarımız vardır. Biz onların uca adlarını daim böyük fəxrlə anaraq müqəddəs ruhlarını, ali məqamlarını əziz tutacağıq.

Allah sizə rəhmət eləsin, əziz Şəhidlərimiz!

# POLADQƏLBLİ, MÜBARİZBAXIŞLI VÜQAR

## *Şəhid Vüqar Məmmədovun əziz xatirəsinə*



**Həmidə Həsənova,**
**Aİİ-nin III kurs tələbəsi**

***"O qədər qürurla izləyirdim ki, Prezidentin hər dəfə xalqa müraciətini"...***

Gecə yumub gözlərimi, bir nəğmə eşidirəm. Bir nəğmə... dilsiz, kar, dərdqoxulu və qollarını açıb rəqs edən Qarabağın ağacları... Bu gecə bir daş daha artdı vaxtın kədər məzarlığında. Yuxu tutdu gözlərimi, sanki şəhidin biri "Mən şahidəm" deyirdi. Söylədim, adın nədir?! Yoxsa sən Poladqəlbli, Mübarizbaxışlı Vüqarsan?! Bir susqunluq baş verdi mənalı baxışlarda. Neçə-neçə məzarlar açılaraq, sanki "Tökülən qanları yerdə qoymayın, biz özümüz şahidik şəhidlərin qanına", - deyilirdi...

Müzəffər Ali Baş Komandan, Azərbaycan Ordusu, sanki ağbirçəkli anaların, şəhidlərin naləsini eşitdi həmin gecə. Oyanmaq istəmirdim bu yuxudan mən, sanki Şəhid Vüqar Məmmədov gözlərimə təbəssümlə baxıb deyirdi:

- O gün baxışlar açacaq səhəri, bir az titrəyə-titrəyə... Orada - baş meydanda insan izdihamı baş alıb gedəcək uzaqlara doğru! Günəşin şüaları yorulacaq təpik zərbəsindən! Qazilər itirdikləri qollarının, axıb-gedən qanlarının, yoxa çıxan ayaqlarının yoxluğunu duymayacaqlar... Birəlli yapışıb Bayrağın ətəyindən, doyunca, doyunca ağlayacaqlar...

Şəhidimin ürəyinə danmışdı, sanki qələbə olacaq. Belə də oldu...





Azərbaycanın Müzəffər Ordusunun zəfər yürüşü, düşmənin torpaqlarımızdan qovulması, Qarabağın, xüsusən də xalqımızın ləyaqət və qürur simvolu Şuşanın işğaldan tamamilə azad edilməsi, uzun illər düyünə düşmüş və region üçün təhlükə mənbəyi olan Dağlıq Qarabağ münaqişəsinin uğurla və ədalətlə həll edilməsi, həm də yaşadığımız bölgədə sülhə və təhlükəsizliyə əvəzsiz töhfədir.

Mən bilirəm, savaş meydanında əldə etdiyimiz tarixi qələbənin ardınca Azərbaycanı daha böyük gələcək, daha firavan həyat gözləyir.

Qarabağı dindirəndə, küskün nadinc uşaqlar kimi, ruhum ürəyimi sıxırdı, baxışım divarları... Bu həsrətə son qoymağın əsl vaxtı idi. Hələ Xocalıda itkin düşən bir ananın qızı daha çox ürəkləri dağlayardı. Deyərdi: " Haradasa itirmişəm səni, haradasa... keçmişdə, ya gələcəkdə... Ya baharda, ya qışda, ya gecədə, ya da fikirdə itirmişəm... Yerin bomboş qalıb əvvəlki kimi, eh, boşuna aramaqdan nə çıxar ki? Gözlərində Qarabağın həsrətini asanım anam...".

Qələbəyə imza atıb bu həsrəti birdəfəlik bitirdik. Əldə olunan bu tarixi uğurlar Azərbaycanı dünyada ən güclü dövlət etdi! "İşğaldan azad olunmuş ərazilərdə xalqımızın tarixi, mədəni-mənəvi irsinin qorunması və yenidən dirçəldilməsi, Azərbaycan elminə böyük şəxsiyyətlər qazandırmış bu diyarda elmi infrastrukturun bərpası, yeni elmi-tədqiqat mərkəzlərinin yaradılması qarşımızda duran ən başlıca vəzifələrdən biridir.

Qarabağın üstündən qara buludlar çəkildi, ağ buludlar onları əvəz etdi. Səmada 44 gün davam edən Vətən Müharibəsi BÖYÜK QƏLƏBƏMİZlə başa çatdı. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu böyük şücaət və yüksək

döyüş hazırlığı göstərərək torpaqlarımızı işğaldan, düşmən tapdağından azad etdi. Tarix yazan qəhrəman Ordumuz, əsgər və zabitlərimiz Azərbaycanın haqq uğrunda mübarizə aparmaq əzmini, əsl döyüş ruhunu bütün dünyaya nümayiş etdirdi.

Azərbaycan Ordusu təkcə Vətən Müharibəsində deyil, Aprel döyüşlərində də öz gücünü layiqincə göstərdi! Çox şəhid verdik, çox qanlar töküldü...

Qanını, canını Vətən uğrunda qurban verən şəhidlərdən biri də Vüqar Məmmədov idi.

Vüqar Məmmədov 1994-cü ilin 9 yanvar tarixində Azərbaycan Respublikasının Sumqayıt şəhərində anadan olub. 2000-ci ildə Sumqayıt şəhəri 22 nömrəli tam orta məktəbinə daxil olaraq, 2011-ci ildə məzun olub. 2011-2015-ci illərdə Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsində təhsil alıb. 2015-ci ildə Azərbaycan Silahlı Qüvvələri Quru Qoşunları sıralarında həqiqi hərbi xidmətə başlayan Vüqar Məmmədovun xidməti müddətində Azərbaycan-Ermənistan arasında dördgünlük müharibə başlandı. Əsgər Məmmədov döyüşlərin ilk günlərindən etibarən həmin müharibədə iştirak etdi. Hərbi xidmətdə topçu vəzifəsində və manqa komandiri olan Vüqar Məmmədov ordudan tərxis olunduqdan bir müddət sonra – 2017-ci ilin yay aylarından etibarən yaşadığı Sumqayıt şəhərində marketdə mühafizəçi və digər işlərdə işləyib.

2020-ci ilin 27 sentyabr tarixində Azərbaycan-Ermənistan arasında İkinci Qarabağ müharibəsi başlandıqdan sonra könüllü olaraq Füzuli rayonu istiqamətindəki döyüşlərə yollanır.

Vüqar Məmmədov 2020-ci ilin 9 oktyabr tarixində Füzuli şəhər mərkəzinin azad edilməsi uğrunda aparılan Füzuli əməliyyatının gedişatında baş verən şiddətli döyüşlər zamanı düşmən snayperinin açdığı atəş nəticəsində şəhid olur.

Xalqımızın qan yaddaşında əbədi yaşayacaq hadisələrin içərisində dövlət müstəqilliyimizin ilk otuzillik dövrünün keşməkeşləri, 44 günlük Vətən müharibəsinin heç vaxt silinməyəcək izləri hələ əsrlərboyu gələcək nəsillərimizin fikir və düşüncələrinə hakim kəsiləcək, şairlər, alimlər, yazıçılar, incəsənət xadimləri, mədəniyyət işçiləri və heykəltəraşlar öz əsərlərində qələbədən bəhs edəcəklər. "Ötüb-keçən nəsillərin ənənələri bir kabus kimi həmişə canlıların zehnini məşğul edib" (K.Marks).

Hazırda Azərbaycan muzeylərinin hamısının ekspozisiyasında respublikamızın ərazi bütövlüyü uğrunda mübarizəyə həsr olunmuş guşələr mövcuddur və bunlar gənclərimizin vətənpərvərlik tərbiyəsində öz rolunu oynayır. Bununla belə, hesab edirəm ki, ayrıca Dağlıq Qarabağ uğrunda Vətən müharibəsinə həsr olunmuş Muzeyin yaradılması olduqca aktual və vacibdir. Təkcə ona görə ki, Ermənistan respublikası, erməni lobbisi və dünya erməni diasporları Azərbaycan xalqının bu qələbəsini heç vaxt həzm etməyəcək və əvəzini çıxmaq üçün daim marıqda duracaqlar. Düşmənimizin nə qədər məkrli və namərd olduğunu Cənubi Qafqazın son ikiyüzillik tarixinin minlərlə, yüzminlərlə hadisə və epizodları sübut edir.

Ən çox da Vətən müharibəsi, bilirsinizmi, nə göstərdi dünyaya?

Azərbaycan tarixini yaşadan abidələrimizin arasında məscid tikililəri, məqbərə və ulularımızın ruhlarının uyuduğu qəbiristanlıqlar xüsusi yer tutur ki, bunların böyük hissəsi işğal altındakı ərazilərdə qalmışdı. Yaşı yüzilliklərlə ölçülən məqbərə və məscidlər həmişə xalqımızın inanc və güman yeri kimi qalmaqdadır. Bu gün Vətən müharibəsinin gedişində həmin əsir abidələrimiz öz həqiqi sahiblərinə qaytarılır.

İngiltərənin görkəmli dövlət və siyasi xadimlərindən olan U.S.Çerçill 1945-ci ildə xalqa müraciətində deyib: "Əsl ingilis olmaq istəyən hər kəs xalqının qəhrəmanlıq tarixini öyrənməyə başlamalıdır. Biz tariximizi öyrənməyi kilsədə başlayıb məsciddə bitirməliyik...". O məscidlər ki, onların hamısı erməni vandalizminin təcavüzünün qurbanı olmuş, tək Yaradanımıza asiliyin təcəssümü kimi təhqir edilmişdir. Prezident İlham Əliyev onların bərpa edilib şanlı tariximizin bir hissəsinə çevriləcəyi ilə bağlı dünyaya çağırış etmişdir. Tarixi və əsli-kökü olmayan, ölüsünə və qocasına sahiblik etməyən ermənilər üçün müqəddəs heç nə yoxdur.

Şair demişkən: "Sağlığında qiymət verin insanlara!". Bu onun halal haqqıdır! Azərbaycan durduqca ümummilli lider Heydər Əliyevin və İlham Əliyevin adları qoşa çəkilməli, milli birliyin, qətiyyətin və qüdrətin simvolu kimi dövlət rəmzlərində və bayrağımızda yaşamalı, poeziya və nəğmələrimizdə tərənnüm edilməlidir. Təkcə ona görə ki, yaşı minilliklərin dərinliklərinə gedən, kökü, əsli-nəcabəti bəlli olan bir xalqın ləyaqətini, qeyrətini, kişiliyini, mərdliyini, qəlbinin genişliyi və mərhəmətini bütün dünyaya əməlləri ilə sübut etdi.

# DİN – MƏNƏVİ DƏYƏR KİMİ



**Anar Qafarov,**
**f.f.d., dos.,**
**Dinşünaslıq kafedrasının müdiri**

Milli mədəniyyətin sakral fondunu təşkil edən və ictimai şüurun dərinliklərində qərar tutan din mənəvi dəyər kimi, xüsusilə keçid dövrü cəmiyyətlərində mənəvi böhrana səbəb olacaq və dəyərləri aşındıracaq dəyişikliklərə qarşı müqavimət göstərən immun sistemidir. Bu mənada, Azərbaycanın siyasi tarixində milli özünəqayıdış istiqamətindəki siyasi strategiyanın ən mühüm məqamlarından birini mənəvi dəyər kimi məhz dinin təşkil etməsi heç də təsadüfi deyildir. Bütün bunların fərqində olan Azərbaycan Respublikasının sabiq Prezidenti Heydər Əliyev də dinin, xüsusən də İslam dininin və mədəniyyətinin mənəvi-əxlaqi, humanist-dialoq potensialının və ümumbəşəri məzmununun dərk edilməsinin müstəqil ölkəmiz üçün olduqca əhəmiyyətli olduğunu dilə gətirirdi. Ona görə, xalqın özünəqayıdışında din mənəvi dəyər kimi əhəmiyyətli amillərdən biridir. Heydər Əliyev 1993-cü il yanvarın 7-də Naxçıvanın "Came" məscidində keçirilən mərasimdə deyirdi: "Biz uzun illər dinimizdən məhrum olmuşuq. Bizim mənəvi mənbəyimiz, mənəvi köklərimiz çoxlarına o qədər də məlum olmayıb. Allahın köməkliyi ilə son illər Azərbaycan müsəlmanları, o cümlədən, Naxçıvanlı müsəlmanlar öz dinləri ilə birgə yaşamaq imkanı almışlar... Hər bir müsəlman, hər bir Naxçıvanlı nə qədər çox dinə müraciət etsə, Qurani-Kərimi dərindən öyrənsə, o qədər də pak olacaq, o qədər də saf olacaq, öz Vətəninə, xalqına, millətinə sədaqətli olacaq, həyatı üçün yaxşı şərait əldə edəcəkdir" (Qayıdış (1990-1993), Bakı: Azərbaycan nəşriyyatı, 1996, səh. 317)

Məlumdur ki, sovet hakimiyyəti illərindən qalan ən mühüm problemlərdən biri də 70 illik əsarət ərzində dinimizdən məhrum edilməyimiz olub. Dövrün uzunsürən totalitar rejimi və ateist ideologiyası, ölkəmizdə müsəlmanların öz dinlərini sərbəst yaşamalarına ciddi qadağalar qoydu. Həmin dövrlərdə Azərbaycan SSR-də əhalinin böyük əksəriyyəti İslam dininə mənsub olduğu halda, fəaliyyət göstərən yalnız 17 məscid və bir ziyarətgah mövcud idi. Buna baxmayaraq, İslam dini və bu dinin mənəvi dəyərləri daim xalqımız arasında öz mövcudluğunu qoruyub. Azərbaycan dövləti müstəqillik əldə etdikdən sonra, ölkəmizin insan hüquq və azadlıqları, o cümlədən, vicdan və dini etiqad azadlığı beynəlxalq standartlara uyğun olaraq bərpa edilib. Dini etiqad azadlığı Heydər Əliyevin siyasətində demokratik, hüquqi cəmiyyət quruculuğunun zəruri atributu kimi qiymətləndirildi və bu sahədə Azərbaycan Respublikası Konstitusiyası və "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq olaraq ardıcıl mütərəqqi tədbirlər həyata keçirildi.

Müstəqil Azərbaycan Respublikasının Prezidenti olduğu dövrlərdə İslam dininin mənəvi dəyərlərinin əhəmiyyətini və öyrənilməsinin zəruriliyini dilə gətirən Ulu Öndərin 2 fevral 1996-cı ildə müstəqil Azərbaycan Respublikasının birinci forumunda söylədiyi fikirlər diqqətəlayiqdir: "Bizim konstitusiyamıza görə ölkəmizdə dünyəvi dövlət qurulur, din dövlətdən ayrıdır. Təbii ki, bütün dünyəvi ölkələrdə bu belədir. Bu, heç kəsdə təəccüb doğurmasın. Bu, bizim dinə münasibətdə başqa bir mövqe tutmağımızı göstərmir. Ancaq gənclərimizin İslam dinini mənimsəmələri üçün hesab edirəm ki, lazımi tədbirlər görülməlidir. Çünki bu tədbirlərin olmaması nəticəsində bəzi mənfi hallar meydana çıxır, ayrı-ayrı qruplar gənclərə fanatizm əhval-ruhiyyəsini aşılamaq istəyirlər və bunlar da bizim gənclərimizin tərbiyəsinə zərər vurur. Ona görə də İslam dininin məktəblərdə tədris olunması, hesab edirəm ki, günün tələblərindən biridir və bu barədə Təhsil Nazirliyi, müvafiq təşkilatlar düşünməlidirlər, lazımı tədbirlər görməlidirlər. Yəni bizim gənclərimiz, dinimizi olduğu kimi öyrənməli, qəbul etməli və ondan istifadə etməlidirlər. Biz heç vaxt yol verə bilmərik ki, ayrı-ayrı

şəxslər, ayrı-ayrı qüvvələr öz şəxsi mənafelərini güdərək İslam dini pərdəsi altında Azərbaycan gənclərinin tərbiyəsinin zədələnməsinə gətirib çıxarsınlar” (Heydər Əliyev, Müstəqil Azərbaycan Respublikası gənclərinin birinci formunda çıxışı, “Azərbaycan” qəzeti, 1996, 3 fevral).

Dinin mənəvi dəyər kimi ölkəmizin milli özünəqayıdış siyasətinin prioritet istiqamətlərindən biri olmasının məntiqini anlaya bilmək üçün qloballaşma prosesini sosial-mənəvi aspektdən təhlil etmək kifayətdir.

Hər şeydən əvvəl qeyd edilməlidir ki, qloballaşma prosesi cəmiyyətlər üçün mədəni müxtəlifliyi labüd hala gətirdi. Sözsüz ki, belə bir vəziyyət lokal və qlobal dəyərlərin bölüşülməsi və müxtəlif mədəniyyətlərə məxsus olan fərd və cəmiyyətlər arasındakı münasibətlərin inkişaf etməsi baxımından müsbət bir hadisədir. Bu prosesIə dil, rəng, etiqad, mədəniyyət və məzhəb aspektindən ortaya çıxan müxtəlifliyin ictimai vəhdət zəminində həll edilməsi bir o qədər də asan olmayan bəzi problemlərə səbəb olacağını da istisna etmir. Əlbəttə, qloballaşma prosesində özünü və dünyanı yenidən inşaetmə qayəsi ilə yola çıxan insan, varlıq aləmindəki elmi kəşf və icadları ilə mədəni həyat tərzini və insan həyatını asanlaşdırdı. Digər tərəfdən isə bəşər övladı elmi və texnoloji kəşflər sayəsində güc əldə edib, zamanla metafizikadan, dindən və mənəvi dəyərlərdən bağını qoparaq, həddindən artıq dünyəviləşdi. Beləcə, bəşəriyyətin böyük əksəriyyəti mənəvi dəyər olan dindən getdikcə uzaqlaşdı. Nəticə etibarilə insanın ülvi mənliyinin inşası yerini süfli mənliyi olan eqonun inşasına, “biz-mərkəzli” həyat fəlsəfəsi “mənmərkəzli” həyat fəlsəfəsinə, bir dəyər olaraq həqiqətin və humanist dəyərlərin əsas alındığı dünyagörüşü vaxt keçdikcə yerini “əşya-mərkəzli” dünyagörüşünə verdi. İnsan övladının özünə yadlaşmasını ehtiva edən “mən-mərkəzli” həyat fəlsəfəsi nəticədə ifrat kapitalizmi ortaya çıxardı. Mahiyyəti etibarilə “əşya-mərkəzli” bir dünyanı ehtiva edən ifrat kapitalist zehniyyət əşyaya, yaxud müəyyən kapitala sahib olmaq üçün bir dəyər və məqsəd olan insanı vaxt keçdikcə vasitə halına gətirərək dəyərsizləşdirdi. Belə bir vəziyyət ictimai münasibətlərin mənəvi amillərini aşındıraraq, sosial vəhdət baxımından böyük sıxıntı olan “mən və özgəsi” problemini də özü ilə birlikdə gətirdi. Beləliklə, mədəni müxtəliflik, demokratiya, insan hüquqları və azadlığı mövzusunda keçirilən bir çox siyasi müzakirələrə baxmayaraq, dünyamız zorakılıq, zülm, ədalətsizlik, özgələşdirmə, hüquq bərabərsizliyi, marginallaşdırmanı nümayiş etdirən mənfi hallar və münasibət formaları ilə çalxalanan bir planet halına gəldi. Dünyanın belə bir mənzərəsi qarşısında Azərbaycanda ictimai vəhdət və həmrəyliyi canlandıracaq əsas dəyər və prinsiplərin təkrar nəzərdən keçirilib dəyərləndirilərək müzakirə obyektinə çevrilməsini zəruri hesab edən Heydər Əliyev, bir çox nitq və çıxışlarında İslam dininin əhəmiyyətinə və gənc nəslin bu istiqamətdə maarifləndirilməsinin vacibliyinə xüsusi diqqət çəkir. Dinimizi xalqımızın milli-mənəvi sərvəti olaraq qiymətləndirən Ulu Öndər bu istiqamətdə söylədiyi fikirlər və atdığı addımlarla müstəqil Azərbaycan Respublikasında sensual, yəni “məna-mərkəzli” vəhdətin bərqərar olmasına nail oldu. Onun din-dövlət münasibətləri kontekstindəki siyasi kursunun mahiyyət və əhəmiyyətini daha dərindən anlamaq üçün ilk növbədə, cəmiyyətdə sensual vəhdətin mahiyyətinin və əhəmiyyətinin öyrənilməsi zəruridir.

Məlumdur ki, insan bir cəmiyyətdə başqa insanlarla birlikdə və vəhdət halında yaşamağa məhkumdur. İnsan öz-özünə kifayət edən bir varlıq deyil. İnsanların eyni qabilliyyətlərə malik olması həyatın müxtəlif ehtiyacları istiqamətində sosial münasibətlər şəbəkəsini zəruri hala gətirir. Belə bir zərurət isə özlüyündə sosial-mədəni və mənəvi vəhdətin əhəmiyyətini aktuallaşdırır. Sosial münasibətlər şəbəkəsi yalnız sosial vəhdəti əks etdirdiyi ölçüdə sağlam ola bilər. Sosial vəhdət isə bir cəmiyyətdə bütün fərd, qrup və sosial strukturun bütün ünsürləri ilə maddi-mənəvi mədəniyyət ünsürlərinin ortaq bir məxrəcə gələrək, funksional tamlıq və ya bütövlük meydana gətirəcək şəkildə bir-birlərini tamamlamalarını, qaynayıb-qarışmalarını ifadə edir. Başqa bir aspektdən isə sosial-mədəni və mənəvi vəhdət müəyyən bir cəmiyyətdə və sosial qrup daxilində üstün olan mədəni və mənəvi dəyərlərin cəmiyyəti meydana gətirən fərdlər tərəfindən qəbul edilərək mənimsənilməsi və insanların əldə etdikləri sosial-mədəni və mənəvi dəyərlərə müvafiq şəkildə yaşamasıdır. Elə isə sosial-mədəni və mənəvi vəhdətdə bir mədəniyyətin maddi dəyərləri ilə yanaşı, mənəvi dəyərləri də olduqca əhəmiyyətlidir. Cəmiyyətdə əxlaq, din, dil, sənət, ədəbiyyat, hüquq və təhsil kimi mənəvi dəyərlər bir-birini

tamamlayaraq, fərdlər arasında sosial-mədəni və mənəvi bütünlük və ahəng meydana gətirmədiyi təqdirdə, sosial münasibətlər şəbəkəsi ideya və məqsəd birliyinin funksional olduğu bir sahə olmaqdan çıxıb, məhdudiyyət qoyulmayan şəxsi seçim, arzu və tələbatların hökmranlıq edəcəyi münasibətlər şəbəkəsinə çevriləcəkdir. Bu mənada, sosial vəhdət eyni məkanda yaşamaqla deyil, cəmiyyət üzvlərinin hansı məkanda yaşamasından asılı olmayaraq, vahid ideya, maraq, hədəf və ya amal ətrafında birgə yaşamalarını ifadə edir.

Nüvəsini mənəvi dəyərlərin təşkil etmədiyi "məkanmərkəzli" vəhdət formal vəhdətdir. Belə bir vəhdət özlüyündə güclü sosial partlayışları və çaxnaşmaları istisna etmir. Elə isə, həqiqi sosial-mədəni və mənəvi vəhdət özlüyündə ortaq dəyərləri ehtiva edən vəhdət şəklidir.

Belə bir keyfiyyəti özlüyündə ehtiva edən iki növ vəhdətdən bəhs etmək mümkündür ki, bunlardan biri funksional vəhdət, digəri isə "mənamərkəzli" sensual vəhdətdir.

Cəmiyyət üzvləri və sosial qruplar öz funksiyalarına əsaslanaraq, bir-biri ilə sıx şəkildə bağlı olsalar da, onların bir mexanizmin çarxları kimi bir-birinə hissiz, laqeyd və anlayışsız olmaları mümkündür. Elə isə cəmiyyətin sağlam bir struktur əldə edərək, bölünüb-parçalanmadan öz varlığını davam etdirə bilməsi üçün onu təşkil edən fərd və qrupların, sadəcə, funksiyalarına görə deyil, bir məna və dəyər ərtafında birləşmələri, yəni müştərək mədəni ünsür və dəyərlərlə bir-birlərini tamamlamaları lazımdır. Bu mənada, dinin də mənəvi dəyər kimi xüsusi yeri var. Din mənəvi dəyər kimi, hər zaman ictimai nizam və vahid mənəvi mühitin formalaşdırılması üçün mədəniyyətin ən mühüm amillərindən biri hesab edilib.

Təsadüfi deyildir ki, din dəyər kimi ölkəmizdə də ictimai-mədəni və mənəvi mühitin formalaşmasında ideal tip olaraq qiymətləndirilməkdə və ölkəmizin milli-mənəvi dəyərlər istiqamətindəki siyasi strategiyasında prioritet istiqamətlərdən birini təşkil etməkdədir. Ölkəmizin bu istiqamətdəki siyasi strategiyasının bünövrəsində Azərbaycan cəmiyyətinin kollektiv hafizəsini və ictimai şüurunu təşkil edən dini və milli-mədəni ünsürlərin birliyi dayanır. Belə bir birlik şüurunun siyasi və praktik təcəssümü 1918-ci ilin 28 may tarixində Şərqdə ilk demokratik Respublika – Azərbaycan Xalq Cümhuriyyətinin varisi olan Azərbaycan Respublikasının Prezidenti kimi Heydər Əliyevin siyasi fəaliyyətində də özünü bariz şəkildə göstərdi. Bunu onun diqqətəlayiq olan müəyyən fikir və ifadələrində də açıq şəkildə görmək mümkündür.

Məlumdur ki, Sovet İttifaqının dağılması nəticəsində ateizmin təlim və təbliğatlarının hökm sürdüyü cəmiyyətdən milli-mənəvi dəyərlərə daha çox önəm verən cəmiyyətə keçid əsarətdən qurtularaq, müstəqilliyini yeni elan etmiş (18 oktyabr 1991) ölkəmiz üçün o qədər də asan olmadı. Bunu nəzərə alsaq, ölkəmizdə müstəqillik tariximizdən etibarən başlayan özünəqayıdış və özünüdərk prosesinin daha sonra milli-mənəvi dəyərlər zəminindəki dərin siyasi fəaliyyətlər sayəsində müvəffəqiyyətlə davam etdirilməsi təqdirəlayiq bir haldır. Müstəqillikdən sonra mənəvi dəyərlər istiqamətində Azərbaycanda reallaşdırılan siyasi strategiya müstəqilliyə yenicə qədəm qoyulduğu dövrdə Sovet İttifaqının Azərbaycan cəmiyyətini özünəyadlaşdırma siyasətinin təsirindən hələ də tam qurtulmayan vətəndaşlarımızın zamanın ziddiyyətlərinə ram olmamaları üçün olduqca əhəmiyyətli idi.

Məlum olduğu kimi, post-sovet dövrünün əvvəllərində Azərbaycanda vaxtilə Sovet İttifaqının hakim ideologiyasına xidmət edən, şüurlu və şüursuz şəkildə Sovetlərin özünəyadlaşdırma siyasətinin təbliğatçısına çevrilən bəzi insanlar yolayrıcında qalmışdılar. Belə bir vəziyyətdə insanların zehnində iki mühüm sual doğmuşdu: keçmişə "əlvida" deyib, yeni dövrün strategiyasına müvafiq şəkildə "yol xəritəsi" müəyyənləşdirib yaşamaqmı, yoxsa keçmişlə yaşamaqmı daha doğrudur? Cəmiyyətlərin varlığı baxımından olduqca əhəmiyyətli olan bu sual mövcudluğun mahiyyət və keyfiyyətini müəyyənləşdirəcək intellektual refleksiyanın ifadəsi idi. Heydər Əliyevin post-sovet dövrü Azərbaycanda milli-mənəvi dəyərlər istiqamətində icra etdiyi siyasi strategiya Azərbaycan cəmiyyətinin varlığını məhz öz milli-mənəvi dəyərlərinə əsaslanaraq gələcəyə transformasiya edəcəyi ideyasını daşıyırdı.

Müstəqilliyinin ilk günlərindən etibarən, milli-mənəvi dəyərlərə münasibətin müsbət istiqamətdə dəyişdiyi və ateizmdən getdikcə uzaqlaşma prosesinin yaşandığı ölkəmizdə 1993-cü ildə yenidən iqtidara gələn Heydər Əliyevin bu istiqamətdəki siyasi addımları ilə milli-mənəvi dəyərlər və mənəvi



dəyər olaraq, xüsusilə din sahəsində yeni bir mərhələyə qədəm qoyuldu. Bu dövrü ölkəmizin mənəvi mədəniyyətinin intibahı kimi qiymətləndirsək, mübaliğə etmiş olmarıq. Belə ki, həmin dövrdə post-sovet Azərbaycanında insan hüquq və azadlıqlarının, din və vicdan azadlığının bərqərar olması, milli-mənəvi dəyərlərimizin mühafizəsi və gənclərimizin bu dəyərlərə müvafiq şəkildə yetişdirilməsi dövlətimizin əsas hədəflərindən biri idi. Bu mənada, Ümummilli Liderin ölkə gənclərinin I forumunda dilə gətirdiyi fikirlər böyük əhəmiyyət kəsb edir: "Gənclərimizi dinimizi olduğu kimi öyrənməli, qəbul etməli və ondan istifadə etməlidirlər. Biz heç vaxt imkan verə bilmərik ki, ayrı-ayrı şəxslər, ayrı-ayrı qüvvələr öz şəxsi mənafelərini güdərək İslam dini pərdəsi altında Azərbaycan gənclərinin tərbiyəsini və mənəviyyatını zədələsinlər". Bu fikirlər cəmiyyətdə "məna-mərkəzli" sensual vəhdətin nəzəri zəminini formalaşdırması baxımından olduqca əhəmiyyətlidir. Bundan əlavə, bəzi şəxs və qrupların cəmiyyəti mənəvi zəmində parçalamağa xidmət edəcək fikir və planlarının reallaşdırılmasına izin verilməməsi istiqamətində çıxışda yer alan təkidli ifadələr özlüyündə, sadəcə, dövlət rəhbərinin deyil, eyni zamanda, cəmiyyətimizin hər bir fərdinin mənəvi mühitin formalaşdırılması və qorunması istiqamətində üzərinə düşən öhdəliyi icra etməsinin vacibliyini də dilə gətirir.

Nəticə etibarilə deyə bilərik ki, milli-mənəvi dəyərlərin ən həssas nöqtəsi olan dinimiz xalqımızın milli-mənəvi sərvətidir. Din mənəvi dəyər kimi, cəmiyyətin mövcudluğunun qarantı olan ən mühüm və həssas sahələrdən biridir. Azərbaycan dövlətinin siyasi kursuna görə xalqımızın və ölkəmizin daim var olması sahib olduğu etiqad və dininə məsafəli olmaması ilə və mənəvi dəyərlərimizdən faydalanmaqla düz mütənasibdir. Belə bir dövlət fəlsəfəsində milli ideologiya və siyasətin tərkib hissəsini təşkil edən milli-mənəvi dəyərlər və xüsusilə, mənəvi bir dəyər kimi, dini dəyərlər hər bir xalqın ən mühüm istinadgahı kimi qəbul edilir.

# İslam fəlsəfəsinin müasir dövrdəki problemləri



**Əlаddin Məlikov,**
f.f.d., dos.,
AİI-nin müəllimi

Ümumilikdə, İslam fəlsəfəsi ilə bağlı bir çox fikir müzakirə və mübadilə olunmaqdadır. İslam dünyasında fəlsəfi fikrin tarixi olduqca maraqlı və mürəkkəb bir hekayətdir. Burada araşdırılan məqamlar, əslində, İslam fəlsəfəsinə olan iki əsas baxışdır. Bunlardan biri İslam fəlsəfəsini durğun və cansız şəkildə təsvir edir, digər görüş isə onu canlı və həqiqət axtarışında olan dinamik düşüncə növü hesab edir. Həmçinin burada müxtəsər də olsa, hər iki baxışın nəticələri qiymətləndiriləcək.

Durğunluq fikri – İslam fəlsəfəsini ancaq keçmişdə baş vermiş məsələ kimi təsvir edir. Digər tərəfdən, dinamik görüşün nümayəndələri düşüncəni proses hesab edir, keçmişi, indini, gələcəyi, bəşəriyyətin vəziyyətini təsvir edən mövzulardan sayır. Başqa sözlə, əgər bir fikir cərəyanını doğru-düzgün tanımaq istəsək, onda gərək o fikri həm də sınaqdan keçirək. Bu baxış bucağından baxdıqda, İslam fəlsəfəsi həm tarix boyu sınaqdan keçmiş nəzəriyyələrin ardıcıllığını qorumaqdadır və dinamik şəkildə bugünümüzə və gələcəyimizə yönəlib.

İslam dünyasında fəlsəfə həmişə mütəkəllimlərin, arif və fəqihlərin meydanına çevrilib. Bunun həm müsbət, həm də mənfi nəticələri olub. Ümumiyyətlə, İslam fəlsəfəsi akademik sahədir, yoxsa ancaq fəlsəfə tarixidir? Bu suala almaniyalı görkəmli filosof İmmanuel Kant belə cavab verib: “Fəlsəfənin tarixi fəlsəfənin bir hissəsidir”. Başqa bir məşhur filosof Georq Vilhelm Fredrix Hegel qeyd edir ki, “Fəlsəfənin tarixini öyrənmək, fəlsəfənin özünü öyrənməkdir”.

Aydındır ki, hazırkı dövrədək İslam dünyasındakı fəlsəfi fikrin enişli-yoxuşlu vəziyyəti haqqında müxtəlif düşüncələr səslənib. Bu düşüncələrin hər biri İslam fəlsəfəsi haqqında olan müəyyən təsəvvürlərin məntiqi nəticəsidir. Bu səbəbdən, hər hansı təsəvvürdən formalaşan fikri düzgün tanımaq üçün müəyyən görüşlərin dəyərləndirilməsi zəruridir.

Bu fikirləri formalaşdıran əsərləri iki əsas qrupa bölmək olar:

Birinci qrup – qərbli şərqşünaslar ehtiva edirlər ki, mədəniyyəti, tarixi sivilizasiyanı və fəlsəfəni araşdırarkən İslam mədəniyyətinin çiçəklənməsini onun fikri qaynağında axtarmaq lazımdır və yalnız onun xarici əlamətləri ilə kifayətlənmək olmaz.

İslamda, xüsusilə, İslam fəlsəfəsində rasional qaydalarla maraqlanan şərqşünaslar, İslam aləmində fəlsəfi çalışmaların başlanğıcını hicrətin II əsrindəki tərcümə hərəkatı ilə əlaqələndirirlər. Onlar bu qənaətdədirlər ki, yunan fəlsəfi əsərlərinin tərcüməsi zaman-zaman İslam alimlərinin yunan fəlsəfəsi və tarixi ilə tanışlığına, onları şərh və izah etməklə məşğul olmalarına səbəb olub.

Bu baxış İslam hakimiyyəti dövründə yazılmış əsərləri yunan fəlsəfi düşüncələrini əhatə etdiyinə görə əhəmiyyətli sayır. Sonda bizə çatan bu miras xristianların Əndəlüs məntəqəsini tutmaları ilə əsl vətənindən uzaq düşərək, Qərbə qayıdıb. Ona görə də bu qisimdən olan araşdırmaçılar Əndəlüsün müsəlman filosofu İbn Rüşdü bu prosesin sonu hesab edirlər. Bu nəzəriyyəyə əsasən, Aristotelin fəlsəfi əsərlərinin böyük şərhçisi İbn Rüşd sonuncu müsəlman filosof hesab edilir.

Bununla Şeyx Şihabəddin Söhrəvərdinin fəlsəfi düşüncələri və onun işraq fəlsəfəsinin, həmçinin Sədrəddin Şirazinin fəlsəfi düşüncələri və onun hikməti-mütəaliə fəlsəfəsinə bu növ araşdırmaçılar tərəfindən niyə əhəmiyyət verilməməsinə tutulan irada yer yoxdur. Bu baxışda İslam fəlsəfəsi yunan əsərlərini tərcümə etməklə başlayır, sonra həmin əsərlərin təsirini izah etməklə davam edir və sonda İbn Rüşd vasitəsilə yenidən Qərbə ötürülür. Beləliklə, şərqşünasların İslam fəlsəfəsinə olan baxış bucağından gəlinən nəticə budur ki, İslam fəlsəfəsi öz-özlüyündə müstəqil mahiyyətə malik deyil və yalnız yunan fəlsəfəsinin düşüncələri sayəsində mənaya malikdir. Bir sıra şərqşünaslar üçün şüar kimi təkrar olunan digər nəzəriyyə budur ki, müsəlman filosofların fikri çalışmaları yalnız neoplatonizm düşüncələrini genişləndirməkdən ibarətdir.

İlk baxışda düzgün görünən bu

nəzəriyyənin araşdırılmasını geniş fürsətə və daha ətraflı müzakirəyə həvalə edirik. Burada qeyd edilən məsələ budur ki, təkcə İslam filosoflarının, xüsusilə, Farabi və İbn Sinanın əsərlərində varlığın dərəcəsini izah etmək üçün "Feyz nəzəriyyəsi"nin açıqlanması və əslində, Plotinin əsəri olan "Enneadalar" (doqquzluq) kitabının bir hissəsinin – "Usuluciya" əsərinin Aristotelə mənsub edilməsi, müsəlman filosofların geniş çalışmalarını yalnız neoplatonizm filosoflarının düşüncələri sahəsini azaldıb, onların fikri yeniliklərini əhəmiyyətsiz hesab etmək olmaz.

Digər qrup isə əsas akademik təhsillərini Qərbdə keçirən ərəb ölkələrindən olan müsəlman alimlərdir. Şərqşünasların baxış üfüqlərini bu növ araşdırmaçıların ardınca xarakterizə etmək olar. Bu qrupun fikrincə, İslamın 1 000 ildən artıq irsində yaranmış fəlsəfi fikir tarixi "İslam fəlsəfəsi" deyil, "ərəb fəlsəfəsi" adlanmalıdır.

Bunların düşüncəsinə görə, İslam fəlsəfəsini ərəb fəlsəfəsi adlandırmaqda məqsəd budur ki, müsəlman filosoflardan qalan fəlsəfi əsərlərin əsas hissəsi ərəbcə yazılmışdır.

Bir məsələ bu dəstənin düşüncəsində diqqətə alınmayıb və o da budur ki, ərəb dili İslamın vəhy dili sayılsa da, İslam məmləkətlərinə Əməvi və Abbasi xilafətlərinin hakimiyyəti zamanı ərəb dili xilafət sarayının rəsmi dili sayılırdı. Ona görə də müxtəlif millət və xalqlardan olan müsəlman alimlər öz düşüncə və biliklərini genişləndirmək və həmçinin onu İslam dünyasının hər yerinə yaymaq üçün öz əsərlərini ərəb dilində yazmalı idilər.

Buna əsasən, bu qruplardan olan araşdırmaların nəzərində, sanki düşüncə öz-özlüyündə dəyərli və əhəmiyyətli deyildir. Əksinə, düşüncə müəyyən dildə yazıldığına görə, dəyərli və əhəmiyyətlidir.

Əgər bu iddia belə araşdırmaçıların yalnız İslam fəlsəfəsinin ərəb fəlsəfəsi adı ilə dəyişdirilməsi üçündürsə, bu zaman Orta əsrlərdə xristian ölkələrində latınca yazılan fəlsəfə latın fəlsəfəsi adı ilə qeyd olunmalıdır. Bir halda ki, indiyə qədər bütün bu fəlsəfələr xristian fəlsəfəsi adlandırılıb.

Ərəb ölkələrində olan müsəlman alimlər də qərbli şəqrşünaslar kimi İbn Rüşddən sonrakı fəlsəfi düşüncələrə əhəmiyyət verməyib və İbn Rüşdün fəlsəfi düşüncələrə olan baxışından irəli gedə bilməmişlər. Buna əsasən, bu növ alimlərin İslam fəlsəfəsinə olan baxışları yönümündən əldə oluna bilən nəticə, ancaq bu qədər, yəni məzmunun yox, sadəcə, formal ad dəyişikliyi ilə ola bilərdi.

İbn Rüşdün Farabi və İbn Sinaya etdiyi iradları qabarıq göstərərək, ondan sonra gələn filosofları qeyri-ciddi göstərməyə başladılar. Buna əsasən, müsəlman alimlərin türk, fars, urdu və digər dillərdə yazdıqları geniş əqli xəzinələr bu alimlərin fikrincə o qədər də əhəmiyyətli deyil.

Bundan əlavə, İslam fəlsəfəsinə iki əsas baxış var: biri İslam fəlsəfəsinə "dinamik baxış"dır; son illərdə yaranan digər baxış isə "hərəkətsiz, cansız və səmərəsiz" baxışdır.

Bu baxışı ilk irəli sürən fransalı alim Henri Korbindir. O, Qərbdəki əqli qanunlardan məlumatlı olmaqla, yavaş-yavaş İslamda əqli qanunlarla tanış olur və nəhayət, özü bu mühitin yolçusu olur.

Henri Korbin qərbli şərqşünasların və həmçinin ərəb ölkələrindəki müsəlman alimlərinin araşdırmalarına hakim olan təsəvvürlərdən özünü kənara çəkir və İslam alimlərindəki əqli qanunları əbədi düşüncə kimi, əvvəldən hazırkı dövrə qədər diri və arqumentli sayır.

Ona görə də Henri Korbinin nəzərində müsəlman filosofların fəlsəfi əsərləri ərəbcə olan yazılarla məhdudlaşmır. Əksinə, onun fikrincə, müsəlman filosofların əqli qanunları türk, fars və ədəbi xəzinələrdə də axtarılmalıdır.

Daha mühüm məsələ budur ki, H. Korbinin nəzərində müsəlman filosofların fəlsəfi düşüncələri İbn Rüşd və İslam dünyasının qərbində olan filosoflarla bitmir. Əksinə, digər bir guşədə və İslam dünyasının şərqində Şeyx İşraq Şihabəddin Söhrəverdinin səyləri ilə yeni həyat tapır. Xacə Nəsirəddin Tusinin səyi ilə Şiraz fəlsəfi məktəbinin görkəmli alimləri – Cəlaləddin Qəvani, Seyid Sədrəddin Dəştəki və Seyid Qiyasəddin Mənsur Dəştəki, həmçinin İsfahan fəlsəfi məktəbinin filosofları – Mir Damad, Mir Fənderiski, Sədrəddin Şirazi və onun hikməti-mütəaliəsinin davamçıları – Feyz Kaşani, Fəyyaz Lahicani, Hacı Səbzvari; Tehran fəlsəfi məktəbinin ardıcılları – Müdərris Zənuzi, Əbülhəsən Cilvə, Mirzə Məhdi Aştiyani və Mirzə Tahir Təhkabuni və nəhayət, Əllamə Təbatəbai ilə davam edir.

H. Korbinin Əllamə Təbatəbai ilə müzakirə iclaslarına hazır olmasının əsas məqsədi, məhz Korbinin İslam fəlsəfəsinə olan bu baxışı ilə izah oluna bilər. Korbin kitabxanalarda əlyazmalar bölməsində toz-torpaq altında unudulan əsərlərdən çoxuna ilk dəfə düzəliş edib və çap etdirmişdir.

Ona görə də Əbu Yəqub Secestani, Nasir Xosrov Qubadiyani,



Əbül-Hüseyn Corcani, Ruzbəhan Bəqli Şirazi, Şihabəddin Söhrəverdi, Sədrəddin Şirazi və Seyid Heydər Amuli kimi alimlərin əsərlərinin bəzisi ilk dəfə onun vasitəsilə çap olunmuşdur. Henri Korbinin İslam fəlsəfəsinə olan baxışı zaman-zaman bu mövzuda olan sonrakı araşdırmalara işıq saçdı.

Nümunə olaraq, britaniyalı alim Oliver Limənin əsərlərinə işarə etmək olar. İslam fəlsəfəsinə onun baxışı şərqşünasların baxışından aşkar fərqlənir. Həmçinin iraqlı alim Macid Fəxrinin əsərləri İslam fəlsəfəsi barəsində ərəb məmləkətlərində yaranmış araşdırmalardakı adi baxışlardan müəyyən qədər fərqlənir.

Doktor Seyid Hüseyn Nəsr və doktor Oliver Limenin redaktə etdiyi "İslam fəlsəfəsinin tarixi" kitabı, əslində, İslam dövründə məşhur olan müsəlman və qeyri-müsəlman filosoflar barəsində müxtəlif yazıçılar tərəfindən qələmə alınan məqalələr toplusundan hazırlanmışdır.

Bu kitabda Qərbdə İslam fəlsəfəsinin təsiri bölməsində şərqşünaslıq və İslam fəlsəfəsi barəsində bəhs edilir. "Henri Korbin: onun əsərləri və təsirləri" barəsində ayrıca danışılır. Bu kitab öz növbəsində yeni iş sayılır. Onunla İslam fəlsəfəsinin tarixinə davamlı və yeganə rasional keçidə çatmaq olmaz.

Fikrimizcə, İslam dünyasındakı rasional düşüncə sistemini yeganə, davamlı və arqumentli formada təfsir və izah etməyə çalışan ən yeni iş – doktor Qulamhüseyn İbrahimi Dinaninin yazdığı "İslam dünyasında fəlsəfi fikrin əhvalatı" kitabıdır. Bu əsər 3 clddən ibarətdir.

Bu, müasir filosofun digər üçlüyü "əql dəftəri və eşq əlaməti" adı ilə İslam dünyasında əqli qanunları yenidən araşdırma və axtarmağın davamıdır.

Sözügedən iki əsərdən əlavə, görkəmli alimin digər əsərləri daha az diqqət olunan İslam alimlərinin düşüncələrini qavramaq üçün faydalıdır. "Qəzalinin görüşündə məntiq və mərifət" və "Söhrəvərdinin fəlsəfəsində şuhud və düşüncənin şüarı" kitablarının yazılması bu fikrə açıq sübutdur.

Sədrəddin Şirazinin fəlsəfəsi Platon, Aristotel və neoplatonizm düşüncələrindən təsirlənib. Mütəkəllimlərin düşüncələri ilə qarşılaşma nəticəsində yunan fəlsəfi düşüncələrindən fərqli və müstəqil mahiyyəti göstərə bilmə bacarığını özündə əks etdirən fəlsəfi sistemdir.

Bu barədə Dinani belə qeyd edir: "Hazırda "hikmətül-mütəaliyə" müxtəlif düşüncələrlə qarşılaşıb, uzun və qarışıq yollar keçmiş İslam fəlsəfəsi adını daşıyan fəlsəfi fikir cərəyanıdır. İslam fəlsəfəsi gecə-gündüz arasındakı müddətə – yəni birdən-birə yaranan sistem deyildir. Bu fəlsəfənin özünün təkid etdiyi mövzulardan biri budur ki, dünyada heç nə birdən-birə və hazırlıq olmadan (təsadüfi şəkildə) yaranmır. İslamın böyük filosoflarının yunan fəlsəfəsi ilə tərcümə yolu ilə tanış olmalarına şübhə yoxdur. Bu filosoflar üçün müzakirə olunan məsələlər yunan filosofları üçün müzakirə olunan məsələlərlə eyni olmamışdır. Farabi və İbn Sinanın qarşılaşdığı problemlər Aristotel və Platonun həll etməyə çalışdı-

qları problemlərdən fərqli olmuşdur.

Doğrudur, fəlsəfi suallar həmişəlik və əbədi olsa da, əbədi suallar həmişə müxtəlif şəraitdə fərqlənir. Ona görə də fəlsəfi fikir cərəyanı vahid mahiyyətə malik olsa da, xüsusi forma və məzmun kəsb edir. İslam fəlsəfəsi dünya tarixinin həmişə hərəkətdə olan karvanına bağlı olsa da, özünəməxsus mahiyyəti və orqanizmi mövcuddur. Bu fəlsəfə dini və məzhəbi mətnlərə yad deyildir. Fəlsəfi cərəyanda düşüncədən əlavə davranış və müşahidədən də danışılır. Ona görə də Sədrəddin Şirazinin “hikməti-mütaliə” cərəyanı qeyd edilən xüsusiyyətlərə malik olduğundan, İslam fəlsəfəsinin uca qüllələrindən sayılır.

Yekun olaraq qeyd etmək istəyirik ki, İslam fəlsəfəsinə tarixi yanaşmada iki qrup özünün İslam fəlsəfəsinə xüsusi təsəvvürlərinə əsasən, yazılarını məxsusi şəkildə izah ediblər. Buna əsaslanaraq qeyd etmək yerinə düşər ki, İslam fəlsəfəsinə tarixi baxış həmişə fəlsəfi görüşə görə baş vermişdir.

Tarix fəlsəfəsinə diqqət edən şəxs fəlsəfə tarixinə xüsusi nəzərlə baxır. Tarixin fəlsəfəsindəki baxışın fəlsəfənin tarixinə təsiri şübhəsizdir. Bəşəriyyətin həyatında hər növ araşdırmanın bir növünün seçimə ehtiyacı olduğunu qəbul etsək, tarix fəlsəfəsində bir növ seçim etmədən heç bir elmi fəaliyyət göstərmək olmaz.

Müasir filosof doktor İbrahimi Dinani fəlsəfənin tarixi və tarixin fəlsəfəsi arasındakı bağlılığın zəruriliyini belə açıqlayır:

“Tarixdə şəxsiyyətləri oxuyan və şəxsi həyatları araşdıran insanlar tarixdəki işlərin cəm olmasının nəticəsi olmadığına diqqət etmirlər. Təbiət Allah vasitəsilə yazılan bir əsər olsa da, tarix kitabı da düşüncə və əqlin uca qələmi ilə yazılan lövhədir. Düşüncənin rolunun əsas olduğu, əqlin-təfəkkürün tarix hadisələrinin dayaq olduğu yerdə, fəlsəfə və fəlsəfə tarixi arasındakı fasilə az və zəif olur. Tarix fəlsəfəsi fəlsəfənin tarixi deyil. Fəlsəfə tarixi də tarix fəlsəfəsini tanımır. Amma ağıl və düşüncə işlərin əsası olan zaman, bu iki ad bir-birinə yaxınlaşır və onların fərqləri yalnız düşüncə aləminə aid olunur”.

Digər nəzəriyyə budur ki, İslam fəlsəfəsi İslam kəlamına doğru yönəlir və fəlsəfədən daha çox kəlama bənzəməklə sönür. Bu nəzəriyyə İslam filosoflarının, İslam mədəniyyəti atmosferində yaşadıqlarına görə açıqlanmışdır. Buna əsasən, düşüncə kimi qeyd edilən hər bir nəsnə dini inanc üsulu həddində təsvir olunmalıdır. Belə nəzəriyyəyə sadiq qalan şəxslər fəlsəfə və kəlamı dəqiq və yaxından bilmirlər. Məhz bilməmələri ucbatından bu iki fərqli fikir sahəsi arasında vəhdət olduğunu güman etmişlər. Doktor İbrahimi Dinani fəlsəfi baxışla kəlami baxışın fərqini belə izah edir:

“Xatırlatmaq istəyirik ki, araşdırmada İslam filosoflarının üslubu kəlamçıların getdikləri yoldan fərqlidir. İslam filosofları ağıl və arqument cəhətdən dünyanın işlərinə baxır və inanc üsullarını anlatmaqda rasional cəhətdən də səy edirlər. Burada belə bir sualın qarşıya çıxması mümkündür ki, İslam filosofları inanc üsullarını arqumentli formada anlamaqda nə qədər uğur qazanmışlar? Tehran Universitetinin fəlsəfə müəllimi bu sualın cavabında deyir: “Əhəmiyyəti daha çox olan və ona biganə qalınmamalı məsələ dinin rasional tərəfidir. Dinin əqli cəhətdən ortaq tərəfi budur ki, əgər problem yaranarsa, onun digər cəhətləri də problemdən kənarda qalmayacaq. Əgər bu məsələyə diqqət yetirsək görərik ki, din inanc sistemi üzərində dayanır və inanc sistemi rasional ölçü ilə ölçülürsə, onda qəbul edilir. Filosofların din haqqında əqli araşdırmaları bəyənilməli və tərifəlayiq hesab edilməlidir. Mümkündür ki, burada belə bir fikir irəli sürülsün: inanc sistemlərinə imanetmənin rasional və fəlsəfi araşdırmalara ehtiyacı yoxdur və etiqadi məsələlər çərçivəsindən xaricdir. Bunun qarşılığında deyə bilərik ki, hətta “inanc sistemlərinə iman etiqadi məsələlər çərçivəsindən xaricdir” fikrini bildirmənin özünün əqli araşdırmaya ehtiyacı var və əqlin hökmü olmadan bu barədə əmr etmək olmaz”.

Bu yazıda araşdırılan fikirlər, əslində, İslam fəlsəfəsinə olan iki əsas baxış idi. Bu iki baxış “hərəkətsiz və cansız” fəlsəfə, digəri isə “dinamik və canlı” fəlsəfi fikirdən ibarətdir. “Hərəkətsiz və cansız” baxış bu təsəvvürdən qaynaqlanır ki, İslam fəlsəfəsi cərəyanını yalnız keçmişdə baş vermiş proses kimi təsvir edir. Digər tərəfdən, “dinamik və canlı” görüş buna əsaslanır ki, keçmiş, indi və gələcək bəşəriyyətin durumunu və vəziyyətini təsvir edən mövzulardan hesab edilir. Başqa sözlə, əgər hər hansı fikir cərəyanını düzgün tanımaq istəsək, həmin fikir cərəyanına xüsusi diqqət yetirməliyik. Həmin cərəyanın genişlənməsini yarandığı formada tanımalıyıq. Bu meyara əsasən, hər hansı fikrin hərəkətsiz və ya dinamik olması müəyyənləşə bilər.

# İnsana üç fərqli baxış, yaxud ruh, zəka və bədənmərkəzlilik



**Elvüsal Məmmədov,**
**f.f.d., dos.,**
**Aİİ-nin müəllimi**

Ətrafımızda hər şeyi zəkası ilə ölçən, ağlın xəlbirindən keçirən, olar-olmazları rasional mühakimə ilə müəyyənləşdirən insanlar vardır. Bununla yanaşı, ancaq mənəviyyat aləmində yaşayan, fiziki-intellektual tələbatları bir kənara atanlara da rast gəlirik. Elələri də tapılır ki, ancaq bədənlərini – bioloji tələbatlarını təmin etməklə məşğuldurlar. Bu mənzərə ona görə yaranıb ki, insan bir bütöv olaraq nəzərdən keçirilmir. Doğru və konstruktiv yanaşma budur ki, insan ruh, zəka və bədən elementlərindən ibarət sistemdir, bir bütövdür.

İnsana bütöv münasibət zəkanı biliklə, ruhu imanla, bədəni bioloji tələbatları təmin etməklə "qidalandırmağı" tələb edir. Yəni, insanı əmələ gətirən "elementlər"i ayrı-ayrılıqda lazımi "enerji" ilə təmin etmək lazımdır.

Problem burasındadır ki, "enerji" ilə təminat çox vaxt kompleks şəkildə icra olunmur. Məsələn, ancaq zəkanı "qidalandırmaq" intellektmərkəzli eqonun yaranmasına gətirib çıxarır. Belə zəkaya sahib olanlar hər şeyə ağıl prizmasından baxır, hissləri nəzərə almayan, hətta sevginin belə rasional olduğunu iddia edən, empirik olmayana qeyri-ciddi münasibət bildirən, iman, qeyb, Allah, axirət anlayışlarına "yox" deyən dünyagörüşü formasını mənimsəyirlər.



Əşya və hadisələrə, metafizikaya baxışda ağılın mütləqiyyətini irəli sürən zehniyyət özü ilə bir sıra problemlər gətirir, insan oğlunu həyatın vacib sualları qarşısında çaşbaş buraxır. İlahiləşmiş və ya tabu statusu qazanmış ağıl eqosentrik təşəxxüslə iman institutu ilə mübarizəyə başlayır, onu rədd etməklə sahibini inancsızlığa sürükləyir.

Təkcə bioloji-fiziki instinktlərin diktəsi ilə hərəkət edib mənəvi və intellektual inkişaf haqqında düşünməmək bədənmərkəzli insan modeli meydana çıxarır. Əylənmək, eyş-işrət içərisində yaşamaq, bayağı və ucuz məqsədlər dalınca qaçmaq "üçgünlük" həyat fəlsəfəsinin "xeyir-duası" ilə bədənmərkəzli insanın əsas səciyyəvi xüsusiyyətlərini əmələ gətirir. Onlar zəka və ruhun əhəmiyyətini başa düşmür, bioloji instinktlərin diktəsi ilə hərəkət edir, mədəni və ziyalı həyat tərzi nümayiş etdirmirlər. Bir dəfə A. Eynşteyn həyatda ancaq yemək və əylənməyi özünə meyar seçmiş bir şəxsi gördükdə deyib: "Bələsində o boyda baş beyinə ehtiyac varmı?! Onurğa beyni ilə dünyaya gəlsəydi, kifayət idi".

Ruha əhəmiyyət verib, zəka və bədəni bir kənara atmaq isə natamamlıqdır. Belə insan reallığı qiymətləndirmir, dünyada yaşadığını, sanki, unudur. Bilikləri, savad almağı, dünyanı öyrənməyi lazımsız hesab edir.

Ruhmərkəzli insan obyektiv aləmi dərk etməyən, həyatı və dünyanı biliklə dəyişdirməyi ağlından keçirməyən insan tipidir. O, dünyanın kürə şəklində olmasını din adına qəbul etməyən, dünyanın gözəlliklərindən kamilləşmək adına imtina edən insandır... Əgər dünya varsa, ondakı gözəlliklər cürbəcürdürsə, deməli, Allah onları imtina etməyimiz üçün deyil, onlardan faydalanmağımız məqsədilə yaradıb.

Zəka, ruh və bədən... İnsan adlanan sistemin üç elementi!

Bilik, iman və maddi nemətlər – bu sistemi ayaqda saxlayan zəruri üç "qida"!

Həm ruhunu, həm zəkasını, həm də bioloji tələbatını paralel şəkildə "qidalandıran" insan həyatın "nəbzi"ni tutacaq, taleyüklü suallara dində və elmdə cavab tapacaq, həyatını təşkil edən mənəvi və maddi tələbatları yaşadığı dünyanın nemətləri vasitəsilə, elm və dinin köməyi ilə təmin edəcək, qısa ömrünü mənalı və ruhən rahat yaşayacaq, Allahdan gəldiyini, Allah üçün yaşadığını, Allaha qayıdacağını biləcəkdir...

# Azərbaycan və ərəb dilləri üzrə tərcümə: nəzəriyyə, təcrübə və problemlər



**İlkin Əlimuradov,**
**f.f.d., dos.,**
**Dillər və ictimai fənlər kafedrasının müdiri**

Məlum olduğu kimi, ərəb dili beynəlxalq müstəvidə tanınan məşhur dünya dillərindən biridir. Müsəlmanlar üçün bu dil İslam dininin ana dili kimi daha böyük əhəmiyyət və aktuallıq kəsb edir. Xüsusilə İslam dini zühur etdikdən sonra onu qəbul etməkdə gecikməyən müsəlman ölkələrində ərəb dili yalnız beynəlxalq əhəmiyyətli və ya İslamın əsas dili deyil, habelə tarix, ədəbiyyat, bir sözlə, elm və mədəniyyətin dili, akademik tədqiqat işləri üçün əlverişli vasitələrdən biridir. Ölkəmiz üçün də bu baxımdan xüsusi əhəmiyyət kəsb edən ərəb dili milli irsimizin araşdırılması üçün vacib dillərdən biridir.

Məlumdur ki, əcdadlarımız erkən orta əsrlərdən bəri ya ərəbcə, yaxud ərəb hərfləri ilə yazıb, oxuyub, dəyərli əsərlər ərsəyə gətiriblər.

Ölkəmizdə ərəb dilinin tədrisi bir çox orta və ali təhsil müəssisələrində həyata keçirilir. Bildiyimiz kimi, Bakı Dövlət Universiteti, Azərbaycan Dillər Universiteti, Azərbaycan İlahiyyat İnstitutu, Qərbi Kaspi Universiteti, Avrasiya Universiteti, Xəzər Universiteti, Azərbaycan Universitetində ərəb dili tədris edilir. Bundan əlavə, ölkəmizin ən böyük və nüfuzlu elm mərkəzi olan Azərbaycan Milli Elmlər Akademiyasında, xüsusilə akademik Ziya Bünyadov adına Şərqşünaslıq, Məhəmməd Füzuli adına Əlyazmalar institutlarında böyük sayda ərəb dili mütəxəssisləri elmi tədqiqat işləri ilə məşğul olurlar. Fəxrlə deyə bilərik ki, Azərbaycanda mərhum Əli Əsgər Məmmədovun məhsuldar fəaliyyəti və rəhbərliyi altında müasir ərəb qrammatika məktəbi yaradılıb, Azərbaycan ərəbşünaslığı formalaşıb. Ərəb dili üzrə həm ölkə daxilində, həm də xaricdə tanınan nüfuzlu alimlərimiz və onların qələmindən çıxan qiymətli əsərlərimiz vardır.

"Tərcümə" sözü ərəb dilində dördsamitli [tərcəmə] felinin məsdər forması olan [tərcəmətun] sözünün kiçik dəyişikliyə məruz qalaraq dilimizə keçmiş formasıdır. Bu sözün ərəb dilində ifadə etdiyi mənalara nəzər saldığımız zaman görürük ki, tərcümə bir sözün başqa bir dildə qarşılığını tapmaq (نقله من لغة إلى أخرى) olsa da, eyni zamanda, sözü başqa bir dildə izah etmək, (فسره بلغة أخرى) aydınlaşdırmaq (بينه ووضحه), işlədilmə yerinə görə bir insanın həyatından, keçmişindən bəhs etmək: (ترجم لفلان: ذكر سيرته وتاريخ حياته), tətbiq etmək, icra etmək, həyata keçirmək (ترجم القرار إلى عمل: نفذه، أو نقله إلى مستوى التطبيق), ifadə etmək (ترجم عن آماله: أبانها وعبر عنها) və s. mənalar ifadə edir. Bütün bunlar onu deməyə əsas verir ki, tərcümə söz və ya kəlmə deyil, məna deməkdir. Belə ki, tərcümə söz və kəlmələri deyil, mənaları bir dildən digərinə ötürməkdir. Bu məsələ ilə bağlı öz təcrübəmi sizinlə bölüşməyi məqsədəuyğun hesab edirəm.

Tərcümə fəaliyyəti ilə məşğul olduğum ilk vaxtlarda çoxlu sayda iqtisadi terminləri ehtiva edən bir rəsmi məktubu tərcümə etmək mənə həvalə edildi. Məktubu oxudum, lakin mənalarını dəqiq bilmədiyim bəzi iqtisadi terminlər məktubun məzmununu tam şəkildə anlamağıma mane oldu. Tərcümə üçün mənə verilən vaxtın məhdud olduğunu nəzərə alaraq, həmin məktubu lüğət vasitəsilə hərfi tərcümə etdim. Təəssüf ki, işim uğursuz alındı və ərəbcə yazdığım mətn anlaşılmaz oldu. Sözügedən məktubu izahlı terminlər lüğəti vasitəsilə yenidən oxuyub başa düşdükdən sonra, yerinə yetirdiyim ikinci tərcümə cəhdim isə kifayət qədər uğurlu alındı.

Beləliklə, tərcüməçilik fəaliyyətinə peşəkar yanaşdığımız zaman aydın şəkildə görünür ki, tərcüməçilik istənilən xarici dili öyrənənlərdə biixtiyar yaranan bacarıq deyil. Tərcüməçilik dil üzrə dərin bilik və bu bilikdən səmərəli istifadə etməyi tələb edən ayrıca bir peşə və fəaliyyət sahəsidir. Peşəkar tərcüməçi yalnız istifadə etdiyi dilləri yaxşı bilməklə yanaşı, həmin dillərdə danışan xalqların mədəniyyətinə, düşüncə tərzinə də yaxşı bələd olmalıdır. Qeyd olunan amillər tərcümə işinin key-

fiyyətinə təsir edən, var olduğu təqdirdə tərcümənin səviyyəsini yüksəldən, olmadığı təqdirdə isə tərcümənin keyfiyyətini aşağı salan, hətta uğursuz olmasına aparıb çıxaran kifayət qədər güclü amillərdir.

Tərcümə fəaliyyətlərinin səviyyəsi yüksəldikcə, müvafiq ixtisaslaşmaların şahidi oluruq. Belə ki, konkret sahələr tərcüməçidən dil və s. biliklər ilə yanaşı, mövzu ilə bağlı kifayət qədər məlumata malik olmağı da tələb edir. Buna görə də elmi, tibbi, siyasi, bədii, ədəbi və s. tərcümə növləri ilə rastlaşır, tərcümə sahəsində yeni təsnifatların şahidi oluruq.

Bir dəfə tərcümə işinə cəlb edildiyim müəssisədə məndən soruşdular: "Siz artezian quyusunun necə qazıldığını bilirsinizmi?" Bu suala: "Əlbəttə", - deyərək cavab versəm də, təəccüb hissimi gizlədə bilmədim və sualın yersiz olduğunu düşündüm. Mən gözləyirdim ki, orada mənə təhsil və təcrübə ilə bağlı suallar veriləcək. İş əsnasında anladım ki, tərcümə işində dil üzrə bilik tələb etdilyi kimi, mövzu ilə bağlı ən azı ümumi məlumatlı olmaq da zəruri hesab edilir.

Keyfiyyətli tərcümə yüksək diqqət tələb edir. Əlbəttə, bu tələb şifahi və yazılı tərcümə nöqteyinəzərindən fərqli olur. Yazılı tərcümə işini yerinə yetirən tərcüməçidən tələb olunan bəzi xüsusiyyətlər şifahi tərcüməçidən bütün dəqiqliyi ilə tələb olunmur. Şifahi tərcüməçi mənanın dəqiq və aydın şəkildə çatdırılmasına görə məsuliyyət daşıyırsa, yazılı tərcümə işini yerinə yetirən mütəxəssis həm mənanı aydın şəkildə çatdırmalı, həm də cümlə quruluşuna ciddi fikir verməli, qrammatik normaları gözləməli və orfoqrafik qaydalara dəqiq riayət etməlidir.

İstər yazılı, istərsə də şifahi tərcümələrdə sözlər düzgün seçilməlidir. Tam uyğun olmayan sözlərdən istifadə etmək tərcümə işinin keyfiyyətinə olduqca mənfi təsir göstərir. Məsələn, ola bilər ki, gündəlik həyatımızda bu və ya digər mənada istifadə etdiyimiz hər hansı bir söz müəyyən peşə sahəsində eyni mənanı verə bilməsin. Buna misal olaraq işləmək, çalışmaq, əməkdaşlıq etmək, dəstək vermək, kömək etmək və s. sözləri göstərmək olar. Belə ki, bu sözlərin hər birini "Əli mənimlə zavodda işləyir" cümləsində işlətmək mümkündür və cümlənin ümumi mənası dəyişməyəcəkdir. Lakin Əliyə iş yerindən arayış vermək lazım gəldiyi zaman bu sözlərdən yalnız "işləmək" sözü hüquqi mətnə tam uyğun gəlir. Digər sözlər Əlinin zavoddakı fəaliyyətini hüquqi baxımdan düzgün ifadə etmiş olmayacaq.

Beləliklə, etiraf etməliyik ki, peşəkar tərcüməçilərdə yüksək intellektual səviyyə tələb olunur. Yalnız zəngin məlumat bazası olan, geniş dünyagörüşünə və aydın nitq qabiliyyətinə malik xarici dil bilən mütəxəssislər peşəkar tərcüməçi səviyyəsinə yüksələ bilirlər.

Tərcümə fəaliyyətində dili bilmək əsas və vacib şərtdir. Tərcüməçinin digər çətinliyi adətən, mövzu ilə bağlı olur. Əgər mövzu haqqında ən azından ümumi məlumat varsa, bu çətinlik də kifayət qədər aradan qalxır. Ədəbi tərcümələrdə şeir nümunələrinin qafiyəli tərcüməsi şairlik qabiliyyəti olmayan tərcüməçilərdə başqa bir çətinlik yaradır. Amma zənnimcə, bədii tərcümələr əksər tərcüməçilər üçün daha çətin tərcümə növü hesab edilir. Çünki bədii tərcümə nə söz, nə də ki, mənanın tərcüməsidir. Bədii tərcümə məhz hisslərin tərcüməsidir. Qarşı tərəflə eyni hissləri bölüşmək, onun hisslərinə tərcüman olmaq hər zaman mümkün olmur.

Təxminən, bir il bundan əvvəl tərcümə etdiyim Xocalı faciəsindən bəhs edən kitabda hissləri tərcümə etməyin nə qədər çətin olduğunun bir daha şahidi oldum. Yeri gəlmişkən, qeyd etdiyim məsələ ilə bağlı həmin kitabdan bəzi misallar çəkməyi məqsədəuyğun hesab edirəm. Kitabın orijinal variantı "Onlar heç vaxt böyüməyəcəklər" adlanırdı. Əlbəttə, bu ad hərfi tərcümə üçün heç bir çətinlik yaratmırdı. Sadə cümlə quruluşundan və dildə çox işlənən sözlərdən ibarət idi. Xalqımızın başına gələn ən faciəli hadisələrdən olan Xocalı soyqırımından bəhs edən həmin kitabın adı orijinalda olduğu kimi hərfi tərcümə olunsa, müəllifin hisslərini kifayət qədər dəqiq şəkildə əks etdirə biləcəkmi?! Bu sual bizi düşündürməyə bilməzdi. Əsərin tərcümə edilmiş adı cəlbedici və kitabın məzmununu aydın və təsirli şəkildə ifadə etməli idi. Necə ki, bu məqsəd orijinal adda özünü doğrultmuşdu.

Xocalı faciəsi bizim qan yaddaşımızdır. Bu faciədə qətlə yetirilən uşaqların acı talelərindən bəhs edən və "Onlar heç vaxt böyüməyəcəklər" adlanan bu kitab ilk baxışda bizə çox şeyi hiss etdirir. Lakin Xocalı faciəsi haqqında kifayət qədər məlumatı olmayan və bu faciənin ağrı-acısını hələ hiss etməyən ərəb oxucusunda bu ad eyni təsiri yarada biləcəkmi? Böyük ehtimalla, xeyr! Buna görə də biz kitabın tərcümə variantına "Onlar hansı günaha görə öldürüldülər" adını verdik. Bu ad Qurani-



Kərimin "ət-Təkvir" surəsinin 9-cu ayəsindən götürülüb. Həmin ayədə İslama qədərki dövrdə ərəblərin qız uşaqlarını diri-diri basdırmalarına işarə edilir. "Körpə qız uşağının nə günahı var idi ki, onu diri-diri torpağa basdırırdınız" sualı qəddarlığın, cahilliyin və insafsızlığın son həddini ifadə edir. Beləliklə, kitabın yeni adı oxucuya vaxtilə törədilmiş və ona məlum olan amansız, olduqca qəddar bir hadisəni xatırladır. Onda belə bir təsəvvür yaranır ki, bu kitab körpə uşaqlara qarşı törədilmiş vəhşilikdən bəhs edir. Düşündürücüdür, görəsən, təxminən on beş əsr bundan əvvəl törədilmiş vəhşiliyi təkrarlayan kimlərdir?! Belə olan halda hesab edirik ki, fərqli sözlərdən istifadə etsək də, azərbaycanlı müəllifin hisslərini və məqsədini ərəb oxucusu üçün dəqiq tərcümə edə bildik.

Haqqında danışılan kitabın tərcüməsi zamanı hisslərin tərcüməsi ilə bağlı qarşımıza çıxan digər bir məqam isə belədir: Müəllif bəhs etdiyi faciənin dərin təsiri altında yazır: "Allahın zülmünə bax!" başqa bir yerdə, "Amma deyəsən, onları nə göylər dinləyirdi, nə də Tanrı eşidirdi. Görəsən, Ulu Tanrı onların səsini niyə eşitmirdi?". Burada müəyyən suallar ortaya çıxır: Müəllifin məqsədi Allahı "zalım" kimi təqdim etməkdirmi? O, doğrudan da elə hesab edir ki, Allah onların səsini eşitmir?! Əlbəttə, xeyr. Bir müsəlman kimi hər birimiz yaxşı bilirik ki, Allah mərhəmətlilərin ən mərhəmətlisidir. O bütün duaları eşidən və qəbul edəndir. Belə qənaətə gəlmək olar ki, sözlər başqa mənaya dəlalət etsə də, müəllifin hissləri tamamən başqadır. Burada müəllif böyük hiss, həyəcan içindədir və o çox narahatdır. Elə isə belə vəziyyətdə tərcümə etdiyimiz dildə hansı sözlərdən istifadə etsək, yerinə düşər? Məlum məsələdir ki, əgər bu sözləri hərfi tərcümə etsək, müəllifin hisslərini ifadə etməmiş olacağıq və nə qədər dindar olub-olmamasından asılı olmayaraq ərəb oxucusunun diqqətini onunla eyni dindən olan, bir çox müştərək adət və ənənələrə malik insanların problemlərinə, haqq mübarizəsinə yönəltmiş olmayacağıq. Bu yerdə müəllifin hisslərini dəqiq ifadə edə biləcək sözlər "Subhanəllah", "la həvlə və la quvvətə illə billah" sözləridir. "Allah bütün qüsur və nöqsanlardan uzaqdır", "Allahdan başqa güc və qüdrət sahibi yoxdur" kimi mənalar ifadə edən, Allahı təzim və təqdis etmək üçün istifadə edilən bu ifadələr təəccüb və həyəcanın həddən artıq olduğu zamanlarda ərəblərin, eləcə də bir çox müsəlman xalqların dilində tez-tez istifadə edilir.

Hesab edirəm ki, tərcümənin keyfiyyəti o zaman yüksək olur ki, oxucu və yaxud da dinləyici mətnin, söhbətin tərcümə olduğunu unudur, ona elə gəlir ki, müəllif də, danışan da məhz tərcüməçinin özüdür. Təcrübə onu göstərir ki, bir çox hallarda tərcüməçi orijinal mətnin cümlə qruluşunu pozma-

mağa, lüğətdəki mənalardan kənara çıxmamağa çalışır və nəticədə düzgün, lakin başa düşülməyən, mənası tam aydın olmayan tərcümə işi meydana çıxır. Nəzərə almaq lazımdır ki, oxucu və yaxud da dinləyici üçün cümlə üzvlərinin düzgün sıralanması, sözlərin hərfi tərcüməsi deyil, mənanın aydın olması daha böyük əhəmiyyət kəsb edir. Bir nümunəyə nəzər salaq: "Hər kim müsəlmanların namus, şərəfi barədə dilinə sərbəstlik verərsə və onların gizliliklərini araşdırarsa, dünyadan köçərkən Allah onu kəlmeyi-şəhadəti söyləməkdən məhrum edər". Bu ərəb dilindən ana dilimizə tərcümə edilmiş bir cümlədir. "Dilə sərbəstlik vermək", "düşünmədən, sərbəst danışmaq" deyilmi? Axı yazılı nitqin izləyiciləri belə ifadələri asanlıqla "həzm" edə bilmirlər. Digər tərəfdən, dini dünyagörüşünə əsasən, deyə bilərik ki, mənfi mənalar, adətən, Allahın adından deyilmir. Feli xəbərlər məçhul növdə istifadə edilir, cəza ifadə edən mənalar nisbətən yüngülləşdirilir. Beləliklə, bütün bunları nəzərə alaraq yuxarıdakı cümləni belə redaktə etmək olar: "Kim müsəlmanların namus və şərəfi barədə düşünmədən danışarsa, onların gizli işləri ilə maraqlanarsa, dünyadan köçərkən kəlmeyi-şəhadət deməyi Allah ona nəsib etməz".

Bütün hallarda tərcüməçi öz işinə oxucu və yaxud da dinləyici kimi nəzər salmalıdır. Mənanın təhrif edilməməsi, əlavə və əksiltmə etməklə orijinal mətnə müdaxilə etməmək şərtilə tərcüməçi özünün yaradıcılıq bacarığından maksimum istifadə etməlidir. Təcrübəyə əsasən qeyd etmək yerinə düşər ki, bəzən tərcümə orijinaldan daha maraqlı, danışanın nitqi yorucu, tərcüməçinin nitqi isə axıcı və rəvan olur.

Əlbəttə, bütün sahələrdə olduğu kimi, tərcüməçilik sahəsində də təcrübə labüddür, qaçılmazdır. Peşəkar tərcüməçiləri auditoriyalar yetişdirir. Təəssüflə qeyd etmək lazımdır ki, müasir dövrümüzdə hər xarici dil üzrə tərcüməçilik fəaliyyətində təcrübə qazanmaq üçün imkanlar geniş olmur və nəticədə ya həmin dil üzrə tərcüməçilər yetişmir və yaxud da natamam yetişir. Yazılı tərcümə işlərini, müxtəlif sahələr üzrə kitabları məharətlə tərcümə etməyi bacaran tərcüməçilər, bəzən şifahi, ardıcıl tərcümə xidmətlərində uğur qazana bilmirlər.

Tərcümə sahəsində hərtərəfli təcrübə qazanmaq imkanları məhdud olan xarici dillərdən biri də ərəb dilidir. Orta əsirlərdən başlayaraq tərcümə fəaliyyətlərində əsas dil kimi istifadə olunan, müasir dövrümüzdə beynəlxalq dillər sırasında adı çəkilən ərəb dili üzrə filoloq, ədəbiyyatşünas, dilçi və s. kimi yetişmək üçün mövcud olan imkanlar ərəb dili üzrə sinxron tərcüməçi kimi yetişmək üçün kifayət deyil. Əlbəttə, bunun obyektiv və subyektiv səbəbləri vardır. Obyektiv səbəblərdən biri kimi informasiyanın ötürülməsində bəzi dillərin əlverişli olmasını qeyd etmək olar. Məsələn, ingilis dili. Bu dilin dünyada daha çox insan tərəfindən başa düşülən olması bir çox hallarda başqa zərurət olmadığı halda, onun tərcümə dili kimi seçilməsinə imkan verir. Bəzən də ərəbdilli ölkələrin öz müəssisə və idarələrində işləmək üçün ingilis dilini bilməyin vacib bir şərt kimi irəli sürülməsi ərəb dili mütəxəssislərinin məhdud imkanlarını biraz da daraldır.

Təcrübə göstərir ki, tərcümə fəaliyyətini həyata keçirən mütəxəssis işlətdiyi dillərin hamısını yaxşı bilməlidir. Bu iş iki və daha artıq dil arasında sözləri bir-biri ilə əvəz etmək, onların yerini dəyişmək demək deyil. Tərcüməçidə mənanı hiss etmək bacarığı, yaradıcılıq qabiliyyəti olmalıdır. Tərcüməçi yalnız lüğət kitablarından istifadə edərək, sözlərin lüğətdəki mənaları ilə kifayətlənsə tərcümənin uğurlu və keyfiyyətli olması mümkün deyil.

Təcrübəyə əsasən deyə bilərik ki, Azərbaycan və ərəb dilləri arasında qarşılıqlı tərcümə işini yerinə yetirən mütəxəssis alınma sözlərdən diqqət və məharətlə istifadə etməlidir. Nəzərə almaq lazımdır ki, ana dilimizdə çox və yaxud da az işlənməsindən asılı olmayaraq, bəzi ərəb mənşəli sözlər ərəb dilində ifadə etdiyi mənaların eynisini ifadə etmir. Məsələn, təklif, istifadə, tərif və s. Bu sözləri ana dilimizdə işlətdiyimiz kimi, ərəb dilində də işlətsək anlaşılmazlığa səbəb ola bilər.

Təəssüflə qeyd etmək lazımdır ki, bəzən tərcümə işi qeyri-peşəkarlara etibar edilir. Tərcüməçilik sənətinə yad olan həmin "mütəxəssis"lərin nəzərincə tərcümə bəzən şəkilçi və yaxud da bəzi saitlərin yerini dəyişməklə mümkündür. Bununla bağlı qarşıma çıxan nümunələrdən biri də belədir: "Funduqun ismi təğyir etdi". Bu ərəbcədən "tərcümə" edilmiş bir cümlədir. Əgər tərcümə demək olarsa. Müəllif bununla "Mehmanxananın adı dəyişdirilmişdir"- demək istəyir.

Ümumiyyətlə, tərcüməçilik bir sənətdir. Onunla məşğul olanlar dilin qayda-qanunlarını, tərcümə edilən mətnin məna çalarlarını gözləməklə maksimum dərəcədə məsuliyyətli olmalıdırlar.

# "İslam nasist Almaniyasının siyasətində (1939-1945)" kitabının müəllifi ilə müsahibə



**Şahin Ələsgərov,**
**Aİİ-nin əməkdaşı**

*Müsahibə gorky.media saytında 10 iyun 2020-ci il tarixdə yayımlanmışdır*

II Vilhelmin Britaniya, Rusiya və Fransa imperiyalarına qarşı bütün İslam dünyasında alovlandırmağa çalışdığı şiddətli qiyam taktikasından sonralar eynilə nasist hakimiyyəti də yararlanıb müsəlmanları səfərbər etməyə başladı, Hitler isə İslamı – "güclü" və "döyüşkən" bir dini "zərif" katolisizmə qarşı qoydu. Almaniyalı tarixçi David Motadelin "İslam nasist Almaniyasının siyasətində (1939-1945)" kitabı arxivlərdə II Dünya müharibəsinin tarixi ilə bağlı ciddi araşdırılmalı olan çoxsaylı materialların movcudluğundan xəbər verir. III Reyxin İslam siyasəti əvvəllər natamam tədqiq edildiyindən, sözügedən məsələyə ciddi yanaşmağa, bununla əlaqədar daha geniş və dolğun mənzərə yaratmağa çalışan kitabın müəllifi ilə jurnalist və tərcüməçi Nikolay Proçenkonun müsahibəsini təqdim edirik.

– Kitabınız rus dilində nəşr olunanda belə bir fikirlə rastlaşdım: nasizm və İslamın bir-biri ilə əlaqəsi barədə prinsip etibarilə yeni nə demək olar?! III Reyx I Dünya müharibəsindən öncə Kayzer Almaniyasının müsəlmanlara münasibətdə başlatdığı siyasəti sadəcə, davam etdirirdi. Bu cür yanaşmaya nə cavab verərdiniz? Təbii ki, burada ilkin olaraq kitabın oxunub-oxunmadığını nəzərə almaq lazımdır.

– Əlbəttə, kitab haqqında mülahizə yürütməkdən əvvəl onu oxumaq daha yaxşı olardı. Kitabıma rəy yazanlar çox olub, ancaq rəyçilərdən heç biri sözügedən qənaətə gəlməyib. Bununla belə, I Dünya müharibəsinə işarə tam yerinə düşür. Belə ki, XIX əsrin sonlarından etibarən alman rəsmiləri İslamla daha yaxından maraqlanmağa başladılar. Kayzer Toqo, Kamerun, Alman Şərqi Afrikası kimi koloniyalarda bir çox müsəlman cəmiyyətlərinin də rəhbəri oldu və beləcə hakim dairələr dindən nəzarət vasitəsi kimi istifadəyə can atdılar. Şəriət məhkəmələrinin fəaliyyəti tanındı, İslam irsinə toxunulmadı, mədrəsələr fəaliyyətini davam etdirdi, dini bayramlar qadağan edilmədi. Müstəmləkə məmurları müsəlman vasitəçilərinin köməyi ilə idarəçilik edir, sonuncular da öz növbəsində müstəmləkə hakimiyyətinin qanuniliyini tanıyırdılar.

Berlində İslamdan, həmçinin II Vilhelmin qlobal siyasəti kontekstində də yararlanmaq mümkün olduğunu düşünürdülər. Bunu elə kayzerin 1898-ci il Yaxın Şərq turnesi, xüsusən də Səlahəddinin məzarı üstündə özünü "300 milyonluq müsəlman dünyasının dostu" adlandırdığı dramatik çıxışı göstərir. I Dünya müharibəsinin gedişində Britaniya, Rusiya və Fransa imperiyalarında yaşayan müsəlmanların səfərbər olunması ilə bağlı Berlinin cəhdləri də bu siyasətin davamı idi. 1914-cü ilin payızında Almaniya və Osmanlı rəhbərliyi Konstantinopolda (İstanbul – tərc.) xilafətin dini "avtoriteti" sayılan şeyxülislama Antantaya qarşı müqəddəs müharibəyə çağıran fətvalar hazırlamağı tapşırdılar. Müharibənin gedişatında Berlin və Konstantinopol (İstanbul – tərc.) bu istiqamətdə çoxsaylı cəhdlər etmiş, II Vilhelmin təbirincə desək, "Britaniya, Rusiya və Fransa imperiyalarına qarşı bütün İslam dünyasında şiddətli qiyam alovlandırmağa" çalışmışdı.

1914-cü ildə cihadın miqyasının genişləndirilməsi yolunda edilən bütün cəhdlərin uğursuzluqla nəticələnməsinə baxmayaraq, alman komandanlarının İslam geopolitikasına marağı azalmadı. 1941-ci ildə əvvəllər işlənmiş, ənənəvi sxemlərə təkrarən müraciət olundu və bəzi məmurlar, xüsusilə də I Dünya müharibəsi zamanı müsəlmanların səfərbərliyi üzrə kampaniyaya cəlb edilmiş Xarici İşlər Nazirliyi əməkdaşları yenidən "iş başına qayıtdılar". Ancaq II Dünya müharibəsində Almaniya İslama münasibətdə daha genişmiqyaslı siyasət yürütməyə başladı. Elə bircə misalı çəkmək yetərlidir: ilk dünya müharibəsindən fərqli olaraq, almanlar onların tərəfində döyüşmələri üçün on minlərlə müsəlmanı səfərbər etməyə müvəffəq oldular.

İslamdan hərbi-siyasi alət kimi sistemli şəkildə istifadə ilk dəfə 1941-ci ilin sonlarında Hitlerin Qahirədəki sabiq səfiri Eberhard fon Ştorerin memorandumunda təklif olunmuşdu. O, burada "III Reyxin İslama ümumi münasibətini" özündə ehtiva edəcək genişmiqyaslı proqramın təsdiqinin zəruriliyini bildirirdi. 1941 və 1942-ci ilin axırlarında Almaniya Xarici İşlər Nazirliyi din xadimlərindən istifadəni nəzərdə tutan proqrama start verdi: onlar arasında ən məşhuru 1941-ci ilin sonlarında Berlinə gəlmiş əfsanəvi Qüds müftisi Əmin əl-Hüseyni

idi. 18 dekabr 1942-ci ildə nasistlər Berlində müsəlman dünyasında alman təbliğatının əsas mərkəzinə çevriləcək İslam İnstitutunun açılışını etdilər.

Alman qoşunları Balkan yarımadası və Sovet İttifaqında müsəlmanların yaşadığı ərazilər boyu irəlilədikcə nasist dövlətinin digər institutları da analoji siyasəti davam etdirdilər. 1941-ci ildən etibarən Vermaxt (1935-1945-ci illərdə nasist Almaniyasının silahlı qüvvələrinə rəsmi olaraq verilən ad – tərc.) və SS (1933-1945-ci illərdə Adolf Hitlerin mühafizəsini təmin etmək üçün fəaliyyət göstərən təhlükəsizlik təşkilatı – tərc.) əsasən, alman əsilli insan resurslarını qorumaq məqsədilə bosniyalılar, Krım tatarları, Qafqaz və Mərkəzi Asiya xalqlarının nümayəndələri də daxil, on minlərlə müsəlmanı sıralarına cəlb etməklə, müsəlman əsgərlərin xidmətlərindən bütün müharibə cəbhələrində – Stalinqrad və Varşavada, habelə Berlinin müdafiəsində yararlandılar. Alman zabitlər onlara sözün əsl mənasında üz verir, müsəlman təqvimini qəbul edir, oruc tutmaq kimi dini ibadətlərin icrasına maneə yaratmırdılar. Onlar hətta antisemit düşüncə tərzi ucbatından 1933-cü ildə qanunla keçirilməsinə icazə verilməyən qurbankəsmə mərasiminə qoyulan qadağanı da ləğv etdilər. Bu məsələlərdə əsgərlərin təkcə mənəvi qidalanmasına görə deyil, eyni zamanda, onların siyasi təfəkkürünün formalaşmasına cavabdehlik daşıyan hərbçi imamlar nəzərəçarpacaq rol oynayırdılar.

Ancaq unutmaq olmaz ki, Almaniya bu cür davranan yeganə dövlət deyildi və onun “davranışlarına” daha geniş kontekstdə yanaşıb, bunu siyasi və hərbi məqsədlərə çatmaq uğrunda İslamdan alət kimi istifadəyə çalışan qərb dövlətlərinin siyasəti kimi qəbul etmək lazımdır. Belə ki, müstəmləkəçi imperiyalar dövründə Avropanın böyük dövlətləri müntəzəm surətdə geniş dini təbliğat aparmaqla düşmən dövlətlərin müsəlman təbəələrini qiyama qaldırırdılar. Misal üçün, Krım müharibəsi zamanı Britaniya, Fransa və Osmanlı hökuməti Krım və Qafqaz müsəlmanlarını üsyana qaldırmağa çalışmışlar. Aparıcı dövlətlərin I Dünya müharibəsi zamanı dindarları inqilaba sürükləmək cəhdləri İslamdan siyasi və hərbi strategiyada istifadə ilə bağlı ən mühüm addımlardır. Ssenarinin davamı olaraq, Qərb soyuq müharibə dövründə antikommunist, radikal islam hərəkatlarını dəstəkləməyə başladı. Sonuncu belə hal amerikalılar tərəfindən Əfqanıstanda mücahidlərə köməklik göstərilməsi oldu. Rəsmi Vaşinqton ora “Stinger” raketləri ilə yanaşı, dini ədəbiyyatlar da göndərirdi.

– Kitabın yazılmasına böyük əmək sərf edilib: müqəddimədə ABŞ və Böyük Britaniyadan tutmuş Albaniya və İrana kimi müxtəlif ölkələrdən olan, materialların toplanması və təhlilində sizə köməyi dəymiş alimlərin uzun siyahısı yer alıb. Zəhmət olmasa, işin təşkili barədə danışardınız.

– Kitabın üzərində az qala on il işləmişəm. Bu müddət ərzində fikirlərimi dünyanın bir çox yerlərində yaşayan həmkarlarımla müzakirə etmişəm. Onlara sonsuz təşəkkürümü bildirirəm.

Kitabın mövzusu II Dünya müharibəsinin gedişində Almaniyanın müsəlmanlara münasibətdə siyasəti olduğundan arxiv işinin böyük hissəsi Almaniyada həyata keçirildi. Sözügedən ölkənin İslamla əlaqə tarixinin araşdırılması özlüyündə mənim üçün böyük çağırış sayılırdı. Bu təkcə adıçəkilən mövzu ilə əlaqədar sənədlərin müxtəlif arxiv və kitabxanalarda dağınıq formada yer almasından irəli gəlmirdi, eyni zamanda, müraciət etdiyim arxiv sənədləri toplularında sadəcə, “İslam” bölməsinə rast gəlmək olmurdu. Bu səbəbdən, ilkin ehtimala görə, İslam haqqında məlumatların yer aldığı saysız-hesabsız ümumi başlıqlı bölmələr arasında itib-batarkən xeyli vaxtım getdi. Beləliklə, iynə ilə gör eşməklə, rəsmi Berlinin müsəlmanların səfərbər olunması istiqamətində etdiyi çoxsaylı cəhdlər barədə məndə təsəvvür yarandı.

– Kitab üzərində işləyərkən hansısa gözlənilməz, yaxud təhlükəli vəziyyətlə üzləşməmisiniz? Yəni belə demək olarmı ki, kitabı yazarkən intellektual zövq almaqla yanaşı, macəra da yaşamısınız?

– Düzü, heç bir təhlükə ilə üzüzə qalmamışam, ancaq əlbəttə, başımın tədqiqata qarışdığı 2006-2014-cü illərdə müsəlman ölkələrini dəfələrlə gəzmişəm. Yaddaqalan xatirələrim çox olub–o vaxtkı İran prezidenti Əhmədinejadın cümə günləri Tehranda təşkil olunan namaz mərasimlərinə gəlişindən tutmuş Liviyanın cənubundakı Səbha şəhərində Qəddafi ilə görüşə kimi.

– Kitabınızın Sovet İttifaqı ərazisində baş verən hadisələrə həsr olunmuş fəsillərinə nəzər yetirsək, öncə yada salmaq lazımdır ki, Böyük Vətən Müharibəsi zamanı kollaborasionizm (II Dünya müharibəsi zamanı vətənini işğal etmiş faşistlərlə xaincəsinə əməkdaşlıq – tərc.) problemi, ardınca bir çox xalqların deportasiyası bu günədək ciddi müzakirə doğurur və heç də birmənalı şərh olunmur. Bu mövzuda düşüncələrinizi necə ümumiləşdirərdiniz?

– Kitabın Rusiyadan bəhs edən hissəsi üzərində iş, tədqiqatımın ən maraqlı mərhələlərindən biri idi. Vaşinqtondakı Holokost Dərin Tədqiqatlar Mərkəzinin arxivlərindən, əldə edilməsi mümkün olan Moskvadakı Rusiya Dövlət Hərbi Arxivinin materiallarından yararlanmışam.

Krım və Şimali Qafqazın müsəlman cəmiyyətləri XVIII-XIX əsrlərdə bu ərazilər çarın idarəçiliyinə veriləndən bəri mərkəzi hakimiy-

yətlə çəkişmə içərisində idilərsə, bolşeviklərin gəlişi ilə vəziyyət lap da pisləşdi. Stalin zamanında müsəlmanlar yaşadıqları yerlərdə misli görünməmiş siyasi və dini təqiblərə məruz qaldılar. İslam ədəbiyyatına qarşı senzura tətbiq olunur, şəriətə qadağa qoyulur, vəqf mülkiyyəti müsadirə edilirdi. Partiya çinovnikləri məscidlərə daraşır, divarları sovet şüarları ilə doldurur, minarələrdən qırmızı bayraqlar asır, ibadət zallarında donuzları o yanbu yana qovurdular. Bununla belə, İslam ictimai-siyasi həyatın formalaşmasında prinsipial rol oynamaqda davam edirdi.

Şimali Qafqaz və Krımın ilhaqından sonra arxa cəbhədə sabitliyi qorumaq məqsədilə yerli kollaborasionistlərin axtarışına çıxan alman hərbi dairələri özlərini İslamı buxovdan qurtaracaq azadlıqsevərlər kimi qələmə verməyə çalışırdılar. Qafqazı işğal etmiş “A” ordu qrupunun komandanı general Evald fon Kleyst zabitlərinə müsəlmanlara qarşı hörmətlə yanaşmağı məsləhət görür və hərəkətlərinin bütün İslam dünyası üçün doğuracağı potensial nəticələri dərk etməyə çağırırdı: “Alman ordu qrupları arasında ən çox irəliləyən “A” qrupudur. Biz İslam dünyasının qapıları önündə dayanmışıq. Burada etdiklərimizin sədası İraq, Hindistan, hətta Çin sərhədlərinə kimi yayılacaq. Buna görə də daima hər bir hərəkətimizin və hərəkətsizliyimizin uzunmüddətli nəticələri barədə düşünməliyik”.

Eyni göstərişləri Krımda general Erix fon Manşteyn də verirdi. “Yəhudi-bolşevik sisteminin birdəfəlik məhvini” nəzərdə tutan və Nürnberq prosesində əsas sənədlərdən biri sayılan 20 noyabr 1941-ci il tarixli sərəncamında o, əsgərlərinə müsəlman əhali ilə xoş davranmağı tövsiyə edirdi: “Müsəlman tatarların dini adət-ənənələrinə hörmətlə yanaşılmasını tələb etmək lazımdır”.

Strateji baxımdan əhəmiyyətli ərazilərdə sabitlik və asayişin bərpası zamanı almanlar dini siyasətdən sözün həqiqi mənasında hərtərəfli istifadə edirdilər. Onlar məscid, ibadətxana və mədrəsələrin bərpasına, o cümlədən, dini bayram və mərasimlərin yenidən təşkilinə dair əmrlər verirdilər.



1942-ci ildə Qafqazda Ramazan bayramı kütləvi şəkildə qeyd olundu. Bu tədbirlər arasında ən məşhuru qaraçayların yaşadığı Kislovodskda baş tutmuşdu. Krımda isə almanlar hətta “müsəlman komitələri” adlanan dini idarə təsis etmişdilər. Krım müftiliyinin bərpası da müzakirə olunmuşdu. Düzdür, bu baş tutmasa da, müftilik Ostland Reyxkomissarlığında Vilnüsdəki Litva müftisi Yaqub Şinkeviçin rəhbərliyi ilə yenidən təsis edildi.

Son nəticədə sovet müsəlmanlarının azadlıqla bağlı ümidləri puç oldu. İşğal dönəmi uzandıqca alman rəsmilərinin müsəlman əhaliyə münasibəti soyuyurdu. Öncədən aparılan təbliğatın təsirindən Sovet İttifaqında yaşayan Asiya xalqlarına insan gözü ilə baxmayan sadə alman əsgərləri müsəlmanlarla əlaqələr qurmağa hazır deyildilər. Bunun da məntiqi davamı kimi, Almaniyanın geriyə çəkilməsi ilə Stalin müsəlman azlıqları xəyanətdə gunahlandıraraq, onları deportasiya etdirdi.

– Zənnimcə, bu mənada kitabınızda tam açılmayan daha vacib bir nüansı qeyd etmək yerinə düşər: kollaborasionizm təkcə İslamla deyil, həm də xalqların (xüsusilə də Qafqazda) formalaşması prosesi ilə əlaqədar idi. Bu proses ya özünəməxsus dinamikaya malik idi (məsələn, Çeçenistanda rus hakimiyyətinə qarşı kök salmış möhkəm müqavimət ənənəsi yarım əsrdən artıq mövcud olub), yaxud da sovet hökuməti tərəfindən məqsədli şəkildə yönləndirilərək, misal üçün, bir-birinə doğma qaraçay və balkarların ayrı düşməsinə gətirib çıxarmışdı. Bundan əlavə, müxtəlif Qafqaz xalqları müsəlmanlığı heç də eyni vaxtda qəbul etməmişdilər və İslamın özü də mahiyyət etibarilə onların hər birində çox vaxt fərqlənirdi. Nasistlərin bu cür incəlikləri görə bilmədikləri ilə bağlı gəldiyim qənaət sizcə doğrudurmu?

– Tamamilə haqlısınız. Alman rəsmiləri müsəlman xalqlarını vahid “islam” rubrikasında izləməyə adət etmişdilər. Mahiyyətcə “islam” və “müsəlman” kəlmələri hər şeydən öncə rəsmi alman sənədlərində bürokratik terminlər olaraq keçirdi. Ələ keçirilmiş ərazilərdə əhalinin hansı səviyyədə dinyönümlü, yaxud İslam haqda fərqli təsəvvürlərə malik olduğunu nəzərə almadan məskunlaşma xəritələri tərtib edilirdi. Alman təsəvvüründə İslam güc və mübarizliyi

təmsil etməklə, etnik, dil və sosial baxımdan fərqli cəmiyyətlərə münasibətdə uğurlu siyasi və təşviqat aləti rolunu oynayırdı.

Müharibə dövründə Almaniyanın əsarətinə düşmüş əksər regionlarda yaşayan müsəlmanların milli maraqlardan irəli gələn çoxsaylı məqsədləri var idi. Şimali Afrika ərəbləri və bərbərləri milli müstəqilliyə can atır, əksər Bosniya və Herseqovina müsəlmanları muxtariyyət tələb edirdi. Sonuncu hal Krım və Qafqazda da müşahidə olunurdu. Ancaq rəsmi Berlin adıçəkilən məsələlərlə bağlı hər hansı konkret zəmanət vermədən, ərəb liderlərinin şərt kimi irəli sürdüyü müstəqillik, həmçinin Bosniya və Herseqovinanın müsəlman liderlərinin müsəlman dövləti yaradılması ilə bağlı istəklərinə qəti olaraq “yox” cavabı verdi. Krım tatarları və Qafqaz xalqlarının muxtariyyət arzusuna gəlincə, birincidə məlum olduğu üzrə alman mühacirlərin məskunlaşdırılması planlaşdırılırdı. Düzdür, Qafqaz bənzər planlar xaricində olsa da, Hitler sözügedən regionda ayrı-ayrı ərazilər işğal olunan vaxt buranın xalqlarına hansısa konkret güzəştlərə getməkdən imtina etdi. Bu da nəticə etibarilə həmin xalqların dəstəyini qazanmağa çalışan Almaniyanın qarşısında başlıca maneəyə çevrildi.





İslamın Almaniya xarici siyasətində öncül sıralarda yer alması rəsmi Berlinə milli müstəqilliklə bağlı üzləşə biləcəyi kəskin problemlərdən qaçmaq imkanı yaratdı. Əlbəttə, siyasəti başlıca olaraq etnik mənsubiyyətə əsaslanan nasist rejimi üçün müsəlmanlara münasibətdə dinin prinsipial əhəmiyyət daşıması təəccüblüdür. Digər tərəfdən, irqi əngəllər məsələsində Berlin məmurları maraq doğuran praqmatiklik nümayiş etdirirdilər: artıq XX əsrin 30-cu illərində türk, ərəb və iranlılar irqi ayrı-seçkiliyin istənilən formasından müsbət mənada kənar qalmışdılar. Müharibə vaxtı isə almanlar analoji praqmatikliyi Balkanlardakı müsəlmanlar və Sovet İttifaqının azsaylı türk xalqları ilə qarşılaşdıqları zaman göstərirdilər. Böyük Səh- radan Qafqaza qədər uzanan ərazidə istənilən alman zabitinə müsəlmana müttəfiq gözü ilə baxılmalı olduğu aydın idi.

Dini nöqteyi-nəzərdən vəziyyət daha sadə idi. Nasist liderləri, xüsusilə, Hitler və Himmler İslama açıq-aşkar rəğbət bəsləyirdilər. Katolik kilsəsini daim tənqid atəşinə tutan fürer hər dəfə “zərif” və “zəif” katoliklikə İslamı müqayisə edir, sonuncunun tərifini göylərə çıxarmaqla, onu “güclü”, “aqressiv” və “döyüşkən” din adlandırırdı.

Müharibənin sərhədləri dini və etnik baxımdan mürəkkəb bölgələrə doğru genişləndikcə Almaniya hökumətinin siyasəti də şaxələnirdi. Şərq kampaniyasının ilk aylarında SS bölmələri sünnətin yəhudilərə məxsus əlamət olduğunu güman etdiklərindən, minlərlə müsəlmanı, xüsusilə də hərbi əsirləri edam etmişdilər. Üstündən bir neçə həftə keçəndən sonra Reyx Təhlükəsizliyi Baş İdarəsinin rəisi Reynhard Heydrixin verdiyi göstərişdə SS-dən daha diqqətli olmaları tələb edilirdi: “Yəhudilərlə oxşar xarici görünüş və sünnət adamın yəhudi mənşəli olduğunu tam təsdiq etmir”.

Buna baxmayaraq, Sovet İttifaqının cənub ucqarlarında zonderkomandalar (nasist Almaniyasında xüsusi təyinatlı hərbi birləşmələr – tərc.) müsəlmanlarla yəhudiləri fərqləndirməkdə çətinlik çəkirdilər. “D” Aynzats qrupu (Avropa ölkələrinin və SSRİ-nin nasistlər tərəfindən işğal olunmuş ərazilərində mülki əhaliyə qarşı kütləvi qırğınlar həyata keçirən hərbi birləşmə – tərc.) Qafqaz və Krımda yəhudi



əhalisini məhv etməyə başlayanda qeyri-adi halla üzləşdi: məlum oldu ki, düz üç yəhudi cəmiyyəti uzun müddət müsəlmanlarla yan-yana yaşayıb, İslam mədəniyyətinin təsirinə məruz qalmışdır. Bunlar Krımdakı karaimlər və qırımçaqlar, o cümlədən, Şimali Qafqazdakı dağ yəhudiləri və ya tatlardır.

Analoji problemlər almanlar, əksəriyyəti yenə də Krımda yaşayan müsəlman qaraçılarla qarşılaşdıqda üzə çıxırdı. Adıçəkilən xalqlar yüzilliklər boyu onlarla həmrəylik nümayiş etdirən tatarlarla assimilyasiya olmuşlar. Tatarların dəstəyi ilə bir çox müsəlman qaraçılar sürgün və ölümdən xilas olmaq məqsədilə özlərini tatar kimi qələmə vermiş, beləliklə, bəziləri canlarını qurtara bilmişlər.

– Nasistlərin Balkanlarda İslam siyasətinin spesifikliyi nədən ibarət idi? Məlum olduğu kimi, keçmiş Yuqoslaviyadakı müharibədən sonra bosniyalı müsəlmanlar ayrı xalq olaraq qəbul edilmişdilər ki, milli quruculuqla bağlı dünya təcrübəsində belə bir nümunəyə rast gəlmək çətindir. Güman edilir ki, Tito (Yuqoslaviya partizanlarının lideri, siyasi, dövlət, hərbi və partiya xadimi – tərc.) Bosniyaya partizanların əsas bazalarının orada yerləşdiyinə görə təşəkkürünü də bildiribmiş və Yuqoslaviya paytaxtları arasında Sarayevo onun ən sevdiyi şəhər olub. Ancaq siz kitabınızda deyəsən, bu məlumatlara bir sıra düzəlişlər etmisiniz.

– Almanlar 1941-ci ildə Yuqoslaviyaya soxulub oranı parçalayan vaxt müsəlmanlar yaşayan bölgələrlə, ən əsası da ustaşilərin (xorvat inqilabi hərəkatı – tərc.) yenicə yaradılan Xorvatiya Dövlətinin nəzarəti altına verilmiş Bosniya və Herseqovina ilə heç bir bağlılıqları yox idi. Ustaşi rejimi bir tərəfdən müsəlman təbəələrinin rəğbətini qazanmağa çalışır, digər yandan yəhudiləri qırır və pravoslav serbləri təqib edirdi. Lakin 1942-ci ildən etibarən bu region getdikcə xorvat rejimi, Titonun kommunist partizanları və pravoslav serb çetniklərinin (antikommunist yönümlü balkan partizanları – tərc.) yer aldığı amansız münaqişə ocağına çevrildi. Partizanlar həm ustaşi qoşunları, həm də çetniklərin üzərinə hücuma keçirdi, sonuncular ustaşilər və Titonun partizanları ilə mübarizə aparırdı, müsəlman əhali isə hər üç tərəfin hücumuna məruz qalırdı. Ustaşilər partizanlarla yanaşı, çetniklərin qeyri-nizami dəstələri ilə döyüşlərdə müsəlman qoşun hissələrindən yararlanır, habelə onlardan serb əhalinin məskunlaşdığı əraziləri nəzarət altında saxlamaq üçün istifadə edirdilər. Çox keçmirdi ki, müsəlman kəndləri cavab hümumlarına məruz qalırdılar. Müsəlmanlar on minlərlə itki verdiyindən məcbur qalıb kömək üçün almanlara müraciət etdilər. Onların Hitlerin protektoratlığı altında muxtariyyət istəyini rəsmi Berlin müsbət qarşıladı.

Balkanlarda vətəndaş müharibəsi nəzarətdən çıxdıqca almanlar müsəlmanlar yaşayan ərazilərə bir az daha nüfuz edirdilər. Regionda müharibəyə son nöqtə qoymağı məqsəd güdən Vermaxt və SS müsəlmanlara xeyirxah müttəfiq gözü ilə baxır və nasist Almaniyasının Cənub-Şərqi Avropada İslamın müdafiəçisi olduğu ideyasını yayırdılar. Bu kampaniya 1943-cü ilin yazında başladı, SS Qüds müftisini Zaqreb, Banya Luka (Bosniya və Herseqovinanın ikinci ən iri şəhəri – tərc.) və Sarayevoya göndərdi. Müfti orada dini liderlərlə görüşüb, “Berlin-Roma-Tokio oxu” (II Dünya müharibəsi zamanı yaradılmış iki böyük ittifaqdan biri – tərc.) ölkələrinə dəstək şüarları səsləndirdi. Sarayevodakı böyük Qazi Hüsrev bəy məscidini ziyarət zamanı müsəlmanların çəkdiyi iztirablarla bağlı elə emosional çıxış etdi ki, dinləyicilərin bir qismi göz yaşlarını saxlaya bilmədi. Sonrakı aylarda almanlar dini təbliğat işlərini gücləndirməklə, müsəlman ruhanilərlə daha sıx əməkdaşlığa başladılar, belə ki, onlar dini liderlərin xalq arasında böyük nüfuz sahibi olduqlarını düşünürdülər.

Qafqaz və Krımdan fərqli olaraq, Balkanlarda İslam institutları zərər görməmişdi: müsəlmanlar formal olaraq Ali Dini Şuraya tabe idilər. Ordu rəsmiləri daim onun üzvləri ilə məsləhətləşmələr aparır və şuradan öz məqsədləri üçün istifadəyə çalışırdılar. Şura üzvlərinin əksəriyyəti almanların onlara müsəlman dövlətini təsis etməkdə yardımçı olacağına ümid bəsləsə də, Vermaxt və SS-in Balkanlarda sülhü bərqərar etməkdə acizliyi tezliklə hamıya aydın oldu. Bir tərəfdən də almanların müsəlmanları açıq-aşkar dəstəkləməsi sonunculara qarşı partizan və çetniklərdə nifrəti alovlandırdı. Zorakılığın miqyası böyüdü, nəticədə 250 min müsəlman münaqişə qurbanına çevrildi.

Bəzi müsəlmanlar Titonun partizanları ilə çiyin-çiyinə savaşırdılar. Onların sayı xüsusilə 1943-1944-cü illərin qışında vəziyyət pisləşəndə daha da artdı. İlk müsəlman partizan dəstəsi hələ 1941-ci ilin yayında formalaşmışdı və Tito kommunizmi İslamın yeganə ümidi kimi qələmə verən rəsmi Moskvanın din sahəsində təşviqat kampaniyasına həvəslə girişdi. Partizan təbliğatçıların 1944-cü ilin payızında yaydıqları “Sovet İttifaqında müsəlmanlar: Sovet İttifaqında din” adlı kitabçada Stalinin rəhbəri olduğu dövlət möminlər üçün cənnət kimi göstərilirdi. Almanlar isə öz növbələrində satqınlıqda şübhəli bildikləri müsəlmanlarla xüsusi amansızlıqla davranırdılar. Partizanları gizlətməkdə ittiham olunan müsəlman kənd və qəsəbə sakinlərinə qarşı tətbiq edilən çoxsaylı cəza tədbirləri çərçivəsində alman əsgərlər qadın, uşaq demədən hər kəsi edam edirdilər. Ancaq ümumilikdə Titonun partizan də-

stələrinin cərgəsinə elə çox müsəlman qoşulmamışdı.

– Dəfələrlə fərqli kontekslərdə "təbliğat" kəlməsindən istifadə etmisiniz. Görünür, hətta tarixçi belə həqiqətə tam uyğun olmayan məlumatlarla qarşılaşmaq riskindən sığortalanmayıb, belə ki, onun istinad etdiyi mənbələr təbliğat maşınının yalanları ilə təhrif oluna bilər. Bu problemin öhdəsindən necə gəldiniz?

– Mən eyni vaxtda həm müharibənin getdiyi torpaqlarda müsəlman əhaliyə münasibətdə Almaniya siyasətini, həm də sözügedən bölgələrdə alman təbliğatını araşdırırdım. Əvvəldə söz açdığım kimi, 1941-1942-ci illərdə Hitler qoşunları müsəlmanların yaşadığı Şimali Afrika, Balkan, Krım və Qafqaz torpaqlarına doğru irəliləyib, Yaxın Şərq və Mərkəzi Asiyaya yaxınlaşdığı vaxt Berlin rəsmiləri İslamı mühüm siyasi fenomen kimi hərtərəfli nəzərdən keçirməyə başladılar. Nasist Almaniyası sonralar ortaq hesab etdikləri düşmənlərə – Britaniya imperiyası, Sovet İttifaqı və yəhudilərə qarşı müsəlman dünyası ilə ittifaq qurmaq məqsədilə əhəmiyyətli səylər göstərdi. Bu səylər Vermaxt və SS başda olmaqla, Xarici İşlər Nazirliyi, Təbliğat Nazirliyi və İşğal Olunmuş Şərq Əraziləri Nazirliyi də daxil, demək olar, bütün hakimiyyət strukturlarını ehtiva edirdi.

III Reyxin İslamla bağlı qayğıları təkcə müsəlmanlar məskunlaşan bölgələrin Almaniyanın nəzarətində olması ilə əlaqədar deyildi. Blitskriq baş tutmadığından, cəbhədə vəziyyət ağırlaşmış, Vermaxta təzyiqlər artmışdı. Buna görə Berlində oturan strateqlər daha geniş tərkibli koalisiya qurmaq arzusuna düşüb, əvvəl bəhs etdiyimiz maraqlı praqmatiklik nümayiş etdirməyə başladılar. Artıq 1941-ci ildən Vermaxt rəhbərliyi əsgərlərə müsəlman əhali ilə nəzakətli davranış qaydalarını öyrədirdi.

İndi isə keçək təbliğat məsələsinə. Müharibənin getdiyi ərazilərdə almanlar nasist rejiminin İslamın hamisi görüntüsünü yaradan təbliğat-təşviqatla məşğul idilər. Alman təbliğatçılar müqəddəs mətnləri (xüsusilə də Quranı), o cümlədən, dini imperativləri (hər şeydən əvvəl "cihad" ideyasını) siyasiləşdirməklə dini zorakılığı qızışdırırdılar. Kitabımda mətbu orqanlardan seçdiyim çoxsaylı yazılarla yanaşı, radiotəbliğat nümunələri də yer alıb. Misal üçün, 1942-ci ildə Liviyada yayılan broşürlərdən birində deyilir: "İngilislər, amerikalılar, yəhudilər və müttəfiqləri İslamın ən böyük düşmənləridir... Almaniya, inşaallah, müharibəni udacaq". Bu cür "məhsullar" milyon nüsxələrlə yayılırdı.

Əlbəttə, sözügedən təbliğat materialları müharibə gerçəkliklərini tam əks etdirmir. Bununla belə, alman təbliğat maşınının çox incə məqamları nəzərə aldığının şahidi oluruq. Bəzi hallarda informasiyanı qəsdən natamam formada, bəzən siyasi baxımdan faydalı olsun deyə onu yanında şərh verməklə yayımlayır, hərdən isə sadəcə yalanı yayırdılar.

Kitabın müharibənin getdiyi ərazilərdə müsəlmanlara münasibətdə Almaniyanın yürütdüyü siyasətə toxunulan hissələrində mən siyasi sənədlər, memorandumlar, müharibə ilə bağlı hesabatlar, cəbhədən məktublar və memuarlar, Nürnberq prosesində şifrəli dindirmələr, müraciətlər və əmrlərin də daxil olduğu saysız-hesabsız mənbələrə istinad etmişəm. Düzdür, fərqli təyinatlı bu mənbələrin heç də hamısının qərəzsiz olduğunu demək çətindir. Sözsüz, qeyd olunan sənədlərin təfərrüatlı təhlili hələ aparılmalıdır.

– Bəhs etdiyimiz təbliğatın təsiri var idimi? Daha hansı səbəblər müsəlmanları nasistlərin tərəfinə keçməyə məcbur edirdi?

– Səbəblər müxtəlif idi. İdeallar uğrunda mübarizənin alman ordusu sıralarına qoşulmuş əksər müsəlmanlar üçün həlledici amil olması mübahisəli məsələdir. Əlbəttə, bəzilərini buna dini nifrət və antibolşevik əhval-ruhiyyə təhrik edirdi. Ancaq ümumən götürsək, müsəlmanların nasistlərin tərəfinə keçmə səbəbləri çox sadə idi. Hərbi əsir düşərgələrində cəlb edilən Qızıl Ordu əsgərlərini hər şeydən əvvəl maddi maraqları düşündürürdü. Alacaqları aylıq məvacib və ordudakı yemək norması həbs düşərgələrində əziyyət çəkdikləri aclıq, soyuq və xəstəliklərlə müqayisəyə gəlməzdi. Çoxları sadəcə alman uniformasının onlara müharibənin çətinliklərinə dözməyə kömək edəcəyinə ümid bəsləyirdi. Vermaxt və SS-in müsəlman mülki əhali arasında nasist ordusu sıralarına cəlbetmə işi ilə məşğul olduqları bölgələrdə könüllülər alman silahlı qüvvələrindən soyğunçuluqla məşğul olan quldur və partizanlardan öz ailələrini qorumaq üçün istifadə edəcəklərini düşünürdülər.

Müharibənin son aylarında yaranmış xaosda almanların qələbəsinə olan bütün ümidlər suya düşən vaxt müsəlman birləşmələrində yüksək əhval-ruhiyyə və intizamı qorumaq çətinləşdi və Vermaxtla SS getdikcə artan fərarilik problemi ilə üzləşdi. Əsasən də Balkanlardakı müsəlman qüvvələri arasında parçalanma müşahidə edilirdi. Bununla belə, nasistlər tərəfindən cəlb edilmiş sovet müsəlmanlarının əksəriyyəti mövcud ümidsiz vəziyyətdə gözləniləndən də artıq intizamlı davranırdı. Zənnimcə, məhz bu çıxılmaz durum onların mübarizə əzmini sınmağa qoymurdu, çünki həqiqətən də geriyə yol yox idi. Almaniyanın məğlubiyyətindən sonra onların böyük hissəsi ya güllələndi, ya da sürgün edildi.

– Kitabınıza müxtəlif müsəlman cəmiyyətlərindən, xüsusən də mövzunun birbaşa aidiyyəti olduğu ölkələrdən hansı rəylər gəldi?

– Kitab müsəlman dünyasında böyük maraq doğurdu və Mərakeşdən Səudiyyə Ərəbistanına kimi

müsbət rəylər gəldi. Pakistanın gündəlik "Dawn" qəzeti nəşri "çox zəhmət aparan, eyni zamanda oxunaqlı tədqiqat" adlandırdı. Avropadakı müsəlman intellektuallar onu xoş qarşıladılar, həmçinin onun sədaları məşhur "əl-Həyat" nəşrindən gəldi. Kitab xaricdə ilk dəfə Türkiyədə nəşr olundu. Bir neçə həftə öncə fars dilində də çap edildi. Koronavirus böhranına baxmayaraq, ikinci nəşrin tezliklə Tehranda işıq üzü görəcəyini mənə məlumat verdilər. Bu il həmçinin Misirdə ərəbcə tərcüməsini də görə bilərik.

Rus oxucularından da xəbərlər var. Rusiya Elmlər Akademiyasının Ufa Federal Araşdırma Mərkəzindən Ufada Mərkəzi Müsəlman Ruhani İdarəsinin 1941-1945-ci illərə aid sənədlərini nəşrə hazırlayan iki alim mənə yazmışdı. Mənim üçün ən böyük təşəkkür kitabımın yeni akademik mübadilələrə töhfə verməsidir. Onun Rusiyada həm müsəlmanlar, həm də qeyri-müsəlmanlar tərəfindən oxunmasına ümid edirəm.

Qeyd etmək istərdim ki, Sakit okeanda baş tutan hərbi əməliyyatları çıxsaq, II Dünya müharibəsi ilə bağlı aparılan tədqiqatların böyük əksəriyyəti tamamilə avropamərkəzlidir. Yalnız son bir neçə onillikdə dünya alimlərinin araşdırmaları Avropa hüdudlarını aşdı və müharibə dövründə müsəlman dünyasının durumu ilə daha yaxından maraqlanmağa başladılar: o zamanlar ingilis və fransız idarəçiliyində Şimali Afrika və Cənub-Şərqi Asiyada 150 milyondan artıq müsəlman yaşayır, rəsmi Moskva isə 20 milyondan çox müsəlmana rəhbərlik edirdi. II Dünya müharibəsi zamanı Almaniyanın ağalığı altına isə yüz minlərlə müsəlman düşdü. Onların tarixi haqqında dünya ictimaiyyəti məlumatlandırılmalıdır və mənim kitabım bu yolda edilən ilk cəhddir. Onun ardınca digər tədqiqat əsərlərinin də gələcəyinə ümid edirəm.

– II Dünya müharibəsi haqqında tarixi yaddaşla bağlı müasir müzakirələrdə sizin kitabınız necə bir yer tutur? Sizə elə gəlmirmi ki, tabu sayılan mövzulara toxunmusunuz?

– Burada mütləq qeyd etmək lazımdır ki, müsəlmanlar II Dünya müharibəsində hər iki tərəfdən vuruşurdular. Almaniya ordusu sıralarına onminlərlə müsəlmanın cəlb edilməsinə baxmayaraq, son nəticədə Böyük Britaniya, Fransa və Sovet İttifaqı müsəlman vətəndaşlarının səfərbər edilməsində daha çox müvəffəqiyyət qazandılar – Hitlerə qarşı yüz minlərlə müsəlman döyüşürdü. Təkcə Şimali Afrikanın fransız koloniyalarından De Qollun orduları sırasına 250 min müsəlman qoşulmuşdu ki, onlar da faktiki olaraq Avropanı azad edənlər idi. Həmin veteranları uzun illər kimsə xatırlamasa da, son onilliklərdə bir çox ölklərdə bu istiqamətdə vəziyyət dəyişib.

"Ən ziddiyyətli fiqur" isə əlbəttə, Qüds müftisi Əmin əl-Hüseyni sayılırdı. Müharibələrarası dönəmdə o, Fələstində böyük güc və nüfuza sahib idi. 1921-ci ildə Britaniya hökuməti onu Qüds müftisi təyin etsə də, çox keçmədən ingilis idarəçiliyi və yəhudilərin Fələstinə köçünə qarşı çıxanların başında gedirdi. Əvvəldə söylədiyim kimi, o, müharibə vaxtı Berlinə yollanıb, orada "Berlin-Roma-Tokio oxu" ölkələrinin xeyrinə genişmiqyaslı təbliğat kampaniyalarında iştirak etmişdi. Əl-Hüseyninin Berlindəki fəaliyyətinə külli miqdarda ədəbiyyat həsr olunsa da, müftinin tərcümeyi-halının tədqiqatçıları onun nasistlərə təsir gücünü şişirtməyə meyillidirlər. Ancaq onun baş planı və əsas qayğısı – konkret güzəştlər əldə etmək və Fələstinin müstəqilliyinin tanınması təminatını almaq uğursuzluqla nəticələndi. Əl-Hüseynin təklifləri yalnız alman maraqları ilə üst-üstə düşdükdə uğurlu sayılırdı. Buna ən yaxşı nümunə Almaniyaya müttəfiq olan Cənub-Şərqi Avropa ölkələrindən yəhudilərin Fələstinə köçünün qarşısını alan fəaliyyətidir.

– Gəlin, müsahibəmizin sonunda II Dünya müharibəsinin bədii ədəbiyyatda əksi və şərhi barədə danışaq. Sovet və rus müəlliflərin əsərləri də daxil, müharibə haqqında təsəvvürünüzə təsir göstərmiş nəsr nümunələri varmı?

– Müharibədən bəhs edən bədii nəsr nümunələri az oxumuşam. Bu, mənim ixtisasımla əlaqədardır. Günlərlə müharibəni araşdırsanız, boş vaxtınızda zorakılığın təsvir edildiyi kitabları oxumağa çətin ki həvəsiniz qalsın. Bununla belə, II Dünya müharibəsinə həsr olunan sevdiyim kitablar da var: Günter Qrassın "Tənəkə təbili" romanı, habelə qeyri-bədii ədəbiyyat nümunələrindən olan Corc Oruellin "Kataloniyaya məhəbbətlə" əsəri və Vasiliy Qrossmanın reportajları.

– Conatan Littellin (amerikan-fransız yazıçı, 2006-cı il Qonkur mükafatı laureatı – tərc.) "Xeyirxahlar" romanını oxumamısınız? Sözügedən əsərin bir fəslində müəllif deyəsən, sizin istifadə etdiyiniz mənbələrdən yararlanıb–hər halda, Kislovodskda nasistlərin təşkilatçılığı ilə keçirilən Ramazan bayramının təsviri və dağ yəhudiləri barədə müzakirələr Litteldə də eyni dəqiqliklə verilib.

– Bəli, kitabım nəşr olunanda bəzi həmkarlarım söylədiyiniz məqamlar barədə mənə məlumat verdilər. Ancaq hələlik yalnız "Xeyirxahlar" haqqında yazılan resenziyalarla tanışam və romanı yaxın vaxtlarda oxumağı planlaşdırıram. Kitabımın mövzusu ilə üst-üstə düşən daha bir əsər polşalı yazıçı Yuzef Matskeviçin 1957-ci ildə nəşr olunan "Çəkişmə" romanıdır. Kitabda II Dünya müharibəsinin sonunda sovet vətəndaşlarının –sovet ordusuna qarşı döyüşmüş kazakların və müsəlmanların məcburi repatriasiyasından (hərbi əsirlərin, qaçqınların, mühacirlərin və b. öz vətəninə qaytarılması – tərc.) bəhs olunur.

# Nizami Gəncəvi yaradıcılığı: Azərbaycandan dünyaya doğan Günəş



**Rima Hacıyeva,**
**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin əməkdaşı**

Dünya ədəbiyyatının görkəmli nümayəndələrindən biri də dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvidir. Azərbaycan ədəbiyyatının, fəlsəfi fikrinin, mədəniyyətinin, tarixinin, milli dövlətçilik ənənələrinin dünyaya çatdırılmasında və öyrənilməsində dahi şairin ölməz əsərləri xüsusi rol oynayır. Onun əsərləri Azərbaycan xalqının mənəvi ruhunun ayrılmaz hissəsinə çevrilərək, uzun əsrlərdən bəri əvəzsiz mədəniyyət inciləri içərisində mühüm yer tutmaqdadır.

Nizami Gəncəvinin həyat və yaradıcılığına nəzər saldıqda, dahi söz ustadının zəngin dünyagörüşünə və dərin elmi biliklərə malik bir şəxsiyyət olduğunu aydın görmək mümkündür. Şairin yaradıcılığı onun ərəb və fars dilləri ilə yanaşı, bir çox elmlərin, eyni zamanda, Quran təfsiri, İslam qanunları, Xristianlıq, Yəhudilik, İran mifologiya və əfsanələri, etika, ezoterizm (ezoterika - özünü kəşf etmək, həyatın mahiyyətini yaxından dərk etmək, insanın gizli imkanlarını və kainatın sirlərini dərk etməyin bir yoludur), musiqi və təsviri incəsənət kimi sahələrin də mükəmməl bilicisi olduğunu göstərir. Araşdırmaçılar hesab edirlər ki, ötən dövrlərdə şair və yazarlar qarşısında bir çox sahədə, o cümlədən, elmi və tibbi sahələrdə də biliklərə yiyələnmək kimi tələblər qoyulurdu. Elə bu səbəbdən də dahi şair öz dövrünə aid bütün ontologiya (varlıq haqqında təlim) və antropologiya (insan haqqında elm) haqqında fəlsəfi fikirlərə yiyələnmişdir.

Şair öz əsərlərində dünyanın və insanın yaradılışının dini-fəlsəfi, poetik mənzərəsini təsvir etməyə, insanın mənəvi və əxlaqi inkişaf yollarını, ədalətli bir cəmiyyətin formalaşdırılması istiqamətlərini göstərməyə çalışırdı. Nizami Gəncəvi kainat və varlıq haqqında baxışlarında Tanrını və özünü tanıma, idrak problemlərinə xüsusi əhəmiyyət verir, onları bir-biri ilə sıx əlaqələndirirdi. Əsərlərində Tanrı və kainat arasında əlaqəni təhlil edən şair yalnız Qurana deyil, eyni zamanda, yəhudi, xristian, qədim yunan, qədim İran və digər qeyri-İslam mənbələrinə də istinad edirdi. Kifayət qədər dərin elmi biliyə malik olan dahi şairin "Hakim" (alim) adlandırılması da təsadüfi deyildi.

Nizami Gəncəvinin əsərlərində humanizm, ümumbəşərilik, əxlaqi dəyərlər, ictimai-siyasi görüşlər öz bədii əksini tapıb. Əsərlərində irqi, milli və dini ayrı-seçkiliyi qətiyyətlə rədd edən şair qəhrəmanlarını müxtəlif xalqların nümayəndələrindən seçir, onları dini görüşlərinə, milliyyətlərinə görə fərqləndirmir. Onun qəhrəmanları yalnız ədalət, xalqın rifahı, ali məqsədlər uğrunda mübarizə aparır. Şairin yaradıcılığında şəxsiyyətə hörmət, əməyə dəyər daim aparıcı mövzular sırasındadır.

Əsərlərində dini motivlərdən istifadə edən şairin təsvir etdiyi "Xoşbəxtlər ölkəsi" Məzdəkilik və Xürrəmilik ideyaları ilə səsləşir. Onun yaradıcılığında rast gəldiyimiz yüksək mənəvi, bəşəri, əxlaqi dəyərlərlə zəngin cəmiyyət bu gün də mövcud cəmiyyətlər üçün bənzərsiz bir nümunədir. Dahi şairin xəyallarında yaşatdığı, əsərlərində təsvir etdiyi bu cəmiyyətdə insanlar arasındakı dostluq, bərabərlik, sülh, qarşılıqlı anlaşma kimi yüksək mənəvi keyfiyyətlər ön planda göstərilir. Maddiyyata sevgi, insanlar arasında ayrı-seçkilik, paxıllıq kimi keyfiyyətlər isə mənfi obrazların xüsusiyyətləri kimi göstərilir. Bütün bu müsbət keyfiyyətlər hazırda mövcud multikulturalizm ideologiyasının özülünü təşkil etməkdədir.

Dahi Nizami ümumilikdə dinlərə münasibətdə ayrı-seçkiliyə yol vermir, bütün poemalarında və bir çox məqamlarda Allahın təkliyindən, böyüklüyündən, onun peyğəmbərlərindən bəhs edir. Nizami Gəncəvi Allaha sidq-ürəklə inanır, əsərlərində də Allahın hər şeyə qadir olduğunu, mərhəmətli, bağışlayan olduğunu oxucuya çatdırır:

*Biz aciz bəndəyik, Sənsən yaradan,*
*Sənin qüvvətinlə yaşayır insan.*
*Olmasaydı, mənim gunahım hərgah,*
*Sənə kim deyərdi: "Ey Ğafur Allah!"*
*Gecələr, gunduzlər, hər axşam, səhər*
*Qəlbimdə, dilimdə bir Sənsən əzbər.*

Nizami Gəncəvi eyni zamanda vətənpərvərlik hisslərini yüksək



qiymətləndirən, bu hissləri əsərlərində qəhrəmanlarının əsas keyfiyyətlərindən biri kimi göstərən şairdir. Onun yaradıcılığında Vətən sevgisi doğma xalq yolunda qəhrəmanlıq ideyası ilə birləşir. O, əsərlərində canlandırdığı bütün hadisələri doğma yurdu Azərbaycanla bağlayır, öz ölkəsinin keçmiş günlərini təsvir edir:

*Hərum adlanırdı bu yurd*
*hər yerdə,*
*Indisə adına deyirlər Bərdə.*
*Bu mərdlər, gözəllər yurdunda,*
*inan,*
*Çox saysız xəzinə gizləmiş zaman.*
*Belə şux, sevimli gülşən harda var?*
*Harda var xəzinə saçan bu diyar?*

Elə bu səbəbdəndir ki, Yaxın və Orta Şərq fəlsəfi-ictimai və bədii-estetik düşüncə tarixinə bəxş edilən və ecazkar söz sənəti inciləri ilə qəlbləri fəth edən dahi şairin əsərləri günümüzdə də öz aktuallığını itirməyib. Onun əsərləri doqquz yüz ilə yaxındır ki, bədii söz xəzinəsinin incisi kimi bütün dünyanı dolaşmaqdadır.

Nizami yaradıcılığının zirvəsi sayılan “Xəmsə” dünya şairinin sənətkarlığında özünəməxsus yer tutur. Öz əsərlərində çox zaman müxtəlif xalqların həyatını təsvir edən dahi şair ölməz “Xəmsə”sində də müxtəlif mədəniyyətləri canlandıraraq, multikultural dəyərləri, elmi, sülhü və tərəqqini təbliğ edib.

Nizami Gəncəvi yaradıcılığında tolerantlıq ideologiyası əsas prinsiplərdən biridir. Başqalarına mərhəmət, dözümlülük, demək olar ki, onun əsərlərinin aparıcı ideyasını təşkil edir. Dahi şairin “Xosrov və Şirin” poemasında da aydın görünür ki, o, qəhrəmanlarının dini inanclarını onlar qarşısında maneə kimi qoymur, əksinə, insanlara tolerantlıq ruhu aşılamağa çalışır. Şair, hətta şəxsi həyatında belə multikultural, tolerant prinsiplərə sadiqruhlu idi. Onun Dərbənd hakiminin göndərdiyi fərqli dindən, fərqli millətdən olan kənizlə evlənməsi deyilənlərin təsdiqidir. Şair sevgini, humanizmi uca tutaraq deyir:

*Eşqdir mehrabı uca göylərin,*
*Eşqsiz ey dünya, nədir dəyərin?!*
*Eşqsiz olsaydı, xilqətin canı,*
*Dirilik salmazdı bütün cahanı.*

Nizami Gəncəvinin yaradıcılığında diqqətçəkən məqamlardan biri də əski türk mədəniyyətinə, fəlsəfəsinə, dini ideologiyasına olan meyildir. Dahi şair "Xəmsə"-sini farsca yazmasına baxmayaraq, əsərlərində türk mifoloji, dini-fəlsəfi və milli-mənəvi dünyagörüşünə geniş yer verir və təbliğ edir. “Sirlər xəzinəsi” əsərində türk düşüncəsinə, türk inancına müraciət edərək yazır:

*Türkə bənzər yasəmən çöldə*
*qurub ağ çadır,*
*Çadırın ayparası Sürəyyaya*
*nur saçır.*

Əsərlərində türkləri hər zaman ədalətli, humanist bir xalq olaraq göstərən şair deyirdi:

*Dağ kimi ucalmışdı bir zaman*
*Türk dövləti,*
*Sarmışdı məmləkəti ədaləti,*
*şəfqəti.*

N.Gəncəvi əsərlərində oxuculara daim əbədi sülhü, əmin-amanlığı çatdırmaq istəyir, mütərəqqi ideyaları, inkişafı təbliğ edirdi. O, dağıdıcılığın deyil, quruculuğun, nifrətin, əzabın yox, sevginin, dostluğun vacibliyini önə çəkir, ədaləti, insanpərvərliyi, sevgini, əməksevərliyi, dürüstlüyü, saflığı və bu kimi mənəvi keyfiyyətləri insanlığın zinəti kimi göstərirdi. Şair xeyirxahlığı, yaxşılığı, səbirli olmağı təbliğ edir və gec-tez bu keyfiyyətlərin qələbə qazanacağını göstərirdi. “Yeddi gözəl” poemasında yer alan “Xeyir və Şər” mənzum hekayəsi bütün bu göstərilənlərə nümunədir. Onun bu hekayədə canlandırmağa çalışdığı Xeyirin Şər üzərində qələbəsi günümüzdə də aktuallığını qorumaqdadır. Belə ki, erməni işğalında olan torpaqlarımızın azad edilməsi uğrunda aparılan 44 günlük Vətən müharibəsində ordumuzun qazandığı qələbə də Xeyirin Şər üzərində qələbəsinin təcəssümüdür. Xeyir Şər üzə-

rində qələbə əldə etdiyi kimi, Azərbaycan da 30 il erməni əsarətində qalan torpaqlarından mənfur düşməni qovaraq qələbə qazandı. Bu qələbə erməni vandalları tərəfindən illərlə xarabalıqlara çevrilmiş məkanlarımızın yenidən dirçəldilməsinə, həmin ərazilərdə müxtəlif xalqların nümayəndələrinin sülh və əmin-amanlıq, rifah içində yaşamalarına zəmin yaradan qələbə oldu.

Dahi şairin yaradıcılığı təkcə ölkəmizdə deyil, eyni zamanda, dünya şərqşünaslığının da diqqət mərkəzində olmuş və günümüzdə də tədqiqatçılar tərəfindən araşdırılmaqdadır. Söz ustadının yaradıcılığını araşdıran mütəxəssislər, yazarlar onun əsərlərinə, təfəkkürünə heyranlıqlarını dilə gətirməkdən usanmamış, şəninə şeirlər yazmış, təriflər demişlər.

Dağıstan şairi Xuryurg Tahir Azərbaycanda olarkən Nizami yaradıcılığı ilə daha dərindən tanış olub. Ölməz ustadın yaradıcılığına öz heyranlığını bildirən şair deyib:

*Nizami ölməyib, sağdır, diridir,*
*Ölkəmizin solmaz qızılgülüdür.*
*Ürəklərdə dahi ucadan-uca,*
*Yaşayacaq tamam dünya qalınca.*

Bütün dünyanın "Gəncəli dahi" kimi tanıdığı Nizaminin yaradıcılığında Şərq dünyası ilə yanaşı, Qərb aləminin də ədəbi-mədəni dəyərləri öz əksini tapır. Şairin yaradıcılığından ilhamlanan bir çox Qərb yazarı da müxtəlif poemalar yazmışlar. Bunlardan XVIII əsr ingilis şairi İsaak Dizraelinin 1799-cu ildə qələmə aldığı "Məcnun və Leylinin məhəbbəti" mənzum poemasını, Ser Uilyam Consun 1767-ci ildə "Yeddi gözəl" poemasının təsiri altında yazdığı "Yeddi fontan", ingilis şairi Uilyam Morrisin "Yeddi gözəl" poemasında "Bəhramın şənbə günü qaragünbəzli saraya getməsi və birinci İqlim padşahı qızının söylədiyi" hekayədən təsirlənərək yazdığı "Bir daha yenidən gülməyən adam" və bu kimi bir sıra digər ədəbiyyat incilərini nümunə çəkmək olar.



Dövlət başçısının xalqımızın milli-mənəvi dəyərlərinə, ədəbi yaradıcılığına, Nizami irsinə göstərdiyi qayğı və diqqətin nəticəsi olaraq, ölkəmizdə də Nizami sənətinin daha dərindən öyrənilməsi və dünyaya tanıdılması istiqamətində xeyli iş görülməkdədir. Şairin yaradıcılığı müxtəlif dillərə tərcümə edilir, əsərlərinə musiqilər bəstələnir, poeziyası səhnələşdirilir, həyat və yaradıcılığı haqqında filmlər çəkilir. Hələ 1979-cu ildə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə qəbul olunmuş "Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvi irsinin öyrənilməsini, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında" imzaladığı qərar Nizami yaradıcılığının dərindən öyrənilməsi və təbliğ edilməsi sahəsində uğurlu addım oldu. Ulu öndər Heydər Əliyevin 1981-ci ildə bilavasitə təşəbbüsü və iştirakı ilə keçirilən ölməz sənətkarın 840 illik yubiley mərasimləri ölkənin mədəni həyatının əlamətdar hadisəsinə çevrildi.

2011-ci ildə Nizami Gəncəvinin 870 illiyi şərəfinə dövlət səviyyəsində silsilə tədbirlər keçirildi.

2019-cu ildə isə Nazirlər Kabinetinin qərarı ilə Nizami Gəncəvinin əsərləri dövlət varidatı elan edildi. Hazırda böyük mütəfəkkirin anadan olmasının 880 illik yubileyi şərəfinə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 2021-ci il ölkəmizdə "Nizami Gəncəvi ili" elan edilib.

N.Gəncəvinin Bakıda, Gəncədə heykəlləri ucaldılıb. Mütəfəkkirin təkcə ölkə daxilində deyil, ölkə hüdudlarından kənarda - Moskva, Sankt-Peterburq, Daşkənd, Çeboksarı, Kişinyov, Roma, Pekin şəhərlərində də heykəlləri ucaldılıb.

Ölkəmizdə və dünyada dahi şairin adına təhsil müəssisəsi, beynəlxalq mərkəz və muzey fəaliyyət göstərməkdədir. Onun əsərlərinin nadir əlyazma nüsxələri isə bir çox şəhərlərin (Bakı, Moskva, Sankt-Peterburq, Daşkənd, Təbriz, Tehran, Qahirə, İstanbul, Dehli, London, Paris və s.) məşhur kitabxana, muzey və əlyazmaları fondlarında qiymətli incilər kimi qorunub saxlanılmaqdadır.

# ALLAHIN VARLIĞINA DAİR ƏXLAQ DƏLİLİ



Mirzeynülabidin Əbülfətov,

Aİİ-nin IV kurs tələbəsi

Hər bir insanda anadangəlmə din duyğusu mövcuddur. Bu duyğu insanları böyük bir varlığa yönəlməyə və ona ibadət etməyə təşviq edir. Bunun nəticəsi olaraq tarix boyu insanlar heç vaxt din düşüncəsindən uzaq qalmamış, istər haqq, istərsə batil olsun, bir dinə inanıb, o dinə də qulluq ediblər.

Allah-Taala Qurani-Kərimdə buyurur: “Allahın insanları yaratdığı fitrət üzrə hənif olaraq üzünü dinə (İslama) çevir! Allahın (insanları fitrət üzrə) yaratmasında heç bir dəyişiklik yoxdur”. Peyğəmbərin (s.a.a.v.) bir hədisində də belə buyurulur: “Hər doğulan bir fitrət üzrə (din düşüncəsi ilə) doğular. O uşağın anası və ya atası onu öz dinlərinə yönləndirərlər. Yəhudi isə yəhudi, xristian və ya məcusi isə xristian va ya məcusi olaraq yetişdirərlər”. Bu dəlillər hər bir insanın eyni fitrət ilə yaradıldığının açıq göstəricisidir. Bunun bərabərində insanların eyni düşüncədə qalmadıqları, bir qisminin digər dinlərə, bir qisminin dinsizlik kimi düşüncələrə (bir növ dinə) yönəlmələri açıq-aşkar həqiqətdir.

İnsanların fitrətinə uyğun olan dində qalması və ya dinini dəyişməsinin səbəblərindən biri – onların xoşbəxtliyə yetişmək arzusu ilə bağlıdır. Məhz bu arzu, əslində, Allahın var olmasını sübut edə biləcək dəlili-vücuda gətirmiş olur. Bu dəlili araşdırmaq üçün bir neçə məsələni təhlil etməyə ehtiyac duyulur. Bunlara xoşbəxtliyin nə olduğunu, kimlərin xoşbəxtliyə qovuşa biləcəyini və onun hansı şəkildə əldə olunacağını bilmək daxildir.

İnsanların əksəriyyəti xoşbəxtlik və rahatlığı müxtəlif ictimai fəaliyyətdə, cəmiyyət arasında nüfuz sahibi olmaqda, iş sahəsindəki müvəffəqiyyətlərində, təhsildəki nailiyyətlərində, dünyanı görməkdə, yaxud ev, maşın, qızıl və s. kimi maddi varlıqlarda, gül, saat, kitab və digər kiçik, amma dəyərli hədiyyələrdə görür. Halbuki bu sadalananların heç birinin insanları həqiqi xoşbəxtliyə yetişdirəcək qüvvəsi yoxdur. Bunlar yalnız və yalnız düzgün istifadə edildiyi zaman həqiqi xoşbəxtliyə yetişmək üçün vasitə rolunu daşıya bilir. Misal olaraq qeyd etdiyimiz kitabı göstərə bilərik. Belə ki, əgər bir insan xoşbəxtliyi kitabda görərsə, onun bu kitaba olan bağlılığı və bu bağlılıqdan doğan xoşbəxtliyi, həmin kitabı oxuyub bitirənə və nəhayət, bir başqa kitaba könül verənə qədər davam edəcək. Başqa bir misal. Əgər insan həqiqi xoşbəxtliyi ailəsi ilə zaman keçirməkdə görərsə, ailəsi ilə birlikdə olduğu zaman xoşbəxt olar. Mükəlləf olduğu işlərlə bağlı ailəsindən ayrı qalmalı olduğu zamanlarda isə bu xoşbəxtliyi əldə edə bilməz. Bu hallarda insanın xoşbəxtliyi daimi deyil, müvəqqəti olur ki, buna da həqiqi xoşbəxtlik demək əsla mümkün deyildir. Həzrət Məhəmməd (s.a.s.) bu haqda belə buyurur: “Layiqli həyat yoldaşı, geniş ev, əziyyətsiz minik və saleh (yaxşı) övlad müsəlmanı xoşbəxtliyə aparan vasitələrdəndir”. Bəs nədir həqiqi xoşbəxtlik?

İmam Hüseyn (ə) dualarının birində belə buyurur: “Allahım, Sən o Allahsan ki, dostlarının qəlbindən qeyrilərini kənarlaşdırmısan, çıxarmısan. O yerə qədər ki, Səndən başqasını sevməsinlər. Və o kəsin ki, Sən varısan, nəyi yoxdur ki?”.

İmam Hüseynin (ə) etdiyi bu dua xoşbəxtliyin əslən harada olduğunu və hansı şəkildə əldə oluna biləcəyini bizə göstərir. Belə ki, insanın qəlbindəki istəkləri – həqiqi xoşbəxtliyə yetişməsinin tək çarəsidir. Bu istəyin də özlüyündə əbədi olması mütləq bir şərtdir. Əbədi olmayan şey yalnız var olduğu müddətdə insana xoşbəxtlik qazandıra bilər. Yox olduğu zaman isə bunu insanın əlindən alar və bu, yenə də həqiqi xoşbəxtliyi təmsil edə bilməz. Əbədi olan və qəlbləri aramlaşdıran yalnız tək olan Allahdır. Qurani-Kərimdə də bu mətləbə toxunularaq belə buyurulur: “Bilin ki, qəlblər (möminlərin ürəkləri) yalnız Allahı zikr etməklə aram tapar!”.

Qeyd etdiyimiz kimi, Həzrət Hüseyn (ə) bu xoşbəxtliyin necə əldə edilə biləcəyini öz duası vasitəsilə bizə göstərmişdir. “Dostlarının qəlbindən qeyrilərini kənarlaşdırmısan” ifadəsi də məhz bunun göstəricisidir. Allah-Taala




yalnız Öz dostlarının qəlbindən qeyrilərini kənarlaşdırar və bununla da ona həqiqi xoşbəxtliyi bəxş etmiş olar. Bəs Allahla necə dost olmaq olar? Cavabı çox sadədir: Ona tərəf bir addım atmaq. Qüdsi hədislərin birində belə buyurulur: “Hər kəs Mənə doğru addım atsa, mən sürətlə Ona tərəf gedərəm”.

Buradan belə bir sual doğur: bəs Allaha doğru atılan ilk addım nədir? “Nəhcül Bəlağə”nin 85-ci xütbəsində İmam Əli (ə) belə buyurur: “Başqalarının aqibətindən özü üçün ibrət götürən şəxs xoşbəxtdir”.

İmam Cəfər Sadiq (ə) buyurur: “Xoşbəxtliyin həqiqəti budur ki, insan həyatının axırıncı mərhələsi xoşbəxt və səadətli əməl ilə sona yetsin, bədbəxtliyin həqiqəti isə budur ki, insan həyatının axırıncı mərhələsi bədbəxt və pis əməl ilə sona yetsin”. İmam Əli (ə) yenə buyurur: “Ən xoşbəxt insan o kəsdir ki, fani (keçici) ləzzəti (dünya ləzzətini) baqi (əbədi) ləzzətə (axirət ləzzətinə) xatir tərk edir”.

Qeyd olunan hədislərdən görünür ki, həqiqi xoşbəxtliyə yetişmənin yolu, yəni Allaha tərəf addım atmanın yolu başqalarının aqibətindən ibrət götürmək, əbədi olana xatir fani olanı tərk etməkdir. Buradan da belə sual qarşıya çıxır: bəs əbədi və fani olan nədir? Götürülməli olan ibrətin meyarı nədir? Cavabı belə vermək olar ki, əbədi olan yalnız yaxşı işlər, fani olan isə pis işlərdir. Başqalarının aqibətindən ibrət götürəcəyimiz zaman isə onun hansı işlərlə yaxşı tanınmasına və hansı işlərlə pis tanınmasına diqqət edib, onlardan yalnız bizi yaxşı edəcək işləri özümüzə götürməli, pis edəcək işləri isə tərk etməyimiz lazımdır.

Qeyd etdiyimiz bu cümlə həm Allahın varlığını qəbul edənlər, həm də qəbul etməyənlər üçün keçərlidir. Allahı qəbul etməyən şəxsləri bu işi görməyə mükəlləf edən amil onların üstün insan nəzəriyyələridir. Onlara görə, üstün insan olmaq, pislərdən çəkinib yaxşılara yönəlmək insanı qane edər. Qeyd etmək yerinə düşər ki, onların bu mükəlləfiyyətlərinin müqabilində heç bir məsuliyyətləri yoxdur. Bunun əksinə olaraq, Allahı qəbul edənləri bu işi görməyə yönəldən həm bu dünyada Allahın dostluğunu əldə edərək həqiqi xoşbəxtliyə yetişmək, həm də Allahın dostu kimi dünyadan köçərək, əbədi xoşbəxt olmaqdır.

Bunlar yaxşı və pis əməllərin nələr olduğunu bilmək zəruriyyətini özü ilə birlikdə gətirir.

Yaxşı nədir, pis nədir?

Cəmiyyətdə qəbul olunan müxtəlif yaxşı və pis əməllər mövcuddur. Bunlara misal olaraq qonşuların, qohumların ziyarət edilməsi, insanlarla xoş davranmaq, yumşaqxasiyyətli olmaq, tez hirslənməmək, tələskən olmamaq, comərd olmaq və digər fəa-

liyyət yaxşı, əsəbi, acıdil olmaq, oğurluq, cinayət, intihar və s. kimi hərəkətlər pis dəyərləndirilir.

Qərb alimlərindən birinin “yaxşı”ya verdiyi tərifə əsasən, “yaxşı”, “nəfsani istəklərə qalib gəlmək qüdrəti”dir. Qərb filosoflarının nəzərinə görə, pis və yaxşının meyarı da nəfsin müvəffəqiyyətindən asılıdır.

Bunun müqabilində insanların yaxşıdan üz döndərib pisə yönəlməsinin bir neçə səbəbi vardır ki, bunları aşağıda göstərilən şəkildə sadalaya bilərik:

Mənəvi boşluq. Zaman keçdikcə elm və texnologiya da inkişaf edir və bu, insanların həyatını rahatlaşdırır. Günümüzdə bir məlumat əldə etmək üçün uzun yol qət etməyə ehtiyacın olmaması, uzun yolları qısa zamanda qət edə bilməkdən ötrü çox sürətli vasitələrin kəşf olunması, bir zamanlar insanlara çox uzaq görünən əyləncə vasitələrinin, haradasa hər bir evdə olması texnologiyanın nə qədər inkişaf etdiyinin açıq göstəricilərindəndir. Bəs bu inkişaf insanların mənəvi rahatlığını təmin edə bilirmi? Əksinə, bəlkə də insanların mənəvi boşluğuna səbəb olan əsas amil elə inkişaf etməkdə olan texnologiyanın özüdür. Təbii ki, düzgün istifadə edildiyi halda, çox böyük xeyirləri olan bu vasitələr əksər zamanlarda düzgün istifadə edilmədiyinə görə mənəvi boşluğa səbəb olur. Misal olaraq, qədim zamanlarda müəyyən məsələ ətrafında araşdırma aparan gənc bir toplum bu məsələnin həqiqətini tapmaqdan ötrü bəlkə onlarca kitab mütaliə edir, bununla həm araşdırdığı məsələnin həqiqətini tapır, həm də kitab oxumaqla ruhunu qidalandırırdı. İndiki dövrdə isə araşdırılan bir məsələnin həlli, sadəcə, bir telefon qədər uzaqlıqdadır. Bu dövrdə də gənclər məsələnin həqiqətini tapa bilirlər, lakin ruhun qidası olan kitablardan uzaq düşürlər. Qida qəbul etməyən insan xəstələndiyi kimi, qida qəbul etməyən ruh da mənəvi boşluğa düşmüş olur.

Mənəvi boşluq insanı narkotik maddə və spirtli içki aludəçiliyinə, qumar düşkünlüyü kimi böyük problemlərə və ən əsası, intihar və cinayət kimi işlərə sövq edə bilir. Bunlar mənəvi boşluğun insanı pisə cəlb etməsinin açıq dəlilidir.

Maddi çətinliklər. Texnologiyanın inkişafı iş sahələrindəki canlı qüvvənin azalmasına, onun yerinə robotların gətirilməsinə səbəb oldu. Bunun nəticəsində milyonlarla insan öz işindən kənarlaşdırıldı. İnsanların işdən çıxarılması maddi rifahın da aşağı enməsinə, milyonlarla ailənin ac qalmasına səbəb oldu. Bu insanlardan bəziləri qarşıya çıxan məsələlərə sinə gərməyi bacardısa da, bir qismi depressiya və bunun kimi mənəvi çöküşlə qarşılaşdı. Belə bir mənəvi çöküşün nəticəsi olaraq, ya intihar edib, guya canlarını xilas etmək fikrinə düşdülər, ya da bu vəziyyətdən çıxış yolunu qətl, oğurluq və s. kimi pis əməllərə yönəlməkdə gördülər.

Reklam. İnsanları pis əməllərə sövq edə biləcək ən mühüm amillərdən biri məhz reklamdır. Bu reklamlar kiçikdən-böyüyə hər kəsə təsir göstərmək qabiliyyətinə malikdir. Belə ki, cizgi filmlərində namünasib səhnələrin olması bunu izləyən körpə uşaqlara necə böyük təsir etməsi danılmaz faktdır. Bununla yanaşı, filmlərdə ailə münaqişələrinin haqlı olaraq göstərilməsi, izləyici kütlənin düşüncəsində də bu işin labüd olduğu fikrini canlandırır. Nəticədə, ailədaxili mübahisələr artır, çox zaman bu hadisələr ayrılıqla bitir. Reklam vasitəsilə aparılan ən böyük oyunlar isə cəmiyyəti adət-ənənəsindən uzaqlaşdırmaq, müasirlik adı altında insanlara ədəbsizlik aşılamaq, onların mənəviyyatını əlindən almaqdır. Məsələn, hər hansı bir nəfəri (aktyor, rejissor, yazıçı, idmançı və b.) reklam edərək məşhurlaşdırır, əyninə bir forma geyindirərək bunun dəb olduğunu bildirir və insanları müasirləşdirməkdən ötrü bu dəbə uymalı olduğunu cəmiyyətin zehninə yeridirlər. Müasir olmaq istəyən, dəbə uymaq istəyən şəxslər onları öz dəyərlərinə uyğun olub-olmadığını analiz etmədən gördükləri geyimi alıb geyinirlər. Bunun nəticəsində cəmiyyətdə dəyərlərin aşınması kimi böyük probem yaranmış olur ki, bu da ictimai nizamın pozulmasına aparan pis nəticələrə yönəlmənin əsas səbəbidir.

Pisliklərdən çəkinmə və yaxşılıqlara yönəlmənin özü də ən yüksək dərəcədə olan bir yaxşıdır və əxlaqın özəyini təşkil edir.

Əxlaqi dəyərlərin mənsubiyyəti və Allahın isbatı

Əxlaqi normalar hesab edilən yaxşı və pisin nələrdən ibarət olduğunu qeyd etdikdən sonra, bilməyimiz gərəkli amil bu normaların subyektiv, yoxsa obyektiv olmasıdır.

Bu mövzunun araşdırılmasında sadə bir dəlildən istifadə etmək yerinə düşər. Ehtiyaclı bir şəxsə yardım etmək cəmiyyətdə təqdirəlayiq bir hərəkətdir. Əgər bu iş subyektiv olaraq yaxşı əməl hesab olunarsa, bəzi insanlar tərəfindən xoşagəlməz də hesab edilə bilər. Hər hansı bir telefon modelini bəyənməyən şəxslərdə olduğu kimi, bu da subyektiv bir düşüncənin nəticəsidir və buna görə həmin şəxsləri qınamaq mümkün deyildir. Əxlaqın subyektivliyini qəbul edən insanlar da yardım əməlini xoşagəlməz adlandıran şəxsləri qınaya bilməzlər. Bu, subyektiv düşüncənin nəticəsi olur.



Bu halda cəmiyyətin qəbul etdiyi ümumi bir yaxşı-pis, doğru-yanlış düşüncəsi var ola bilməz. Ətrafı müşahidə etdiyimiz zaman bunun belə olmadığını rahat görə bilirik. Deməli, bu düşüncəni insanın fitrətində yaradan, cəmiyyəti ona tərəf yönəldən bir qüvvənin olması mütləq bir şərt halını almış olur. Bu normaları insanlar üçün tərtib edən varlıq mütləqdir ki, bütün insanlara bələd və qüvvətli bir varlıq olsun. Şüursuz olan bir təbiətin bunu etməyə qüvvəsi olmadığı aydındır. Geriyə qalan tək yol – bütün bunları insanın fitrətində yaradanın tək Allah olduğunu qəbul etməkdir.

Bunları qəbul etdikdən sonra, qarşıya cavablandırılması mütləq olan bir neçə sual çıxır ki, bunlardan biri belədir: əxlaqın təməli niyə təkamül ola bilməz? Cavab olaraq demək mümkündür ki, təkamüldən hərəkətlə əxlaqın varlıq səbəbini açıqlamağa çalışmaq fəlsəfədə “genetic fallacy” adlanan genetik məntiq xətasına yol vermək deməkdir. Dolayısı ilə təkamül əxlaqa təməl ola bilməz.

Başqa bir sual “Hər şey yalnız Allahın istədiyi üçün yaxşıdırmı?” və ya “Bir şey yaxşı olduğu üçünmü Allah onu istəyir?” suallarıdır.

Cavab, əslində, bunlardan heç biri deyildir. Allah nəyisə istəyir, çünki onun təbiəti yaxşılıqdan ibarətdir. Allahın dəyərləri əxlaqi dəyərlər üçün ölçü meyarıdır. Necə ki, səs aləti səsyazısı üçün ölçü meyarıdır. Qeyd olunan səs orijinala nə qədər yaxın olarsa, alət bir o qədər keyfiyyətli sayılır. Eyni şəkildə əxlaqi bir dəyər Allahın təbiətinə nə qədər uyğundursa, bir o qədər yaxşıdır.

Qarşıya çıxan digər sual: müxtəlif cəmiyyətlərdə olan fərqli əxlaqi cəhətlər bütün bunları inkar etmirmi? Quldarlığın hələ də qaldığı bölgələrdə olan əxlaqi normalar ilə Qərbin və ya Şərqin əxlaq normaları bir-birindən tamamilə ayrı olduğu təqdirdə, bunu dəlil olaraq göstərmək nə qədər doğrudur?

Cavab olaraq demək mümkündür ki, müxtəlif cəmiyyətlərdə rast gəldiyimiz bu kimi hadisələr onların əxlaqi normalarını deyil, əsasında onların həyat tərzini əks etdirir. Bunun müqabilində fərqli həyat tərzi yaşayan cəmiyyətlərdəki əxlaq fərqlilikləri də onların bir qisminin əslən pis davranışlara yönəldilməsidir ki, bunun şəkillərini daha öncə qeyd etmişik. Pis davranışlara yönələn bu şəxslər etdiklərinin mənfi qarşılıqlarını aldıqları zaman keçirdikləri peşmanlıq hissi dediklərimizi sübut etməyə yetərlidir.

Allah-Taala bütün mövcudatı xəlq edən və yaratdıqlarını ən kamil şəkildə tanıyandır. Bu səbəbdən də Allahın varlığını sübut etmək üçün çox da dərin düşüncələrə dalmağa ehtiyac yoxdur. Ətrafımızda mövcud olan hər şey və hadisələrlə Allahın varlığını sübut etmək mümkündür. Müqəddəs kitablardan olan Zəburda qeyd olunur: “Göylər Allahın əzəmətini bəyan edir, göy qübbəsi əllərinin işini elan edir. Hər gün ertəsi günə nəql edir, hər gecə o biri gecəyə bilik verir. Onların nə nitqi, nə də sözləri var, onların səsləri eşidilmir. Avazları bütün dünyaya yayılır, sözləri yerin ucqarlarına çatır. Allah Günəş üçün göylərdə çadır qurur”.

# QURANDA ORUC İBADƏTİ



**Hüseyn Əlizadə,**

**Aİİ-nin IV kurs tələbəsi**

Müqəddəs İslam şəriətində oruc mükəlləfin bütün gündüzü Allaha itaət niyyəti ilə yeyib-içməkdən və bəzi haram işlərdən çəkinməsidir. Oruc ümumi olaraq 4 yerə bölünür. Birincisi, vacib orucdur ki, bu da ramazan ayında icra olunur. İkincisi, müstəhəb orucdur – rəcəb və şaban aylarında tutulur. Üçüncüsü, məkruh orucdur ki, buna da Aşura günündə tutulan orucu aid etmək olar. Son olaraq haram oruc gəlir. Haram oruca Qurban və Fitr bayramları günü tutulan oruclar aiddir.

Orucun vacib olma şərtləri vardır ki, bu qaydalara sahib olan şəxslər oruc tuta bilərlər. Şəri baxımdan həddi-büluğa çatmış, oruc tutmağa qüvvəsi və ağlı olan, özündə olan, yəni bihuş olmayan şəxslər, oruc vaxtı səfərdə olmayanlar, heyzli və nifaslı olmayanlar, orucun ona böyük əziyyət və çətinliyi olmayanlar oruc tuta bilərlər. Oruc tutmaq istəyənlər hər gün gecədən sübh namazının vaxtına qədər niyyətlərini edib, oruclarını tutmalıdırlar. Oruc tutmağa başlayanda qidalanmaqdan və bəzi haram işlərdən çəkinmək lazımdır.

Quranda oruc ibadəti ilə bağlı bəzi surələrin ayələri vardır. Onlardan “Bəqərə” surəsinin 183 – "Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib edildiyi kimi, sizə də vacib edildi ki, (bunun vasitəsilə) siz pis əməllərdən çəkinəsiniz!"; 184 – "Oruc tutmaq sayı müəyyən olan (bir ay) günlərdir. Bu günlərdə sizdən xəstə və ya səfərdə olanlar tutmadığı günlər qədər başqa günlərdə oruc tuta bilərlər. Oruc tutmağa taqəti olmayanlar isə (hər günün əvəzində) bir yoxsulu doyuracaq qədər fidyə verməlidirlər. Hər kəs könüllü xeyir iş görərsə (həm oruc tutub, həm də fidyə verərsə), bu onun üçün daha yaxşı olar. Bilsəniz, oruc tutmaq sizin üçün nə qədər xeyirlidir!"; 185 – "İnsanlara doğru yolu göstərən, bu yolu açıq dəlilləri ilə aydınlaşdıran və (haqqı batildən) ayıran (Quran) Ramazan ayında nazil edilib. Aya (Ramazan ayına) yetişən şəxslər (bu ayı) oruc tutmalıdırlar; xəstə və ya səfərdə olanlar isə tutmadığı günlərin sayı qədər başqa günlərdə tutsunlar. Allah sizin üçün ağırlıq deyil, yüngüllük istər ki, fövtə gedən günlərin orucunu tamamlayasınız və sizi düz yola yönəltməsinə görə Ona ("Allahu Əkbər" deməklə) təzim və şükür edəsiniz"; “Nisa” surəsinin 92 – "Heç bir mömünə başqa bir mömini öldürmək yaraşmaz. Bu, səhvən (xəta üzündən) olduqda müstəsnadır. Hər kəs bir mömini səhvən öldürərsə, o zaman o, mömin bir qul azad etməli və öldürülmüş şəxsin ailəsi qanbahasını sədəqə olaraq bağışlamadıqda, onlara (ölən şəxsin varislərinə) tam şəkildə qanbahası verməlidir. Əgər (öldürülən şəxsin özü) mömindirsə və sizə düşmən olan bir tayfadandırsa, o vaxt (öldürən şəxs) mömin bir qul azad etməlidir. Əgər (öldürülən şəxs) sizinlə əhd (müqavilə) bağlamış bir tayfadan olarsa, o zaman onun ailəsinə qanbahası verməklə bərabər, mömin bir qul azad etmək lazımdır. Hər kəs (azad etməyə qul) tapa bilməsə, o, Allah tərəfindən tövbəsinin qəbul edilməsi üçün bir-birinin ardınca (arası kəsilmədən) iki ay oruc tutmalıdır. Allah (hər şeyi) biləndir, hikmət sahibidir!”; “Maidə” surəsinin 89 – "Allah sizi bilmədən (səhvən) içdiyiniz andlarınıza görə cəzalandırmaz (məzəmmət, sorğu-sual etməz), lakin (bilə-bilə və ya qəsdən) içdiyiniz andları (pozmağa) görə cəzalandırar. Belə bir andı pozmağın kəffarəsi ailənizə yedirtdiyinizin orta hesabından 10 yoxsulu yedirib-doyurmaq və ya geyindirmək, yaxud bir kölə azad etməkdir. Bunları etməyə imkanı olmayan şəxs 3 gün (dalbadal) oruc tutmalıdır. Bu, içdiyiniz andların kəffarəsidir. Bununla belə, andlarınızı qoruyun (onları pozmaqdan çəkinin). Allah ayələrini sizə belə izah edir ki, bəlkə şükür edəsiniz!"; “Tövbə” surəsinin 112 – "(Onlar Allaha) tövbə, ibadət və şükür-səna edənlər, oruc tutanlar (və ya cihad uğrunda, elm təhsil etmək üçün yurdundan ayrılıb başqa yerlərə gedənlər), rüku və səcdə edənlər (namaz qılanlar), yaxşı işlər görməyi əmr edib, pis işləri yasaq edənlər və Allahın hədlərini (halal-haramı) qoruyanlardır. (Ya Rəsulum!) Belə möminləri (Cənnətlə) müjdələ!"; “Əl-Əhzab” surəsinin 35 – "Həqiqətən, Allah məhz müsəlman kişilər və qadınlar, mömin kişilər və qadınlar, (Allaha) müti kişilər və qadınlar, doğru danışan kişilər və qadınlar, səbirli kişilər və qadınlar, təvazökar (yalnız Allah qarşısında kiçilən) kişilər və qadınlar, sədəqə verən, oruc tutan kişilər və qadınlar, ayıb (övrət) yerlərini (zinadan) qoruyub-saxlayan kişilər və qadın-



lar və Allahı çox zikr edən kişilər və qadınlar üçün (axirətdə) məğfirət (bağışlanma) və böyük bir mükafat (Cənnət) hazırlamışdır!"; “Əl-Təhrim” surəsinin 5 – "Əgər o sizi boşasa, ola bilsin ki, Rəbbi sizin əvəzinizə ona sizdən daha yaxşı zövcələr – müsəlman, mömin, itaətkar, tövbəkar, ibadət edən, oruc tutan dul qadınlar və bakirə qızlar versin!" – bu ayələrdən ibarətdir. Bu ayələrdən orucluq ibadəti haqqında əsas olanlar məhz “Bəqərə” surəsinin ayələridir. Bu ayələrin qısa şəkildə tərifi aşağıda göstərilmiş qaydadadır.

“Bəqərə” surəsinin 183-cü ayəsində oruc “əminlik” sözü ilə - الصيام ilə ifadə edilib. Bu, oruc ibadətinin hər kəs tərəfindən bilindiyini göstərir. Əslində, orucun əvvəlki ümmətlərdə də eyni şəkildə tutulduğu və bunun vacib bir ibadət olduğu bütün ayədən aydın şəkildə anlaşılır.

“Bəqərə” surəsinin 184-cü ayəsində oruc müəyyən bir başlanğıcı və sonu olan günlərdə olunan ibadətdir. Bu günlər sayıldığı üçün oruc tutacağı günlərin sayının insana aid olmayıb, Allah tərəfindən təyin olunduğunu göstərir. Əslində, bu ayədə bu sayılı günlərin Ramazan ayları olduğu bildirilir.

“Bəqərə” surəsinin 185-ci ayəsində xəstə, səfərdə olan və oruc tutmayan, yaxud iftar etməyən bir şəxs başqa günlərdə oruc tutmalıdır. Deməli, oruc günləri aydın və məlumdur. Buna görə "başqa" günlər ifadəsi istifadə olunur. Oruc tutmaq üçün əsas günlər bəlli olacaq ki, bunlardan başqalarına "başqa günlər" deyilə bilər. Başqa sözlə, kiminsə iddia etdiyi kimi, Ramazan xaricində müəyyən fəsillərdə oruc tutula bilməz. Xəstəlik və səfərdə olmaq istisna olmaqla, digər günlərdə oruc ibadəti təxirə salına bilməz.



Cəlalə Məcidova,

Aİİ-nin IV kurs tələbəsi

# Təvəkkül

Lüğətdə Allaha güvənmək mənasına gələn, "vəkil" kökündən törəyən "təvəkkül" birinin işini boynuna alma, güvən vermə, işi həvalə etmə, güvənmə mənalarına gəlir. Birinə güvənib dayanan mütəvəkkil kimsəyə güvənilən vəkil deyilir. Qaynaqlarda, əsasən, "vəkil" kəlməsinin "kəfil, yoldaş" mənasını bildirməsi göstərilsə də, İsfahaniyə görə vəkil kəfildən daha ümumidir. Hər vəkil kəfildir, amma hər kəfil vəkil deyildir. Təvəkkül dini və təsəvvüfi bir termin olaraq "bir kimsənin özünü Allaha təslim etmək, işlərində Allahı kəfil bilib, sadəcə, ona güvənməsi" şəklində tanımaqdır. İbn Teymiyyə təvəkkülün "qəlbin yalnız Allaha güvənməsi" mənasına gəldiyini göstərərək, bunun başvurma və mal yığmağa qarşı olmadığını söyləyir.

Qurani-Kərimdə təvəkkül qavramı 40 ayədə dəyişik feil qəliblərində, 4 ayədə mütəvəkkil şəklində yer almaqla, "vəkil" kəlməsi ən çox Allahın sifəti şəklində 24 yerdə keçir. Bəzi ayələrdə peyğəmbərlərin inkarçılara kəfil olmadığı, onların etdiklərinə cavabdeh olmayacaqları, 4 ayədə inkarçıların axirətdə özlərini müdafiə edəcək vəkillərin tapılmayacağı bildirilirdi. Bir ayədə Allah tərəfindən inkarçı Qüreyş qəbiləsinin yerinə inkar etməyən, hədəfindən dönməyən başqa bir toplumun gətirilməsi, digər bir ayədə ölüm mələyinə canalma işinin verilməsi "təvkil" qavramı ilə ifadə edilmişdir. Bu ayələrdə insanların nəticədə Allaha sığınacağını bildirməklə hökmün yalnız ona çatacağı ("Yusif", 12/67), Allahın bir toplumu həlak etmək istəməsi vəziyyətində ona heç bir kəsin kömək edə bilməyəcəyinə ("Ali-İmran", 3/160), inanaraq, Allaha sığınanlar üzərində şeytanın təsirinin tapılmadığı ("əl-Nəhl", 16/99), Allaha sığınanlar üçün başqa bir sığınacaqa ehtiyac qalmayacağı ("ət-Talaq", 65/3), çünki Allahdan başqa bir Tanrı olmadığı ("ət-Tövbə", 9/129; "ət-Təğabun", 64/13) ifadə edilib. Bu arada bəzi peyğəmbərlərin inanclarındakı qərarları və təvəkkülləri örnək göstərməkdir; məsələn: "Yunus", 10/71; "Hud", 11/56, "Yusif" 12/67. Təvəkkül və eyni kökdən törəyən çeşidli kəlmələr hədislərdə də keçir. Tirmizi və İbn Macənin əs-sünnələrində təvəkkül mövzusunda iki bab ayrılmışdır. Həzrət Peyğəmbərdən (s.a.s.) "Dəvəmi bağladıqdan sonramı təvəkkül edim, yoxsa bağlamayım?" – deyə soruşan bir səhabəyə "Əvvəlcə bağla, sonra təvəkkül et" cavabına görə qaynaqlarda təvəkküldən əvvəl tədbir görmənin lazım olduğu dəlil sayılmışdır. Hədislərdə deyildiyinə görə, Allah acqarına sabahı açıb, axşama tox çatan quşları doyurduğu kimi, özünə tam bir təslimiyyətlə təvəkkül edənlərə də ruzilərini verəcəkdir. "Əgər Allah sizə yardım edərsə, heç kəs sizə qalib gələ bilməz. Yox, əgər sizi zəlil edərsə, Ondan sonra kim sizə kömək edə bilər? Buna görə də möminlər yalnız Allaha dayansınlar, Ona təvəkkül etsinlər!" ("Ali-İmran" surəsi, 160). Bir iş üçün evindən çıxan kimsə "Bismillah, Allaha inandım, Ona dayandım, Ona təvəkkül etdim, güc-qüvvət yalnız Onundur", – deyərsə, Allah onu ən xeyirli şəkildə ruziləndirəcək və pisliklər-





dən qoruyacaqdır. Rəsulullahın təhəccüd namazı vaxtında etdiyi uzun bir duada belə ifadələr yer alır: “Allahım, Sənə təslim oldum, Sənə inandım, Sənə təvəkkül etdim, Sənə yönəldim”. Digər bir hədisdə Allaha təvəkkül edib, cahil olanlardan uzaq duranların sorğusuz cənnətə girəcəkləri müjdəsi verilmişdir. Qurani-Kərimdə və hədislərdə təvəkkül möminlərə aid təməl bir sifət şəklində araşdırılıb, mütəfəkkirlərdən təriflə söz açıldıqda, İslamın ilkləri arasında qəbul edilmiş bəzi sufilərin təvəkkül anlayışını İbnül Cəvzi, Taqıyyudin İbn Teymiyyə və İbn Qayyim əl-Cəzviyyə kimi sələf alimləri bu düşüncəni mənimsəyiblər. Allaha inananların ona təvəkkül etməsinə dair ayədə təvəkkülün imanla əlaqəsini, möminlərin Allaha təvəkkül edərək, inkarçılardan gələn hücumlara qarşı dirənməsini istəyən, bu xüsusda peyğəmbərlərdən örnəklər verən ayələr də qavramın əməllə əlaqəsini göstərməkdədir. Şəhabəddin əs-Sürhəverdi 10 məqamdan biri olaraq araşdırdığı təvəkkülün dərəcəsinin Allah haqqında bilgisinin dərəcəsinə görə dəyişdiyini söyləyir; bu bilgi nə qədər tamdırsa, təvəkkül də o ölçüdə güclü olur.

Özünü hər vəziyyətdə Allahın iradə və istəyinə təslim edərək, ondan gələnə razılıq göstərilməsi təvəkkülün özünü meydana gətirir. Həsəni Bəsri “Təvəkkül razılıqdan ibarətdir", – deyir. Təvəkkül yerinə gətirilməsi əmr edilən səbəblərə baş vurmağı gərəksiz qılmaz. Bu vəziyyət Allahın əmr etdiklərini etmədən özü haqqında sevinc və kədər olaraq qiymətləndirilənə razılıq göstərmə şəklindəki bir anlayışa aparır. Yemədən, içmədən Allahın onu doyuracağını söyləyən kimsə axmaq, səbəbləri tərk edən kimsə acizdir. İbnül Cəvzi təvəkkülün qulun öz gücünü aşan xüsuslarda işin sonunu Allaha həvalə etməli olduğunu söyləyir. İslam alimlərinin təvəkküllə iman və tövhid arasındakı əlaqəyə diqqət çəkmələri önəmlidir. Təvəkkül hər şeydən öncə qulun Allaha olan dərin inanc və güvəninin bir ifadəsidir. Doğru mənası ilə Allaha təvəkkül edən qul bir işi bacarmaq üçün sahib olduğu imkan və fürsətləri Allahın bəxş etdiyinə və bunların istifadə olunması üçün yaradıldığına inanır, bu baxımdan yanaşdıqda, səbəblərə layqed olmaq onların mənasız yerə yaradıldığı fikrinin olacağını düşünür. Qurani-Kərimdə oğlu Yusifin itkin düşməsindən dərin üzüntü halı yaşayan Həzrət Yaqub buna rəğmən Allaha təvəkkülünü dilə gətirərək, yüksək mətanətlə ümidini itirmədiyini deyir. Təcrübələr də inanclı və təvəkkül edən insanların uğursuzluqlar qarşısında daha mətanətli və ümidli davrandığını söyləyiblər, bu təsbit psixoloji cəhətdən böyük önəm daşıyır. Mütəvəkkil bir insan ən ağır müsibətlər qarşısında belə ümidsizliyə qapılmır. Azacıq sarsılsa da, mətin dayanır. Böyük uğurlar qazansa belə, təkəbbürlənmir, əksinə, şükür edir. Beləcə, əsl hüzura qovuşur.

Bir Allah dostunun dediyi kimi, “İman təslimi, təslim təvəkkülü, təvəkkül də dünya və axirət səadətini doğurur”.



Aytac Əhmədzadə,
Aİİ-nin IV kurs tələbəsi

# Qədr Gecəsi

Mübarək Ramazan ayı Allahın insanlara rəhmət və bərəkətidir. Allah-Taala bu ayda öz bəndələrini bağışlayıb hidayət etmək istəyir. Allah bu mübarək ayda insanların mənəviyyatını gücləndirib hidayət edərək, onların ürəklərini paklaşdırıb ruhlarını təmizləmək, Öz bəndələrini azğınlıqdan çəkindirib, çirkin əməllərdən uzaqlaşdırmaqla onları düzgün yola dəvət etmək istəyir. Bir sözlə, Allah-Taala Ramazan ayında bəndələrinin Ona ibadət edib yaxınlaşmasını istəyir. Bu, insanın ən əsas hədəfidir. İnsanın yaradılmasında məqsəd Allaha ibadətdir. Mübarək Ramazan ayında bir gecə var ki, onun adına "Qədr gecəsi" deyilir. Həmin bu gecədə Peyğəmbərimizə (s) Quran nazil olub. Quranın ayələrinə əsasən, Qədr gecəsi Ramazan ayının günlərindən birinə təsadüf edir.

Hədislərə əsasən, belə ehtimal edilir ki, Ramazan ayının 19-21-23-27-ci gecələrindən biri Qədr günüdür. Qədr gecəsi Quranın nazil olduğu gecədir. Belə ki, Allah-Taala Qurani-Kərimdə buyurur:

"Həqiqətən, Biz onu (Quranı) Qədr gecəsi nazil etdik!". Beləliklə, bu mətləb ayrı-ayrı surələrdə müxtəlif şəkillərdə açıqlanır. Məsələn, "Bəqərə" surəsində deyilir:

"[Mübarək] Ramazan ayı elə bir aydır ki, Quran bu ayda nazil edilmişdir".

Yuxarıda qeyd etdiyimiz ayələrdən belə nəticəyə gəlirik ki, Qədr gecəsi mübarək Ramazan ayının gecələrindən birinə təsadüf edir. Qədr gecəsinin mübarək bir gecə olduğu barədə Allah-Taala "Duxan" surəsində belə buyurur:

"Biz Quranı mübarək bir gecədə (Qədr gecəsində) nazil etdik".

Qədr gecəsi fəzilətli, başqa gecələrdən üstün və böyük əhəmiyyətə malik olan bir gecədir. Allah-Taala bu haqda Qurani-Kərimdə buyurur:

Sən nə bilirsən ki, nədir Qədr gecəsi? Qədr gecəsi min aydan daha xeyirlidir (bərəkətlidir, fəzilətlidir).

Əgər bir şəxs Qədr gecəsi ibadətlə məşğul olarsa, onun bu gecədəki ibadəti 1000 ay (təqribən, 84 il) ibadətdən üstün və fəzilətli olar. Qədr gecəsinin fəziləti haqqında çoxlu hədis nəql olunub.

Burada qeyd etmək lazımdır ki, İslam Peyğəmbərindən (s) əvvəlki peyğəmbərlərin dövründə onlar üçün Qədr gecəsi təyin olunmayıb. İslam Peyğəmbərinin (s) dövründə Allah-Taala onun ümməti üçün bu mübarək gecəni təyin etdi.

Bir gün Həzrət Peyğəmbər (s) öz səhabələrinə keçmiş ümmətlərin uzunömürlü olmasından və onların 80 illik və daha artıq ibadətlərindən söhbət açdıqda onlar qibtə edərək dedilər: "İlahi! Nə olaydı, bizə də uzun ömür əta edəydin və biz də bütün ömrümüzü sənə ibadət etməyə sərf edərdik". Allah-Taala Həzrət Peyğəmbərə (s) bu ayəni nazil etdi:

"Qədr gecəsi min aydan daha xeyirlidir (bərəkətlidir, fəzilətlidir)".

Yəni Allah öz peyğəmbərinə



deməkistəyir ki, ey Mənim peyğəmbərim, Mən sənin ümmətinə uzun ömür verməmişəm, lakin əvəzində onlar üçün gecələr arasında bir gecə təyin edirəm və adını da “Qədr gecəsi” qoyuram. Kim o gecəni ibadətlə məşğul olarsa, ona 1000 ayın (müstəhəb) ibadətinin savabından artıq savab verərəm.

Başqa bir hədisdə nəql olunur ki, Peyğəmbərimiz (s) Allaha minacat edərkən belə dedi: "İlahi! Sən məndən əvvəlki peyğəmbərlərin ümmətinə uzun ömür vermişdin, onlar da sənə bütün ömrüboyu ibadət edib çoxlu savab qazanıblar. Lakin mənim ümmətimə az ömür vermisən, onlar da Sənə, təbii ki, o biri ümmətlərdən az ibadət edib, az savab qazanırlar". Peyğəmbər (s) bu kimi ifadələrlə çox minacat etdi. Allah-Taala Həzrət Peyğəmbərə (s) buyurdu: "Düzdür, sənin ümmətinə az ömür vermişəm, lakin sənə və sənin ümmətinə çox dəyərli bir gecə təyin etmişəm. Bu gecənin ibadəti 1000 ayın ibadətindən daha fəzilətli və daha üstündür". Beləliklə, Allah-Taala bu ayəni nazil etdi: "Qədr gecəsi 1000 aydan daha xeyirlidir". Bu ayənin ardınca Allah-Taala buyurur:

"O gecə (Qədr gecəsi) mələklər və Ruh (Cəbrayıl) Rəbbin izni ilə yerə enərlər".

O gecə mələklər yer üzünə enərlər. Bu o deməkdir ki: "O gecə mələklər və Ruh (Cəbrayıl) Rəbbin izni ilə (həmin gündən gələn ilin Qədr gecəsinədək dünyada baş verəcək) hər bir işi icra etmək üçün (Allah dərgahından əmrlər alaraq) yerə enərlər".

Bir nəfər İmam Baqirdən (ə) soruşdu: "Ey Allahın höccəti, Qədr gecəsinin Ramazan ayının hansı gecəsi olduğunu bilirsənmi?". İmam Baqir (ə) buyurdu: "Əlbəttə, bilirəm. O gecə bütün mələklər yerə enərək bizi ziyarət edirlər".

Allah-Taala "Qədr" surəsinin 5-ci ayəsində buyurur:

"O gecə dan yeri sökülənə kimi salamatlıqdır. (Əmin-amanlıqdır)". Yəni Qədr gecəsi Allah insanların dualarını qəbul edir və mələklər yerə enib insanları salamlayırlar. Qədr gecəsi gözəl bir gecədir və Allah-Taala o gecədə mərhəmət, sağlamlıq və əmin-amanlıq nazil edir.



Deməli, Qədr gecəsində həm Quran nazil olub, həm də o gecənin ibadəti 1000 ayın ibadətindən üstündür. O, həm bərəkətli bir gecədir, həm Allahın mərhəməti olan bir gecədir, həm Allahın xeyir-bərəkəti, əmin-amanlığı insanlara nazil olan bir gecədir və həm də o gecə mələklər yerə nazil olaraq yer üzünün imamını ziyarət edirlər.

Hədislərdə nəql olunmuşdur ki, o gecə şeytan möminlərə yaxın düşə bilmir. Şeytan fasiq, azğın, pozğun adamlarla məşğuldur, lakin möminlər o gecəni çətinliklə də olsa, ibadət edirlər. Həmin gecə mələklər bir-birini salamlayır və imamı ziyarət edəndən sonra möminləri də salamlayırlar.

"Biz Quranı mübarək bir gecədə nazil etdik. Hər bir hikmətli iş o gecə hökm (ayırd) olunur".

Yəni insanların taleyi bu gecə təyin olunduğuna görə, o, "Qədr gecəsi" adlanır. Burada bir mətləbi qeyd etmək lazımdır: doğrudur, bu gecə insanın birillik taleyi həll olunur. İnsanın birillik taleyinin həll olunmasında onun özünün böyük rolu vardır. Yəni insan ixtiyar sahibi olduğundan, xoşbəxt və bədbəxt olması onun özündən asılıdır. Əlbəttə, bu xüsus fəlsəfi bir bəhsdir və bu haqda mülahizələr çoxdur.

Qədr gecəsi çox qiymətli və fəzilətli gecə olduğuna görə, bu gecəni "qədr" adlandırırlar.

Hər kim bu gecə Allaha ibadət etsə və əhya saxlayıb ibadətlə məşğul olsa, Allah onun qədr-qiymətini və dərəcəsini Öz dərgahında ucaldar. Buna görə də bu günə "Qədr gecəsi" deyilir.

2) Nəyə görə bu gecə əhya saxlayırıq? "Əhya" sözü, əslində, "ihya" sözü kimi yazılır. "İhya" sözünün mənası isə «diri saxlamaq» deməkdir. "Həyy" sözü "diri" mənasını, "ihya" sözü isə "diriltmək" mənasını ifadə edir. İstilahda Qədr gecəsində insanın səhərə qədər oyaq qalaraq ibadət etməsinə "ihya" deyilir. Qədr gecəsində təkcə oyaq qalmağın özü də ibadət sayılır. Oyaq qalmanın özü bu mübarək gecəni ilin başqa günlərindən tamamilə fərqləndirir. Hər kim Qədr gecəsində oyaq qalıb, Allaha ibadət edərsə, Allah ona 1000 ay ibadətin savabından artıq savab yazar.

Bizim bu gecə məscidlərə gəlməkdə və evlərimizdə səhərə qədər oyaq qalib Allaha ibadət etməkdə məqsədimiz budur ki, Allaha ibadət və dua edib günahlarımızın bağışlanmasını diləyək. Bu gecə Allah özü insanları dəvət edərək onların günahlarını bağışlayır. Hər kəs bu gecə Onun qapısına getsə, əliboş qayıtmaz. Allah özü onu dəvət etmişdir və mümkün deyildir ki, kimsə onun qapısına gəldikdə əliboş qayıtsın.

Bir gün Musa peyğəmbər (ə) Tur dağına ibadət etməyə gedirdi. Yolda bir nəfər ona dedi: "Ey Allahın peyğəmbəri, Allahla söhbət edərkən Ona de ki, mənim də istəklərimi versin və dualarımı qəbul etsin. Əgər Allah mənim istəklərimi verməsə, mən Onu rüsvay edəcəyəm".

Musa peyğəmbər (ə) Tur dağında ibadət etdikdən sonra, Allahla söhbət əsnasında dedi: "İlahi, mən bura gələndə bir nəfər yolda mənə dedi ki, Allaha mənim də ehtiyaclarımı söylə". Lakin Musa peyğəmbər (ə) həya edib həmin şəxsin dediyi kimi demədi. Allah-Taala buyurdu: "Ya Musa! Həmin şəxs necə deyibsə, elə de". Musa peyğəmbər (ə) dedi: "İlahi, o mənə dedi ki, əgər Allah mənim istəklərimi yerinə yetirməsə, mən Onu rüsvay edəcəyəm". Allah-Taala buyurdu: "Ya Musa! Get ondan soruş ki, əgər Mən onun istədiklərini verməsəm, o Məni necə rüsvay edə bilər?".

Musa peyğəmbər (ə) gəlib həmin şəxsi tapdı və ona dedi ki, Allah-Taala buyurur: "Əgər onun istəklərini verməsəm, Məni necə rüsvay edəcək?". Həmin şəxs Musa peyğəmbərin (ə) əlindən tutub küçələrin birinə doğru hərəkət etdi və həmin küçədə olan evlərdən birinin qapısını döydü. İçəridən bir nəfər çıxıb soruşdu: "Sizə nə lazımdır?". Həmin şəxs dedi: "Ay ev yiyəsi, sən məni çağırmışdın?". Ev yiyəsi dedi: "Xeyr". "Sən mənə demişdin ki, mən sənin qapını döysəm, açacaqsan?". Ev yiyəsi dedi: "Xeyr". Həmin şəxs Musa peyğəmbərə (ə) dedi: "Ya Musa (ə), bu mənə deməmişdi ki, filan vaxt gəlib qapını döyərsən, mən də açaram. Amma mən onun qapısını döydüm, o da qapını üzümə açdı. Lakin Allah Özü buyurub ki, hər vaxt Mənim qapıma gəlsən, səni əliboş yola salmaram. İndi mən Allahın qapısına getmişəm. Əgər O, mənim istədiklərimi verməsə, bütün camaata elan edəcəyəm ki, Allah mənə demişdi ki, hər vaxt gəlsən, səni qəbul edəcəyəm. Lakin mən Onun qapısına getdim, O da məni əliboş qaytardı". Buna görə də bu gecə hər kəs Allahın qapısını döyüb Ondan öz istək və tələblərini diləsə, Allah mütləq onun dualarını qəbul edər və onu əliboş yola salmaz.

Bu kiçik hekayədən belə bir məna çıxararaq deyə bilərik ki Allah heç vaxt verdiyi sözdən dönməz və bəndələrini əliboş qapısından qaytarmaz. Belə bir gecədə isə Allahın rəhmət və bərəkət qapıları açılar. Qədr gecəsi çox fəzilətli, bərəkətli və xeyirli bir gecədir. Allah-Taala bu gecə öz qapısına gələn bəndələrini bağışlayar və istəklərini verər.



**Səkinə Əzizli,**

**Aİİ-nin IV kurs tələbəsi**

# İslam asanlıq dinidir

İslam dini ən son və kamil bir dindir. Müqəddəs Kitabı da Həzrət Məhəmməd peyğəmbərimizə nazil olan Qurani-Kərimdir. Allah-Taala Qurani-Kərimdə İslam dininin sonuncu və kamil din olması haqqında belə buyurur:

Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi (Məkkənin fəthi, İslamın mövqeyinin möhkəmlənməsi, Cahiliyyə dövrünün bir sıra zərərli adətlərinin aradan qaldırılması və i. a.) tamamladım və sizin üçün din olaraq İslamı bəyənib seçdim ("Maidə" surəsi, 5/3).

İslam dini asanlıq dinidir. İslam dininin asanlıq dini olması haqqında Allah-Taala Qurani-Kərimdə belə buyurur:

Allah sizin üçün ağırlıq deyil, yüngüllük istər ("Bəqərə" surəsi, 2/185).

Bu ayədə də gördüyümüz kimi, Allah bizim üçün çətinlik deyil, asanlıq istəyir, ona görə də İslam dinini bizim üçün asanlaşdırdı. Bu barədə Allah-Taala İslam dininin Müqəddəs Kitabı olan Qurani-Kərimdə bir neçə ayədə buyurub. "Bəqərə" surəsinin 185-ci ayəsi orucluq haqqında bəhs edir. Allah-Taala oruc tutmağı bizə vacib edib. İstisna olaraq xəstə, qoca və ya səfərdə olanlar oruc tutmadığı günlərin sayı qədər oruc tutsunlar, deyə buyurmuşdur. Allah-Taala digər ayədə belə buyurur:

Allah sizi çətinliyə salmaq istəməz ("Maidə" surəsi, 5/6).

İslam dinində hər bir iş asandır, əqidə, hökmlər, əmrlər və qadağalar rahatlıq üzərində qurulub. İslam əqidəsi ən doğru, ən gözəl əqidədir, əxlaqı isə ən gözəl əxlaqdır. Həmçinin İslamda olan ehkamlar və əməllər də çox ədalətli və gözəldir. İslam dininin asanlıq dini olması ilə əlaqəli hədislərdə deyilir: "Həqiqətən, din asanlıqdır. Kim onu çətinləşdirmək istəyərsə, din ona qalib gələr. (İnsanları) müjdələyin, (onları dinə) yaxınlaşdırın, (şəriət hökmlərini) qoruyun". "Asanlaşdırın, çətinləşdirməyin. Müjdələyin, ürkütməyin". Bu hədislərdən gördüyümüz kimi, Allah bizim üçün çətinlik istəmir, asanlıq istəyir. Bu və digər hədislərə baxdıqda görürük ki, şəriətin insana əmr etdiyi əməllərdə heç bir məşəqqət və çətinlik yoxdur. İslam şəriətinin əsası rahatlıq üzərində qurulub. Allah-Taala yenə digər başqa bir ayədə belə buyurur:

(Ey ümmətim!) Sizə özünüzdən bir peyğəmbər gəldi ki, sizin əziyyətə (məşəqqətə) düşməyiniz ona ağır gəlir, o sizdən (sizin iman





gətirməyinizdən) ötrü təşnədir, möminlərlə şəfqətli, mərhəmətlidir! (“Ət-Tövbə” surəsi, 9/128).

Allahın insanlar üçün seçib-bəyəndiyi İslam dininin çox aydın olması ilə yanaşı, Quran ayələrindəki hökm və tətbiqlər də son dərəcə asandır. Allah ayələrdə Quran üçün belə buyurmuşdur:

Biz Quranı sənə məşəqqət çəkməyin üçün nazil etmədik! (Peyğəmbər ayaqüstə, barmaqlarının ucunda durub o qədər namaz qılmışdı ki, mübarək qıçları şişmişdi). (Biz onu Allahın əzabından) qorxan bir kimsəyə yalnız öyüd-nəsihət olaraq (göndərdik) (“Taha” surəsi, 20/2-3).

İslam dininin bəşəriyyətə çatdırdığı missiya universal ölçüdədir. İslam prinsipləri insanın yaradılışına uyğundur. O, insana gücü çatdığından artıq bir şey yükləmir. Onda çətinlik yox, asanlıq əsasdır.

Allah-Taala Qurani-Kərim kitabında belə buyurur:

Dində məcburiyyət (zorakılıq) yoxdur (“Bəqərə” surəsi, 2/ 256).

Bu ayədən də görürük ki, dinimizdə çətinlik yoxdur. İslam dini və şəriəti çətinlik yox, asanlıq üstündə qurulub. Allah-Taala yenə Qurani-Kərimdə belə buyurur:

Allah hər kəsi yalnız qüvvəsi yetdiyi qədər yükləyər (bir işə mükəlləf edər). Hər kəsin qazandığı yaxşı əməl də, pis əməl də özünə aiddir. (Möminlər deyirlər:) "Ey Rəbbimiz, (bəzi tapşırıqlarını) unutduqda və ya yanıldıqda bizi cəzalandırma! Ey Rəbbimiz, bizdən əvvəlkiləri yüklədiyin kimi, bizi ağır yükləmə! Ey Rəbbimiz, gücümüz çatmayan şeyi bizə yükləyib daşıtdırma! Bizi əfv edib bağışla, bizə rəhm et! Sən bizim ixtiyar sahibimizsən (mövlamızsan). Kafirlərə qələbə çalmaqda bizə kömək et!"(“Bəqərə” surəsi, 2/286).

Allah sonsuz mərhəməti və şəfqəti ilə insanların rahat olacaqları, dinc və gözəl həyat tərzini Quranda bütün təfərrüatı ilə təsvir edib. Məsələn, insanın yaradılışı lazım olan sevgidən, hörmətdən, şəfqət və mərhəmətdən xoşu gələr. Özü ilə həmişə bu şəkildə davranılmasını istəyər. Zülmdən, əxlaqsızlıqlardan, pisliklərdən çəkinər, bunlara məruz qalmaq istəməz və ruhunda bunları hiss etməsi Allahdan diləməsi ilə olar. Allah insanları bu fitrət üzərində yaratmışdır. Bu səbəbdən, İslam əxlaqına uyğun bir həyat, insanın hər şəkildə zövq alacağı, razı olacağı bir həyatdır. İnsanların dini Peyğəmbərimizin (s.a.s.) yuxarıdakı hədisi ilə bildirdiyi şəkildə qiymətləndirmələri lazımdır. Yəni Allahın Öz rəhməti ilə açıq və aydın etdiyi, asanlıqla tətbiq oluna biləcək hökmləri, bəzi kəslərin anlaşılmaz və çətin göstərmələri böyük bir səhvdir. Bu, üstün kərəm sahibi olan Rəbbimizin qullarına olan sərhədsiz sevgisinin, şəfqətinin, lütfünün bir rəmzidir.

# Quranda təkəbbür haqqında



**Elnur Əzizli,**

**Aİİ-nin IV kurs tələbəsi**

İslam dininin əsas məqsədi insanı kamil bir əxlaqa istiqamətləndirməkdir. Bu yolda insanın iki mühüm düşməni vardır ki, birincisi, şeytandır. Quranda deyildiyi kimi, ***"...Şeytanın yolu ilə getməyin, çünki o sizin açıq düşməninizdir!"*** ("Bəqərə", 2/208). İnsanı kamillik yolunda birbaşa daxilindən idarə etməyə çalışan bir qüvvə də vardır ki, Quran buna "nəfs" deyir. Şeytan ilə fərqi isə burada yaranır. Əgər nəfs Allahın deyil, şeytanın dediyi ilə gedərsə, bu zaman insanın süqutuna gətirib çıxarar. Qurani-Kərimdə Allah-Taala ***"Nəfsini özünə tanrı edən kimsəni gördünmü?"*** ("Casiyə", 45/23) şəklində sual verərək, nəfsin yönləndirdiyi istiqamət barədə məlumat verir. Nəfsin özünün də müxtəlif mərtəbələri vardır. Ən aşağı təbəqəsi şeytanı özünə dost tutan nəfsdir. İnsan nəfsini kamilləşdirməklə Allaha daha da yaxınlaşır. Əks təqdirdə, zəlalət təbəqəsində olar ki, Quran bu cür insanın heyvandan belə aşağı təbəqədə dayandığını deyir: ***"Onlar heyvan kimidirlər, bəlkə də (ondan) daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır!"*** ("Əraf", 7/179). Kamil bir əxlaq üçün çalışmalı olan insanın qarşısına çıxacaq çox əngəllər məhz bu iki – daxili və xarici düşmən tərəfindən olur. Bu əngəllərdən biri də təkəbbürdür. Təkəbbür insanın inkişafı üçün istiqamətlənməyin qarşısını alır. Şeytanın istifadə etdiyi bu silah elə bir silahdır ki, insanın yolboyu qarşısına çıxar və onu inkişafdan dayandıra bilər. Bu, təkcə əxlaqi tərəfdən deyil, başqa yerlərdən də insanı inkişafdan saxlaya biləcək gücə sahibdir. Məsələn, riya təkcə insanın niyyətinə xələl gətirə bilirsə, təkəbbür insanın özünün inkişafına mane olur. Riyakar olub (təbii ki, bu xislətin də özünün çox ziyanları var), elm öyrənmək mümkündür, lakin təkəbbürlü olub, elm öyrənmək çətin məsələdir. Təkəbbür bizə "Bunu niyə öyrənirsən ki, onsuz da sən bunu bilirsən" kimi sözlərlə çıxış edərək, insanın elm almasının qarşısına sədd çəkir. Öyrəndiyimiz elmlərin dəryanın bir damlasında belə az olduğu fikri ilə yanaşsaq, bu zaman davamlı şəkildə inkişaf edəcəyik. Ümumiyyətlə, bu mövzu bir çox məsələləri özündə ehtiva edir ki, bacardığımız qədər geniş şəkildə məlumat verməyə çalışacağıq.

"Təkəbbür" sözü "kəbr" sözündən yaranıb, "özünü böyük görmək" mənasını verir. Yəni "özünü digərlərindən üstün bilmək" deməkdir.

Qurani-Kərimdə nəsihət xarakterli bir neçə yerdə təkəbbürlü şəxsin qınandığını görürük və buna Həzrət Adəm qissəsində yer verilib. Quranda belə buyurulur:

***(Ya Peyğəmbər!) Xatırla ki, o zaman sənin Rəbbin mələklərə belə demişdi: "Mən palçıqdan bir insan (Adəmi) yaradacağam. Mən onu tamamlayıb (insan şəklinə salıb) Öz ruhumdan (Özümün yaratdığı ruhdan) üfürən (can verən) kimi ona (hörmət əlaməti olaraq) səcdə edin!". Buna görə də mələklərin hamısı birlikdə (Adəmə) səcdə etdi; Yalnız İblisdən başqa! O (səcdə etməyə) təkəbbür göstərdi və kafirlərdən oldu*** ("Sad", 71-74).

Ayəyə diqqətlə baxdıqda görürük ki, İblis burada təkəbbüründən Adəmə səcdə etmədi. Ayənin davamında isə bunun açıqlanmasını verir:

***(Allah) buyurdu: "Ey İblis! Sənə mənim Öz əlimlə yaratdığıma səcdə etməyə nə mane oldu? Təkəbbür göstərdin, yoxsa özünü yuxarı tutdun?". (İblis) dedi: "Mən ondan daha yaxşıyam (daha üstün, daha şərəfliyəm). Çünki Sən məni oddan, onu isə palçıqdan ya**ratmısan!" ("Sad", 75-76)

Allah-Taala Qurani-Kərimdə təkəbbürü şeytanın xisləti olaraq göstərib və insanları bu yoldan uzaq durmağa çağırıb. İblis niyə təkəbbürlük etdiyini izah edir və müqayisə gətirərək, odu torpaqdan üstün tutur. Halbuki burada olan üstünlük Allahın əmridir. İnsanın açıqca düşməni olan şeytan insanın hiss edə bilməyəcəyi tərzdə təkəbbür adlanan bir silahdan istifadə edərək, möminin qəlbini ələ keçirməyə çalışır. Bu silah çox gizli olduğu üçün insan özü bəzən bu xislətdə olduğunu hiss etmir. Mövzunu iki qismə ayırıb davam etmək daha məqsədəuyğundur. Buna görə də mövzumuzu təkəbbürün ziyanı və təvazökarlıq qismində davam edirək.

Təkəbbürün yaratdığı bəzi pis rəftarlar mövcuddur. Bunlardan birincisi kimi həsədin adını qeyd edə bilərik. Həsəd – mömin bir insanın əlində olan nemətdən



məhrum olmasının istənilməsinə deyilir. Həsəd – çox qüvvətli mənfi xarakterdir. Həsəd – insanın ağıl, qəzəb və şəhvət qüvvəsi ilə əlaqəlidir. Təkəbbürlü olan bir şəxsin həsəd aparması qaçılmazdır. İkincisi, qeybətdir. Qeybət – bir şəxsin ardınca danışmağa deyilir. Burada, xüsusilə, diqqət yetiriləsi odur ki, ardınca danışılan şəxs bunu eşitsəydi, narahat olacağı və razı olmayacağı bir söz deyəcəkdi. Təkəbbür bu və bunun kimi bir çox mənfi xislətin yaranmasına səbəb olur. Bunlarla yanaşı, axirətdə də cəzasını görəcəkdir. Qurani-Kərimdə təkəbbür edən şəxsin qəlbinin möhürlənəcəyi qeyd olunur:

*..Allah hər təkəbbür sahibinin, zalımın ürəyini (təkəbbür, zülm sahibi olan hər bir qəlbi) belə möhürləyər!* ("Mumin", 35).

Bir ayədə isə belə buyurur:

*Yer üzündə haqsız yerə (layiq olmadıqları halda) təkəbbürlük edənləri ayələrimi anlamaqdan yayındıracağam (mane olacağam). Onlar nə möcüzə görsələr, ona inanmazlar. Onlar haqq yolu görsələr, onu qəbul etməz, azğınlıq yolunu görsələr, onu özlərinə yol seçərlər. Bunun səbəbi isə onların ayələrimizi yalan hesab etmələri və ondan qafil olmalarıdır* ("Əraf", 146).

Qurani-Kərim özü təkəbbür etmənin nəticəsini göstərir. Həqiqətən, təkəbbürlü şəxs özündən başqa heç kimi görməyən şəxsdir. Quranın qissələrində nəticə olaraq bu qənaətə gələ bilərik ki, Allahın peyğəmbərlərinə iman gətirməyən qövmlərin insanları təkəbbür səbəbindən belə etmişlər. Bunun ən son nöqtəsini isə yuxarıda da qeyd etdiyimiz kimi, Fironun Musaya iman gətirməməsi idi. Firon güc, səltənət baxımından o qədər irəliləmişdi ki, artıq özünü Allah (nəuzubillah) adlandırmışdı. Quran təkəbbür edənlərin sonlarının əbədi qalacaqları yer kimi cəhənnəm olduğunu qeyd edir ("Mumin", 76).

Yuxarıda dediklərimizdə də dəfələrlə qeyd olunur. Məsələn, bir hədisdə Həzrət Peyğəmbər (s) belə buyurur: "Allah-Taala qiyamətdə 3 dəstə ilə danışmayacaq, günahlarını keçməyəcək və onlara ağır cəza verəcək: biri zinakar qoca, ikincisi, zalım hökmdar, üçüncüsü təkəbbürlülük edən şəxsdir".

Həzrət Əli (ə) belə buyurur: "Təkəbbürlü şəxsə təəccüb edirəm ki, dünən nütfə idi, sabah leş olacaq".

Həqiqətən də insan nədən yarandığı və sonda nə olacağını bilməli və dərs götürməlidir ki, təkəbbürlülük özünə ziyandan başqa bir şey deyildir. Allah-Taala bizdən təkəbbürlülüyün əvəzinə təvazökarlıq istəyir.

Qurani-Kərimdə təkəbbürlülüyün əksinə olaraq, təvazökarlıq təriflənir. Təvazökarlıq – təkəbbürlülüyün əksidir, yəni insanın özünü başqasından üstün hesab etməməsinə deyilir. Təvazökarlıq isə çox vaxt Quranda təkəbbürlülüyü inkar etməklə keçir. Burada bir ayəni qeyd etməklə kifayətlənəcəyik. Qurani-Kərim bu barədə belə buyurur:

***"Adamlardan təkəbbürlə üz çevirmə, yer üzündə lovğa-lovğa gəzib dolanma. Həqiqətən, Allah heç bir özündən razını, lovğalanıb fəxr edəni sevməz!"*** ("Loğman", 18).

Allah bizi öz təvazökar bəndələrindən qərar versin!



**Zümrüd Bağırova,**

**Aİİ-nin IV kurs tələbəsi**

# Mömin kimə deyilir

Bildiyimiz kimi, peyğəmbərlər Allah tərəfindən göndərilmişdir. Hələ ana bətnində olarkən bütün peyğəmbərlərimiz Allah tərəfindən tərbiyələndirilmişdir. Ən son peyğəmbər isə Həzrət Məhəmməd (s.a.s.) olmuşdur. İslam dini də son peyğəmbərimiz olan Həzrət Məhəmmədə Allah tərəfindən (s.a.s.) vəhdət gəlməsi ilə yaranmışdır. İslam dini ilə birlikdə Qurani-Kərim də yaranmağa başlanmışdır.

Qurani-Kərimdə düzgün mömin olmaqla bağlı bir çox ayə mövcuddur. Bu ayələrdə həqiqi möminlərin necə həyat sürmələri və bəşəriyyət üçün nə qədər faydalı olduqları qeyd edilmişdir. Bu mözvu haqqında aydın şəkildə danışacağıq.

**Quran ayələrinə görə həqiqi mömin**

Mömin kimdir? Həzrət Peyğəmbərə gələn vəhylərə ürəkdən inanaraq onları qəbul edən şəxslərə mömin deyilir. "Mömin" sözü "iman" kəlməsindən gəlir, "təsdiq etmək, bir şeyə dəqiq olaraq inanmaq" deməkdir. Həqiqi bir mömin Peyğəmbərin dediklərini heç bir şübhə duymadan təsdiq edən şəxslərdir. Qurani-Kərimdə də gördüyümüz kimi, Uca Allah möminlərə gözəl və yaxşını göstərmiş, pis və çirkin əməlləri isə tanıtdıraraq uzaq durmağı əmr etmişdir.

"Ey insanlar! Sizi və sizdən əvvəlkiləri yaratmış Rəbbinizə ibadət edin ki, müttəqi olasınız! (Allahdan qorxub pis əməllərdən çəkinəsiniz!)" ("əl-Bəqərə", 21).

Həqiqi möminin ilk xüsusu təmizliyidir. İnsan birinci növbədə təmizliyinə fikir verməlidir. "Əl-Bəqərə" surəsində "Təmizliyə diqqət edərlər" ("əl-Bəqərə", 125, 168) dedikdə, möminin dəstəmazsız namaz qıla bilməyəcəyi, Qurani-Kərimi oxuya bilməyəcəyi vurğulanmışdır. Allah ibadətində təmiz, düzgün olanını sevər. Bu həyatda heç kim günahsız deyildir. Əsas olan əsl mömin kimi səhvini, günahını qəbul edib, niyyətini təmiz tutub, Allaha sığınıb bağışlanmağı diləməsidir.

Həqiqi bir möminin başqa əsas xüsusiyyəti əxlaqlı olmasıdır. Allah peyğəmbərləri insanlara doğru yolu göstərmək üçün göndərib. Allah insanlara Həzrət Peyğəmbərin əxlaqını, həyatını, ibadətlərini örnək götürməyi vurğulayıb. Qurani-Kərim onun necə bir gözəl əxlaqa sahib olduğunu "Şübhəsiz ki, sən böyük bir əxlaq üzərindəsən"("Qələm", 68/4) ayəsi ilə təsdiqləyib.

Allahın varlığını dərk etmək də ən önəmli xüsusdur. Mömin Allahın varlığını dərk edərək düzgün mömin olmağa çalışır. Yəni ibadətlərini olduqca düzgün etməyə çalışır. Həqiqi mömin dinində qüvvətli, imanlı, mülayim, zirəkdir; fiqhi biliyi olur, ibadətdə təvazökardır. Yoxsulluğa dözər, müsibətlərə səbir edər, saleh əməl görən şəxsdir. O, elə bir insandır ki, bütün gününü Allaha ibadətlə, şükürlə keçirər. Həmin insan günə başladıqda zikr edər. Allahın qadağan etdiyi əməllərdən uzaq gəzər. Allahın hüzuruna təmiz çıxmağa çalışar.

Rəsulullah (s.a.s.) buyurur: "Həqiqi bir mömin başqalarını sevən mömindir. Sevməyən və sevilməyən kimsələr faydalı deyildirlər. İnsanların ən yaxşısı başqalarına faydalı olandır".

Həzrət (s) buyurur: "Həqiqi mömin qəzəblənəndir. Allah daha qəzəblidir".

Həqiqi bir mömin dininə zidd hərəkət gördükdə dərhal hərəkət etməli və mənsub olduğu yerdə onu birləşdirməyə çalışmalıdır.

"Həqiqi möminlər yalnız Allah xatırlandıqda titrəyən və Onun ayələri oxunduqda imanlarını artıran möminlərdir. Yalnız Rəbblərinə təvəkkül etdilər" ("Ənfal", 2).

"Buna görə bacardığınız qədər Allahdan qorxun, qulaq asın, itaət edin və öz xeyrinizə xərcləyin. Kim nəfsinin xəsisliyindən qorunarsa, nicat tapar" ("Təlim", 16).

"Onlar Rəbbinin əzabından qorxurlar" ("Məaric", 27).

Həqiqi möminlərin əsas xüsusiyyətlərindən biri təkcə Allahdan qorxub ona sığınmalarıdır. "Həqiqi möminlər ancaq o möminlərdir ki, Allah anıldığı zaman ürəkləri ürpərir, ayələri oxunduğu zaman imanları artır. Allah qorxusu insanı doğru yola çəkən önəmli ünsürlərdən biridir. Və bunlar təkcə Rəbblərinə təvəkkül edərlər" ("Ənfal", 2).

"Ey iman edənlər! Allahdan ona yaraşır şəkildə qorxun və ancaq müsəlman olaraq can verin" ("Ali-İmran", 102).

Allah biz insanlara zərərli olan hər bir şeyi haram buyurub. İnsanlar təkcə Allah qorxusundan deyil, həm də Allaha olan hörmətindən



sulum!) De: "Ey Rəbbim (Bizi) bağışla və rəhm et! (Ümmətimin günahlarından keç, tövbəmizi qəbul buyurmaqla bizə mərhəmət əta et!) Sən rəhm edənlərin ən yaxşısısan!" ayəsi ilə bitir. Yəni Allah, Sən ən böyüksən, bizi bağışlayansan, tövbəmizi qəbul elə, bizləri Öz nəzərindən uzaq etmə.

"Müminin" surəsi Məkkə dönəminin sonlarında nazil olmuşdur. Surə adını "İnananlar mütləq qurtuluşa çatacaqlar" ilahi bəyanla başlayıb, möminlərin xüsusiyyətlərini giriş bölümündən almışdır.

Həzrət Ömərdən rəvayət edilən bir hədisdə deyilir ki, Rəsulullah (s.a.s.) bir ara vəhy hallarından birini yaşadığı an qibləyə doğru yönəlib əllərini qaldıraraq, "Allahım! Bizə olan nemətini artır, əksiltmə; bizi onurlandır, alçaltma", – deyə dua etmişdir.

Möminlərin ibadətlərindən danışsaq, deyə bilərik ki, mömin namazlarını vaxtında qılmalıdır, namaz və səbirlə Allahdan kömək diləməlidir, namazlarını qorumalı, vaxtında zəkat verməli, fərz buyurulan oruclarını tutmalı və Həccə gedərək qurban kəsməlidir.

Burada sadalanan cəhətlərə diqqət edən hər bir insan axirətdə Allah qarşısına əsl mömin kimi çıxacaqdır. Allah bağışlayandır.

Həqiqi mömin, əsasən, namazını vaxtında qılmalı, orucunu tutmalı, tutmadığı halda kəffarəsini verməlidir. Allaha ibadətini hər zaman etməlidir. Hər şeyə görə şükür etməli, əsla naşükür olmamalıdır. Allahın böyüklüyünü heç vaxt unutmamalı, qorxmalı, şirk qoşmamalıdır. İslamın 5 şərtinə əməl etməyə çalışmalıdır. Əxlaqlı olmalı, ətrafındakı insanlara da örnək olmalıdır. Allahın Kitabına, peyğəmbərinə güvənməlidir. Həqiqi bir mömin olmaq üçün düzgün əməllər etməli və doğru yoldan əsla dönməməlidir.

buyurduğu hər bir şeyə əməl edər.

Həqiqi möminlər yalnız Allaha ibadət edərlər. Əsla Allaha şərik qoşmazlar.

De: "Ey insanlar! (Ey Məkkə müşrikləri!) Əgər mənim dinim barəsində bir şübhəniz varsa, bunu bilin ki, Allahı qoyub tapdığınız başqa bütlərə ibadət etmirəm. Ancaq sizin canınızı alacaq Allaha ibadət edirəm. Mənə möminlərdən olmaq əmr edilmişdir" ("Yunus", 104).

Həqiqi möminlər Allahdan başqa ilahi axtarmazlar, Allahı hər şeydən üstün tutarlar, Allaha əsla naşükürlük etməzlər, axirətə, mələklərə, peyğəmbərə, qədərə və son olaraq Kitaba inanarlar. Əsla şübhə duymazlar.

Qurani-Kərimdə möminlər haqqında ümumi bir çox ayə vardır. Bunlardan məsələn:

"Zəkatlarını haqqıyla verirlər"("əl-Bəqərə", 177); "Yetimin haqqını əsla yeməzlər" ("Nisa", 2); "Yolda qalmışlara kömək edərlər" ("əl-Bəqərə", 17); "İnsanların qüsurlarını bağışlayarlar" ("Ali-İmran", 135); "Zinaya əsla yaxın durmazlar" ("Müminin", 5); "Quranı ağır-ağır fikirləşərək oxuyarlar" ("Müzzəmmil", 5); "İçki, qumar və fallardan uzaq durarlar" ("Maidə", 90); "Allahdan bağışlanmağı diləyirlər" ("əl-Bəqərə", 286).

Bu mövzuya uyğun olaraq Qurani-Kərimin 23-cü surəsi olan "Muminun" (Möminin) surəsinə baxaq. Bu surə 118 ayədən ibarətdir. Hər bir ayədə düzgün və ya həqiqi bir möminin necə olmasından, ibadətlərindən, inamlarından danışılır. Eləcə bu surənin ilk ayəsi "Həqiqətən, möminlər nicat tapmışlar! (Cənnətə nail olmaqla mətləblərinə çatıb əbədi səadətə qovuşmuşlar!)" başlayıb, "(Ya Rə-

# QURANİ-KƏRİMDƏ QURBAN



**Şəbnəm Edilova,**

**Aİİ-nin IV kurs tələbəsi**

Qurban Allaha yaxınlaşdıran ibadət kimi qəbul olunur.

İslam dinində qurban kəsmə İbrahim peyğəmbərlə bağlıdır. Bir gün İbrahim peyğəmbər yuxuda olarkən İsmayılı qurbanetmə əmri ona verilir.

Qurani-Kərimdə də buyurulduğu kimi, Peyğəmbər və oğlu Allahın əmrini yerinə yetirməyə hazır olduqlarını söyləyirlər.

***"O, yüyürüb-qaçmaq (atasına kömək edə bilmək) çağına (on üç yaşına) çatdıqda (İbrahim) dedi: "Oğlum! Yuxuda gördüm ki, səni qurban kəsirəm. Bax gör, (bu barədə) nə fikirləşirsən!". O dedi: "Atacan! Sənə nə əmr olunursa, onu da et. İnşAllah, mənim səbirlilərdən olduğumu görəcəksən!"*** ("əs-Saffat", 102).

Beləliklə, İbrahim peyğəmbər İsmayılı qurban etmək istəyərkən Allah ona xitab edir: ***"Biz ona belə xitab etdik: "Ya İbrahim!"*** ("əs-Saffat",104). Sonra Allah buyurur: ***"Artıq sən röyanın düzgünlüyünü (Allah tərəfindən olduğunu) təsdiq etdin!". (Sənə yuxuda nə əmr olunmuşdusa, onu yerinə yetirdin. Allah sənə lütf edərək oğlunun yerinə bir qoç kəsməyi buyurur). Biz yaxşı iş görənləri belə mükafatlandırırıq"*** ("əs-Saffat", 105).

Allah bunun bir imtahan olduğunu İbrahim peyğəmbərə bildirərək, ona qurbanlıq üçün bir qoç göndərir. ***"Biz ona böyük bir qurbanlıq (Habilin qurbanlıq qoçunu) əvəz verdik"*** ("əs-Saffat", 106).

Hicrətin ikinci ilində Həzrət Peyğəmbər (s.a.s.) camaata bayram namazını qıldırdıqdan sonra qurban kəsdi və "Allahım, bu Səndəndir və Sənədir", – dedi. Beləcə, Həzrət İbrahimin qoç qurbanını da xatırladan bu ibadət davam etmiş oldu. Həzrət Peyğəmbər (s.a.s.) bu ildən başlayaraq vəfat edənə qədər hər il qurban kəsib.

Ağıllı, yeniyetmə, dini baxımdan müəyyənləşdirilmiş mal varlığına sahib hər bir müsəlman qurban kəsməlidir. Bir ailə daxilində olan şəxslərin mülkiyyəti eyni olduğuna görə, 1 qurban kəsmələri yetərlidir.

Qurbanlıq heyvanlar Qurban bayramı zamanı kəsilməlidir. Bundan başqa, həcc vaxtı şəxsin özü tərəfindən, yaxud pulu göndərilərək kəsilməsi istənilən qurbanlıqlar da vardır.

***"Biz hər bir ümmət üçün qurbangah (yaxud məbəd) müəyyən etdik (və ya hər bir ümmətə qurban kəsməyi lazım bildik) ki, Allahın onlara ruzi verdiyi (dördayaqlı) heyvanların üstündə (onları kəsdikləri zaman) Allahın adını çəksinlər (Bismillah desinlər). Sizin Tanrınız yalnız bir olan Allahdır. Yalnız Ona təslim olub itaət edin. (Ya Rəsulum!) Sən də (Allaha) itaət edənlərə (təvazökar olanlara Cənnətlə) müjdə ver!"*** ("əl-Həcc", 34).

Ayədən də göründüyü kimi, Allahın bizə ruzi olaraq verdiyi heyvanları qurban kəsərkən "Bismillah", – deyərək kəsməl lazımdır. "Bismillah" - dedikdən sonra, hər hansısa bir duanı oxumaq isə müstəhəbdir.

Hər bir heyvanı qurban kəsə bilərikmi? Əlbəttə, yox. Qurban kəsiləcək heyvan dəvə, inək, camış, qoyun və keçi cinsinə mənsub olmalıdır.

Hər bir heyvan qurban kəsilmədiyi kimi, qurban kəsiləcək heyvanın da müəyyən xüsusiyyətlərə sahib olması lazımdır. İlk olaraq həmin heyvanın yaşını bilməliyik. Qurban kəsiləcək heyvan dəvədirsə, 5, mal-qaradırsa, 2, qoyun və keçidirsə, 1 yaşını tamamlaması lazımdır.

Qurban kəsiləcək heyvanların digər mühüm xüsusiyyəti onların sağlam olmalarıdır. Yəni kəsiləcək heyvan zəif və xəstə vəziyyətdə olmamalıdır. Bundan əlavə, gözünün 1 və ya 2-si kor, buynuzu tam dibdən qırıq, dili, qulaqları kəsik və dişləri tökülmüş heyvanları qurban kəsmək olmaz. Lakin həmin heyvan doğularkən onda qüsurlar mövcud olubsa, həmin heyvanın kəsilməsində heç bir maneə yoxdur.

***"Biz qurbanlıq dəvələri də Allahın nişanələrindən (Onun haqq dininin əlamətlərindən) etdik. Sizin üçün bu qurbanlarda (dini və dünyəvi) xeyir vardır. Artıq onları ayaqüstə durduqları (sol əli bağlı, sağ əli və iki ayağı açıq vəziyyətdə olduqları) halda kəsərkən, üstlərində Allahın adını çəkin (Bismillah deyin). Onlar böyrüüstə düşən (canları çıxdığı) zaman (ətindən) özünüz də yeyin, (yanınızda olub utandığından) əl açmayana (lakin verilənə etiraz etməyənə) və dilənçiyə də yedirin. Onları (qurbanlıq heyvanları) sizə belə ram etdik ki, bəlkə (nemətimizə) şükür edəsiniz!"*** ("Həcc", 36).

Qurban kəsməyin bir sıra xüsu-



siyyətləri vardır. Qurban kəsiləcək heyvan üsuluna uyğun olaraq kəsilməlidir. İlk olaraq ətrafın təmizliyinə baxılmalı və kənardakı heyvanlar kəsimi görməyəcək bir şəkildə kənarlaşdırılmalıdır. Sonra qurbanlıq heyvan üzü qibləyə yerə uzadılmalı və boğazındakı dörd iri damar iti bıçaqla kəsilməlidir. İti bir alətin və ya bıçağın istifadəsi ona görədir ki, kəsim əsnasında heyvan əziyyət çəkməsin və kəsim sürətli halda baş versin. Heyvanın canı çıxmadan başı gövdəsindən ayrılmamalıdır. Canı çıxdıqdan sonra bu proses həyata keçirilməlidir.

"Həcc" surəsinin 36-ci ayəsində də qeyd olunduğu kimi, qurban kəsildikdən sonra həm kəsən şəxs ondan yeməli, həm ailəsinə yedirməli, həm də digər insanlara qurban ətindən pay verməlidir.

Qurban ətini üç hissəyə bölmək lazımdır. Birinci bölgüyə şəxsin özü və ailəsi daxildir; ikinci bölgüyə qohum və qonşuları, üçüncü bölgüyə isə maddi vəziyyəti aşağı olan şəxslər daxildir ki, bunlara qurban ətindən verilməlidir. Lakin ailənin maddi vəziyyəti ağırdırsa və ya baxmaqda məsul olduğu şəxs çoxdursa, qurban ətinin iki bölümünü özünə saxlaya, bir bölümünü paylaya bilər.

İbn Abbasdan (r.a.) rəvayət olunur ki, ***"Allah Rəsulu kəsdiyi qurbanın üçdəbirini ailəsinə ayırar, üçdəbirini kasıb qonşularına paylayar, geri qalan üçdəbirini sədəqə olaraq verərdi".***

Qurbanın dərisi də atılmamalıdır. Qurbanın dərisi bir yoxsula və yaxud ondan istifadə edəcək şəxsə verilməlidir. Lakin bu, pul qarşılığında olmamalıdır. Yəni heç bir qarşılıq gözlənilmədən həmin şəxsə təqdim olunmalıdır. Əgər şəxs özü bundan istifadə etmək istəyirsə, dərini ya namazlıq, ya da bir ev əşyası kimi istifadə edə bilər.

Allah qurbanlara və yaxud boynuna nişan taxılmış qurbanlıq heyvanlara hörmətsizlik etməməyi buyurmuşdur.

***"Ey iman gətirənlər! Allahın müəyyən etdiyi mərasimə (həcc mərasiminə), haram (hörmətli) aya (həcc ayı hesab edilən zilhiccəyə və ya rəcəb, zülqədə, zilhiccə və məhərrəm aylarına), (Kəbəyə gətirilən) qurbanlara, boynuna nişan taxılmış qurbanlıq heyvanlara, həmçinin Rəbbinin lütfünü və razılığını diləyərək Beytülhərama (müqəddəs evə) üz tutub (ziyarətə) gələnlərə hörmətsizlik etməyin!"*** ("əl-Maidə", 2).

Başqa bir ayədə isə bu məqam belə açıqlanır. Burada hörmətin qəlblərin təqvasından irəli gəldiyi vurğulanır.

***"(Ey insanlar! Sizə əmr etdiyim) budur. Və hər kəs Allahın mərasiminə (həcc əməllərinə, yaxud qurbanlıq heyvanlara) hörmət etsə, bu (hörmət), şübhəsiz ki, qəlblərin təqvasındadır (Allahdan qorxmasındadır)"*** ("əl-Həcc", 32).

İnsanları halallığa və paklığa səsləyən qurban Allaha yaxınlaşdıran bir ibadətdir. Qurbanlıq heyvanların nə əti, nə qanı Allaha çatmır. Allaha çatan, sadəcə, səmimi-qəlbdən etdiyimiz ibadətdir.

***"Onların nə əti, nə də qanı, əlbəttə, Allaha çatmaz. Allaha çatacaq olan yalnız sizin təqvanızdır (səmimi-qəlbdən etdiyiniz ibadətdir). Allah sizi doğru yola yönəltdiyi (sizə həccin əməllərini göstərdiyi) üçün Onu (layiqincə) uca tutasınız deyə, bunları sizə belə ram etdi. (Ey Muhəmməd!) Ehsan edənlərə (Cənnətlə) müjdə ver!"*** ("əl-Həcc", 37).



**Ramin Novruzzadə,**

**Aİİ-nin IV kurs tələbəsi**

# İNFAQ

İnfaq – "nəfk" kökündən gəlir və lüğətdə "bitirmək, məhv etmək, tamamlamaq" mənasını verir. Kasıb olmağı bildirsə də, daha çox "pula və ya əmlaka sərəncam vermək" mənasında istifadə olunur. Dini-etik bir termin kimi, "Allahın razı qalması üçün öz sərvətini xərcləmək və ehtiyac sahiblərinə maddi və pul yardımı göstərmək" deməkdir. Bu kimi yardımlara vacib zəkat və hər cür könüllü sədəqələr daxildir. Quranda "infaq" anlayışı bir ayədə "yoxsul olmaq" ("əl-İsrâ", 17/100), təxminən, 70 ayədə "xərcləmə" kimi istifadə olunur. İnfaq məsələsi hədislərdə geniş şəkildə müzakirə edilib. İslam görüşünə görə insanın sahib olduğu sərvətin əsl sahibi Allahdır. Onun əmanət etdiyi bu sərvətdən başqalarına yardım etmək lazımdır ("ən-Nur", 24/33; "əl-Hadid", 57/7).

"Bəqərə" surəsinin 2-ci ayəsində səmimi olaraq Allaha iman gətirən möminlərin əsas xüsusiyyətləri sayıldığı halda, inanc və dua sonrasında infaqdan bəhs olunur. Onun əmanət etdiyi bu sərvətdən başqalarına yardım etmək lazımdır ("ən-Nur", 24/33; "əl-Hadid", 57/7).

"Əl-Bəqərə" (261-274) bölməsində yardımın əhəmiyyəti, məqsədi, kimə və necə mal veriləcəyi və bunun əvəzində vəd olunan mükafatlar ətraflı şəkildə qeyd edilib. Bu izahatlar belə xülasə edilə bilər:

a) yalnız Allah rizası üçün yardım etmək lazımdır, əks halda, hər hansı bir göstəriş üçün bunu etmək doğru deyil;

b) fəaliyyətsiz qalan şəxs ona yardım edən insanın şərəfinə xələl gətirəcək hər hansı bir davranış etməməli, bundan çəkinməlidir;

c) göstərilən yardım ən yaxşı və ən keyfiyyətli mallar arasından seçilməlidir;

d) yardımın təyinat yerinə çatması üçün həqiqi ehtiyac sahibləri müəyyənləşdirilməlidir.

Eyni fəslin 195-ci ayəsində, ayənin məzmunu nəzərə alındıqda, "Allah yolunda infaq" ifadəsinin, ilk növbədə, ölkənin müdafiəsi üçün lazım olan maddi yardıma işarə etdiyi görünür. Bununla birlikdə, bu ifadənin bəhs edildiyi bir çox ayə və hədisin qiymətləndirilməsindən qaynaqlanan nəticəyə görə, Allaha itaət və ibadət etmək niyyətində olan, İslam və müsəlmanlara kömək və fayda verən hər xərc Allah yolunda infaq sayılır. İslam sivilizasiyası tarixində ölkənin müdafiəsi, həcc xidmətləri, yoxsullara dəstək, məktəblər, kitabxanalar, məscidlər, yollar, körpülər, çeşmələr, qocalar evləri və hətta təbiətin qorunması və inkişafı üçün xərclənən hər cür xərc Allah yolunda infaq daxilində qiymətləndirilir. Ayənin davamında xəsis olmağın və bu kimi xərclərdən çəkinməyin "Öz əllərinizlə özünüzü təhlükəyə atmayın" cümləsi ilə müsəlman cəmiyyəti və fərdlər üçün təhlükə yaratdığı bildirilir. İslam anlayışına görə, hər kəs əvvəlcə əməyi ilə özünün və məsuliyyət daşıyanların ehtiyaclarını ödəməyə çalışmalıdır.

Hər nemətin şükürü özünəməxsusdur. Malın şükürü Allah yolunda verməklə həyata keçirilir. "Kömək" sözü "bitirmək, atmaq" mənasına gəlsə də, dinimizə görə, "Allahın razılığını qazanmaq üçün öz malını xərcləmək və ehtiyacı olanlara kömək etmək" mənasını verir. Quranın, təxminən, 70 ayəsində "infaq" anlayışı "Allah rizası üçün xərcləmək" mənasında istifadə olunur. Bir hədisdə də bildirildiyi kimi, insan əlinin zəhməti ilə qazandığından daha yaxşı bir şey yeməmişdir. Bununla birlikdə, dini təlimlər araşdırıldıqda, cəmiyyətin maddi dəyərlərindən layiq olduqları qədər və normal ehtiyacları müqabilində istifadə etmə prinsipinin qəbul edildiyi başa düşülür. Hər kəsin imkanı qədər köməklik və yardım etməsi lazım olsa da, bəzən buna əməl etmirik. Bu baxımdan, digər məsələlərdə olduğu kimi, bu məsələdə də Həzrət Peyğəmbərdən (s.a.s.) özümüzə nümunə götürməliyik. Peyğəmbər ( s.a.s.) özü dul və yetimlərin dolanışığını üzərinə götürmüşdü. Bunaoxşar yardımlar da Allah yolunda xərcləmək daxilində qiymətləndirilmişdi.

Mömin başqasının həyatına yaxşılıq və gözəllik qatanda rahatlıq tapan, nemətlərin dadını paylaşarkən hiss edən və köməyin saflaşma və bolluq olduğunu bilən



bir insandır. Cilovsuz bir ehtirasa çevrilmiş mülkiyyət ehtirası, sərvətindən məmnuniyyət axtarmağın bədbəxtliyi, zənginliyi ilə böyüklük yarışması, təəssüf ki, hər dövrün ən pis xəyallarıdır. Dinimiz qardaşlıq prinsipləri üzərində sağlam bir fərd-cəmiyyət əlaqəsi qurmağın, birlik və həmrəylik ruhunun təmin edilməsinin və imkansızların problemlərinin öhdəsindən gəlməyin bir çox yolunu göstərib. İslamın əsas məqsədi şüurlu müsəlman nəsilləri yetişdirmək və Allahın birliyini təsdiqlədikdən sonra, dinc bir ictimai düzən qurmaqdır. Bu məqsədin reallaşmasında yardımların Allah yolundakı yeri və əhəmiyyəti çox vacibdir. Bununla birlikdə, insanlar tərəfindən ediləcək töhfə və xidmətlər bununla kifayətlənməyib məhdudlaşmamalıdır. Hədislərdə ailə üzvlərinə edilən xərclər infaq olaraq ifadə edilir və bunun bütün sədəqələrin ən yaxşısı olduğu bildirilir. Quranda kasıbların zəngin müsəlmanların əmlakında hüquqlara sahib olması da bildirilir. Varlı şəxslərə onlara görə işləyə bilməyənlərə və gəliri ehtiyaclarını ödəməyənlərə kömək etmək məcburiyyətində olduqlarını göstərir. Bu yardımın zəkat, sədəqə, qurban, hədiyyə, istifadəyə vermək, təməl, dövlət büdcəsindən maaş kimi bir çox növü vardır ki, bunların hamısı geniş mənada infaq anlayışı ilə əlaqədardır.

"İnfaq" sözü, ümumiyyətlə, əvəzsiz yardım üçün istifadə olunur; əslində, yaxşı əməlləri üçün mükafat gözləməyənlər Quranda təriflənir ("İnsan", 76/ 8-9). Bundan əlavə, qanuni sahələrə sərmayə qoymaq və insanları işə düzəltməklə bu mənaya daxil edilə bilər. Mallarını boş yerə qoyub Allah yolunda xərcləməyənləri tənqid edən ayətlər ("ət-Tövbə", 9/34-35) bu məsələni əhatə edir. İnsan əldə etdiyi malını, uğurunu Allaha borcludur. İnsan onu yaradan Uca Rəbbinin razılığını almaq üçün əlindən gələn hər şeyi etməlidir. İslam dini də bu baxımdan insanlara bir çox yol göstərir. Quran da, hədislər də Allahın razılığını əldə etməyin müxtəlif yollarının olduğunu bildirir. İnfaq etmək bu kimi əməllər sırasındadır. Bir yaxşılıq etdikdə onun qarşılığında əvəz gözləmək doğru deyildir. İnfaq etməyin mükafatı ayələrdə də yer alıb. Yaxşı əməllərin mükafatı, ümumiyyətlə, 10-dan 1-ə qədər göstərilsə də, Allah yolunda yardım verməyin savabı 700-dən 1-ə qədərdir ("Bəqərə", 2/261). Bu da digər ibadətlərdən daha çətindir.

# Təqva



**Fərhad Hadizadə,**

**Aİİ-nin IV kurs tələbəsi**

***"Ey insanlar, Rəbbinizdən qorxun..."*** ("Həcc", 22/1).

İslamın yayılması ilə müxtəlif dünya dillərinə ərəbmənşəli sözlər keçməyə başladı. Bu sözlərin keçməsində Müqəddəs Kitabımız Qurani-Kərimin və hədisi-şəriflərin böyük rolu var. Bildiyimiz kimi, Qurani-Kərimin oxunması ibadət sayılır və ərəbcə oxunar. Qurani-Kərimin ərəbcə oxunmasına başqa bir səbəb isə orada murad edilən mənaların tam şəkildə digər dillərə tərcümə edilə bilməməsidir.

Ərəb dili çox geniş söz ehtiyatına malikdir. Qurani-Kərimin yeni mənalar gətirməsi səbəbindən onun digər dillərə tərcüməsi daha da çətinləşib. Bu çətinlikləri aradan qaldırmaq üçün sözləri orijinal formasında saxlamaq lazımdır. Bu kimi sözlərə Əsmaül-Hüsna, ibadət, itaət, əməl, cənnət, cəhənnəm, mələk, kafir və s. ifadələri misal göstərə bilərik. Bu çətinliklərə sözün həm geniş, həm də dərin məna və ya mənalara malik olması aiddir. Həmin sözlər qrupuna "təqva" da aiddir. "Təqva" Qurani-Kərimdə dəfələrlə müxtəlif yerlərdə, müxtəlif tərkiblərdə, müxtəlif mənalarda işlənir. Bəzən tərcümə edilib, bəzən olduğu kimi saxlanılıb.

İslamın gəlməsindən əvvəlki dövrdə, yəni Cahiliyyə dövründə də bu söz işlədilirdi. Cahiliyyə ərəbləri bu sözü, əsasən, həqiqi, bəzən məcazi mənada "iki şey arasında maneə qoymaq" şəklində işlədirdilər. İki şey dedikdə canlı və cansız hər bir şey - heyvan, insan və dağ-daş nəzərdə tutulur. Onlardan birinin digərinə edəcəyi pisliyə qarşı aralarına maneə qoyulur.

Lüğətdə "qorunmaq, hörmət etmək, itaət etmək, çəkinmək" kimi mənalara gəlir. İslami termin kimi, Abdullah ət-Tusi "həqiqəti, əmr ediləni yerinə yetirmək, nəhy ediləndən uzaq durmaq"; Mücahid "üsyan etməmək, itaət etmək, unutmayıb zikr etmək, küfr (nankorluq) etməyib şükür etmək"; İbn Düreyd "nəfsi saleh əməllə əzab və günahdan qorumaq" kimi təriflər vermişdir.

İslamın gəlişi ilə qazandığı yeni mənanı Qurani-Kərimdə və hədislərdə əyani formada görə bilirik. Qurani-Kərimdə müxtəlif formalarda – qəliblərdə ümumilikdə 258 ayədə keçir. Bu ayələrdə təqva, əsasən, Allahdan qorxmaq, hədislərdə Allahdan qorxub-çəkinmək mənası ilə birlikdə, həmçinin pis xüsusiyyətlərdən – zülmdən, xəsislikdən və s. çəkinmək mənalarında da işlənir.

İndi isə təfsirlə ayələrdə işlənən "təqva" kəlməsinin daşıdığı mənalara daha dərindən nəzər salaq.

"Hucurat" surəsinin üçüncü ayəsində "Allah onların qəlbini təqva üçün sınağa çəkmişdir", – ifadəsindəki "təqva"nı "qəlblərin həssaslığı, dini həssasiyyət, imandakı səmimiyyət, Həzrət Peyğəmbərə qarşı hörmətin ölçüsü" olaraq anlaya bilərik. Bu ayədə "təqva ilə sınananların" "əfv və böyük bir mükafat" qazanmaları surənin ilk ayələrindəki tələblərə əməl olunmasının qarşılığıdır. Allahın əmrlərinə əməl edib, hörmət və sevgi məqsədi ilə Allah və Peyğəmbəri üstün tutanlar və bu qrupdan olub Peyğəmbərə hörmət məqsədilə səslərini aşağı salanlar təriflənir. "Hucurat" surəsinin 13-cü ayəsindəki "ətqa" (أتقى) kəlməsi "Allaha ən hörmətli, Ona ən çox bağlı olma" mənasındadır və "Allah qatında ən dəyərli və ən üstün" olmanın ölçüsü olaraq verilir.

"Əraf" surəsinin 26-ci ayəsində "Ey Adəm oğulları! Sizə ayıb yerlərinizi örtəcək bir geyim və bir də bəzəkli libas nazil etdik. Lakin təqva libası daha yaxşıdır. ..." deyilir. Ayədə keçən "təqva libası" ifadəsinin övrəti örtmək, iman, həya və ədəb, saleh əməl, gözəl geyim kimi mənalar daşması ilə bağlı müxtəlif görüşlər vardır. Yəni "təqva libası"na verilən anlamları məcazi və həqiqi olaraq iki məna qrupunda toplaya bilərik. Məcazi mənada olan qrupa iman, həya və ədəb, saleh əməl, həqiqi məna qrupuna isə övrəti örtmək və gözəl geyim aiddir.

"Təvqa" sözünün daşıdığı mənalardan da başqa təvqa sahiblərinin, yəni müttəqilər dedikdə kimlərin nəzərdə tutulması ilə bağlı müxtəlif fikirlər var. "Bəqərə" surəsinin 66-cı ayəsində "müttəqilər" (təqva sahibləri) kəlməsi işlənir ki, burada Məhəmməd ümmətinin, əvvəlki ayədə keçən meymuna dönmüş yəhudilərdən sonra gələn bütün müttəqilərin və qiyamət gününə qədər davam edəcək təqvalıların nəzərdə tutulması ilə bağlı üç görüş mövcuddur.

Beləliklə, Allahın (c.c.) bəşəriyyətə İslam vasitəsilə təqdim etdiyi təqva hər kəsi, hər qövmü Allaha daha yaxın dərəcələrə yüksəldə biləcək qüdrətə malikdir. Allah yanında daha yüksək dərəcələrə çatmaq üçün təqva əldə olunmalı, təqvaya isə verilən əmrlərə tabe olmaqla, imana sahib olmaq mümkündür.

# İslam qanunlarına görə evlilik



Nərgiz Təhməzova,
AİI-nin IV kurs tələbəsi

Evlilik iki və ya daha artıq kişinin, dini, hüquqi və ya sosial qanun və ya mərasimlərin uyğun gördüyü şəkildə bir araya gəlməsidir. Ailənin əsasını təşkil edən evlilik bütün ilahi dinlərdə qadın və kişinin özlərinə məxsus məhrəmiyyət yaratmaq və insan nəslini davam etdirmək üçün yeganə qanuni əlaqə olaraq qəbul edilib. İslamda həyatın müxtəlif sahələrinə aid tənzimləmələr Qurani-Kərim və sünnə çərçivəsində olduğu kimi, evlilik haqqındakı əsas hökmlər də Qurani-Kərim tərəfindən müəyyənləşdirilib.

Qurani-Kərimdə "nikah" kəliməsi, ümumiyyətlə, evlilik əqdini bildirmək üçün 19 ayədə əksini tapıb. Bəzi ayələrdə canlı varlıqların cüt yaradıldığı deyilir və "zevc" kəlməsi istifadə edilir. Bu kəlmənin yalnız evli cütlüklər haqqında işlədilməsi diqqət çəkir.

Qurani-Kərimdə "Ünsiyyətdə rahatlıq tapasınız deyə, sizin üçün özünüzdən zövcələr yaratması, aranıza məhəbbət və mərhəmət salması da Onun dəlillərindəndir. Həqiqətən bunda düşünənlər üçün ibrətamiz dəlillər vardır", – deyə bildirilir ("Rum", 30/21). Həyat yoldaşlarının məcazi mənada bir-birlərinə libas olduğu da deyilir.

"Orucluq gecəsi zövcələrinizlə yaxınlıq etmək sizə halal edildi. Onlar sizin üçün bir libas, siz də onlar üçün bir libassınız..." ("Bəqərə", 2/187).

Qurani-Kərimdə evlilik qadına kişi tərəfindən verilən təminat olaraq göstərilir və bunun müqabilində ona mehr verilir

"Onu necə geri ala bilərsiniz ki, siz bir-birinizlə yaxınlıq etmişdiniz və onlar da sizdən möhkəm əhd-peyman almışdılar?" ("Nisa", 4/21).

Qurani-Kərimdə insanlar evliliyə (təşviq edilir) qeyri-qanuni əlaqələr qadağan edilir.

"Aranızda olan subay kişiləri və ərsiz qadınları, əməlisaleh kölə və kənizlərinizi evləndirin. Əgər onlar kasıbdırlarsa, Allah öz lütfü ilə onları varlı edər. Allah lütfü ilə genişdir, biləndir!" ("Nur", 24/32).

"Zinaya yaxınlaşmayın.Çünki bu, iyrənc bir əməl və murdar bir yoldur" ("İsra", 17/32).

Bununla yanaşı, Quranda evlənmək imkanı olmayanların da imkan tapana qədər iffətlərini qorumaları istənilir.

"Qoy evlənməyə imkanı olmayanları, Allah Öz lütfü ilə onları varlandırana qədər, ismətlərini qorusunlar" ("Nur", 24/33).

İslamda evlilik edildikdə, tərəflərin bir-birlərinə maddi, dini, əxlaqi və s. cəhətdən uyğun olmaları evliliyin daha uzun və xoşbəxt olmasına vəsilədir. Hədisi-şərifdə





buyurulur ki, “Qadınla dörd xisləti üçün evlənilər: malı, əsaləti, gözəlliyi və dini. Sən dindar olanı seç ki, xoşbəxt olasan”. Müslim, Nikah 53. Qurani-Kərimdə hansı qadınlarla evləniləcəyi xüsusunda ayələr mövcuddur.

“Sizlərdən hər kəs maddi imkanı olmadığına görə, azad mömin qadınla evlənə bilmirsə, onda sahib olduğu mömin kənizlərdən alın” (“Nisa”, 4/25).

Bu ayələrdən də göründüyü kimi, bir müsəlmana əvvəlcə mömin azad qadınla, buna imkanı çatmırsa, namuslu, mömin cariyə ilə evlənmək tövsiyə edilir.

“Müşrik qadınlar iman gətirməyincə, onlarla evlənməyin. Əlbəttə, iman gətirmiş bir kəniz sizi heyran edən müşrik qadından daha xeyirlidir. Müşrik kişilər iman gətirməyincə, mömin qadınları onlara ərə verməyin. Əlbəttə, iman gətirmiş bir kölə sizi heyran edən müşrik bir kişidən daha xeyirlidir. Onlar oda çağırırlar. Allah isə Öz izni ilə Cənnətə və bağışlanmağa dəvət edir. O, Öz ayələrini insanlara bəyan edir ki, bəlkə düşünüb ibrət alsınlar” (“Bəqərə”, 2/221).

Yuxarıdakı ayədən də bildirildiyi kimi, mömin kəniz və mömin kölələr müşrik qadın və kişilərdən daha üstün göstərilir və onlarla evlilik tövsiyə edilir.

Göründüyü kimi, İslamda evlilik hər zaman əsas olub və insanlar bu izdivaca sövq edilib.

Belə ki, bunun ziddi insanlığa ziddir. Evlilik insanın uzaq durmaması vacib olan ehtiyac və bununla yanaşı, sünnədir.

Ailə yuvasının qurulmasının mühüm olması ilə yanaşı, evliliyin firavan olması üçün və ailəni dünyadakı cənnət halına gətirməkdən ötrü bir çox xüsusa diqqət yetirmək lazımdır.

İlk növbədə, ailədə səadət ikitərəfli reallaşdırıla biləcək xüsusdur. Bunun təməlini isə bəzi davranışlar formalaşdırır:

1. Bir-biri ilə yaxşı dolanmaq.
2. Bir-birini başa düşmək və kamil davranmaq.
3. Fədakar olmaq.

Bunlar isə gözəl əxlaqla, səmimiyyət və incəliklə mümkün olur. Həmçinin evlənən cütlüklərin bir-birləri ilə yaxşı dolanmaları üçün bu xüsusiyyətlər olmalıdır:

1. Dindarlıq.
2. Fəzilət.
3. Məhəbbət.
4. Mərhəmət.
5. Sədaqət.

Ərlə zövcəsinin xoş rəftarı övladların təlim və tərbiyəsində də çox böyük əhəmiyyət daşıyır. Ailədə valideynlərin münasibəti övladın da gələcək evlilik həyatına təsir edir.

Son olaraq deyə bilərik ki, ailə kiçik cəmiyyətdir. Gələcək nəsillərin inkişafı, zəkalı, əxlaqlı, imanlı gənclərin yetişmələrinin əsası xoşbəxt ailə qurmaqdan başlayır.

# Pakistan-Azərbaycan dostluğunun tarixi

Sentyabrın 27-də başlanan II Qarabağ müharibəsi 44 gün davam etdi. Bu dövrdə yadda qalan məqamlardan biri də Azərbaycanın hər yerində - küçələrdə, binalarda, döyüşün gedişi zamanı, rayonlar işğaldan azad ediləndə Azərbaycan və Türkiyə bayraqları ilə yanaşı, Pakistanın da bayrağının qaldırılması oldu. Çünki dünyanın ikinci böyük müsəlman ölkəsi olan Pakistan bizimlə idi. Bunun kökləri çox qədimlərə gedib çıxır.

Azərbaycanın Qarabağ müharibəsində qələbəsi və öz ərazi bütövlüyünü bərpa etməsi hər bir müsəlman, hər bir pakistanlı üçün möhtəşəm hadisə oldu.

Pakistan 1990-cı illərin əvvəllərində Türkiyədən sonra Azərbaycanın müstəqilliyini tanıyan ikinci dövlət idi. Pakistan, həmçinin Azərbaycanın bəzi ərazilərini işğal etməsi faktına görə uzun illər Ermənistanı tanımayıb və onunla diplomatik əlaqələr qurmayıb. İkinci belə ölkə Türkiyədir.

Rəsmi olaraq İslam Respublikası adlanan Pakistanı azərbaycanlılara və Azərbaycana yaxın edən təkcə dini və mədəni yaxınlıq deyil. Hər iki ölkənin qarşılaşdığı siyasi problemlər də bənzərdir. "Azərbaycan Kəşmir məsələsində hər zaman Pakistanı dəstəkləyir. Bizim açıq mövqeyimiz dəfələrlə nümayiş etdirilib. Bu mövqe ədalət, beynəlxalq hüquq və qardaşlıq əlaqələrimizə əsaslanır. Mərhum Prezidentimiz ümummilli lider Heydər Əliyev deyib: “Biz bütün məsələlərdə qardaşlarımızı dəstəkləməliyik”.

2019-cu ildə Dehli, Hindistanda müsəlmanların daha çox yaşadıqları yeganə ştat olan Kəşmirə verdiyi muxtariyyəti ləğv etdi. Kəşmirin bir hissəsi isə Pakistanın nəzarətindədir. Azərbaycan beynəlxalq tədbirlərdə Kəşmir məsələsində hər zaman Pakistanın yanında oldu. Pakistan da öz növbəsində, Azərbaycan müstəqilliyini elan edən ilk gündən onun ərazi bütövlüyünü dəstəkləyib və hazırda Azərbaycanla hərbi əlaqələri genişləndirir.

Azərbaycan üçün Pakistanın siyasi dəstəyi vacibdir. "Pakistan müsəlman dövlətidir, nüvə silahına malikdir, əhalisi 250 milyondur. İndoneziyadan sonra Pakistan ən böyük əhalisi olan ikinci müsəlman dövlətidi”.

Pakistanın Türkiyə ilə də çox sıcaq əlaqələri vardır.

Pakistan hələ siyasi xəritədə yox ikən Hindistan müsəlmanları Osmanlı imperiyasını müsəlman aləminin mərkəzi qüvvəsi sayırdılar. O zaman müsəlmanların Hindistanda yaratdıqları kütləvi



"Xilafət hərəkatı"nın əsas məqsədi işğal altında olan Türkiyəyə dəstək vermək idi. Böyük sayda Hindistan müsəlmanları Türkiyənin işğala qarşı savaşında iştirak etmək üçün həmin illərdə bu ölkəyə yollanıblar.

Pakistanın siyasi tarixi 1947-ci ildə Britaniyanın Hindistanı rəsmən iki hissəyə bölməsi və Pakistanın müstəqillik qazanması ilə başlanır. İslam faktoru Pakistanda ayrıca statusa malikdir. Tədqiqatçılar İslam dinini Pakistan xalqının mədəni identikliyinin başlıca elementi hesab edirlər. İslam dini Pakistanın Hindistanla münasibətlərinə təsir edərək, bu ölkənin xarici siyasətinin formalaşmasında aparıcı rol oynayır.

Pakistan rəsmi dairələri qondarma "erməni soyqırımını" tanımadığını bildirirlər. Pakistan İslam Respublikası Azərbaycanın dövlət müstəqilliyini ilk tanıyan dövlətlərdən biridir. Bu böyük Asiya dövləti 1991-ci ilin dekabrında Azərbaycanın müstəqilliyini tanıyıb, 12 mart 1993-cü ildə Bakı şəhərində özünün səfirliyini açıb.

Pakistanın Azərbaycanla dostluq və əməkdaşlıq münasibətlərinin tarixi xeyli əvvələ təsadüf edir. Belə ki, Pakistan xalqı XX əsrin əvvəllərində ölkələrində taun xəstəliyi geniş yayıldığı bir dövrdə görkəmli Azərbaycan mesenatı Hacı Zeynalabdin Tağıyevin Avropadan 300 min ampul peyvənd alıb müsəlman qardaşlarına göndərir. Pakistanlı qardaşlar da bu yaxşılığı heç vaxt unutmurlar. Bütövlükdə isə Azərbaycanla Pakistan arasında münasibətlərin yaranması XX əsrin altmışıncı illərindən etibarən daha intensiv xarakter alıb. Ölkələrimiz arasında mədəni əlaqələrin inkişaf etdirilməsində Azərbaycanın elm, təhsil və sənət adamlarının həmin ölkəyə səfərləri əhəmiyyətli rol oynayıb. Lakin sonrakı illərdə Pakistanla SSRİ arasında yaranan siyasi fikir ayrılığı Azərbaycanla olan əlaqələrə də soyuqluq gətirib.

Azərbaycan-Pakistan münasibətlərinin yeni mərhələsi isə SSRİ-nin dağılması ilə başladı. Azərbaycanın suverenliyini ilk tanıyan ölkələrdən biri kimi Pakistan 1992-ci ildə ölkəmizlə siyasi, iqtisadi və mədəni əlaqələrin yeni tarixi şəraitə münasib şəkildə yenidən qurulmasına çalışdı. Azərbaycanın Qarabağ uğrunda ağır müharibə şəraitində yaşadığı dövrlərdə beynəlxalq münasibətlərdə Pakistan rəsmilərinin dünya dövlətlərini BMT, İKT kimi nüfuzlu təşkilatlarda Ermənistanın təcavüzkar ölkə kimi tanınmasına çağırması böyük əhəmiyyət daşıyırdı.

Dövlət müstəqilliyimizin ilk illərindən ümummilli lider Heydər Əliyev Pakistan-Azərbaycan münasibətlərinə böyük önəm verirdi. Görkəmli dövlət xadimi iki ölkə arasında olan münasibətləri dəyərləndirərək bu əlaqələri belə səciyyələndirirdi: "Pakistan ilə Azərbaycan arasında çox yaxşı əlaqələr, dostluq əlaqələri var. Bu əlaqələr keçmiş tarixi ənənələrimizin üzərində qurulub". Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 1994-cü ilin dekabrında Kasablankada Pakistanın o vaxtkı Baş naziri, mərhum Bənazir Bhutto ilə görüşündən sonra ölkələrimiz arasındakı ikitərəfli münasibətlər daha yüksək səviyyədə inkişaf etməyə başladı. Münasibətlərin intensiv xarakteri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xarici siyasət xəttində də prioritet istiqamətlərdən biridir.

Senator Seyid Məhəmməd Zəfər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə "Ən yaxşı idarəolunan müsəlman dövləti" mükafatını təqdim edib. Hazırda Bakı Dövlət Universitetində urdu dili bölməsinin fəaliyyət göstərməsi böyük əhəmiyyət kəsb edir. Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Azərbaycan-Asiya ədəbi əlaqələri şöbəsində Pakistan ədəbiyyatı öyrənilir və tədqiq olunur.

Bu gün Pakistan Asiya qitəsində Azərbaycanın əsas tərəfdaşlarından biri kimi ölkəmizin Şərq tərəfdaşlığına böyük töhfələr verir.

***"İlahiyyat"***

R.İsmayılqızı,
Aİİ-nin əməkdaşı

# Mənim Ana dilim, mənim can dilim...

*Azərbaycan – mayası nur, qayəsi nur ki...*
*Hər daşından alovdilli ox ola bilər.*
*Azərbaycan deyiləndə ayağa dur ki,*
*Ana yurdun ürəyinə toxuna bilər.*

*Məmməd Araz*

Dil millətin varlığını şərtləndirən əsas amillərdən biridir. Ana dilimiz Azərbaycan dilidir, müstəqil respublikamızın rəsmi dövlət dilidir.

Bu dildə analar yeni dünyaya gəlmiş övladlarına nənni üstündə şirin-şirin laylay çalır, şairlər şeir, yazıçılar əsər, alimlər tarix yazır, dünyaya çıxırıq, bu dildə dövlətlər arasında müqavilələr imzalanır. Ana dilim sevgi dilidir, poeziya dilidir; bayatı, ecazkar mahnı dilidir; dosta məhəbbət, düşmənə nifrət dilidir. Doğma dilimiz varlığımız, kimliyimiz, vüqarımız, fəxrimizdir. Çalışmalıyıq ki, dilimizin saflığını, gözəlliyini qoruyaq. Onu yaşatmaqla tariximizi, dünənimizi yaşadırıq, sabahımıza körpü salırıq. Zaman-zaman Azərbaycanın düşünən beyinləri dili xalqın yaşaması üçün ən mühüm atribut hesab edib, onu yad təsirlərdən qorumağa çalışıblar.

...1972-ci ilin ortalarında yazıçılardan birinin “Yoldaş Əliyev, Siz azərbaycanca nə gözəl danışırsınız” təəccüblə deməsinə Heydər Əliyev gülümsəyərək belə cavab verib: “Sən niyə mənim rusca gözəl danışmağıma deyil, azərbaycanca danışmağıma təəccüb edirsən? Bu dil mənim Ana dilimdir, mən bu dili bilməliyəm! Eləcə də hamımız”.



Gəlişigözəl sözlər deyildi. Böyük rəhbərin həmin cavabı ilə Azərbaycan dilinə uzun müddət davam edən soyuq münasibətə birdəfəlik son qoyuldu. Bütün Azərbaycan xalqı üçün fərəhli idi ki, Ümummilli Liderimiz, sözün əsl mənasında, təkzibolunmaz faktlarla səlis və məntiqli danışan alovlu tribun idi. SSRİ-də onun nitqlərini heyranlıqla dinləyirdilər. Gur səsi, xoş ahəngi, rəvan nitqi böyük zalları belə titrədirdi. Kremldə yüksək vəzifədə işləyən ruslar və qeyri-millətlərin nümayəndələri Heydər Əliyevin natiqliyinə həsəd aparırdılar. Hətta onlardan biri etiraf etmişdi ki, Heydər Əliyev rus dilini biz ruslardan yaxşı bilir.

Böyük rəhbər Azərbaycan dilini də incəliklərinə qədər bilirdi. Heydər Əliyev belə hesab edirdi ki, Azərbaycanın milli ruhunun yüksəlişinə təkan verən şərtlərdən biri ana dilində təhsilin daha da genişləndirilməsidir. Bu prosesin inkişaf etdirilməsi məqsədilə 1969-1982-ci illərdə respublikanın bütün şəhərlərində, kənd və qəsəbələrində yüzlərlə uşaq bağçası və məktəb tikilib istifadəyə verildi. Ölkədə fəaliyyət göstərən ali məktəblərin sayı bir neçə ildə 12-dən 17-yə çatdırıldı. Ali təhsil alan tələbələrin sayı isə 70 min nəfərdən 100 min nəfərə yüksəldi.

O zaman SSRİ-də dövlət dili yalnız rus dili sayılsa da, Heydər Əliyev ölkə rəhbərləri ilə gərgin danışıqlar apararaq, Azərbaycan dilinin dövlət dili kimi qəbul edilməsinə nail oldu. 1978-ci ildə çoxlarının müqavimətinə baxmayaraq, Azərbaycan dilinə dövlət dili statusu verildi. 1978-ci il Konstitusiyasında respublikamızda Azərbaycan dili dövlət dili olaraq təsbit edildi. SSRİ kimi bir imperiyada belə addım görünməmiş hadisə hesab olunurdu.

Həmin dövrdən dilimizin inkişafına xüsusi diqqət yetirildi. Tanınmış dilçi alimlər sanballı elmi-tədqiqat əsərləri yazdılar, dərsliklər, dərs vəsaitləri nəşr olundu, Azərbaycan dilinin tədrisi genişləndirildi. Radioda və televiziyada ana dilimizdə verilişlər üstünlük təşkil etdi.

Azərbaycan ikinci dəfə müstəqillik qazanandan sonra xalqın təkidli tələbi ilə hakimiyyətə gələn ulu öndərimiz Heydər Əliyev Azərbaycan dilinin saflığının qorunması və daha da zənginləşdirilməsi məqsədilə bir sıra böyük əhəmiyyətə malik addımlar atdı. 1995-ci il noyabrın 12-də müstəqil dövlətimizin Konstitutsiyası qəbul edildi və burada Azərbaycan dili rəsmi dövlət dili elan olundu. Efirlərdə bütün verilişlər, seriallar Azərbaycan dilində nümayiş etdirilməyə başladı. Dövlət idarələrində sənədləşmələri Azərbaycan dilində aparmayanlara cəza tətbiq edilirdi. Reklamların, uşaqların çox sevdiyi cizgi filmlərinin doğma dilimizdə səslənməsi günün vacib məsələsinə çevrildi. Bu gün dahi rəhbərin siyasi kursunu layiqincə davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev Ana dilimizin daha da inkişaf etdirilməsinə xüsusi əhəmiyyət verir.

Prezident İlham Əliyevin "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Fərmanı buna parlaq nümunədir. Fərmanda deyilir ki, müasir Azərbaycan dili mükəmməl qrammatik quruluşa, zəngin lüğət tərkibinə və ifadə vasitələrinə malikdir. Bununla yanaşı, dilimizin hüdudsuz imkanlarından yetərincə və düzgün istifadə edilməməsi halları hələ də kifayət qədər geniş yayılıb. Televiziya və radio kanallarında, internet resurslarında, mətbu nəşrlərdə və reklam daşıyıcılarında ədəbi dilin normalarının kobud şəkildə pozulması, leksik və qrammatik qaydalara əməl edilməməsi, məişət danışığından istifadə olunması, əcnəbi söz və ifadələrin yersiz işlədilməsi az qala adi hala çevrilib. Bu sahədə hüquqi tənzimləmənin və daimi nəzarətin olmaması dil pozuntularına gətirib çıxarır.

Bəli, bu gün həqiqətən də dilimizin zənginliyi radio və televiziya kanallarında az görünür. Səviyyəsiz verilişlərdə aparıcılar dilimizin qayda-qanunlarını kobud surətdə pozur, bununla da cəmiyyətə zərbə vurmuş olurlar. Onlar nəinki "sözün su kimi lətafətindən" istifadə etmir, əksinə, bulaq suyu kimi büllur dilimizi korlayırlar. İş o yerə çatıb ki, dövlətimizin başçısı bu sahədə baş alıb gedən qüsurların və pozuntuların qarşısının alınması üçün xüsusi Fərman imzalamalı olub.

Bəzən telekanallarda dil və ya nitq qüsuru olan aparıcılara rast gəlirik. Düşünürük ki, görəsən bu boyda ölkədə Azərbaycan dilində səlis, rəvan danışan, dilimizin qayda-qanunlarını bilən bir nəfər tapılmırmı ki, ekranı belələrinə tapşırırlar? Bəziləri də xarici sözləri yersiz işlədərək, guya intellektual səviyyəsinin yüksək olduğunu nümayiş etdirir. Xarici dillərdən tərcümə edilən bəzi



reklamların mahiyyəti düzgün ifadə edilmir. “Aclıq güc gələndə sən o sən deyilsən” və ya “Acmısan? Dayanma, snikerslə” kimi mücərrəd ifadələr dinləyicidə və ya tamaşaçıda ikrah hissi doğurur. Yüzlərlə belə misal gətirə bilərik.

Dilimiz ulu babalarımızın bizə qoyub getdikləri mirasdır. Ana dilimizin saflığının qeydinə qalmalı, onu gələcək nəsillərə ərməğan etməliyik. Bu, müqəddəs borcumuzdur. Dünyanın ən gözəl, qədim dillərindən biri olan Azərbaycan dilini sevməli və qorumalıyıq. Laylalı-bayatılı Ana dilimiz həm də hər birimizin varlığıdır.

1992-ci ildə latın qrafikalı Azərbaycan əlifbası tətbiq edilməyə başladı, 2001-ci ildə başa çatdırıldı. Bu Azərbaycan Respublikasının siyasi həyatında, yazı mədəniyyətimizin tarixində mühüm hadisə oldu. Azərbaycan Prezidenti Heydər Əliyevin 2001-ci il avqustun 9-da imzaladığı fərmanla avqustun 1-i Azərbaycan Respublikasında Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü elan edildi. O vaxtdan bəri hər günü Azərbaycan Dili Günü olan məmləkətimizdə və bütün dünya azərbaycanlıları üçün Bir Avqust-Azərbaycan Dili Günü kimi qeyd edilir. Gilə-gilə ürəyimizə axan, anamızın laylası qədər şirin olan, azman oğuz qəbilələrinin yurd saldığı hər yerdə şirin ləhcəli, nəğməli, bayatılı doğma Azərbaycan dilimizdə danışır, yazır, oxuyuruq.

***Dilimiz əbədi var olsun!***

***Ana gözlərindən süzən nur kimi***
***Doldur ürəyimə sən gilə-gilə.***
***Hər kəlmən, hər sözün bəzənməyibmi***
***Mehriban anamın təbəssümüylə?!***

***Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi***
***Azərbaycan İlahiyyat İnstitutu***

***Ünvan:*** *AZ1141, Bakı şəhəri, Əhməd Cəmil, 41/A*
***Telefon:*** *(+99412) 510-65-45*
***Rəsmi səhifə:*** *www.ait.edu.az*
***Email:*** *info@ait.edu.az*
***Facebook:*** *ilahiyyatinstitutu*
***İnstagram:*** *ilahiyyatinstitutu*
***Twitter:*** *azeilahiyyat*

*"Azərbaycan" nəşriyyatında çap olunub.*
*Sifariş: 2189*